# Azad Qubadlı

**(Xronika AZƏRTAC-ın materialları əsasında tərtib edilir)**

***2024, 15 aprel***
- ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

***2024, 6 aprel***
- Azad olunmuş rayonlarda quduzluğa qarşı peyvəndləmə tədbirləri görülüb

***2024, 4 aprel***
- İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur

***2024, 2 aprel***
- Qubadlıda sursat aşkarlanıb

***2024, 27 mart***
- Qubadlı rayonunda sursat aşkar edilib

***2024, 13 mart***
- Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu

***2024, 2 mart***
- İşğaldan azad olunan ərazilərdə işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması üzrə görüləcək birgə işlər müzakirə olunub

***2024, 29 fevral***
- Köçü planlaşdırılan sakinlərə məşğulluq tədbirləri ilə bağlı məlumat verilib

***2024, 13 fevral***
- Qubadlıda silah-sursat aşkarlanıb

***2024, 7 fevral***
- 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi üzrə seçkiləri 1062 müşahidəçi izləyir

***2024, 29 yanvar***
- Kəlbəcər, Laçın və Qubadlıda kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var

***2024, 26 yanvar***
- Cəbrayıl, Qubadlı və Zəngilanda hərraca çıxarılacaq yataqlar açıqlanıb
- Xudafərin-Qubadlı-Laçın yoluna düşən bir neçə məzarlıqlar və ziyarətgah köçürülüb
- Xudafərin-Qubadlı- Laçın yolu 2024-cü ilin sonuna kimi tamamlanacaq

***2024, 13 yanvar***
- Qubadlı rayonunda silah-sursat aşkarlanıb

***2024, 11 yanvar***
- Qubadlıda növbəti Radio-Televiziya Yayım Stansiyasının işi bərpa edilib

***2024, 9 yanvar***
- 125 saylı Zəngilan-Qubadlı DSK-sı üzrə azad olunan ərazidə 4 seçki məntəqəsi fəaliyyət göstərəcək

***2023, 29 dekabr***
- Şəhid polkovnik-leytenant Vidadi Xəlilovun xatirəsinə həsr olunmuş “Qubadlı fatehi” adlı videomaterial istifadəçilərə təqdim edilib

***2023, 18 dekabr***
- Qubadlının Xanlıq kəndi belə olacaq – VİDEO

***2023, 14 dekabr***
- Gələn il Cəbrayıl və Qubadlı rayonlarında modul tipli xəstəxanalar quraşdırılacaq – VİDEO

***2023, 11 dekabr***
- Qubadlı sakinləri ağacəkmə aksiyası və iməcilik keçiriblər

***2023, 28 noyabr***
- Qubadlıda pulemyot, qumbaraatan və patronlar aşkarlanıb

***2023, 24 noyabr***
- AAYDA sədri Sumqayıt şəhəri və Qubadlı rayonundan olan vətəndaşlarla görüşüb
- Amerikada Qubadlı sevgisi ilə

*2023, 20 noyabr*
- Qubadlıda xeyli sayda silah-sursat aşkarlanıb

*2023, 6 noyabr*
- ANAMA Qubadlı və Zəngilan mobil bazalarında işləmək istəyənlər üçün sənədlərin qəbulunu elan edir

*2023, 25 oktyabr*
- Polkovnik-leytenant: Qubadlının azad olunması düşməni nokdaun etdi
- Qubadlının azad olunması Laçın və Şuşaya yol açdı: Yazı düzü yüksəkliyində Milli Qəhrəman Şükür Həmidovun şəhid olduğu yerdə onun xatirəsini əbədiləşdirən abidə ucaldılıb

*2023, 23 oktyabr*
- Qubadlının Xanlıq və Muradxanlı kəndlərinin ilkin konsepsiyası sakinlərə təqdim olunub

*2023, 20 oktyabr*
- Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2027-ci ilədək 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb

*2023, 18 oktyabr*
- Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub

*2023, 15 sentyabr*
- Qubadlının Teymur Muskanlı kənd tam orta məktəbində Bilik Günü qeyd olunub

*2023, 14 sentyabr*
- Qubadlı və Zəngilanda aşkarlanan cəsəd qalıqları Ermənistanın cəzalandırılması üçün ciddi əsasdır

*2023, 13 sentyabr*
- Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi sürətlə davam etdirilir

*2023, 31 iyul*
- Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub

*2023, 27 iyul*
- Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən ukraynalı Oleq Babakın Poltovada yaşayan ailəsinə yardım göstərilib

*2023, 25 sentyabr*
- Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə görüş keçirilib

*2023, 22 iyul*
- Baş prokuror Laçın və Qubadlıda hərbi hissələrdə olub

*2023, 4 may*
- **Qubadlı rayonunun Zilanlı kəndində birinci mərhələdə 159 ev tikiləcək**
- **Qubadlı rayonunda təməli qoyulan növbəti kənd – Mahruzlu**
- **Qubadlı rayonunun Xanlıq kəndinin təməli qoyulub**
- **Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının təməlinin qoyulması mərasimi keçirilib**
- **Qubadlı şəhərində 600 şagird yerlik məktəb binası tikiləcək**
- **Prezident İlham Əliyev Qubadlı şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib**
- **Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub**

*2022, 30 dekabr*
- Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi təyin olunub - Sərəncam

*2022, 10 dekabr*
- Azərbaycanda akkreditə olunan diplomatlar və hərbi attaşelər Zəngilan və Qubadlıya səfər ediblər

*2022, 25 oktyabr*
- Düşmən işğalından azad edilən Qubadlı bu gün yeni inkişaf dövrünü yaşayır
- Çingiz Qənizadə: Qubadlı şəhərinin azad edilməsi böyük Qələbəni yaxınlaşdırdı

*2022, 24 oktyabr*
- Anar Məmmədov: Qubadlının yenidən qurulacağı, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdacaqları gün uzaqda deyil

*2022, 19 oktyabr*
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar**
- **Qubadlıda 35 kilovoltluq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub**
- **Qubadlıda “Zabuxçay” və “Bərgüşadçay” su anbarlarının layihələri ilə tanışlıq**

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Qubadlı rayonlarına səfər ediblər**
  ***2022, 12 aprel***
- Prezident: Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı, Hadrut və Suqovuşanın Baş planları hazırlanmalıdır
  ***2021, 30 oktyabr***
- Politoloq: İndi Qubadlı üçün yeni dövr başlayıb
  ***2021, 28 oktyabr***
- Qubadlının işğaldan azad edilməsi böyük Qələbənin növbəti carçısı, Laçın dəhlizinə gedən yolun açılması idi
- Deputat: Qubadlının işğaldan azad olunması Ordumuzun irəliləməsi üçün bir çox maneələri aradan qaldırdı
  ***2021, 27 oktyabr***
- Jalə Əhmədova: Qubadlının işğaldan azad edilməsi müharibənin taleyinə böyük təsir göstərdi
  ***2021, 26 oktyabr***
- İqbal Məmmədov: Qubadlı rayonu yenidən qurulacaq və ölkə iqtisadiyyatına öz töhfəsini verəcək
- Politoloq: Qubadlının yenidən qurulmasında tarixiliklə müasirliyin sintezi vəhdət təşkil edəcək
- Yaponiya saytı Prezident İlham Əliyevin Qubadlı rayonuna səfəri və ictimaiyyət nümayəndələri ilə görüşündən yazıb
  ***2021, 25 oktyabr***
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər**
- **Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışı olub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Qubadlı" yarımstansiyasının açılışında iştirak ediblər**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayonunda səfərdə olublar: Xanlıq-Qubadlı avtomobil yolunun təməli qoyulub**
- Prezident İlham Əliyev: Qubadlıdan sonra biz zəfər yürüşümüzü şərəflə davam etdirdik və Şuşada dövlət bayrağımızı ucaltdıq
- Prezident İlham Əliyev: Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür
- Prezident Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı Sərəncam imzalayıb
- Qənirə Paşayeva: Qubadlı əməliyyatı hərbçilərimizdən fədakarlıq və xüsusi peşəkarlıq tələb edirdi
- Deputat: Təcavüzkar düşmən Qubadlının həm tarixinə, həm də təbiətinə qarşı əsl vandallıq aktı törədib
  ***2021, 17 oktyabr***
- Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır
  ***2021, 9 may***
- Poltovada Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi anılıb
  ***2021, 14 aprel***
- Qubadlı rayonunun Yusifbəyli kəndindəki XVlll əsrə aid məscidin sökülməsində günahkarlar cəzalandırılacaq
  ***2021, 24 mart***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Yuxarı Mollu kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 10 mart***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Bəxtiyarlı kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 6 mart***
- Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Qubadlı və Laçın rayonlarına səfəri təşkil edilib
- Diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərimizə səfəri başlayıb
- Misir portalı Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş rayonlara səfərindən yazıb
- Diplomatik korpusun rəhbərləri Qubadlı rayonuna səfər ediblər
- Erməni vandalları Azərbaycanın təbiətinə ciddi ziyan vurub, ekoloji terror törədiblər
  ***2021, 27 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Əfəndilər kəndinin videogörüntülərini yayıb
  ***2021, 25 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Yusifbəyli kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 23 fevral***

- Müdafiə Nazirliyi Qubadlı rayonunun Hal kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 22 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Çaytumas kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 20 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Həmzəli kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 12 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Qaralar kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 10 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Zilanlı kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 9 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Qəzyan kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 8 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Diləli Müskənli kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 6 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Muğanlı kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 2 fevral***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Alaqurşaq kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 31 yanvar***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Mirlər kəndinin videogörüntülərini yayıb
  ***2021, 26 yanvar***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Dəmirçilər kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 12 yanvar***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun videogörüntülərini yayıb
  ***2021, 9 yanvar***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Muradxanlı kəndinin videogörüntülərini yayıb
  ***2021, 6 yanvar***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Mahmudlu kəndinin videogörüntülərini paylaşıb
  ***2021, 1 yanvar***
- Müdafiə Nazirliyi Qubadlı rayonunun Xocahan kəndinin videogörüntülərini paylaşıb
  ***2020, 24 dekabr***
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar: Prezident İlham Əliyevin çıxışı**
  ***2020, 10 dekabr***
- Prezident: Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi
  ***2020, 7 dekabr***
- Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib
- ANAMA son üç gün ərzində 102 mina zərərsizləşdirib
  ***2020, 2 dekabr***
- Azərbaycanda Zəfər Günü təsis edilib
- Tarixi zəfərimiz Azərbaycan Prezidentinin müdrik siyasətinin nəticəsidir
  ***2020, 29 noyabr***
- Vətən müharibəsi zamanı əməliyyatların minimum itkilərlə həyata keçirilməsi böyük uğurdur
  ***2020, 27 noyabr***
- Qubadlıda Şərq çinarları əkilib, tut bağı salınıb
  ***2020, 26 noyabr***
- Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi
  ***2020, 25 noyabr***
- Vətən müharibəsində möhtəşəm Qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!" devizi altında tədbirlər keçirilib
  ***2020, 20 noyabr***
- Qubadlı rayonunda aparılan ekoloji monitorinqlərin nəticələri açıqlanıb
  ***2020, 16 noyabr***
- İşğaldan azad olunmuş ərazilərdə FHN-in növbəti yerli strukturları fəaliyyətə başlayıb

*2020, 15 noyabr*

- Vüqar Kərimov: Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulmalıdır

*2020, 13 noyabr*

- Qubadlı rayonunun işğaldan azad olunan Xəndək və Muradxanlı kəndlərindən videoreportaj

*2020, 12 noyabr*

- İşğaldan azad olunmuş Qubadlı rayonunun Xocik və Cəbrayıl rayonunun Hovuslu kəndlərindən videoreportaj
- İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri
- İşğaldan azad edilmiş ərazilərdə DTX-nin idarə və şöbələri fəaliyyətə başlayır
- İƏT Dağlıq Qarabağda ermənilər tərəfindən İslama aid tarixi ziyarətgahların dağıdılmasından narahatlığını bildirib

*2020, 10 noyabr*

- Azərbaycan dövlətinin şanlı Qələbəsi
- Şuşa zəfərindən dərhal sonra Müzəffər Ali Baş Komandandan yeni böyük müjdə: 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik azad olundu

*2020, 9 noyabr*

- Şuşa zəfərindən dərhal sonra Müzəffər Ali Baş Komandandan yeni böyük müjdə: 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik azad olundu
- Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 48 kəndi, 1 qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad edib
- Anar Eyvazov: Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir
- İşğaldan azad olunmuş ərazilərdə aparılan ekoloji monitorinqlərin nəticələri: minillik qədim ağaclar məhv edilib
- Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 23 kəndi işğaldan azad edib
- Cəbhədə noyabrın 9-na olan son vəziyyət

*2020, 8 noyabr*

- İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki sərhəd zastavalarında Azərbaycan bayrağı ucaldılıb
- Qubadlı rayonunun işğaldan azad olunan Balasoltanlı kəndinin videogörüntüsü
- Üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda qürurla, vüqarla dalğalanır
- Cəbhədə noyabrın 8-nə olan son vəziyyət

*2020, 7 noyabr*

- Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub
- Ermənistan ərazisinin atəşə tutulması xəbəri düşmənin növbəti təxribatıdır

*2020, 6 noyabr*

- COJEP beynəlxalq təşkilatının Ermənistanın Azərbaycanın mülki əhalisini qətlə yetirməsi ilə bağlı hesabatı eyniadlı jurnalda dərc olunub
- Anar Eyvazov: Azərbaycan əsgəri düşmənin 30 il müddətində qurduğu istehkamları yarır, pusquları dağıdır və hədəfə yaxınlaşır
- Prezidentin köməkçisi: Qubadlının məscidi Ermənistan tərəfindən təhqir əlaməti olaraq donuzxanaya çevrilib
- Əsir düşmüş erməni pastor: Erməni əsgərlərini silahı yerə qoymağa çağırıram, çünki onlar başqasının torpağında vuruşurlar
- Azərbaycan Müdafiə Nazirliyi: Düşmən cəbhənin Qubadlı istiqamətində mövqeləri ataraq qaçıb
- Cəbhədə noyabrın 6-na olan son vəziyyət

*2020, 5 noyabr*

- Vətəndaş məktubları: Cənab Prezident, məğrur duruşunuz, qətiyyətli mövqeyiniz, düşmənə tutarlı cavablarınız bizi çox qürurlandırır

*2020, 4 noyabr*

- Anar Eyvazov: Hazırda qoşunlarımız döyüşləri tam üstünlüklə davam etdirir
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha 7 kəndini işğaldan azad edib
- Pakistan səfiri Ermənistanın mülki əhalimizə qarşı törətdiyi cinayətlər barədə məlumatlandırılıb
- Cəbhədə noyabrın 4-nə olan son vəziyyət

*2020, 3 noyabr*

- Anar Eyvazov: Ermənistanın Azərbaycanla dövlət sərhədindəki mövqelərimizi atəşə tutması ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir
- BERNAMA agentliyi Azərbaycan Ordusunun cəbhədəki uğurlarını geniş işıqlandırır
- Cəbhədə noyabrın 3-nə olan son vəziyyət

***2020, 2 noyabr***
- Müdafiə Nazirliyi: Düşmən növbəti dəfə Ermənistan ərazisindən Qubadlını atəşə tutur
- Anar Eyvazov: Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir
- Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha bir neçə kəndini işğaldan azad edib
- Cəbhədə noyabrın 2-nə olan son vəziyyət

***2020, 1 noyabr***
- Anar Eyvazov: Hazırda ordumuz əməliyyat şəraitinə tam nəzarət edir
- Prezident: Ermənistan öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaq
- Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib
- Ermənistan dövlət sərhədində atəşkəs rejimini pozub
- Cəbhədə noyabrın 1-nə olan son vəziyyət

***2020, 31 oktyabr***
- Ermənistan ərazisinin atəşə tutulması xəbəri tamamilə yalandır və düşmənin növbəti təxribatıdır
- Anar Eyvazov: Ordumuzun döyüş ruhu yüksək səviyyədədir
- Anar Eyvazov: Azərbaycan Ordusunda heç bir qadağan olunmuş silah yoxdur
- Azərbaycan QHT-ləri Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi ilə bağlı bəyanat yayıblar
- Ali Məhkəmə Ermənistan ordusunun Azərbaycanın dinc əhalisini hədəfə alması ilə bağlı bəyanat yayıb
- Azərbaycan Müdafiə Nazirliyi: Qubadlını artilleriya atəşinə tutan düşmənin atəş nöqtələrinə cavab atəşi açılıb
- Cəbhədə oktyabrın 31-nə olan son vəziyyət

***2020, 30 oktyabr***
- Anar Eyvazov: Cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayılın, Zəngilanın və Qubadlının 9 kəndini işğaldan azad edib
- Azərbaycan MN: Qubadlı rayonunun ərazisi Ermənistan ərazisindən artilleriya atəşinə tutulur
- Müdafiə Nazirliyi cəbhədəki son vəziyyəti açıqlayıb

***2020, 29 oktyabr***
- Anar Eyvazov: Azərbaycan Ordusunun qarşısında bir hədəf var: işğal altında qalan bütün torpaqlarımızın azad olunması
- Müdafiə Nazirliyi: Ermənistanın iki Su-25 təyyarəsi məhv edilib
- Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Qiyaslı və Sarıyataq kəndlərinin videogörüntülərini yayıb
- Müdafiə Nazirliyi: Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib

***2020, 28 oktyabr***
- Prezident İlham Əliyev: Hərbi-siyasi nizamlama yeganə mümkün yoldur
- Anar Eyvazov: Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib
- Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir
- Qubadlı istiqamətində döyüşlərdə düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursat
- Ermənistan atəşkəs rejimini pozmaqda davam edir
- Cəbhədə oktyabrın 28-nə olan son vəziyyət

***2020,27 oktyabr***
- Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub
- BMT böyük dövlətlərin əlində təsir mexanizmli təşkilata çevrilib
- İkinci Qarabağ müharibəsi: Otuz ildə bizi başa düşməyənlərə otuz gündə çox şeyi başa saldıq
- Cəbhədə oktyabrın 27-nə olan son vəziyyət

***2020, 26 oktyabr***

- İşğaldan azad olunan Qubadlı şəhəri
- Qubadlı rayonunun işğaldan azad olunan Xanlıq kəndi
- Qubadlı rayonunun işğaldan azad olunan Padar kəndi
- BERNAMA agentliyi: Azərbaycan Ordusu Qubadlı şəhərini və bir neçə kəndi işğaldan azad edib
- Anar Eyvazov: Azərbaycan Ordusunun bölmələri növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir
- Prezidentin Mətbuat Xidmətinin məlumatı
- Üçüncü humanitar atəşkəs: Azərbaycan Ordusunun uğurları Paşinyanı yalan danışmağa məcbur edir
- Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin azad edilməsi münasibətlə xalqımızı təbrik edib

***2020, 25 oktyabr***

- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad edib
- Anar Eyvazov: Hazırda Azərbaycan Ordusunun bölmələri cəbhəboyu döyüşləri davam etdirir
- Düşmən itki verərək geri çəkilməyə məcbur edilib
- Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad edilmiş kəndlərinin videogörüntülərini yayıb
- Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycana hərbi hücumlar BMT Nizamnaməsində təsbit edilmiş təcavüz aktıdır
- Azərbaycan Ordusu düşmənə qarşı yüksək dəqiqlikli silahı tətbiq edir
- Qoşunlarımız Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi zərbə vuraraq yeni mövqelərə irəliləyib

***2020, 24 oktyabr***

- Anar Eyvazov: Erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir
- Beynəlxalq təşkilatlar Ermənistanın münaqişədə birbaşa iştirakı barədə məlumatlandırılıb
- Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır
- Ermənistan ordusunun pilotsuz uçuş aparatı vurulub
- Düşmənin döyüş təyyarəsi məhv edilib
- Azərbaycan MN: Laçın və Qubadlı rayonları Ermənistan ərazisindən raket-artilleriya atəşinə tutulur
- Qubadlı rayonu Ermənistan ərazisindən artilleriya atəşinə məruz qalır
- Cəbhədə oktyabrın 24-nə olan vəziyyət
- Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir

***2020, 23 oktyabr***

- Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir
- Prezident İlham Əliyev: Qubadlı rayonunun 4 kəndi işğaldan azad olunub
- Prezidentin Mətbuat Xidmətinin məlumatı
- Müdafiə Nazirliyi: düşmən fərarilik edərək mövqeləri tərk edir

***2020, 22 oktyabr***

- Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir
- Cəbhədəki son vəziyyət

***2020, 21 oktyabr***

- Anar Eyvazov: Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir
- Cəbhədə oktyabrın 21-ə olan son vəziyyət

***2020, 20 oktyabr***

- Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir
- Cəbhədə son vəziyyət

***2020, 16 oktyabr***

- Türkiyə XİN: Ermənistan təcavüzkar hərəkətlərinin nəticəsini yaxşı dərk etməlidir
- Ermənistan silahlı qüvvələri Ordubad rayonu ərazisinə raket zərbəsi endirib
- Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir

***2020, 10 oktyabr***

- Azərbaycan Ordusu tərəfindən Qubadlıda “S-300” idarəetmə sistemi məhv edilib

***2020, 6 oktyabr***

- Milli Məclisin iclasında Madagiz kəndinin Suqovuşan adlandırılması təsdiqlənib

***2020, 27 sentyabr***

- Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib

**Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib**

[07:46] 27.09.2020

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.

**AZƏRTAC**

**Milli Məclisin iclasında Madagiz kəndinin Suqovuşan adlandırılması təsdiqlənib**

[16:09] 06.10.2020

Oktyabrın 6-da Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bu gün hər birimizin ürəyinin qürurla dolub-daşdığını bildirib. Qurtuluş savaşı aparan Ordumuz yeni-yeni ərazilərimizi düşməndən təmizləyərək zəfər yürüşünü davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dediyi kimi, "Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq".

Bu gün döyüş meydanında xalqımızın taleyi və müqəddəratı ilə bağlı məsələnin həll olunduğunu bildirən Sədr deyib: "Mən əminəm ki, qarşıda bizi yeni böyük uğurlar gözləyir.

İndiyədək Cəbrayıl şəhəri və həm bu rayonda, həm də digər ərazilərdə çoxlu sayda kənd düşməndən təmizlənib. Kəlbəcərin, Laçının, Zəngilanın, Qubadlının, Şuşanın, işğal altında olan digər torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil.

Əldə edilən hərbi qələbələr, təəssüf ki, itkisiz başa gəlmir. Azərbaycanın qəhrəman əsgər və zabitləri Vətən torpağını düşməndən xilas etmək üçün ölümün gözünə dik baxırlar. Bununla birlikdə, döyüş meydanında duruş gətirə bilməyən xain düşmən öz terrorçu mahiyyətini göstərərək, mülki obyektləri, yaşayış məntəqələrini raket atəşinə tutur. Dinc əhali arasında həlak olan və yaralananlar var".

Milli Məclisin Sədri bütün şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyib.

Sonra Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün Azərbaycan xalqı dövlətimizin başçısının və Ali Baş Komandanın ətrafında sıx birləşib, hərb tariximizi yeni hünər və qələbələrlə zənginləşdirən müzəffər Ordusunun yanındadır. Əminəm ki, bu birlik, bu dəstək, bu qüvvət sayəsində tezliklə Qarabağın hər yerində şanlı Azərbaycan bayrağı dalğalanacaq. Qəhrəman Ordumuza, mətin xalqımıza, müdrik rəhbərimizə eşq olsun!

Milli Məclisin Sədri bir məlumatı da nəzərə çatdırıb ki, parlamentin deputatları, Aparatın və İşlər İdarəsinin əməkdaşları dövlətimizin başçısının və Birinci vitse-prezidentimizin başladıqları aksiyaya qoşularaq, Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürüblər. Sədrin çıxışı alqışlarla qarşılanıb.

İclasın gündəliyi təsdiq edildikdən sonra deputatlar cari məsələlər barədə fikirlərini bildiriblər.

Çıxış edən deputatlar Cavanşir Feyziyev, Naqif Həmzəyev, Rəşad Mahmudov, Emin Hacıyev, Əli Məsimli, Müşfiq Cəfərov, Səttar Möhbalıyev, Cavid Osmanov, Azər Badamov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Zahid Oruc, Erkin Qədirli Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlar, ölkəmizin haqq savaşı, şanlı Ordumuzun zəfər yürüşü, ATƏT-in Minsk qrupunun fəaliyyəti, Fransanın Ermənistan-Azərbaycan münaqişəsindəki mövqeyi ilə bağlı fikirlərini ifadə ediblər.

İclasda çıxış edən Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib ki, erməni lobbisi Amerika Birləşmiş Ştatları Konqresinin Nümayəndələr Palatasında Azərbaycan əleyhinə 1165 saylı qətnamə layihəsinin müzakirəyə çıxarılmasına hazırlaşır. Bu işə Konqresin erməni qrupunun iki həmsədri rəhbərlik edir. Həmin şəxslərin hər ikisi demokratdır, onlar erməni soyqırımı üzrə aktın sponsoru olublar. Onlardan biri Cek Spear 1165 saylı qətnamə ilə bağlı Nümayəndələr Palatasının 46 üzvündən dəstək alıb. Ümumiyyətlə isə Konqresin erməni qrupunun 116 üzvü var.

Adil Əliyev deyib ki, hazırda ABŞ-da yaşayan Azərbaycanlı icmasının üzvləri ABŞ Nümayəndələr Palatası tərəfindən 1165 saylı qətnamənin qəbulunun dayandırılması üçün imzatoplama kampaniyasına başlayıblar. Lakin bu iş lazımi səviyyədə deyil. Adil Əliyev ABŞ-da 40 mindən çox azərbaycanlının yaşadığını nəzərə alaraq onları bu məsələdə daha fəal olmağa çağırıb. Sədr müavini Milli Məclisin deputatlarını da bu məsələyə kömək göstərməyə səsləyib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Tərtər rayonunun Madagiz kəndi erməni işğalından azad edilən kimi Prezident İlham Əliyev onun tarixi adını geri qaytararaq həmin kəndi Suqovuşan adlandırıb. Bu gün Milli Məclis həmin məsələni qanuniləşdirəcək. Qanun layihəsi bir oxunuşda təsdiqlənəcək.

"Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında" qanun layihəsi barədə məlumat verən Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, məsələ komitənin iclasında müzakirə olunub. Komitə üzvləri məsələni yekdilliklə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, gündəliyin növbəti 14 məsələsi parlamentin oktyabrın 2-də keçirilən iclasında ikinci oxunuşda müzakirədən keçmiş qanun layihələridir. Bu gün həmin qanun

layihələri üçüncü oxunuşda müzakirəyə təqdim edilib. Bildiyiniz kimi, üçüncü oxunuşda qanun layihəsinin mətninə dəyişiklik edilmir.

Əvvəlcə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda müzakirəyə təqdim edib. Qanun layihəsinə əsasən, Azərbaycan Dəmir Yollarının 140 illiyi ilə əlaqədar olaraq təsis edilən yubiley medalı ilə vəzifələrini nümunəvi icra edən, fəaliyyətində yüksək nəticələr göstərən, dəmir yolu nəqliyyatı sahəsində çalışan işçilər, dəmir yolu nəqliyyatı sahəsinin inkişafında və təkmilləşdirilməsində xüsusi xidmətləri olan şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif olunacaqlar.

Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə də üçüncü oxunuşda baxılıb. Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu medalla həqiqi hərbi xidmət keçən və xidməti vəzifələrini nümunəvi yerinə yetirən zabit və gizirlər, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular, ehtiyatda olan və istefaya buraxılmış hərbçilər, həmin orqanda səmərəli fəaliyyət göstərən mülki işçilər, habelə bu sahədə xüsusi xidmətləri olan digər şəxslər təltif ediləcəklər.

Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh edib. Deputat bildirib ki, Azərbaycan Prezidenti 2018-ci il dekabrın 28-də tikinti obyektlərinə tikintiyə icazə və obyektin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb. Tikintiyə dövlət nəzarəti prosedurlarında nəzərdə tutulan sadələşdirmələrlə əlaqədar müvafiq qanunların təkmilləşdirilməsi ilə əlaqədar təkliflərin hazırlanması barədə Nazirlər Kabinetinə tapşırıq verilib. Təqdim edilən qanun layihəsi həmin təkmilləşdirilməyə dair təklifləri nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

"Dövlət rüsumu haqqında" Qanuna təklif edilən dəyişikliklər barədə danışan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, qanun layihəsi barədə komitənin rəyi müsbətdir. Qeyd olunub ki, qanun layihəsinə təklif olunan dəyişikliklər minik avtomobillərinin özgəninkiləşdirilməsi haqqında müqavilələrin dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləğinin hər il üçün təsdiqlənməsi mexanizmindən imtina olunmasını və rüsumların daimi əsasda müəyyən edilməsini nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşu barədə məlumat verib. Bildirib ki, qanun layihəsi daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya birinci dərəcə əlilliyi olan şəxsə baxan, onunla birlikdə yaşayan valideynin, arvadın (ərin), himayəçinin və ya qəyyumun gəlirlərinin gəlir vergisindən azad olunan hissəsinin artırılaraq 200 manat məbləğində müəyyən edilməsini, güzəşt tətbiq olunan kateqoriyaya sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərin də aid edilməsini nəzərdə tutur. Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələnin üçüncü oxunuşu ilə bağlı bildirib ki, layihə "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq hazırlanıb. Düzəliş övladlığa götürülən uşaqların təhsil xərclərinin dövlət vəsaiti hesabına ödənilməsini ehtiva edir. Bu, ölkəmizdə övladlığa götürməni, xüsusilə az və orta təminatlı ailələr tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsini təşviq edəcək. Sənəd səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məlumat verib ki, bu qanun layihəsi də valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Təklif olunan qanun layihəsinə əsasən övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində və ali məktəblərin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət hesabına ödənilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

“Sosial müavinətlər haqqında” Qanuna təklif olunan dəyişikliklərlə bağlı qanun layihəsini (üçüncü oxunuş) şərh edən Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı bildirib ki, bu sənəd də “Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Prezidentin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq, valideyn himayəsindən məhrum uşaqların övladlığa götürülməsini stimullaşdırmaq və uşaqları övladlığa götürən ailələri dəstəkləmək məqsədilə hazırlanıb.

Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı Əmək, Cinayət və İnzibati Xətalar məcəllələrinə, “Uşaq hüquqları haqqında” Qanuna təklif edilən dəyişiklikləri üçüncü oxunuşda təqdim edərkən bildirib ki, layihə “Gənclər siyasəti haqqında” Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğunlaşdırma xarakteri daşıyır. Layihə üçüncü oxunuşda təsdiq edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Mülki Prosessual, Cinayət, Miqrasiya və İnzibati Xətalar məcəllələrinə, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” və “Nağdsız hesablaşmalar haqqında” qanunlara (üçüncü oxunuş) təklif edilən dəyişikliklərin “Vergi Məcəlləsinə dəyişiklik edilməsi barədə” 2018-ci il 30 noyabr tarixli qanun layihəsinə uyğunlaşdırma məqsədilə hazırlandığını bildirib. Deputat qeyd edib ki, qanun layihəsinin ikinci oxunuşda müzakirəsindən sonra komitəyə heç bir yeni qeyd və təklif daxil olmayıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşa təqdim edib. Bildirilib ki, təklif olunan dəyişikliklər məcburi nişanlama malların uçotdan yayındırılmasının, saxta məhsulların bazara daxil olmasının qarşısının alınması məqsədilə onlara məcburi nişanlama kodunun və digər qoruyucu elementlərin vurulması məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin üzvü İlham Məmmədov Əmək Məcəlləsində, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Təhsil haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə sənədi təqdim edib. İkinci oxunuşdan sonra qanun layihəsi üzərində heç bir düzəlişin aparılmadığı diqqətə çatdırılıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edərkən vurğulayıb ki, Məcəlləyə yeni 192.12-ci maddə əlavə olunur. Əlavəyə əsasən, qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə vəzifəli şəxslər üç min manat məbləğində cərimə olunacaqlar. Sənəd səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Publik hüquqi şəxslər haqqında” qanunda dəyişiklik edilməsi barədə sənədlə əlaqədar məlumatında qeyd edib ki, təklif olunan dəyişikliyə əsasən publik hüquqi şəxsin təsisçisi onun strukturu və işçilərin say həddi ilə yanaşı, əməkhaqqı fondunun həcmini də təsdiq edəcək. Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Daha sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, üçüncü oxunuşda olan qanun layihələrinin müzakirəsi başa çatıb. Növbəti məsələ texniki xarakterli olduğu üçün bir oxunuşda qəbul ediləcək.

Sonra Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məlumat verib ki, "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsi "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli Qanununun tətbiqi ilə əlaqədar irəli sürülüb. Belə ki, həmin Qanunla Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməklə Babək qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Babək qəsəbəsinə şəhər statusu, Cəhri kənd inzibati ərazi dairəsi tərkibindəki Cəhri kəndinə qəsəbə statusu, Nehrəm kənd inzibati ərazi dairəsi tərkibindəki Nehrəm kəndinə qəsəbə statusu verilib. Bununla əlaqədar olaraq “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda uyğunlaşdırma məqsədilə dəyişiklik edilməsi zərurəti yaranıb. Dəyişikliklər texniki xarakter daşıyır.

Layihə səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə Komitəsinin sədri Ziyafət Əsgərov “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məlumat verib. Bildirib ki, bu dəyişiklik hərbi sahədə kadr hazırlığının keyfiyyətinin daha da artırılmasına xidmət edir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda ayrı-ayrı məsələlərin müzakirəsi zamanı deputatlar Qüdrət Həsənquliyev, Fazil Mustafa, Arzu Nağıyev və Aydın Mirzəzadə çıxış edərək fikirlərini bildiriblər.

Sonra millət vəkilləri "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsini ikinci oxunuşda müzakirə etdilər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qeyd edib ki, bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasında insan orqanlarının və toxumalarının (bundan sonra - orqanlar) donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin və tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edəcək, bu sahədə yaranan münasibətləri tənzimləyəcək. Komitə sədri layihənin birinci oxunuşu zamanı deputatların qaldırdıqları məsələlərə münasibət bildirib.

Müzakirələr zamanı çıxış edən deputatlar Razi Nurullayevin və Etibar Əliyevin fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Bununla da Milli Məclisin bugünkü iclası başa çatıb.

**AZƏRTAC**

## Azərbaycan Ordusu tərəfindən Qubadlıda "S-300" idarəetmə sistemi məhv edilib

[11:50] 10.10.2020

Azərbaycan Ordusu tərəfindən Qubadlıda "S-300" idarəetmə sistemi məhv edilib.
Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

**AZƏRTAC**

## Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir

[00:33] 16.10.2020

Bilirsiniz, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Heç kəs üçün gizli deyil və bu faktı artıq beynəlxalq vasitəçilər də bilir ki, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. Bu gün erməni tərəfin belə adlandırdığı birləşmədəki hərbi qulluqçuların 90 faizi Ermənistan vətəndaşıdır. Onlar hərbi xidmətə Ermənistanın hərbi komissarlıqları tərəfindən çağırılır və Azərbaycanın işğal edilmiş ərazilərinə - Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Qubadlıya, Laçına, Zəngilana göndərilir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirib.

"Bu gün Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz - istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından. Başa düşürsünüzmü, 30 il ərzində azərbaycanlıların öz əzəli torpaqlarına buraxılmaması siyasətini yürütmək mümkün deyil. Axı, erməni əhalisi bu ərazilərdə heç vaxt yaşamayıb. Başqa bir məsələ də var ki, orada hər şey dağıdılıb, oraya qayıtmaq üçün çox böyük qüvvə və vaxt sərf etmək lazımdır. Ermənilərin bu siyasətinə heç cür haqq qazandırmaq olmaz. Ona görə ki, bizim hərbi qulluqçular Azərbaycan torpağında döyüşür və həlak olur. Erməni hərbi qulluqçular isə onların hökumətinin işğal altında saxlamaq istədiyi torpaqda həlak olurlar", - deyə dövlətimizin başçısı əlavə edib.

Tarixdə rol məsələsinə münasibət bildirən Prezident İlham Əliyev deyib: "Mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək".

**AZƏRTAC**

**Ermənistan silahlı qüvvələri Ordubad rayonu ərazisinə raket zərbəsi endirib**

[13:44] 16.10.2020

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən oktyabrın 15-də saat 10:44-də atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.

**AZƏRTAC**

**Türkiyə XİN: Ermənistan təcavüzkar hərəkətlərinin nəticəsini yaxşı dərk etməlidir**

[18:29] 16.10.2020

Ermənistan silahlı qüvvələrinin işğal altındakı Qubadlı rayonundan Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ordubad rayonuna raket hücumunu kəskin şəkildə qınayırıq. Ermənistan işğal etdiyi torpaqlarda məğlubiyyətlə üzləşməsi səbəbindən təcavüzkarlığını getdikcə daha da artırması müşahidə olunur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı açıqlamasında yer alıb.

Açıqlamada deyilir: “Ortaq sərhədimiz olan Naxçıvan Muxtar Respublikasına hücum münaqişənin Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarından kənara çıxarmaq cəhdinin yeni və təhlükəli nümunəsidir. Ermənistan bu təhlükəli təxribatlardan əl çəkməlidir.

Humanitar atəşkəsi pozan Ermənistan mülki əhaliyə hücumlar edərək müharibə cinayətləri törədir, eyni zamanda, döyüşləri başqa sahələrə çıxarmağa cəhd göstərir. Ermənistan bu təcavüzkar hərəkətlərinin nəticəsini yaxşı dərk etməlidir.

Can Azərbaycanla və azərbaycanlı qardaşlarımızla həmrəyliyimiz hər zaman davam edəcəkdir”.

**Sabir Şahtaxtı,**
AZƏRTAC-ın xüsusi müxbiri, Ankara

**AZƏRTAC**

**Cəbhədə son vəziyyət**

[07:54] 20.10.2020

Oktyabrın 19-u gün ərzində və 20-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri kapitan Vahab Asetryan da zərərsizləşdirilib.

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Ağakelyanın da olduğu bildirilir.

18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət “Legion” dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edib. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.

Bundan əlavə, 10-cu dağatıcı diviziyanın müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdə ikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

246-ci alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir**

[19:33] 20.10.2020

Ötən müddət ərzində cəbhədə və dövlət sərhədi boyu müdafiə mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi atıcı silahlarla və artilleriya vasitələri ilə atəşə tutan düşmən qüvvələri ordumuz tərəfindən darmadağın edilib. Ermənistan ordusu Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu, Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki döyüş mövqelərimizi, o cümlədən Goranboy, Tərtər və Ağdam rayonlarında yaşayış məntəqələrimizi artilleriya və iriçaplı silahlarla atəşə tutub. Atəş nəticəsində mülki şəxslərdən iki nəfər həlak olub, bir nəfər ağır yaralanıb. Ordumuz tərəfindən adekvat cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 20-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Bildirilib ki, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı bölmələrimiz uğurlu əməliyyatlar yerinə yetirib. Artilleriya atəşləri ilə gücləndirilmiş bölmələrimizin xüsusi əməliyyatları nəticəsində düşmənin 1-ci, 2-ci, 5-ci və 246-cı alaylarının, eləcə də 10-cu dağatıcı, 18-ci motoatıcı diviziyalarının komandir heyəti və muzdlu döyüşçülər daxil olmaqla xeyli sayda canlı qüvvəsi məhv edilib və yaralanıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, aparılan əməliyyatlar nəticəsində böyük itkilər verən düşmən bölmələri döyüşə girməkdən imtina edir, tutduqları mövqeləri tərk edib geriyə çəkilməyə məcbur olub. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarında bir neçə kənd və Zəngilan şəhəri uzunmüddətli işğaldan azad edilib. Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən qüvvələri itkilər verərək döyüş meydanından fərarilik edir, geriyə çəkilir.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, erməni mətbuatında düşmənin guya Xudafərin ərazisində əməliyyat keçirdiyi iddia edilir. Bildiririk ki, bu məlumatların hamısı yalandır. Ermənistan ordusu Xudafərin ərazisində əməliyyat keçirmək iqtidarında deyil və Xudafərini birdəfəlik unutmaları daha yaxşı olar.

Əməliyyatların gedişində Azərbaycan Ordusunun müasir silahları və döyüş texnikası yalnız düşmənin hərbi hədəflərinin məhv edilməsinə və preventiv tədbirlər çərçivəsində mülki əhalini hədəfə almış legitim hədəflərin dəqiq atəşlə məhv edilməsinə yönəldilib.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, bəzi sosial şəbəkə istifadəçilərinin əməliyyatlarla bağlı paylaşdığı şəxsi fikirlər məxfilik rejiminin pozulmasına və ən əsası hərbi qulluqçularımızın həyatına təhlükə yarada bilər. Bu məsələni nəzərə alaraq, bir daha sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini yalnız Ali Baş Komandanımızın ictimaiyyətə çatdırdığı məlumatlara və Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

"Sonda yeni uğurlar münasibətilə ordu rəhbərliyi adından xalqımızı bir daha təbrik edirik. Əmin edirik ki, ordumuz işğal altında qalan digər torpaqlarımızı da tezliklə və mütləq şəkildə azad edəcək. Qələbə bizimlədir", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 21-ə olan son vəziyyət**

[08:52] 21.10.2020

Oktyabrın 20-i gün ərzində və 21-ə keçən gecə cəbhənin Ağdərə, Füzuli- Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətidən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək geri çəkilməyə məcbur edilib.

5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilib, çoxlu sayda silah və sursat qənimət götürülüb. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborunun şəxsi heyəti ilə birlikdə məhv edilib.

6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar var. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var.

Döyüşlərdə 3 ədəd artilleriya qurğusu, bir necə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Anar Eyvazov: Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir**

[20:01] 21.10.2020

Ötən müddətdə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində əməliyyatlar davam edib. Düşmən müdafiə mövqelərimizi və Tərtər rayonunun ərazisini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub. Döyüş əməliyyatlarında cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində olan düşmən bölmələri artilleriya bölmələrimiz tərəfindən məhv edilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 21-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, düşmənin 5-ci, 6-cı, 7-ci dağatıcı alaylarının və 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və döyüş texnikası sarıdan itkilər verərək geri çəkilməyə məcbur edilib. Tərk edilmiş düşmən mövqeləri bölmələrimizin nəzarətindədir. Ordumuzun apardığı əməliyyatlarda alay komandiri, alayın artilleriya rəisi, tabor və divizion komandirləri daxil olmaqla düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilib. Üç artilleriya qurğusu, bir neçə minaatan və üç yük avtomobili sıradan çıxarılıb. Çoxlu sayda silah-sursat bölmələrimiz tərəfindən ələ keçirilib. Əlavə olaraq, Gəncə, Goranboy, Tərtər, Füzuli və Horadiz istiqamətlərində düşmənin altı pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir. Azərbaycan Ordusunun üstünlüyü barədə düşmənin bu gün etiraf etdiyi həqiqətləri Ali Baş Komandanımız bundan əvvəl vurğulayıb. Azərbaycan Ordusu istifadə etdiyi yüksək texnoloji vasitələrlə düşməni qat-qat üstələyib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi müasir ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusunun birlik və birləşmələrinə müasir hərbi strategiya və taktikaya, hərb elminə dərindən yiyələnmiş komandirlər rəhbərlik edirlər.

Ordumuzun arsenalında olan yüksək dəqiqlikli texnoloji vasitələr və silahlar genişmiqyaslı taktiki təlimlərdə tətbiq olunur, onların imkanlarının əməliyyatlarda birgə taktiki istifadəsi hərbi qulluqçularımız tərəfindən tam olaraq mənimsənilib.

Hazırda ordumuz tərəfindən aparılan əks-hücum əməliyyatında düşmənin otuz illik müddətində qurduğu müdafiə xətti, onların silah və texnikası, cəlb etdikləri muzdlu döyüşçülərin döyüş təcrübəsi heç bir işə yaramır, onların idarəetmə sistemi iflic vəziyyətdədir. Onların bölmələri nizamsız qaydada döyüş meydanından geriyə çəkilir.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, Azərbaycan Ordusunun əsas dayağı güclü dövlət–xalq-ordu birliyidir. Azərbaycan əsgəri Ali Baş Komandanın hər çıxışından sonra daha da cəsarətlənir, irəli atılır, xalqımızın birliyindən və döyüş ruhundan mənəvi güc alır. Vahid komandanlıq altında idarə olunan Azərbaycan Ordusunun bütün bölmələri döyüş meydanında əsl peşəkarlıq, qəhrəmanlıq və böyük fədakarlıq nümayiş etdirir.

“Biz bu münasibətlə hər bir Azərbaycan vətəndaşına minnətdarlığımızı bildiririk. Bir daha əmin edirik ki, Ali Baş Komandanın əmrinə uyğun olaraq işğal altındakı bütün torpaqlarımız tezliklə azad ediləcək. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov bildirib.

**AZƏRTAC**

**Cəbhədəki son vəziyyət**

[08:51] 22.10.2020

Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək vacib yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Onların təxliyəsi üçün nəqliyyat vasitəsinin çatışmazlığı və yolların bağlı olması məlum olub.

Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb.

Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki verib. Alayın 3-cü taborunun komandiri Robert Hambartsumyan itkin düşüb, taborun qərargah rəisi isə məhv edilib. Yeraltı sığınacağın sıradan çıxarılması nəticəsində düşmənin şəxsi heyət arasında xeyli itki olub.

543-cü alayın müdafiə sahəsinə vurulan atəş zərəri nəticəsində şəxsi heyət arasında xeyli itki var. Alay komandiri yaralanıb, onun müavini, tabor komandiri Araik Hovakimyan, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edilib. 1-ci taborun bir bölüyünün şəxsi heyəti döyüşə girməkdən imtina edib.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir**

[19:58] 22.10.2020

Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonundakı və digər ərazilərdəki müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan, toplardan və reaktiv artilleriya sistemlərindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 22-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmən dinc əhalini və mülki infrastrukturu hədəfə alaraq Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən Siyəzən, Qəbələ və Kürdəmir rayonları istiqamətində 6 ədəd ballistik raket atıb. Nəticədə bir mülki şəxs yaralanıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusu tərəfindən cəbhənin Qubadlı, Xocavənd və Ağdərə istiqamətində keçirilən əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri şəxsi heyət və döyüş texnikası baxımından ağır itkilər verərək mühüm yüksəkliklərdən və bir sıra mövqelərdən geriyə çəkilməyə məcbur edilib. 155-ci artilleriya alayına, 5-ci dağatıcı alaya və 543-cü alaya vurulan artilleriya zərbələrimiz nəticəsində komandir heyəti daxil olmaqla, çoxlu sayda canlı qüvvə məhv edilib, yaralanıb və itkin düşüb. Düşmənin yeraltı sığınacaqları dağıdılıb. Yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb, döyüşə girməkdən imtina edib. Əlavə yolların bağlı olması və nəqliyyat vasitələrinin çatışmazlığı səbəbindən düşmən yaralıların təxliyəsində ciddi çətinliklərlə üzləşib.

Qeyd edilib ki, cəbhəni genişləndirmək istəyən düşmənin Naxçıvan Muxtar Respublikasının Sədərək və Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

Diqqətə çatdırılıb ki, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev özünün rəsmi “Twitter” hesabında Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayılın Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin işğaldan azad edildiyini bildirib. Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olunub.

“Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz qələbə əzmi ilə zəfər yolunda irəliləyir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**Müdafiə Nazirliyi: düşmən fərarilik edərək mövqeləri tərk edir**

[08:25] 23.10.2020

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

Bütün cəbhə boyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Düşmən bölmələrində döyüş texnikası, silah və sursat, ərzaq çatışmazlığı mövcuddur. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilib. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir.

Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonundan Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən imtina edir, fərarilik edərək mövqeləri tərk edirlər.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir.

**AZƏRTAC**

**Prezidentin Mətbuat Xidmətinin məlumatı**

[14:51] 23.10.2020

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Qəhrəman, Qubadlının azadlığı uğrunda şəhid olmuş Şükür Həmidovun atası Nəriman Həmidovla telefonla danışıb.

Dövlətimizin başçısı Şükür Həmidovun həlak olması ilə bağlı başsağlığı verib, qeyd edib ki, Şükür Həmidov hələ Aprel döyüşləri zamanı göstərdiyi şücaətə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş və Azərbaycan Prezidenti şəxsən özü ona qəhrəman ulduzunu təqdim etmişdi. Dövlətimizin başçısı qeyd edib ki, Şükür Həmidov bu dəfə Qubadlı rayonunun azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Prezident İlham Əliyev Şükürün doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlı rayonunda onun adının əbədiləşdiriləcəyini vurğulayıb.

Nəriman Həmidov dövlətimizin başçısına təşəkkürünü bildirərək Azərbaycan xalqının müzəffər Ali Baş Komandan kimi onun ətrafında sıx birləşdiyini və bundan sonra da Azərbaycan Prezidentinə dəstək olacağına əminliyini ifadə edib.

Prezident İlham Əliyev Nəriman Həmidovla görüşünü də xatırlayaraq ona Şükür kimi igid və vətənə sadiq övlad yetişdirdiyinə görə minnətdarlığını bildirib, Həmidovlar ailəsinin bütün yaxınlarına başsağlığı çatdırmağı xahiş edib.

**AZƏRTAC**

## Prezident İlham Əliyev: Qubadlı rayonunun 4 kəndi işğaldan azad olunub

[17:33] 23.10.2020

Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

**Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir**

[19:26] 23.10.2020

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən müdafiə mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 23-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

Ağcabədi rayonu və digər istiqamətlərdə uçuş keçirməyə cəhd göstərən düşmənin 3 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib, 2-si isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Döyüş texnikası, silah və sursat, ərzaq ehtiyatları azalan düşmən artıq qoşunlarını praktiki olaraq idarə edə bilmir. Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonlarından Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət də Azərbaycan əsgərləri ilə döyüşlərə girməkdən imtina edir, mövqeləri qoyub qaçır. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir. Düşmənin vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdləri də tam olaraq iflasa uğrayıb.

Diqqətə çatdırılıb ki, bu gün Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyev özünün rəsmi “Twitter” hesabında qüdrətli Azərbaycan Ordusunun Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq, Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərinin işğaldan azad edildiyini bildirib.

“Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun zəfər yürüşü davam edir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir**

[07:58] 24.10.2020

Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Əməkdar jurnalist Rəşad Nəsirov söyləyib. O bildirib ki, reparasiya bir ölkənin digər ölkəyə vurduğu ziyana görə maddi məsuliyyət formasıdır.

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi, 40 mindən çox eksponatın toplandığı 22 muzey, 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi dağıdılıb. Ağdam Çörək muzeyi yerlə-yeksan edilib, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir eksponatı Ermənistana daşınıb. Şuşanın işğalı nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi viran edilib. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, dahi bəstəkar Üzeyir Hacıbəylinin, böyük müğənni BüIbülün, görkəmli musiqiçi və rəssam Mir Mövsüm Navabın xatirə muzeylərinin, Ağdam, Qubadlı və Zəngilan tarix-diyarşünaslıq muzeylərinin fondları qarət edilib. Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılıb. Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qeyri-qanuni arxeoloji qazıntılar aparıb, məzarlar, qəbirüstü abidələr dağıdılıb.

Otuz ilə yaxındır ki, işğal altında qalan ərazilərdə ekoloji cinayətlər törədilib. Bölgədəki biomüxtəliflik məhv edilib, meşələr qırılıb, faydalı qazıntı yataqları talan edilib, su anbarları və ətraf mühit qəsdən çirkləndirilib. Ən əsası isə təcavüz nəticəsində on minlərlə Azərbaycan vətəndaşı həlak olub və yaralanıb, bir milyondan çox insan isə doğma yurdundan didərgin düşüb. Törətdiyi bu bəşəri cinayətlərə görə Ermənistanın keçmiş və indiki rəhbərliyi məsuliyyət daşıyır. Azərbaycana vurulan maddi-mənəvi ziyanın ödənilməsi beynəlxalq hüquq və beynəlxalq təşkilatlar səviyyəsində gündəmə gətirilməlidir.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 24-nə olan vəziyyət**

[08:12] 24.10.2020

Oktyabrın 23-ü gün ərzində və 24-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun cəbhənin müəyyən edilmiş istiqamətlərində döyüş fəaliyyətlərini davam etdirib.

Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələri bölmələrinə atəşlə ciddi ziyan vurulub. Düşmənin silah və sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılıb. Bəzi istiqamətlərdə düşmən nizamsız qaydada mövqeləri tərk edərək geri çəkilib. Əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülüb, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb və vacib yüksəkliklər azad edilib.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Qubadlı rayonu Ermənistan ərazisindən artilleriya atəşinə məruz qalır**

[11:30] 24.10.2020

Döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus rayonu istiqamətindən Azərbaycanın Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan tərəfinin bu təxribatı törətməkdə məqsədi Azərbaycan Ordusunu cavab tədbirləri görməyə təhrik etməkdir.

**AZƏRTAC**

## Azərbaycan MN: Laçın və Qubadlı rayonları Ermənistan ərazisindən raket-artilleriya atəşinə tutulur

[14:10] 24.10.2020

Azərbaycan Ordusu bölmələrinin Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ermənistanın Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini güclü atəşə tutur.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

**Düşmənin döyüş təyyarəsi məhv edilib**

[15:57] 24.10.2020

Oktyabrın 24-də gündüz saatlarında cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Ermənistan ordusunun pilotsuz uçuş aparatı vurulub**

[16:14] 24.10.2020

Oktyabrın 24-də saat 15.25 radələrində Ağdərə istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Xatırladaq ki, gün ərzində cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi də Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən vurulub.

**Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır**

[17:28] 24.10.2020

Ermənistanın öz ərazisindən Azərbaycan Ordusunun bölmələrini Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan, Qubadlı və Laçın rayonları istiqamətində atəşə tutması, Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır.

AZƏRTAC xəbər verir ki, bunu KİV-ə açıqlamasında Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Bu hallar Ermənistan ərazisindən Azərbaycanın Gəncə, Mingəçevir, Kürdəmir, Siyəzən, Qəbələ, Xızı və digər şəhərlərinə, mülki insanlara və mülki obyektlərə ballistik və reaktiv raketlərlə olan təcavüzkar hücumların davamıdır. Bu il iyulun 12-də Ermənistanın dövlət sərhədinin Tovuz istiqamətində Azərbaycana qarşı hücumları da təcavüz aktı kimi qiymətləndirilmişdi.

Bu kimi təcavüzkar aktlar, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu və Azərbaycana qarşı gücdən istifadə etməsi Ermənistanın açıq-aşkar Azərbaycana qarşı müharibə apardığını bir daha nümayiş etdirir.

Hərbi təcavüz aktı olmaqla bərabər Ermənistanın bu kimi hərbi avantüraları siyasi təxribat və münaqişənin coğrafiyasının genişləndirilməsi məqsədini daşıyır.

Bununla Ermənistan üzv olduğu siyasi-hərbi təşkilat çərçivəsində digər ölkələrə qarşı güc tətbiq etmək və güc tətbiq edərək hədələməkdən çəkinmək barədə üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozur.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən bəyan edildiyi kimi, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi hədəfləri yoxdur.

Azərbaycan Respublikasının BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə məqsədilə hərbi təcavüz və hücum hallarının qarşısını almaq üçün legitim hərbi hədəflərə qarşı atmağa məcbur ola biləcəyi addımların məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür".

**AZƏRTAC**

**Beynəlxalq təşkilatlar Ermənistanın münaqişədə birbaşa iştirakı barədə məlumatlandırılıb**

[20:03] 24.10.2020

Oktyabrın 24-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq keçirib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, brifinqdə qonaqlara Ermənistanın münaqişədə birbaşa iştirakı, Ermənistanın Gorus və Qafan rayonlarından Azərbaycanın Qubadlı və Laçın rayonlarının ərazilərinin, Ağdərə rayonunun işğal altında olan ərazilərindən Goranboy, Tərtər və Naftalan rayonlarında yaşayan Azərbaycan mülki əhalisinin və infrastrukturunun raket zərbələrinə məruz qalması, eləcə də humanitar atəşkəs rejiminin kobud şəkildə pozması haqqında ətraflı məlumat verilib.

**Anar Eyvazov: Erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir**

[20:13] 24.10.2020

Oktyabrın 23-də gün ərzində və 24-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan və toplardan atəşə tutan düşmən yaylım atəşli reaktiv sistemlərdən və digər artilleriya qurğularından istifadə edərək, həmçinin Tərtər, Bərdə, Goranboy və Naftalanı atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 24-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatlara qarşı mütəşəkkil müqavimət göstərə bilməyən və döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus və Qafan rayonları ərazisindən raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı ərazilərini güclü atəşə məruz qoyub. Ermənistan tərəfinin bu təxribatı törətməkdə məqsədi Azərbaycan Ordusunu cavab tədbirləri olaraq Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

Bildirilib ki, Azərbaycan Ordusu əməliyyat planına uyğun olaraq cəbhənin müxtəlif istiqamətlərində əks-hücumu davam etdirir. Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi atəş zərbələri endirilib, onun silah-sursat və yanacaq anbarları sıradan çıxarılıb. Kommunikasiya xətləri nəzarətə götürülüb, dayaq məntəqələri dağıdılıb. Könüllülərdən ibarət dəstələri və döyüş texnikası məhv edilərək bir neçə vacib yüksəkliklər azad edilib. Sünik-Zəngilan yolunda hücum etməyə cəhd göstərən düşmən bölmələrimizin sərt müqaviməti ilə rastlaşaraq geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər var.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bundan başqa, Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi və Ağdərə rayonu istiqamətində bir pilotsuz uçuş aparatı Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib. Cəbrayıl rayonu istiqamətində düşmənə məxsus "BZEZ" zərbə pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən aşkarlanaraq xüsusi texniki vasitələrlə yerə endirilib və ələ keçirilib.

Hazırda bütün cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun əks-həmlə əməliyyatı başlandıqdan sonra döyüş sahəsində aciz qalan düşmən bütün vasitə və resurslardan istifadə etməklə informasiya mühitində dezinformasiya və təxribat xarakterli məlumatlar yayır. Düşmən rəsmiləri guya ordumuzun texnika itirdiyi, xüsusi təyinatlı bölmələrimizə ziyan vurulduğu, bir pilotsuz uçuş aparatının Ermənistan ərazisində vurulması, digərinin isə İran ərazisinə keçdiyi və bu ölkə tərəfindən qoşunlarımıza qarşı atəş açılması kimi feyk məlumatlar verməklə vəziyyətin gedişatına təsir etməyə çalışır. Onlar çoxsaylı feyk foto və videolar yaymaqla, beynəlxalq aləmdə Azərbaycan Ordusu barədə mənfi rəy formalaşdırmağa cəhd edirlər.

Anar Eyvazov deyib: Bildiririk ki, peşəkar Azərbaycan Ordusu yalnız düşmənin silahlı birləşmələrini və legitim hərbi obyektləri hədəfə alır. Bu hədəflər dəqiq atəş zərbələri ilə məhv edilir. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin ictimaiyyətə təqdim etdiyi foto və video görüntülər də buna əyani sübutlardır. Hər bir Azərbaycan əsgəri mülki şəxslərlə, hərbi əsirlərlə və düşmən meyitləri ilə davranış qaydalarını mükəmməl bilir. Onlara qarşı beynəlxalq humanitar hüququn prinsip və normalarına, eləcə də Cenevrə konvensiyalarına və ona əlavə olunmuş protokollara uyğun davranırlar. Buradan döyüşlər gedən istiqamətlərdə məskunlaşan dinc erməni əhalisinə və aldadılaraq Ermənistan ərazisindən işğal olunmuş ərazilərimizə gətirilən əsgər və könüllülərə Azərbaycanın Hərbi Komandanlığının müraciətini çatdırıram.

Azərbaycanın Hərbi Komandanlığı bir daha döyüşlər gedən istiqamətlərdəki dinc əhalini hərbi obyekt və infrastrukturdan uzaq durmağa çağırır. Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə silahı yerə qoyaraq təslim olmağı təklif edir. Azərbaycan tərəfinə keçən mülki əhalinin təhlükəsizliyinin, qida, tibbi yardım və digər ehtiyaclarının təmin edilməsi üçün komandanlıq bütün müvafiq zəruri tədbirləri görməyə hazırdır. Bundan əlavə, beynəlxalq humanitar hüquqa uyğun olaraq hərbi əsirlərin, mülki şəxslərin bütün hüquqları qorunacaq və üçüncü dövlətlərə keçmək istəyən şəxslərə beynəlxalq təşkilatlar vasitəsilə lazımi şərait yaradılacaq.

“Azərbaycan əsgərlərinə qarşı döyüşən erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Qoşunlarımız Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi zərbə vuraraq yeni mövqelərə irəliləyib**

[08:30] 25.10.2020

Oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən qoşunlarımızı atıcı silahlar, tanklar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib.

Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə atəşlə ciddi zərbə vuraraq onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə yeni mövqelərə irəliləyib.

Azərbaycan Ordusunun bölmələrinin Ermənistan silahlı qüvvələrinin Ağdərə və Xocavənd istiqamətlərində yerləşən bölmələrinin atəşə tutması nəticəsində düşmənin canlı qüvvə baxımından çoxlu sayda ölən və yaralananı var. Onun döyüş sursatının tükəndiyi, artilleriya qurğularının isə sıradan çıxarıldığı məlum olub.

Qubadlı istiqamətinə gətirilən Ermənistan silahlı qüvvələri 543-cü alayının 1-ci taborunun bölmələri şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilib.

Ermənistanın Kotayk vilayətinin Tsaxkadzor yaşayış məntəqəsindən Dağlıq Qarabağa göndərilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin böyük hissəsi bölmələrimizin atəş zərbəsi nəticəsində məhv edilib.

Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 “Qiasint-B” topu, 7 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Azərbaycan Ordusu düşmənə qarşı yüksək dəqiqlikli silahı tətbiq edir**

[12:20] 25.10.2020

Azərbaycan Ordusu düşmənə qarşı yüksək dəqiqlikli silah növünü tətbiq edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi məlumat yayıb.

Xatırladaq ki, oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib.

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycana hərbi hücumlar BMT Nizamnaməsində təsbit edilmiş təcavüz aktıdır**

[14:05] 25.10.2020

Ermənistan ərazisindən Zəngilan, Qubadlı və Laçının sərhəd rayonları boyunca Azərbaycana hərbi hücumlar BMT Nizamnaməsində təsbit edilmiş təcavüz aktıdır.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində bildirib.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad edilmiş kəndlərinin videogörüntülərini yayıb**

[14:12] 25.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad edilmiş kəndlərinin videogörüntülərini yayıb.
AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edib.

**AZƏRTAC**

**Düşmən itki verərək geri çəkilməyə məcbur edilib**

[19:25] 25.10.2020

Qubadlı istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstəriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən 50 nəfərədək canlı qüvvə itirərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin silah-sursatla dolu dörd avtomobil və bir zirehli texnikası ələ keçirilib.

Ələ keçirilən hərbi qənimətlərin görüntülərini təqdim edirik.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda Azərbaycan Ordusunun bölmələri cəbhəboyu döyüşləri davam etdirir**

[19:52] 25.10.2020

Oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən əməliyyat sahəsindəki qoşunlarımızı, həmçinin Ağdam, Tərtər, Ağcabədi rayonlarını tanklar, minaatanlar və toplardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 25-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun olaraq əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirib və işğaldan azad edilmiş əraziləri bir qədər də genişləndirib. Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi atəş zərbələri endirərək onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə döyüş mövqelərini düşməndən təmizləyib. Ağdərə və Xocavənd istiqamətlərində yerləşən düşmən bölmələri ordumuzun cavab tədbirləri nəticəsində xeyli sayda canlı qüvvə itirib.

Qeyd edilib ki, artıq Ermənistan tərəfində döyüş sursatının tükəndiyi və artilleriya qurğularının sıradan çıxdığı məlum olub. Qubadlı istiqamətinə gətirilən Ermənistan silahlı qüvvələrinin 543-cü alayının 1-ci taborunun bölmələri canlı qüvvə və hərbi texnika baxımından itkilər verərək geriyə qayıdıb. Ermənistanın Kotayk vilayətinin Tsaxkadzor yaşayış məntəqəsindən Dağlıq Qarabağa göndərilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin böyük hissəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Hərbi hava qüvvələrimizin döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində düşmənin üç tankını, iki sığınacağını və dörd dayaq məntəqəsini dəqiq zərbələrlə sıradan çıxarıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 3 tankı, 2 piyada döyüş maşını, 6 artilleriya qurğusu, 1 “Qiasint-B” topu, 2 “Qrad”, 1 komanda idarəetmə məntəqəsi, 9 avtomobil texnikası və bir neçə atəş nöqtəsi məhv edilib.

“Hazırda bölmələrimiz cəbhəboyu döyüşləri davam etdirir. Hərbi hava qüvvələrimizin döyüş aviasiyası düşmənin hərbi infrastrukturlarını hədəfə alır. Ümumi olaraq qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən havadan və qurudan darmadağın edilir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad edib**

[23:09] 25.10.2020

Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

**AZƏRTAC**

**Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin azad edilməsi münasibətlə xalqımızı təbrik edib**

[11:04] 26.10.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC həmin paylaşımı təqdim edir:

Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**Üçüncü humanitar atəşkəs: Azərbaycan Ordusunun uğurları Paşinyanı yalan danışmağa məcbur edir**

[11:23] 26.10.2020

Azərbaycan Ordusunun Qubadlı şəhərini işğaldan azad etməsi ilə BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi də tam icra olundu. İşğal altındakı rayon və kəndlərimizin Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, ordumuzun gücü sayəsində ard-arda işğalçılardan təmizlənməsi ermənipərəst qüvvələri və bəzi böyük gücləri narahat edir. Belə ki, artıq bəzi xarici dairələr tərəfindən Azərbaycana çoxsaylı təzyiqlər edilir. Məqsəd ordumuzun zərbələrindən acınacaqlı vəziyyətə düşən Ermənistanı xilas etməkdir.

**Azərbaycan xalqının maraqları beynəlxalq arenada da təmin olunur**

Bu təzyiqlərin növbətisi də bu günlərdə BMT Təhlükəsizlik Şurasının məsləhətləşmələri zamanı müşahidə edildi. Təhlükəsizlik Şurasının daimi üzvləri, həm də ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsinə 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrə istinad daxil edilməmişdi. Üstəlik, onlar bir sıra ölkələrin həmin qətnamələrə istinadın mətnə salınması ilə bağlı təkidli mövqeyini də qəbul etmədilər. Qoşulmama Hərəkatına üzv ölkələrin nümayiş etdirdikləri təkidli mövqe sayəsində həmsədr ölkələr bu sənədi geri götürməyə məcbur oldular. Bu, Azərbaycanın, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi nüfuzunun və təşkilatın daxilində mövcud olan həmrəyliyin göstəricisidir.

Oktyabrın 25-də ATƏT-in Minsk qrupu məsələ ilə bağlı bəyanat yaydı. Qeyd edək ki, bəyanatın ilkin layihəsi hazırkı mətndən tam fərqli idi. Azərbaycan tərəfi qəti mövqe nümayiş etdirərək bəyanatın birtərəfli olmasına etiraz etdi və onun yalnız humanitar atəşkəslə məhdudlaşdırılmasına nail oldu. Bəli, ordumuzun döyüş meydanında ard-arda qazandığı nailiyyətlər Azərbaycan Prezidentinin xalqın maraqlarına söykənən xarici siyasəti sayəsində beynəlxalq arenada da davam etdirilir.

**Bir gün əvvəl yayılan xəritə: Ermənistan Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi faktını qəbul etmir**

Bu vaxta qədər Azərbaycan və Ermənistan arasında üç dəfə humanitar atəşkəs barədə razılıq əldə edilib ki, bunlar da Ermənistan tərəfindən pozulub. Bu gün səhər saatlarında humanitar atəşkəsin qüvvəyə minməsindən bir neçə dəqiqə sonra Ermənistan tərəfi humanitar atəşkəsi yenidən pozdu.

Ermənistan baş naziri isə öz erməni xislətinə sadiqliyini yenə də nümayiş etdirir, özünün "Twitter" hesabında guya Ermənistan ordusunun atəşkəsə əməl etdiyi ilə bağlı paylaşımlar edir. Bu addım özü də hiyləgərliyin bir nümunəsidir. Belə ki, bir gün əvvəl Ermənistan mətbuatında Azərbaycan Ordusunun guya torpaqlarımızın çox az bir hissəsini işğaldan azad etməsinə dair xəritə yayıldı. Görünən odur ki, Ermənistan hakimiyyəti Azərbaycan Ordusunun bu uğurlarını qəbul etmək istəmir. Elə bu səbəbdəndir ki, onlar qəbul edilən humanitar atəşkəsə əməl etmirlər.

Bəyanatların özünə gəldikdə isə ilk olaraq vurğulanmalıdır ki, burada söhbət atəşkəsdən deyil, humanitar atəşkəsdən gedir. Bəyanatda yer alan atəşkəsin monitorinqi üzrə parametrlər məsələsi münaqişənin müfəssəl həlli prosesi ilə paralel getməlidir. Bu, o deməkdir ki, Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması ilə bağlı konkret vaxt cədvəli müəyyən edilməlidir. Bəyanatda öz əksini tapmış "vaxt cədvəli" ifadəsi məhz bunu nəzərdə tutur. Eyni zamanda, atəşkəsin monitorinqi üzrə parametrlər Ermənistandan işğal olunmuş ərazilərə silah, canlı qüvvə daşınmasına nəzarət olunmasını da ehtiva etməlidir. Bu mənada həmsədrlərin bəyanatında yer almış məqamların geniş surətdə müzakirə olunmasına və razılaşdırılmasına ehtiyac var.

Baza prinsiplərini rədd edən, bir neçə gün öncə "Münaqişənin diplomatik həlli yoxdur" deyən Paşinyan bir tərəfdən danışıqlar üçün ABŞ-a yalvarır, digər tərəfdən isə Ermənistana müxtəlif mənbələrdən silahların daşınması davam edir. Bu, Ermənistanın növbəti humanitar atəşkəsə də riayət etmək fikrində olmadığını göstərdi.

Azərbaycan isə növbəti dəfə humanizm prinsiplərinə sadiqliyini göstərərək danışıqlara başlamağa hazır olduğunu nümayiş etdirdi. Lakin Azərbaycanın yeganə tələbi odur ki, Ermənistan ordusu işğal altında olan bütün torpaqlarımızdan çıxarılmalıdır. Ermənistanın baş naziri bununla bağlı bəyanat verməli, siyasi iradə nümayiş etirməlidir. Görünən odur ki, ordusunun aciz vəziyyətdə olması, hər gün yüzlərlə erməni əsgərinin ölməsi belə Paşinyanın şəxsi maraqlarından üstün deyil.

**Əsəd Məmmədov,**
**AZƏRTAC-ın redaksiya müdir**

**AZƏRTAC**

**Prezidentin Mətbuat Xidmətinin məlumatı**

[16:00] 26.10.2020

Ali Baş Komandan, Prezident İlham Əliyev Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik edib. Dövlətimizin başçısı onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzulayıb. Tapşırıb ki, onun təbriklərini və təşəkkürlərini bütün şəxsi heyətə çatdırsınlar.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun bölmələri növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir**

[19:32] 26.10.2020

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun bölmələri oktyabrın 26-sı saat 08.00-dan qüvvəyə minmiş növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 26-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimi qüvvəyə mindikdən bir neçə dəqiqə sonra - saat 08.05-dən etibarən onu kobudcasına pozaraq Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Bir qədər əvvəl - saat 18:15-də düşmən "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərini atəşə tutub. Atılan üç raketdən biri hava hücumundan müdafiə bölmələrimiz tərəfindən zərərsizləşdirilib. Ümumilikdə bu gün ərzində Tərtər daxil olmaqla yaşayış məntəqələrimizə 200-dən çox mərmi atılıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Xocalı rayonunun Çanaqçı kəndinin guya Azərbaycan Ordusu tərəfindən atəşə tutulması, o cümlədən Ordumuza məxsus zərbə pilotsuz uçuş aparatının cəbhə xəttində guya məhv edilməsi barədə düşmən tərəfindən yayılan məlumatlar yalandır. Əksinə, Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri atıcı silahlardan açılan atəşlə məhv edilib.

"Canlı qüvvə ehtiyatları tükənməkdə olan düşmən döyüşlərə daha çox könüllüləri, muzdlu və əcnəbi terrorçu döyüşçüləri, o cümlədən uşaqları cəlb etməyə çalışır. Belə olan halda isə düşmənin döyüş sahəsində vəziyyətə nəzarət edə bilməsi praktiki cəhətdən mümkün deyil. Nizami ordumuz düşmənin istənilən hücum və təxribatlarının qarşısını almaq üçün döyüşə tam hazır vəziyyətdədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**BERNAMA agentliyi: Azərbaycan Ordusu Qubadlı şəhərini və bir neçə kəndi işğaldan azad edib**

[19:50] 26.10.2020

Azərbaycan Prezidenti İlham Əliyev ölkə ordusunun Qubadlı şəhərini, Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının kəndlərini erməni işğalından azad etdiyini bildirib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, bu barədə Malayziyanın BERNAMA Agentliyi Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) istinadla xəbər yayıb. Bildirilir ki, Azərbaycan Prezidentinin rəsmi "Twitter" hesabında bu barədə paylaşdığı statusu "Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!" sözləri ilə tamamlanıb.

Bununla yanaşı, məlumatda Azərbaycan Müdafiə Nazirliyinə istinadla Ordumuzun bazar günü Ermənistanın hərbi texnikasını və döyüş sursatını məhv etməsi də əksini tapıb.

Məlumatda deyilir: "Müdafiə Nazirliyinin məlumatına əsasən, oktyabrın 25-də günortadan sonra cəbhənin müxtəlif istiqamətlərində aparılan döyüşlər zamanı Azərbaycan Ordusunun bölmələri düşmənə dəqiq zərbələr endirib. Bu zərbələr nəticəsində düşmənin 6 ədəd D-30 və 1 ədəd D-1 haubitsa silahı, 2 ədəd BMP (piyadaların döyüş maşını), 1 ədəd avtomobili və böyük miqdarda döyüş sursatı məhv edilib".

**Vüqar Ağayev,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur**

**AZƏRTAC**

**Qubadlı rayonunun işğaldan azad olunan Padar kəndi**

[19:55] 26.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Padar kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC nazirliyin mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

Xatırladaq ki, Padar kəndi oktyabrın 25-də ordumuzun bölmələri tərəfindən azad olunub.

**AZƏRTAC**

**Qubadlı rayonunun işğaldan azad olunan Xanlıq kəndi**

[22:40] 26.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Xanlıq kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC nazirliyin mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**İşğaldan azad olunan Qubadlı şəhəri**

[23:58] 26.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad olunan Qubadlı şəhərinin videogörüntülərini paylaşıb.

AZƏRTAC nazirliyin mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 27-nə olan son vəziyyət**

[07:50] 27.10.2020

Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 26-sı gün ərzində və 27-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub.

Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilmişdir. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da var.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd “Osa-AKM” ZRK, 1 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**İkinci Qarabağ müharibəsi: Otuz ildə bizi başa düşməyənlərə otuz gündə çox şeyi başa saldıq**

[17:09] 27.10.2020

Ermənistanın hərbi təxribatından sonra Azərbaycan Ordusunun başlatdığı əks-hücum əməliyyatı artıq bir aydır ki, uğurla davam edir. Bu müddət ərzində bütün dünya Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsinin, xalqımızın birliyinin, Ordumuzun qüdrətinin şahidi oldu. Yalnız bir fakt söyləmək kifayət edir ki, uğurumuzu tam əks etdirə bilək: Bir neçə il ərzində işğal edilən ərazilər bir ay ərzində düşməndən geri alındı. Bu, əlbəttə ki, Azərbaycan Ordusunun qüdrətindən xəbər verir.

**Otuz gün: Ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsi**

1994-cü ilin mayında atəşkəs haqqında Bişkek Protokolunun qüvvəyə minməsindən 2020-ci il sentyabrın 27-dək olan müddətdə Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırılması, peşəkar ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsidir ki, bu gün düşmən döyüş meydanında darmadağın edilir.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi islahatları daha da genişləndirməklə davam etdirən Prezident İlham Əliyev Cənubi Qafqazın ən güclü Ordusunu formalaşdırdı.

Müasir silah-sursata, hərbi texnikaya, peşəkar kadrlara, yüksəksəviyyəli nizam-intizama malik Azərbaycan Ordusu bu gün bir daha sübut edir ki, qarşıya qoyulan bütün tapşırıqların icrasını həyata keçirmək iqtidarındadır.

Bu gün Ordumuz arsenalında olan ən müasir texnikadan yüksək peşəkarlıqla istifadə edərək düşmənə yaddaşlarına əbədi həkk olunacaq zərbələr endirir. Düşmən canlı qüvvə sarıdan minlərlə itki verib, bundan əlavə, Ermənistan ordusuna məxsus çoxlu sayda tank, döyüş maşınları, toplar, minaatanlar, tank əleyhinə vasitələr, "Qrad" qurğuları, "Uraqan" Yaylım Atəşli Raket Sistemi, zenit-raket kompleksləri məhv edilib və ya qənimət olaraq götürülüb. Bu texnikanın qiymətlərinin cəmi isə milyardlarla ölçülür.

"Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir". Prezident İlham Əliyevin 2018-ci il iyunun 26-da keçirilən hərbi paraddakı çıxışındakı bu fikirlər əslində Ermənistanın hərbi-siyasi rəhbərliyinə bir mesaj kimi də qiymətləndirilməli idi. Son illər təkcə ölkəmizin müdafiə xərclərinə ayırdığı pulun Ermənistanın dövlət büdcəsindən çox olması faktı bir daha sübut edir ki, düşmən heç bir halda bütün komponentlərdə onu üstələyən Azərbaycan Ordusunun qarşısında müqavimət göstərə bilməz.

**Otuz gün: 4 şəhər, 3 qəsəbə və 165 kənd işğalçılardan təmizlənib**

Azərbaycan Ordusu cəmi bir ay ərzində düşmənin ordusu haqqında illərdir formalaşdırdığı "yenilməzlik" mifini darmadağın etdi. Bu gün düşmən artıq Azərbaycan Ordusunun gücünü görür və onunla hesablaşmaqdan başqa yolunun olmadığını dərk edir.

"Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir". Bu fikirləri Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədəki çıxışında səsləndirilib.

Bir ay ərzində 4 şəhər, 3 qəsəbə və 165 kənd, Murov dağındakı yüksəklik işğalçılardan təmizlənib. Hər bir kəndin, yüksəkliyin işğaldan azad edilməsi uğrunda rəşadətlə mübarizə aparan Ordumuz hər gün, hər saat böyük tarixi nailiyyətlərə imza atıb.

Nəzərə almaq lazımdır ki, düşmən işğal altında saxladığı ərazilərdə güclü müdafiə istehkamları qurmuşdu. Bu müdafiə səddinin qırılması, sadəcə, böyük qəhrəmanlıq tələb edirdi ki, Azərbaycan Ordusu da bu vəzifəni böyük peşəkarlıq və şücaətlə yerinə yetirdi.

Beləliklə, bu 30 gün ərzində düşmənə başa sala bildik ki, nəinki Ermənistan ordusu, hətta bu illər ərzində onun qurduğu və keçilməz saydığı sədlər belə Azərbaycan Ordusunun qələbə əzminin qarşısında məhvə məhkumdur.

**Otuz gün: Azərbaycan müstəqil xarici siyasət kursuna sadiqliyini nümayiş etdirdi**

Hərbi əməliyyatlardan əvvəl, həmçinin əks-hücum əməliyyatının ilk günündən başlayaraq müxtəlif dövlət və hökumət başçıları, beynəlxalq təşkilatlar, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri dəfələrlə münaqişənin hərbi həlli olmadığına dair bəyanatlarla çıxış etdilər.

Azərbaycan Prezidenti oktyabrın 9-da xalqa müraciəti zamanı bir daha bu cür bəyanatlar səsləndirənlərə cavab verərək dedi: "Azərbaycan xalqı da bunu vasitəçilərdən, bəzi beynəlxalq təşkilatların rəhbərlərindən

dəfələrlə eşidib ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən isə demişdim ki, bu tezislə razı deyiləm və mən haqlı çıxdım, mən! Otuz ilə yaxındır danışıqlar aparılır. Bir məsələ yerindən tərpəndi? Bir santimetr torpaq bizə danışıqlar yolu ilə verildi? Təcavüzkarı məcbur etdilərmi ki, bizim torpağımızdan çıxsın, BMT Təhlükəsizik Şurasının qətnamələrini yerinə yetirsin? Yox. Bəs, bu məsələ indi necə həll olunur? Bu, hərbi yol deyilmi? Məhz hərbi yolla bu məsələ həll olunur".

Bəli, Azərbaycan Prezidentinin xalqın milli maraqlarına söykənən xarici siyasətinin nəticəsidir ki, heç bir kənar qüvvə bu gün bizim ədalətli mübarizəmizə mane ola bilmir. Hər zaman xalqına arxalanan Azərbaycan Prezidenti bütün təzyiqləri dəf edir və hər kəsə layiq olduğu cavabı verir.

Xarici media jurnalistlərinin lentə aldığı kadrlardan da göründüyü kimi, Azərbaycan Prezidentinin dərin məzmunlu çıxışlarını Dağlıq Qarabağda yaşayan erməni əhali də böyük maraqla izləyir. Yəqin ki, otuz gün ərzində onlar da başqasının torpağını işğal edib, orada əbədi yaşaya bilməyəcəklərini başa düşüblər.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidenti də çıxışlarında Dağlıq Qarabağın erməni icmasının üzvlərinin Azərbaycan vətəndaşları olaraq ləyaqətli yaşamalarının təmin ediləcəyini söyləyib.

Bu gün Azərbaycanın münaqişənin həlli üçün illər ərzində formalaşdırdığı hüquqi bazanın da böyük önəm daşıdığı qeyd olunmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə yanaşı, BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin və digər təşkilatların münaqişə ilə bağlı qəbul etdikləri sənədlərdə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəalar yer alıb. Təbii ki, bütün bunlar da döyüş meydanında uğur qazanan Azərbaycanın beynəlxalq müstəvidə də bu nailiyyətlərinə hüquqi əsas yaratmağa imkan verir.

**Otuz gün: Bütün dünya həmrəyliyimizin şahididir**

Bu günlər ərzində bütün dünya Azərbaycan xalqının həmrəyliyinin, Ali Baş Komandanına inamının şahidi oldu.

Bu müddət ərzində düşmən müxtəlif təxribatlara əl ataraq bu birliyi sarsıtmağa cəhdlər etdi. Lakin başa düşmədi ki, bu xalqı daha da birləşdirən onun keçdiyi ağır günlər olub. Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqla, dinc insanları, uşaqları qətlə yetirməklə xalqımızı parçalamaq gücündə deyil. Prezidentin "Biz birlikdə güclüyük!" şüarı ətrafında bir yumruq kimi birləşən xalqın qalib ölkənin qalib vətəndaşı olmaq üçün çıxdığı yolda düşmənin silahı yerə qoyub, ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yoxdur. Bəli, artıq 30 gün ərzində düşmən də bunu başa düşür.

**Əsəd Məmmədov,**
**AZƏRTAC-ın redaksiya müdiri**

**AZƏRTAC**

**BMT böyük dövlətlərin əlində təsir mexanizmli təşkilata çevrilib**

[18:15] 27.10.2020

1995-ci ildən sonra ilk dəfə olaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Dağlıq Qarabağda başlanılan Vətən müharibəsinin 2-ci günü, yəni, sentyabrın 29-da Estoniya və Almaniya dövlətlərinin təklifləri əsasında mövcud hərbi vəziyyətlə bağlı məsələyə baxılıb və hər hansı bir yekun sənəd səsləndirilməyib.

Dağlıq Qarabağ ətrafında yerləşən rayonlarımız (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı) Azərbaycanın rəşadətli Ordusu tərəfindən işğaldan azad olunub, oradakı terrorçu qruplaşmalara və Ermənistanın silahlı qüvvələrinə aid hərbi texnika məhv edilib.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Məzahir Əfəndiyev deyib.

Deputat qeyd edib ki, ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri humanitar atəşkəsin imzalanmasına dair birgə bəyanat səsləndirdikdən sonra Rusiya və Fransanın təklifləri əsasında oktyabrın 19-da BMT Təhlükəsizlik Şurası bir daha münaqişənin həlli ilə bağlı müzakirə keçirib və bəyanat hazırlayıb. Lakin təəssüflə qeyd olunmalıdır ki, dünyadakı siyasi riyakarlıq və ikili standartlar burada da özünü göstərib. Bu bəyanatda 1993-cü ildə münaqişənin ədalətli həlli istiqamətində qəbul olunan məlum dörd qətnaməyə heç bir istinad edilməyib. Yalnız BMT Təhlükəsizlik Şurasının digər qeyri-daimi üzvləri və Qoşulmama Hərəkatının üzv dövlətlərinin BMT-dən fərqli israrlı və prinsipial mövqeyindən sonra bəyanat qəbul olunmayıb və rəsmən geri götürülüb. Bununla da həmin dövlətlər BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Bandunq prinsiplərinə - dövlətlərin ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq, qarşılıqlı mənafelərin qorunması və sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyi, Qoşulmama Hərəkatının sənədlərinə sadiqliyini növbəti dəfə nümayiş etdiriblər.

"Beləliklə, BMT-nin öz Nizamnaməsini yerinə yetirə bilməməsinə dair fikirlər artıq təsdiqini tapır. BMT böyük dövlətlərin əlində təsir mexanizmli təşkilata çevrilməklə 2020-ci ildə demək olar ki, olan-qalan nüfuzunu da itirdi. ATƏT-in Minsk qrupunun həmsədr institutu isə artıq ədalətli qərarlar qəbul etmək şansını tamamilə itirib. BMT Təhlükəsizlik Şurasının bu biabırçı vəziyyətdən çıxmasına, yuxarıda qeyd olunduğu kimi, Qoşulmama Hərəkatının üzv dövlətləri kömək etməyə çalışır və hesab edirəm ki, Təhlükəsizlik Şurasının oktyabrın 19-da keçirilən iclasında nümayiş etdirdiyi ikili standartlara söykənən siyasi oyunbazlıq bütün dünya üçün ibrət olmalıdır", - deyə deputat qeyd edib.

M.Əfəndiyev bildirib ki, bu gün Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirən nümunəvi üzv dövlətdir. Eyni zamanda, Azərbaycan Qoşulmama Hərəkatına şərəflə, ləyaqətlə rəhbərlik etməkdədir. Ölkəmiz Qoşulmama Hərəkatının prinsiplərinə uyğun verilmiş bütün qərarların icrasına nəzarəti gücləndirərək, dünyada haqqın, ədalətin bərqərar olunması üçün bütün imkanlarını bundan sonra da səfərbər edəcək.

"Bütün Azərbaycan xalqı, başda Müzəffər Ali Baş Komandan olmaqla ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunanadək haqq-ədalət mübarizəsini aparacaq, heç vaxt bu yoldan dönməyəcək. Nə qədər ki, gec deyil dünya dövlətlərini BMT-nin sülhün, əmin-amanlığın qorunması prinsiplərinə sadiq qalması, haqqın, ədalətin bərqərar olunması üçün bu təşkilata təsir göstərməyə çağırıram", - deyə deputat vurğulayıb.

**AZƏRTAC**

## Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub

[20:18] 27.10.2020

Ötən müddət ərzində humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozan Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, o cümlədən Zəngilan rayonunun Ağbənd kəndi istiqamətindəki ərazilərimizi müxtəlif silahlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 27-də Hərbi İnformasiya Mərkəzində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, vəziyyəti daha da gərginləşdirmək istəyən düşmən yaylım atəşli reaktiv sistemlərdən və artilleriya qurğularından istifadə etməklə cəbhəboyu bölgəyə yaxın bir sıra yaşayış məntəqələrimizə də atəş zərbələri endirib. Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində hücum etməyə cəhd edən düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Keçirilən adekvat tədbirlər nəticəsində düşmən diviziyalarından birinin qərargah rəisi daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir tankı, dörd artilleriya qurğusu, "Osa" tipli zenit raket kompleksi, "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, radiolokasiya stansiyası və altı avtomobil texnikası və diviziyasının əsas komanda məntəqəsi bölmələrimiz tərəfindən məhv edilib. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Ermənistan ərazisini guya pilotsuz uçuş aparatı və raket-artilleriya sistemlərindən atəşə tutmağımız barədə düşmənin yaydığı məlumat növbəti dezinformasiyadır. Yeni humanitar atəşkəs rejiminə tam riayət edən bölmələrimiz bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görür.

"Ermənistan cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə hesablanmış təxribatçı hərəkətlərinə son qoymalıdır. Ermənistan rəhbərliyi dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri artıq münaqişə bölgəsi deyil və Azərbaycanın tamhüquqlu suveren ərazilərini müəyyən edən, beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir. Bu baxımdan bir daha bəyan edirik ki, Azərbaycan öz ərazilərinə təhdid edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmək hüququna malikdir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 28-nə olan son vəziyyət**

[08:45] 28.10.2020

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb, o, itki verərək geri çəkilib.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var. Onun bir neçə döyüş texnikası məhv edilib. Düşmənin artilleriya bölməsinə atəşlə zərərvurma nəticəsində atəş mövqeyində onun toplarla bir yerdə döyüş sursatları da məhv edilib.

Məlum olub ki, düşmənin avtomobil texnikalarının sayının əhəmiyyətli dərəcədə azalması ön xətdəki bölmələrin ərzaq, silah və sursatla təminatında problemlər yaradıb.

Ermənistandan toplanan hərbi vəzifəlilərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edir. Döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırığın verilməsinə baxmayaraq cəmi 300 nəfəri toplamaq mümkün olub. Hətta bir çox hərbi müqavilələr və polis əməkdaşları cəbhəyə getməkdən imtina edirlər.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd “Osa” ZRK, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 “Qiasint-B” topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd “Konkurs” tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Ermənistan atəşkəs rejimini pozmaqda davam edir**

[10:08] 28.10.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 28-də gecə və səhər müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy, Daşkəsən və Qubadlı rayonlarının əraziləri düşmən tərəfindən atəşə tutulub.

Səhər saat 07.35-dən 09.00-dək isə Ağcabədi rayonu ərazisi düşmən tərəfindən atəşə məruz qalıb.

**AZƏRTAC**

**Qubadlı istiqamətində döyüşlərdə düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursat**

[10:38] 28.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlər zamanı düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatın videogörüntüsünü paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**

**Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir**

[11:57] 28.10.2020

Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyət, iradə, əzm, milli ruh və yüksək idarəçilik dəyərləri və rəhbərliyi, xalqımızın vətənpərvərlik duyğularının birgə həmrəyliyi ilə Azərbaycan Ordusu tarixinin ən şanlı və şərəfli qələbəsini qazanmaqdadır. Nəsillərdən bizə miras qalan ən ülvi hisslərimizlə qələbə dəyərlərini gələcək nəsillərə daşıyırıq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin "Müzəffər Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir" sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək dinc sakinlərimizin qətlinə yönəlmiş məqsədlə bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutması, düşmən ordusunun açıq-aşkar yeni ərazi iddialarının və havadarlarına böyük etiqad və inamla regionda münaqişənin daha da gərginləşdirilməsi niyyətlərinin riyakar nümunəsidir. Azərbaycanın region və dünyada xüsusi əhəmiyyət və sürətlə artan nüfuzu, beynəlxalq təşkilatlarda həmsədrlik, söz haqqının olması, həyata keçirilən strateji layihələrlə ölkəmizin dünya iqtisadiyyatına verdiyi töhfələr düşməndə qıcıq və qısqanclıq yaratması, özünün müqayisəolunmaz dərəcədə bütün sahələrdə geriləməsinin nəticəsidir və təzahürüdür.

Milli Ordumuz sahib olduğu qətiyyət sayəsində Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması ordumuzun çeviklik və peşəkarlıq səviyyəsinin çox yüksək olmasını nəinki düşmənə bütün dünyaya nümayiş etdirdi. Qısa zamanda əldə olunan nailiyyətlər peşəkar idarəçilik, döyüş hazırlığının və hərbi vətənpərvərlik ruhunun daima yüksək olması şəxsi heyətin uğurla irəliləyərək Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikalarının aşkar edilərək məhv edilməsi və onların hərəkət trayektoriyasına nəzarət aparılmasına imkan verir. Azərbaycanın dünya miqyasında 50 ən güclü orduya sahib dövlətlərin siyahısında olması bizi çox qürurlandırır və yalnız qələbə ümidlərini yaşadır!

Hər bir Azərbaycan vətəndaşı artıq əmindir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası Ali Baş Komandanın güclü siyasəti və iradəsi, ordumuzun əzmi və qətiyyəti, xalqımızın həmrəyliyi sayəsində mümkündür.

**Vətən çağırışına olan mənəvi səfərbərliyimizin qarşısında düşmən tab gətirməyəcək!**

İllərlə düşmən tapdağı altında olan torpaqlarımızın çağırışına canı, qanı, ruhu və bütün varlığı ilə irəliləyən hər bir azərbaycanlı igid oğullarımıza, bu müqəddəs çağırışa "canım fəda" deyib şəhidlik zirvəsinə ucalan övladlarımıza və onlarla birgə yetişən və yetişməkdə olan nəsillərimizə qələbə sevincimizi yaşatmaq qədər ülvi hissləri yaşadığımız üçün çox qürurluyuq. Torpaqlarımızı işğaldan azad etməklə nəinki ərazi bütövlüyümüzü təmin edirik, eyni zamanda, illərlə kimsəsiz qalan, təhqir olunan, dağıdılan, ancaq hər daşı bir tarix danışan abidələrimizi, irsimizi, dəyərlərimizi və ənənələrimizi millətimizə geri qaytarmış və yenidən qazanmış oluruq. Azərbaycan hər zaman dünyada sülhün, tolerantlıq və dialoqun, mədəniyyətlər və sivilizasiyalara xüsusi hörmət, ehtiram və qayğısı ilə seçilən öncül ölkələr siyahısındadır. Ancaq buna baxmayaraq, işğal altında olan torpaqlarımızda tarixi abidələrimiz, maddi-mənəvi irsimizin qəsdən və riyakarcasına dağıdılması və təhqir olunması beynəlxalq hüquq və ədalət prinsiplərinə sığmayan vandalizm aktının şahidi oluruq. İşğaldan azad olunan rayon və kəndlərimizdə abidələrimizi, səfalı guşələrimizi yararsız və dağıdılmış vəziyyətdə görmək çox ağrılıdır. Müharibə şəraitində belə sahib olduğu humanizm dəyərlərinə sadiq qalaraq mülki insanlara, tarixi-dini abidələrə, sosial-ictimai obyektlərin təhlükəsizliyinə xüsusi həssaslıq və diqqətlə yanaşan Ali Baş Komandanımızla hər birimiz qürur duyuruq.

**Hər bir şəhid olan hərbçi və mülki şəxslərimizin qisasını alacağıq!**

Ermənistan hərbçilərinin hədəfinə çevrilmiş Azərbaycanın mülki əhalisinin raket və top atəşinə tutulması nəticəsində 69 nəfər həlak olmuş və 314 nəfər yaralanıb. Bu bir daha riyakar düşmənin hərb meydanında ağır məğlubiyyətinin nəticəsidir. Hərbçilərinin cəsədlərinin toplanmasına belə maraqlı olmayan düşmən ölkəsinin real siyasi, ictimai, sosial-iqtisadi vəziyyətinin necə olduğunu açıq-aşkar nümayiş etdirir. Düşmənin dünya ölkələrinə əsassız yalvarışları, müraciətləri nəticəsiz qaldığı halda Azərbaycan Ordusu cənab Ali Baş Komandanının güclü siyasəti və qətiyyətinə inanaraq, iradə və əzmi ilə zəfər çalır.

Prezident İlham Əliyev çıxışlarında da hər zaman xüsusi əhəmiyyətlə hərbi texnika və avadanlıqların istehsalı istiqamətində uğurlu inkişafı qeyd edərək daima yeni və strateji planların icrasını vurğulamışdır. Bütün həyata keçirilən fəaliyyət və uğurlu nəticələr bu gün ölkəmizin hərbi potensialının, döyüş qabiliyyətinin ən

yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir və ordumuzun potensialını, güc və peşəkarlığını sübut etdirir. Ölkəmizin hərb potensialı və resursunu düzgün qiymətləndirə bilməyən, statistik göstəriciləri analiz etmək qabiliyyətinə malik olmayan Ermənistan hökuməti və dövləti ölümə göndərdiyi minlərlə əsgərlərin ana-atalarına cavab verməli olacaq! Azərbaycan öz ərazi bütövlüyü və torpaqları uğrunda döyüşür və zəfər çalır ancaq Ermənistan acgöz və riyakarcasına yeni ərazi iddiaları ilə, terror planları və regionda sülh və ədalət prinsipləri pozmaq məqsədləri ilə vətəndaşlarını məcburi surətdə ölümə göndərir. Bu əlbəttə ki, təbii bir haldır ki, Azərbaycan əsgərinin mübarizə və hərbi vətənpərvərlik ruhu ermənilərlə müqayisə olunmayacaq dərəcədədir, çünki xalqımız bu günləri, zəfər anlarının həsrətini illərlə gözlədiyi halda ermənilər özgə torpaqlarda öz xoşbəxtliklərini qurmağa cəhd edirdilər. Hər vasitə ilə status-kvonu öz maraqlarına uyğun şəkildə saxlayaraq tarixi, əbədi-əzəli torpaqlarımızdan öz mənfur terror siyasəti, Avropa və Qara dəniz hövzəsi ölkələrinə, həmçinin digər dövlətlərə narkotik maddələrin daşınmasının həyata keçirilməsi, Dağlıq Qarabağ ərazisindən narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, terrorçuların yetişdirilməsi üçün nəzarətsiz zona kimi istifadə edirdilər.

**Azərbaycan xalqı Ali Baş Komandanın qələbə müjdəsini hər an səbirsizliklə gözləyir**

Artıq 30 gündür güclü Azərbaycan Ordusunun, rəşadətli əsgərlərimizin şücaəti nəticəsində cəbhədən sevindirici xəbərlər alırıq və bu xəbərlər Azərbaycan Prezidentinin şəxsən özünün xalqa müraciəti ilə çatdırılır. Ali Baş Komandanın hər zaman səsləndirdiyi kimi “Bizim işimiz haqq işidir. Azərbaycan Ordusu hazırda öz torpaqları uğrunda döyüşür”.

Vətən Müharibəsi Azərbaycan Ordusunun uğurları və şücaəti ilə davam edir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hər gün cəbhədən aldığımız sevindirici xəbərlərlə, beynəlxalq KİV rəhbərlərinə verdiyi səlis və qətiyyətli müsahibələri ilə işğalçı Ermənistanı siyasi-diplomatik sferada da məğlubiyyətə uğradır.

**Xalqımız işğaldan azad olunmuş torpaqlara tezliklə qovuşacaq, həsrət sona çatacaq**

Müzəffər Azərbaycan Ordusunun hər bir uğurlu əməliyyatı, xalqımızın qələbə ruhlu və qətiyyətli millət kimi dünya tarixinin heç zaman unudulmayacaq səhifələrinə həkk olunmasına səbəb oldu. Şanlı Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, bir çox kəndləri, qəsəbələri və eyni zamanda, strateji yüksəklikləri işğaldan azad etməsini çox qürurverici həyəcan və sevinclə qarşıladıq. Azərbaycan xalqının həmrəylik nümayiş etdirərək Ali Baş Komandanın ətrafında sıx birləşməsi və yalnız qələbə ümidi ilə Azərbaycan Ordusuna dəstək olması həqiqətən çox həssas və qürurvericidir. Yaşlı bir azərbaycanlı nənənin nəvəsinə “Bala bircə dənə də olsa erməni tankı vurmasan geri gəlmə”, şəhid ana-atalarımızın “Vətən sağ olsun” demələri, erməni terroru nəticəsində gecə vaxtı evləri dağıdılan mülki şəxslərin Şanlı Ordumuzu “İrəli - Qələbəyə doğru” səsləmələri, körpə balalarımızın gözündəki qisas və qələbə əzmi milli kimliyimizi özümüzə xatırlatdı, güclü millət olduğumuzu, dəyərlərimizə sahiblənməyi bacaran, torpaqları və ərazi bütövlüyü uğrunda qorxmadan həlak olmağı və öldürməyi bacaran məğrur və qalib millət olduğumuzu növbəti dəfə özümüzə və bütün dünyaya sübut etdi. Hər bir evdə, hər ocaqda hər qarış torpağımızda qalib Azərbaycan bayrağımız var. Bu əzmin, ruh yüksəkliyinin, iradə və qətiyyətin qarşısında heç bir düşmən dayana bilməyəcək!

Qarabağ uğrunda mübarizə bizim haqq və ədalət savaşımızdır. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib**

[16:34] 28.10.2020

Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz**

[20:05] 28.10.2020

Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı “Smerç” tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində mülki əhalimiz arasında xeyli sayda ölənlər və yaralılar var. Azərbaycan Ordusu ilə üzləşməyi bacarmayan qorxaq düşmən bu dəfə də xaincəsinə mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 28-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara bundan sonra da layiqli cavab veriləcək. Təkcə Bərdəni deyil, ötən müddət ərzində humanitar atəşkəs rejimini kobud şəkildə pozan düşmən Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən və işğal edilmiş ərazilərdən cəbhənin müxtəlif istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və cəbhəboyu bölgəyə yaxın yaşayış məntəqələrimizi artilleriya qurğularından, o cümlədən “Smerç” və “Qrad” tipli yaylım atəşli reaktiv sistemlərdən atəşə tutub. Bundan başqa, Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində hücuma cəhd edən düşmən bölmələrimizin qətiyyətli zərbəsi ilə itki verərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin xeyli sayda canlı qüvvəsi, bir neçə döyüş texnikası, o cümlədən “Osa” tipli zenit raket kompleksi, “Konkurs” tipli tank əleyhinə raket kompleksi, 3 “Qrad” tipli yaylım atəşli reaktiv sistemi, 2 “Qiasint” topu, 12 artilleriya topu, minaatan və 6 avtomobil texnikası dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünün rəsmi “Twitter” hesabında qeyd etdiyi kimi, həyata keçirilən tədbirlər nəticəsində Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının ümumi olaraq 13 kəndi azad olunub.

“Ermənistanda hərbi müqavilələr və polis əməkdaşları Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina edirlər. Düşmənin ordu rəhbərliyi şəxsi heyət çatışmazlığını aradan qaldırmaq üçün 2000 nəfərdən ibarət heyətin toplanması barədə göstəriş verməsinə baxmayaraq, heç 300 nəfəri də yığa bilməyiblər. Eyni zamanda, düşmən bölmələrində ərzaq, silah, sursat və nəqliyyat vasitələrinin çatışmazlığı kəskin olaraq özünü büruzə verib.

“Düşmən bilməlidir ki, Azərbaycanda dövlət–xalq-ordu birliyi sarsılmazdır. Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz. Humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələri ordumuz tərəfindən darmadağın edilib. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Hərbi-siyasi nizamlama yeganə mümkün yoldur**

[22:00] 28.10.2020

Azərbaycan Ordusu döyüş meydanında öz üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunmuş torpaqlarda möhkəmləndirilmiş rayonlar yaratmasını nəzərə alsaq, orada bir neçə müdafiə xətti var idi. Ərazinin relyefi də erməni tərəfi üçün daha əlverişlidir, çünki ora dağlıq ərazidir və bizim hərbi qulluqçular əks-hücum əməliyyatlarını həyata keçirərkən həm mühəndis qurğularını, həm də dağlıq relyefi adlamalı olurdu. Buna görə də bütün bu amillər nəzərə alınmaqla, ölkəmizin ərazilərinin xeyli hissəsi bir ay ərzində azad edildi və bu, göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Rusiyanın İnterfaks agentliyinə müsahibəsində ötən bir ayı münaqişənin hərbi-siyasi nizamlanması baxımından dəyərləndirərkən söyləyib.

Dövlətimizin başçısı sözünə davam edərək deyib: “Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib. Biz Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, Xocavənd rayonunun bir hissəsini azad etmişik. Azərbaycan Ordusunun uğurlu fəaliyyəti, uğurla irəliləməsi davam edir”.

Prezident qeyd edib ki, Azərbaycan münaqişənin nizamlanmasının hərbi mərhələdən siyasi mərhələyə keçməsini istəyir. “Lakin təəssüf ki, erməni tərəfi atəşkəs rejimini artıq üçüncü dəfə kobud şəkildə pozaraq, bizim azad etdiyimiz əraziləri yenidən işğal etməyə cəhd göstərərək qarşıdurmanı davam etməyə doğru yönəldir. Buna görə sizin sualınıza bir daha cavab verirəm - hərbi-siyasi nizamlama yeganə mümkün yoldur. Biz istərdik ki, hərbi faza danışıqlar masası arxasında başa çatsın, Azərbaycan ərazilərinin bundan sonra da işğaldan azad olunması məsələləri həll edilsin”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib**

[08:03] 29.10.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 28-i gün ərzində və 29-na keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif tipli topu, bir neçə dayaq məntəqəsi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Qiyaslı və Sarıyataq kəndlərinin videogörüntülərini yayıb**

[09:47] 29.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Qiyaslı və Sarıyataq kəndlərinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla videogörüntüləri təqdim edib.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Ermənistanın iki Su-25 təyyarəsi məhv edilib**

[14:14] 29.10.2020

Oktyabrın 29-da saat 13:18 və 13:20 radələrində cəbhənin Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki Su-25 hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun qarşısında bir hədəf var: işğal altında qalan bütün torpaqlarımızın azad olunması**

[19:50] 29.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımızda dinc əhalini və mülki infrastrukturu atəşə tutan düşmən bölmələrini Azərbaycan Ordusu cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində gedən döyüşlərdə darmadağın edib. Dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən itki verərək qaçmağa və geriyə çəkilməyə məcbur edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 29-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, ümumilikdə düşmənin ordu korpusunun və diviziyasının yüksək rütbəli zabitləri daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif artilleriya qurğusu, 6 ədəd avtomobil texnikası və bir neçə dayaq məntəqəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib. Döyüş meydanında məhv olan bölmələrinə dəstək üçün gələn düşmənə məxsus iki "Su-25" tipli hücum təyyarəsi hərbi hava hücumundan müdafiə bölmələrimiz tərəfindən havada məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, düşmənin bir neçə istiqamətdə hücum etmək cəhdinin qarşısı qətiyyətlə alınıb. Ermənistan ordusu Bərdə, Goranboy və Tərtər rayonlarında yaşayış məntəqələrimizi və mülki infrastrukturlarımızı raket və artilleriya silahları ilə atəşə tutmaqla növbəti müharibə cinayətlərinə əl atıb.

Özbaşınalığın hökm sürdüyü Ermənistan ordusunda könüllülər və nizami bölmələrinin şəxsi heyəti arasında açıq qarşıdurmalar, tabesizlik, bir-birilərinə qarşı silah tətbiq etmə, döyüşə girməkdən imtina, əmr olmadan mövqelərdən geri çəkilmə və kütləvi fərarilik halları baş alıb gedir. Təşviş və xaos bürümüş ordusunun uğursuzluğunu gizlətmək məqsədilə feyk foto və videomaterialların, saxta məlumatların da faydasız olduğunu görən Ermənistan rəhbərliyi düşdükləri ağır vəziyyətlə barışmağa məcbur edilir.

"Beynəlxalq humanitar hüququn normalarını kobudcasına pozaraq dinc sakinləri və mülki infrastrukturu hədəfə almaqla Ermənistan silahlı qüvvələri müharibə cinayətlərini davam etdirir. Azərbaycan Ordusunun qarşısında bir hədəf var: mülki insanlara ziyan vurmadan, yalnız legitim hərbi hədəfləri dəqiq atəşlə məhv edərək işğal altında qalan bütün torpaqlarımızın azad olunması. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**Müdafiə Nazirliyi cəbhədəki son vəziyyəti açıqlayıb**

[08:18] 30.10.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 29-u gün ərzində və 30-na keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 PDM, 2 ədəd "Smerç" və 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 1 ədəd "Osa" ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**Azərbaycan MN: Qubadlı rayonunun ərazisi Ermənistan ərazisindən artilleriya atəşinə tutulur**

[12:04] 30.10.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan rayonlarının ərazisini atəşə tutmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda düşmən bölmələri Gorus rayonu tərəfdən Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutur.

Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görüləcək.

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayılın, Zəngilanın və Qubadlının 9 kəndini işğaldan azad edib**

[15:01] 30.10.2020

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün “Twitter” hesabında bildirib.

**Anar Eyvazov: Cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır**

[19:34] 30.10.2020

Ötən müddət ərzində humanitar atəşkəs rejimini pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarını, o cümlədən Gorus rayonu istiqamətindən Qubadlı rayonunun ərazilərini raket və artilleriya vasitələrindən atəşə tutub. Cəbhənin əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrinin qarşısı qətiyyətlə alınıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 30-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, döyüş texnikası və canlı qüvvə baxımından xeyli sayda itki verən düşmən geri çəkilməyə məcbur edilib. Bərdə və Tərtər şəhərlərinə raket hücumları həyata keçirən düşmənin üç ədəd “Smerç” yaylım atəşli reaktiv sistemi və ermənilərin qondarma özünü müdafiə ordusu adlandırdıqları Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun komandan müavini, o cümlədən düşmənin xeyli sayda canlı qüvvəsi, “Qrad” yaylım atəşli reaktiv sistemi, “Osa” zenit raket kompleksi, P-18 radiolokasiya stansiyası, 2 ədəd “Qvozdika” özüyeriyən haubitsası, 10 ədəd artilleriya topu, piyada döyüş maşını, 3 ədəd tankı, 4 ədəd avtomobil texnikası və yeni istismara verilmiş raket-artilleriya silahları anbarı bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatları çərçivəsində Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 9 kəndi işğaldan azad edilib.

“Uğursuz fəaliyyətlərini gizlətmək məqsədilə müxtəlif dezinformasiyalar yayan düşmənin guya Azərbaycan Ordusuna aid silah anbarının və pilotsuz uçuş aparatının məhv edilməsi ilə bağlı məlumatları həqiqəti əks etdirmir. Hazırda cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 31-nə olan son vəziyyət**

[08:00] 31.10.2020

Oktyabrın 30-u gün ərzində və 31-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd PDM, 2 ədəd “Smerç” və 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemləri, 12 ədəd müxtəlif tipli topu, 1 ədəd “Osa” ZRK, 1 ədəd radioelektron mübarizə stansiyası, 2 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**Azərbaycan Müdafiə Nazirliyi: Qubadlını artilleriya atəşinə tutan düşmənin atəş nöqtələrinə cavab atəşi açılıb**

[08:44] 31.10.2020

Ermənistan Müdafiə Nazirliyinin rəsmisinə istinadən guya Azərbaycan Ordusunun Qafan şəhəri yaxınlığındakı David Bek kəndi istiqamətində döyüş əməliyyatları aparması barədə bu ölkənin mətbuatının yaydığı məlumat həqiqətə uyğun deyil.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb.

"Azərbaycan Ordusunun bölmələri göstərilən istiqamətdən Qubadlı ərazisini artilleriya atəşinə tutan düşmənin atəş nöqtələrinə cavab atəşi açıb. Bildiririk ki, bundan sonra da düşmənə qarşı adekvat cavab tədbirləri görüləcək", - deyə məlumatda qeyd olunub.

**AZƏRTAC**

**Ali Məhkəmə Ermənistan ordusunun Azərbaycanın dinc əhalisini hədəfə alması ilə bağlı bəyanat yayıb**

[16:42] 31.10.2020

Azərbaycan Respublikasının Ali Məhkəməsi Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində mülki şəxslərin həlak olması və xəsarət alması ilə bağlı bəyanat yayıb.

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda qeyd olunub ki,

Ermənistan Respublikasının silahlı qüvvələri oktyabrın 27-də və 28-də rəsmi olaraq elan edilmiş humanitar atəşkəs rejimini yenidən pozaraq "Smerç" yaylım atəşli reaktiv sistemdən və beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə etməklə fəal hərbi zonadan təxminən 40 kilometr məsafədə yerləşən, sıx məskunlaşmış əhalisi olan Azərbaycan Respublikasının Bərdə şəhərinə zərbələr endiriblər.

Azərbaycanın mülki əhalisinə qarşı qəsdən və heç bir fərq gözlənilmədən törədilən hücumlar nəticəsində uşaqlar da daxil olmaqla 26 mülki şəxsin öldüyü və 83-dən çox insanın müxtəlif dərəcəli bədən xəsarəti aldığı bildirilir. Dinc əhali arasında itkilərlə yanaşı, mülki infrastruktura da ciddi ziyan dəyib. Bərdədə mülki əhaliyə qarşı qəsdən və heç bir ayırım gözənilmədən törədilən bu son hücumlar "Amnesty International", "Human Rights Watch" və digər insan hüquqları təşkilatlarının yayımladığı hesabatlarda ətraflı şəkildə sənədləşdirilib.

Ümumiyyətlə Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycana qarşı hücumları nəticəsində bu günədək 91 mülki şəxs öldürülüb, 400-dən çox insan müxtəlif dərəcəli bədən xəsarəti alıb və Azərbaycanın müxtəlif şəhər və qəsəbələrində xüsusi mülkiyyət daxil olmaqla 3000-dən artıq mülki obyekt məhv edilib və ya zədələnib.

Diqqətə çatdırılıb ki, Ermənistan silahlı qüvvələri bu günədək dinc əhaliyə öz ərazilərindən və işğal olunmuş Azərbaycan ərazilərindən atəş açmaqda davam edir. Ermənistan hökuməti Azərbaycanın işğal olunmuş ərazilərindəki cinayətkar rejimə hərbi, siyasi, maliyyə və digər maddi dəstək verir, o cümlədən silahlı qüvvələrini, hərbi texnikasını və "könüllülər" adlandırdıqları, əslində isə muzdlular olan şəxsləri suveren Azərbaycan ərazisinə göndərir.

Bu halları təsdiq edən xeyli sayda əsaslı sübutların olması nəzərə alınaraq, Azərbaycan hökuməti 2020-ci il oktyabrın 27-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət göndərərək Məhkəmədən Ermənistanı yuxarıda göstərilən qanunsuz tədbirlərin dayandırılmasına, silahlı qüvvələrini və qanunsuz olaraq Azərbaycanda yerləşdirilmiş silahlılarını geri çəkməyə, Azərbaycana və onun vətəndaşlarına qarşı nifrət siyasəti yürütməkdən çəkindirməyə çağırmağı tələb edib.

Azərbaycan hökuməti, öz növbəsində silahlı qüvvələrin mülki şəxslərə hücum etməsinə və mülki insanlara zərər vuran hücumlara qarşı mütləq bir qadağaya riayət etməsini tələb edən beynəlxalq humanitar hüququn əsas prinsipinə həmişə əməl etdiyini bildirib. Azərbaycan silahlı qüvvələri mülki əhaliyə hücumlara olan qadağaya riayət edilməsinə dair bağlılığını bir daha təsdiqləyərək, əksinə, döyüş meydanında düşmənin hərbi hədəflərinə ciddi zərbələr endirir.

Beynəlxalq səviyyədə tanınmış öz sərhədləri daxilində dövlət suverenliyini bərpa etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun olaraq özünümüdafiə hüququnun həyata keçirilməsi nəticəsində son həftələrdə Azərbaycan Silahlı Qüvvələri Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri də daxil olmaqla, bir sıra şəhər və qəsəbələri erməni işğalından azad edib.

"Biz beynəlxalq ictimaiyyəti Bərdə şəhərinə və Azərbaycanın digər yaşayış məntəqələrinə qarşı törədilən terror aktlarını qətiyyətlə pisləməyə çağırırıq. İnsanlığa qarşı bu dəhşətli cinayətləri, o cümlədən 1992-ci ilin fevralında Xocalıda Azərbaycanın mülki əhalisinə qarşı törədilən misli görünməmiş soyqırımını törədənlər dərhal tutulmalı və ədalət mühakiməsinə cəlb olunmalıdırlar.

Biz ərazi bütövlüyünü bərpa etmək, Dağlıq Qarabağ və ona bitişik rayonları Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyan və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrinin müddəalarını həyata keçirən Azərbaycan hökumətinin səylərini dəstəkləyirik", - deyə bəyanatda qeyd olunub.

Bəyanatı Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev imzalayıb.

Ali Məhkəmənin Bəyanatı dünya ölkələrinin, o cümlədən Avropa Şurasının üzv dövlətlərinin Ali Məhkəmələrinə göndərilib.

**AZƏRTAC**

## Azərbaycan QHT-ləri Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi ilə bağlı bəyanat yayıblar

[18:14] 31.10.2020

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi ilə bağlı bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir.

Azərbaycan Ordusunun son 1 ayda işğal olunmuş ərazilərimizin böyük bir hissəsini, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları da daxil olmaqla 200 kənd və qəsəbəni azad etməsi, Ermənistanın döyüş meydanında darmadağın edilməsi, üçüncü ölkəni münaqişəyə cəlb etmək cəhdinin iflasa uğraması düşmənin ağır məğlubiyyətini qaçılmaz etmişdir.

Çarəsiz durumda olan Ermənistanın hərbi-siyasi rəhbərliyi vəziyyətdən çıxış yolu kimi Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən şəhər və rayonlarını ballistik raket atəşlərinə məruz qoyur və qadağan olunmuş kasetli bombalardan istifadə etməklə çoxlu sayda mülki əhalimizi qətlə yetirməkdə və yaralamaqda davam edir. Oktyabrın 31-nə olan məlumata əsasən, Ermənistanın törətdiyi hərbi cinayət nəticəsində 91 nəfər həlak olub, 404 nəfər isə yaralanıb.

Ermənistan insanlığa qarşı törədiyi cinayətlərin Azərbaycan xalqını qorxutmadığını və torpaqlarını işğaldan azad etməkdə qərarlı olduğunu görərək yeni və daha təhlükəli metodlara və təxribatlara əl atmağa başlayıb.

Belə ki, bu gün Azərbaycan Müdafiə Nazirliyinin verdiyi rəsmi məlumata görə, işğal altında olan Xocavənd istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının müdafiə sahəsindəki bölmələrinə xeyli sayda fosfor tərkibli yükün gətirildiyi barədə kəşfiyyat məlumatı daxil olub.

Ehtimal olunur ki, fosfor tərkibli döyüş sursatının qeyd olunan ərazilərə gətirilməsində Ermənistanın hərbi-siyasi rəhbərliyinin məqsədi, ilk növbədə, onun Azərbaycan Ordusunun bölmələrinə qarşı tətbiq edilməsidir. Digər tərəfdən isə həmin sursatın guya Azərbaycan tərəfindən əraziyə səpələndiyi barədə dezinformasiya yaymaqdır.

Artıq Ermənistanın təbliğat maşını guya Azərbaycan Ordusunun ağ fosfor tərkibli silah tətbiq etməsi barədə yalan və saxta məlumat yayaraq gələcək təxribatlar üçün zəmin yaratmağa başlayıb. Belə ki, bu gün Ermənistan silahlı qüvvələri Şuşa meşələrində qadağan olunmuş ağ fosfordan istifadə etməklə qəsdən yanğın törətmiş və bunu Azərbaycanın üzərinə atmağa çalışmışdır. Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi qəbul olunmuş müvafiq beynəlxalq konvensiyaların növbəti dəfə kobud şəkildə pozulması və dəhşətli müharibə cinayəti aktıdır.

Hesab edirik ki, aidiyyəti beynəlxalq təşkilatlar Ermənistan tərəfindən törədilən bu hərbi cinayətə laqeyd qalmamalı və ona adekvat qiymət verməlidir. Eyni zamanda, beynəlxalq ictimaiyyət Ermənistanın hərbi-siyasi rəhbərliyini tarix və hüquq qarşısında məsuliyyət daşıyacağı beynəlxalq cinayətlər törətməyi dayandırmağa, xalqının gələcək taleyini düşünərək işğal olunmuş Azərbaycan ərazilərini tərk etməyə, regionda sülhün və təhlükəsizliyin yaranmasına mane olmamağa çağırmalıdır.

Bəyanat 31 QHT tərəfindən imzalanıb.

**AZƏRTAC**

## Anar Eyvazov: Azərbaycan Ordusunda heç bir qadağan olunmuş silah yoxdur

[18:21] 31.10.2020

Sentyabrın 27-dən etibarən bu günədək Azərbaycan Ordusu tərəfindən başladılan əks-həmlə əməliyyatı dövründə bütün birləşmələrimiz və bölmələrimiz verilən göstərişlərə uyğun olaraq beynəlxalq humanitar hüququn normalarına, o cümlədən Cenevrə Konvensiyası və əlavə edilmiş bütün protokollara, norma və prinsiplərə tam olaraq riayət edir. Bu müddətdə düşmən canlı qüvvə, döyüş texnikası baxımından ağır itkilər verərək hər dəfə geriyə çəkilməyə məcbur edilir. Bir neçə şəhərimiz, kəndimiz və qəsəbəmiz artıq işğaldan azad edilib. Hazıra Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində döyüşlər davam edir. Düşmənə qarşı ciddi tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 31-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, bu müddətdə üç dəfə humanitar atəşkəs rejimi elan edilib. Bölmələrimiz tərəfindən göstərişə uyğun olaraq bu rejimə tam olaraq riayət edilir. Təəssüf ki, düşmən elan olunan humanitar atəşkəslərdən sui-istifadə edərək hər dəfə bölmələrimizə qarşı hücum etməyə cəhd edib və onlar itirdikləri mövqeləri yenidən əldə etmək üçün ordumuza qarşı əks-hücum əməliyyatları icra etməyə çalışıblar. Hər dəfə ağır itki verərək geri bir az daha çəkilməyə məcbur olublar. Döyüş meydanında dəfələrlə uğursuzluqla üzləşən düşmən bölmələri çarəni başqa istiqamətlərdə axtarırlar və vəziyyəti dəyişdirmək üçün başqa çıxış yolları axtarırlar. Bizim döyüş sahəsindən kənarda yerləşən yaşayış məntəqələrimizi raket və artilleriya silahları ilə atəşə tuturlar. Bu da bizim mülki əhalimizə və infrastrukturumuza ziyan vurur.

Biz bunların qarşısını almaq üçün döyüş əməliyyatlarını davam etdiririk. Düşmənin ağır silahları havadan və yerdən aşkar olunaraq məhv edilir. Bu əməliyyatların yekunlaşması üçün işğal altındakı bütün ərazilərimiz azad edilməli və ərazilərimizdə silahlı düşmən qalmamalıdır. Bütün əməliyyatlarımız yalnız əməliyyat sahəsində həyata keçirilir. Bizim Ermənistanda heç bir hədəfimiz yoxdur. Bizim bütün hədəflərimiz yalnız düşmənin silah olan bölmələridir və onun legitim hərbi obyektləridir ki, biz bunlara qarşı havadan və qurudan əməliyyatlarımızı davam etdiririk.

Müdafiə Nazirliyinin mətbuat katibi qeyd edib ki, düşmənin yaşayış məntəqələrimizə mərmilər atmasının səbəblərindən biri bizi təhrik etməkdir. Onlar bizim mövqelərimizi Ermənistandan atəşə tuturlar. Bu mövqelərə cavab atəşləri açmağımızı gözləyirlər, bir az daha cəbhəni genişləndirmək istəyirlər. Lakin Azərbaycan Ordusu tapşırığa uyğun olaraq yalnız işğal altındakı torpaqlarımızda əməliyyatları davam etdirir.

Düşmənin digər məqsədi mülki insanlarımız arasında təşviş yaratmaqdır. Ancaq onlar buna nail ola bilmirlər. Xalqımız Ali Baş Komandanımızın ətrafında möhkəm birləşir. Ordumuzun gücü ilə düşmənə daha da sarsıdıcı zərbələr endirərək itkilərə uğradır. Düşmən bunu görür və bundan sarsılır. Bu xalq-ordu-dövlət birliyini yalnız düşmən deyil, ordumuz da görür. Bizim Azərbaycan əsgəri bundan güc alır, döyüş ruhu daha da artırılır. Hazırda döyüş sahəsində Azərbaycan əsgərinin mənəvi-psixoloji vəziyyəti, ordumuzun maddi-texniki təminatı çox yüksək səviyyədir. Biz bu minvalla əməliyyatlarımız davam etdirəcəyik.

“Düşmənin təxribat törədərək mülki əhalimizə qarşı qeyri-qanuni silah və sursatlardan istifadə edir. Bizi də təhrik edərək dezinformasiya və yalan məlumat yaymağa çalışırlar. Biz bəyanatlarımızda bildirdiyimiz kimi, Azərbaycan Ordusunda heç bir qadağan olunmuş silah yoxdur və istifadə olunmur. Arsenalımızda olan silah-sursatlarla düşmənin istənilən nöqtəsinin məhv etməyimizə gücümüz çatır.

Əldə olunan məlumata görə, düşmən Xocavənd istiqamətində fosfor tərkibli maddələr gətirib. Düşmən gizlənmək məqsədilə bu maddələrdən meşələrdə tətbiq etmək istəyir. Meşələrdə yanğınlar törədərək bunu Azərbaycan Ordusunun üzərinə atmaq istəyir. Dezinformasiya yayaraq öz bölmələrinin orada gizlənməsini təmin etmək istəyir. Lakin biz bəyanatlarımızla, apardığımız şəffaf əməliyyatlarla və yaydığımız videogörüntülərlə hər gün öz ictimaiyyətimizi və beynəlxalq ictimaiyyəti bu barədə məlumatlandırırıq”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun döyüş ruhu yüksək səviyyədədir**

[20:06] 31.10.2020

Ötən müddət ərzində Ermənistan silahlı qüvvələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun bölmələrinin yerləşdiyi mövqeləri və Tərtər, Ağdam, Ağcabədi daxil olmaqla bir sıra yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya qurğularından və raketlərlə atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 31-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, döyüş əməliyyatları əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən yenə də dezinformasiya yayaraq Azərbaycan Ordusunun guya Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi istiqamətində döyüş əməliyyatları apardığını iddia edib. Reallıqda isə bu istiqamətdən Qubadlını artilleriya atəşinə tutan legitim hərbi hədəfə ordumuz adekvat cavab tədbirləri olaraq atəş açıb.

“Düşmən bilməlidir ki, bundan sonra da ona qarşı adekvat cavab tədbirləri görüləcək. Qoşunlarımızın müdafiə xəttinə yaxınlaşmağa cəhd göstərən Ermənistanın xüsusi təyinatlılardan ibarət kəşfiyyat-diversiya qrupunun fəaliyyətinin qarşısı qətiyyətlə alınıb. Onları daşıyan avtomobil texnikası da şəxsi heyətlə birlikdə dəqiq atəş zərbəsi ilə məhv edilib. Bundan başqa, cəbhənin digər istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 “Smerç” və üç “Qrad” olmaqla 5 yaylım atəşli reaktiv sistemi, 5 tankı, 3 piyada döyüş maşını, 15 müxtəlif tipli artilleriya topu, 1 “Osa” zenit raket kompleksi, 1 radioelektron mübarizə stansiyası, biri sursatla dolu 3 avtomobil texnikası ordumuzun cavab tədbirləri nəticəsində məhv edilib”, - deyə Anar Eyvazov bildirib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun Xocalını, Şuşanı və Xankəndini raket atəşinə tutması, bunun guya mülki əhaliyə qarşı yönəlməsi barədə Ermənistan mətbuatının tirajladığı məlumatlar da saxtadır, növbəti dezinformasiyadır. Ordumuz düşməndən fərqli olaraq, mülki əhaliyə deyil, yalnız hərbi hədəflərə atəş açır. Azərbaycan Ordusunun silahlanmasında beynəlxalq hüquqla qadağan olunmuş heç bir silah-sursat yoxdur. Bununla bağlı yayılan dezinformasiyalar düşmənin törətdiyi müharibə cinayətlərindən diqqəti yayındırmaq məqsədi daşıyır.

“Hazırda qoşunlarımız bütün istiqamətlərdə əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun döyüş ruhu yüksək səviyyədədir. Ali Baş Komandanımızın bütün döyüş tapşırıqları icra edilir. Qələbə bizimlədir”, - deyə mətbuat katibi vurğulayıb.

**AZƏRTAC**

**Ermənistan ərazisinin atəşə tutulması xəbəri tamamilə yalandır və düşmənin növbəti təxribatıdır**

[22:41] 31.10.2020

Azərbaycanın Qubadlı rayonu ərazisindən guya Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndinin atəşə tutulması nəticəsində yaralıların və xeyli sayda dağıntıların olması ilə bağlı Ermənistan tərəfinin yaydığı xəbər yalandır və növbəti təxribatdır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətidən bildirilib.

“Ermənistan-Azərbaycan dövlət sərhədinin Qubadlı sahəsində rayonun 4-5 km dərinliyində, Azərbaycan ərazisində artilleriya qurğularının atəş nöqtələrini yerləşdirən düşmən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusunun bölmələrini gün ərzində intensiv atəşə tutub. Yalnız sərhədlərimiz çərçivəsində tərəfimizdən düşmənin həmin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görülüb.

Bir daha bildiririk ki, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur. Azərbaycan Ordusu dünya birliyi tərəfindən tanınan ölkəmizin sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa edir”, - deyə nazirliyin məlumatında qeyd olunur.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 1-nə olan son vəziyyət**

[08:08] 01.11.2020

Oktyabrın 31-i gün ərzində və noyabrın 1-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətidən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında xeyli sayda itki var.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd PDM, 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

## Ermənistan dövlət sərhədində atəşkəs rejimini pozub

[09:40] 01.11.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusu bölmələrinin mövqelərini artilleriya, minaatan və atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətidən AZƏRTAC-a bildirilib ki, noyabrın 1-ə keçən gecə müxtəlif vaxtlarda Ermənistanın Berd, Çəmbərək və Gorus rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Qubadlı rayonlarında yerləşən ordu bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə tutulub.

## Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

[12:08] 01.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, hörmətli Mövlud bəy, əziz qonaqlar.

Sizi görməyimə şadam. Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan həmrəyliyini göstərir. Müharibənin ilk günlərindən, ilk saatlarından başlayaraq Türkiyə bizim yanımızdadır. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycan tək deyil. Bu siyasi və mənəvi dəstək bu gün də davam edir. Həm hörmətli Prezident, eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin Sədri, siz - Xarici İşlər naziri, Müdafiə naziri və digər yüksəkvəzifəli şəxslər dəfələrlə Azərbaycana dəstək göstərmisiniz. Bu, bizi, Azərbaycan xalqını çox məmnun edir. Bu, bir daha göstərir biz bütün dövrlərdə - yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk.

Bildiyiniz kimi, əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir. Mən hər həftə azad edilmiş yeni şəhərlər və kəndlər haqqında məlumat verirəm və ümid edirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur. Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır.

Ancaq ümid edirəm ki, bu proses uzun sürməyəcək. Çünki biz 30 il gözləmişik. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik.

Ermənistan faktiki olaraq öz məğlubiyyətini etiraf edib. Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın baş naziri Rusiya Prezidenti cənab Putinə məktub göndərmişdir. Bu məktub, əslində, məğlubiyyətin etirafıdır. Çünki Rusiyadan hərbi dəstək istənilmişdir, halbuki, buna heç bir əsas yoxdur. Azərbaycan öz hərbi əməliyyatlarını beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazisində keçirir, Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirilmir, bizim belə planlarımız da yoxdur. Əgər olsaydı, biz bunu bu ilin iyul ayında edərdik. Bildiyiniz kimi, o vaxt dövlət sərhədində Ermənistan bizə hücum etmişdir və biz dövlət sərhədini keçmədən Ermənistanı öz torpaqlarımızdan çıxartdıq. Ona görə bir tərəfdən, məğlubiyyəti etiraf edir, - bu məktubun göndərilməsi bunu göstərir, - digər tərəfdən, tam təslim olmaq istəmir. Bu gün müharibənin davam etdirilməsi və hər iki tərəfdən itkilərin olması Paşinyanın üzərinə düşən böyük məsuliyyət və çirkin əməllər nəticəsində baş verir. Bütün məsuliyyət Ermənistan tərəfindədir və bu məğlubiyyəti etiraf edib torpaqlarımzdan çıxsa, danışıqlar masası arxasında məsələnin çözülməsi ən məqbul variantdır. Bir sözlə, bu məsələnin həlli artıq baş verir. Mən demişdim ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edir və təməl prinsiplərinin böyük hissəsini icra edibdir. Ümid edirəm ki, təməl prinsiplərinin qalan hissəsi də icra ediləcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Mən bu fürsətdən istifadə edərək, eyni zamanda, bu günlər ərzində bizə Türkiyə vətəndaşları, bizim qardaşlarımız tərəfindən göstərilən dəstəyə görə bütün qardaş Türkiyə xalqına təşəkkürümü bildirmək istəyirəm. Onlar mənə çoxsaylı məktublar göndərirlər, çox səmimi məktublardır və bu, bizim hamımızı duyğulandırır. Eyni zamanda, Türkiyənin media nümayəndələri də gecə-gündüz döyüş meydanlarında öz həyatlarını risk altına atırlar və bu görüntüləri dünya daha çox Türkiyə mediası vasitəsilə görür və bilir. Gəncənin, Bərdənin namərdcəsinə bombalanmasından sonra buraya ilk gələn bizim Türkiyədən olan qardaşlarımızdır. Ona görə bu, bir daha Türkiyə-Azərbaycan birliyini göstərir. Hər zaman mən əziz Qardaşımla bu barədə danışanda biz bilirdik ki, bu birlik sözdə deyil, əməldədir və bunu bu gün bütün dünya bilir. Bir daha xoş gəlmisiniz.

**Mövlud ÇAVUŞOĞLU** dedi:

-Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm, cənab Prezidentim.

Cənab Prezidentimizin təlimatı, tapşırığı ilə gəlmişəm. Hər gün özü ilə danışırsınız, ən azı gündə iki dəfə, amma yenə də Sizə salamlarını göndərdi. Prezidentimizin bizə bir tapşırığı var, bu prosesdə qardaş Azərbaycanı tək qoymayın və davamlı olaraq oraya - Bakıya gedin və birlikdə hərəkət edin. Müdafiə nazirimiz, digər yoldaşlarımız, Binəli bəy də gələcək, Məclis sədrimiz buradadır.

Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq. İnşallah, öz əzəli torpaqlarımızı bu uğurlu əməliyyatlarla geri qaytaracağıq.

Qarabağ məsələsini, davam edən bu əməliyyatları vətəndaşlarımız çox yaxından izləyir və bizə daim “Azərbaycana daha çox dəstək verin, onu tək qoymayın”, - deyə xəbərdarlıqlar edirlər. “Bizi də cəbhəyə göndərin” deyən çoxları var. Əminəm ki, Sizə yazılan məktublarda da bunlar vardır.

**Prezident İlham ƏLİYEV:** Bəli, bəli.

**Mövlud ÇAVUŞOĞLU:** Bütün bu üstünlüyə - həm döyüş meydanındakı üstünlüyə, həm hüquqi üstünlüyə, həm də haqlı olmağımıza baxmayaraq, atəşkəs məsələsində və danışıqlarda da özünə güvənən bir dövlət və millət kimi Sizin liderliyinizlə Azərbaycan güclü dövlət olduğunu bütün dünyaya göstərdi. Bunu anlayan var, anlamayan var, anlamaq istəməyən var.

Ermənistanın da nə etdiyini və atəşkəsi hər dəfə pozduğunu hər kəs görür. Amma bunu söyləmək istəməyən çoxdur, biz bunu bilirik. Bu səbəbdən də biz öz aramızdakı həmrəyliyi daha da gücləndirərək haqqımızı müdafiə etməkdə davam edəcəyik.

**X X X**

Dövlətimizin başçısı Türkiyənin İzmir şəhərində zəlzələ zamanı həlak olanlarla bağlı bir daha başsağlığı verdi. Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

**Prezident: Ermənistan öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaq**

[14:47] 01.11.2020

Əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir. Mən hər həftə azad edilmiş yeni şəhərlər və kəndlər haqqında məlumat verirəm və ümid edirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşdə söyləyib.

"Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur. Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda ordumuz əməliyyat şəraitinə tam nəzarət edir**

[20:07] 01.11.2020

Ötən sutka ərzində düşmən Tərtər və Ağcabədi rayonlarında yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Gorus rayonlarından Tovuz, Gədəbəy və Qubadlıda yerləşən bölmələrimizin mövqelərini artilleriya və digər atıcı silahlardan atəşə tutub. Əsasən Ağdərə, Ağdam, Xocavənd, Qubadlı və Zəngilan istiqamətlərində aparılan döyüş əməliyyatlarında ordumuzun cavab tədbirləri nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd piyada döyüş maşını, dörd ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, ikisi sursatla dolu olmaqla 7 ədəd avtomobil texnikası dəqiq atəş zərbələri ilə məhv edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 1-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi bildirib ki, düşmənə məxsus silah və sursat ələ keçirilib. Cəbhənin müxtəlif istiqamətlərində gün ərzində düşmənin iki artilleriya batareyası məhv edilib. “Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur. Bununla yanaşı, biz xəbərdarlıq etmişik ki, Ermənistan ərazisindən bölmələrimizin mövqelərinə və yaşayış məntəqələrimizə atəş açan düşmən mövqeləri və döyüş vasitələri adekvat tədbirlər çərçivəsində legitim hərbi hədəflərə çevrilir”, - deyə o bildirib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusu müasir texnoloji silahlarla düşmənin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxararaq onu faktiki olaraq iflic vəziyyətinə gətirir. Müasir texnoloji silahlar ordumuzun güc alətlərindən yalnız biridir. Müharibənin taleyini müəyyən edən başda Müzəffər Ali Baş Komandanımız olmaqla döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandiridir. Məhz onların səyi nəticəsində iflic vəziyyətinə düşən Ermənistan ordusu arsenalında olan köhnə və istismar müddəti bitmiş silah sistemlərini də döyüşə cəlb edir.

"İstisna olunmur ki, Ermənistan ərazisindən Azərbaycanın mülki əhalisini hədəfə alan düşmənin bu tip sistemlərdən atdığı raketlərin bəziləri uçuş trayektoriyalarını dəyişərək işğal altında olan yaşayış məntəqələrinin və oradakı mülki obyektlərin üzərinə düşür. Hazırda ordumuz əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 2-nə olan son vəziyyət**

[07:57] 02.11.2020

Noyabrın 1-i gün ərzində və 2-ə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, döyüş əməliyyatları əsasən cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Müdafiə olunan düşmən bölmələri cəbhənin bəzi istiqamətlərində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib. Düşmənin silah, sursat, ərzaq ehtiyatları tükənmək üzrədir. Avtomobil və digər hərbi texnika üçün ehtiyat hissələri çatışmır.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını və 5 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha bir neçə kəndini işğaldan azad edib**

[16:19] 02.11.2020

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün “Twitter” hesabında bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir**

[18:52] 02.11.2020

Ötən sutka ərzində döyüş əməliyyatları cəbhənin əsasən Ağdam, Xocavənd, Qubadlı və Zəngilan istiqamətlərində davam edib. Düşmən bölmələri Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Qazax, Tovuz və Daşkəsəndə, o cümlədən cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndləri daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, raket və artilleriya vasitələrindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 2-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi bildirib ki, Zəngilan istiqamətində əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə hücum edən Ermənistanın hərbi qruplaşmaları bölmələrimiz tərəfindən vaxtında aşkarlanıb. Keçirilmiş uğurlu əməliyyatla düşmən itki verərək geri çəkilməyə məcbur edilib. Cəbhənin digər istiqamətlərində də ordumuzun fəaliyyəti nəticəsində düşmən şəxsi heyət və hərbi texnika baxımından itki verib. Səngərlərdə və yeraltı sığınacaqlarda gizlənən düşmənin canlı qüvvəsi Hərbi Hava Qüvvələrimizin zərbələri ilə məhv edilib. Hərbi sığınacaqlar darmadağın olunub.

Anar Eyvazov qeyd edib ki, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 8 kəndi işğaldan azad edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi ilə yanaşı, 8 ədəd “Qrad” yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını, 5 ədəd digər avtomobil texnikası və mövqelərimizə hücum edən “Su-25” tipli döyüş təyyarəsi məhv edilib. Hazırda ordumuza qarşı döyüşən hərbi qruplaşmalarda silah-sursat, ərzaq və hərbi texnika üçün ehtiyat hissələri çatışmazlığı müşahidə olunur.

“Ordumuzun sayıqlığı nəticəsində düşmən bölmələrinin istənilən fəaliyyətinin qarşısı dərhal alınır. Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir. Bu gün Azərbaycan əsgəri Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüş meydanında düşməni ağır məğlubiyyətə uğradaraq Ermənistan rəhbərliyinin uzun müddətdir yaratdığı mifi yox edir. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Düşmən növbəti dəfə Ermənistan ərazisindən Qubadlını atəşə tutur**

[19:04] 02.11.2020

Noyabrın 2-də günün ikinci yarısından başlayaraq Ermənistan silahlı qüvvələri Qubadlı və rayonun kəndlərini artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda da Ermənistanın Qafan rayonunun David Bek kəndi istiqamətindən Qubadlı rayonunun ərazisi intensiv atəşə tutulur.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 3-nə olan son vəziyyət**

[07:45] 03.11.2020

Noyabrın 2-də gün ərzində və 3-ə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu və 2 ədəd sursatla dolu yük maşını məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**BERNAMA agentliyi Azərbaycan Ordusunun cəbhədəki uğurlarını geniş işıqlandırır**

[09:43] 03.11.2020

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqların azad olunması uğrunda gedən döyüşlərdə əldə etdiyi qələbələri geniş işıqlandırır.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, agentlik Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) istinadla Ermənistan tərəfindən uzun illərdir ki, işğal altında saxlanılan tarixi Azərbaycan torpaqları Dağlıq Qarabağın və ətraf rayonların azad olunması istiqamətində artıq bir aydan çoxdur ki, davam edən müharibə barədə malayziyalı oxuculara həm ingilis, həm də Malay dilində obyektiv xəbərlər çatdırır. Belə ki, agentliyin son məlumatlarında Azərbaycan hava hücumundan müdafiə qüvvələri tərəfindən Ermənistana məxsus SU-25 qırıcı təyyarəsinin məhv edilməsi barədə informasiya yer alıb. Bildirilir ki, bu, son dörd gündə Ermənistanın məhv edilən üçüncü hərbi təyyarəsidir.

Döyüşlərin gedişi ilə əlaqədar verilən digər məlumatda isə Azərbaycan Prezidenti İlham Əliyevin öz "Twitter" hesabında paylaşdığı daha bir neçə kəndin düşmən işğalından azad edilməsi barədə informasiya barədə xəbər verilir.

Həmin xəbərdə Azərbaycan Prezidentindən sitat gətirilərək deyilir: "Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!".

Xəbərlərdə münaqişənin tarixi və səbəbləri barədə də malayziyalı oxuculara geniş məlumatlar çatdırılır. Qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddialarına 1988-ci ildə başlanıb. 1992-ci ildə iki keçmiş sovet respublikası arasında müharibəyə çevrilən münaqişə xarici havadarlarına arxalanan Ermənistanın qələbəsi ilə yekunlaşıb. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs elan olunsa da, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Dağlıq Qarabağda yaşayan separatçı ermənilər müstəqil respublika elan etsələr də bu qondarma "dövlət" heç bir beynəlxalq qurum və dövlət tərəfindən tanınmayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etsə də, Ermənistan hökuməti bu sənədləri icra etməyib.

Cari il sentyabrın 27-də Ermənistan ordusunun növbəti təxribatının qarşısını alan Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçərək işğal altında olan torpaqları azad etməyə başlayıb.

**Vüqar Ağayev,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur**

**AZƏRTAC**

**Anar Eyvazov: Ermənistanın Azərbaycanla dövlət sərhədindəki mövqelərimizi atəşə tutması ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir**

[16:33] 03.11.2020

Ötən sutka ərzində Ermənistanın Berd, Çəmbərək, Vardenis və Qafan rayonlarından Tovuz, Gədəbəy, Daşkəsən, Qubadlı və Zəngilanda yerləşən mövqelərimiz atəşkəs rejimini kobud şəkildə pozan düşmən tərəfindən atəşə tutulub. Ermənistanın, xüsusilə Azərbaycanla dövlət sərhədində yerləşən mövqelərimizi atıcı silahlar, top və minaatanlardan atəşə tutması təhrikedici mahiyyət daşımaqla ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 3-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi qeyd edib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Cəbhənin bir neçə istiqamətindəki mövqelərimizə, xüsusən azad edilmiş ərazilərə yenidən hücumlar edən düşmən şəxsi heyət və texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edilib. Sutka ərzində daimi dislokasiya məntəqəsində, səngərlərdə və atəş mövqelərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu, 2 ədəd sursatla dolu yük maşını və sursat anbarı, o cümlədən cəbhədə uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı məhv edilib.

“Əminliklə deyə bilərik ki, Azərbaycan Ordusunun döyüş taktikası ilə məqsədyönlü şəkildə bütün istiqamətlərdə sıxışdırılan düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilir, həmçinin xeyli sayda hərbi qənimət ələ keçirilir. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir”, - deyə Anar Eyvazov vurğulayıb.

Mətbuat katibi bildirib ki, Ermənistan tərəfindən fərqli olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatını beynəlxalq humanitar hüquq norma və prinsiplərinə uyğun olaraq həyata keçirir. Düşmənin canlı qüvvəsi və legitim hərbi hədəfləri dəqiq atəş zərbələri ilə məhv edilir. Pərakəndə şəkildə fəaliyyət göstərən düşmənin döyüş meydanındakı vəziyyətdən xəbəri olmayan hərbi-siyasi rəhbərliyi hələ də uydurma məlumatlarla daxili auditoriyaya təsəlli verir. Bu yalanlarla aldadılaraq işğal altındakı ərazilərə gətirilən döyüşçülərin məhv edilmədən öncə həqiqəti dərk etmələri və silahı yerə qoyub könüllü şəkildə təslim olmağı onların sağ qalmaları üçün yeganə yoludur. Qələbə bizimlədir.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 4-nə olan son vəziyyət**

[07:45] 04.11.2020

Noyabrın 3-ü gün ərzində və 4-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 topu, “Zastava M-55” zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Pakistan səfiri Ermənistanın mülki əhalimizə qarşı törətdiyi cinayətlər barədə məlumatlandırılıb**

[15:18] 04.11.2020

Noyabrın 4-də Azərbaycanın Müdafiə Sənayesi naziri Mədət Quliyev Pakistan İslam Respublikasının Azərbaycandakı səfiri Bilal Haye ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazir Mədət Quliyev Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu vurğulayıb. Ermənistan silahlı qüvvələrinin hazırda davam edən təcavüzü ilə bağlı dost ölkənin qəti mövqeyini və hər zaman Azərbaycanın yanında olmasının xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

M.Quliyev son günlərdə Pakistanda baş verən terror aktları ilə əlaqədar günahsız insanların öldürülməsi və yaralanması ilə bağlı səfirə dərin hüznlə başsağlığı verib. Nazir bildirib ki, Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayaraq Tərtər, Ağdam, Mingəçevir, Ağcabədi, Beyləqan, Gəncə, Bərdə şəhərlərini, bir sıra kənd və qəsəbələri, yaşayış məntəqələrini ağır artilleriya və raket qurğularından atəşə tutması nəticəsində mülki əhalimizə qarşı insanlıq əleyhinə cinayətlər törədilib.

Səfirin diqqətinə çatdırılıb ki, dinc sakinlərə qarşı raket hücumları nəticəsində ümumilikdə 91 nəfər qətlə yetirilib, 405 nəfər yaralanıb, minlərlə yaşayış evinə və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib. Bu, bir daha sübut edir ki, döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan ordusu çıxış yolunu mülki əhaliyə qarşı yönəlmiş cinayətlərdə görür.

Nazir M.Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmənə hərb meydanında yetərli cavab verməsi, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, onlarla kənd, qəsəbə və yaşayış məntəqələrinin işğaldan azad edilməsi, qədim Xudafərin körpüsünə Azərbaycan bayrağının sancılması ilə bağlı səfiri məlumatlandırıb.

Səfir Bilal Haye Pakistanın həmişə Azərbaycanın yanında olduğunu bildirib.

Görüşdə iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha 7 kəndini işğaldan azad edib**

[17:52] 04.11.2020

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

**AZƏRTAC**

## Anar Eyvazov: Hazırda qoşunlarımız döyüşləri tam üstünlüklə davam etdirir

[19:05] 04.11.2020

Ötən sutka ərzində düşmənin bölmələri Ermənistanın Berd rayonu istiqamətindən Tovuz və Ağstafa rayonlarında yerləşən mövqelərimizi və cəbhənin müxtəlif istiqamətlərində ordumuzun digər mövqelərini, o cümlədən Ağdam, Ağcabədi, Tərtərdəki yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 4-də Hərbi İnformasiya Mərkəzində keçirdiyi brifinqdə bildirib.

Mətbuat katibi deyib ki, Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrimizin qəti cavab tədbirləri nəticəsində şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edilib. Aparılan əməliyyatlar nəticəsində düşmənin 10-cu dağatıcı və 37-ci atıcı diviziyaları, 2-ci motoatıcı, 5-ci dağatıcı və 543-cü alayları ordumuzun ağır zərbələrindən sonra ciddi itkilərə məruz qalıb.

Sutka ərzində düşmənin alay komandiri, tabor komandiri, snayper qrupu və tank heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 tankı, 3 topu, 1 pilotsuz uçuş aparatı, 3 hərbi yük maşını, “Zastava M-55” tipli zenit qurğusu və şəxsi heyətlə dolu UAZ markalı avtomobili məhv edilib. Hazırda qoşunlarımız əməliyyat sahəsində döyüşləri tam üstünlüklə davam etdirir.

Mətbuat katibi bildirib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi indi bir tərəfdən çoxsaylı feyk məlumatlar yaymaq və fantastik ssenarilər qurmaqla hansısa “qələbələr”dən danışır. Digər tərəfdən, hədəflərimiz barədə saxta fikirlər aşılayaraq erməni cəmiyyətini Azərbaycan Ordusuna qarşı döyüşə cəlb etməyə çalışır. Bu cür hekayələrlə döyüşə cəlb edilən döyüşçülər müdafiə mövqelərində, yeraltı sığınacaqlarda, topların atəş nöqtələrində və tankların içində ordumuz tərəfindən məhv edilir, geriyə çəkilib itkin və əsir düşür. Ordumuza qarşı asimmetrik döyüş taktikaları ilə mübarizə aparan düşmən qruplaşmaları bölmələrimiz tərəfindən cəbhənin dərinliklərində belə aşkarlanır və onlar darmadağın edilir. Dağlarda, meşələrdə və səngərlərdə mərdliklə vuruşan Azərbaycan əsgəri bağçalarda, məktəblərdə və digər mülki obyektlərdə gizlənən namərd düşmənə qarşı mübarizə aparır.

“Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın tapşırığı ilə irəliləyərək işğal altında qalan torpaqları düşməndən təmizləyir. Bu fəaliyyətlə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət edərək yalnız legitim hərbi hədəflərə atəş açır. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**Vətəndaş məktubları: Cənab Prezident, məğrur duruşunuz, qətiyyətli mövqeyiniz, düşmənə tutarlı cavablarınız bizi çox qürurlandırır**

[19:27] 05.11.2020

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin Alanya şəhərindən Adəm Şimşək yazır: "Çox dəyərli cənab Prezident, mediadan gün ərzində baş verən hadisələri izləyirik. Sizin, çox dəyərli Azərbaycan xalqının, qardaşlarımızın hər zaman yanındayıq. Hər kəs bilir ki, Qarabağ Azərbaycandır. Sizin də dediyiniz kimi, Azərbaycanın mülki erməni xalqı ilə heç bir işi yoxdur. Cəza evində olsam da, könüllərimiz birdir və əmr gözləyirəm. Sizi və hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanı dəstəkləyirəm. İzniniz və əmriniz olarsa, cəbhənin ən ön xəttində və ehtiyac duyulan istənilən yerdə vuruşmağa hazıram. Bu torpaqlarda mənim kimi daha neçə-neçə insan var. Biz bir millət, iki dövlətik, qardaş xalqlarıq. Türkiyə xalqı mənəvi olaraq hər zaman Azərbaycan xalqının yanındadır. Allah şəhidlərimizə rəhmət eləsin, vuruşan əsgərlərimizə kömək olsun. Cənab Prezident, zəfər yürüşünüz mübarək olsun! Allah Sizin və qardaş Azərbaycan xalqının dayağında dursun, zəfərlər Sizin və bizim olsun. Allaha əmanət olasınız, cənab Prezident".

Adana şəhərindən Tarık Karataş yazır: "Hörmətli cənab Prezident, Türkiyə Respublikasının 12 il Azərbaycanda yaşamış vətəndaşı kimi hər zaman Sizin həyata keçirdiyiniz uğurlu siyasətin müsbət nəticələrini hər keçən gün yaşayır, görür və qürur duyuruq. Sizdən alacağımız Qələbə xəbərlərini səbirsizliklə gözləyirik. Allah Sizi, Azərbaycan Ordusunun şanlı və şərəfli əsgərlərini, vətənpərvər xalqınızı qorusun. Dualarımız Sizinlədir".

Niderlandın Leuvarden şəhərində yaşayan soydaşımız Elxan Mirhəşimli: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Azərbaycanın şanlı ordusunun 27 il sonra mənə yaşatdığı sevincin həddi-hüdudu yoxdur. Doğulduğum Qubadlının işğaldan azad olunmasını eşitdikdə sevinc göz yaşlarımı saxlaya bilmədim. Bir anlıq uşaqlıq və gənclik illərim gözlərimin önünə gəldi, bir zamanlar Qubadlıda keçirdiyim xoş günlərimi, dostlarımı, qohumlarımı xatırladım. Qubadlıda ata-baba evimi görmək və ulu babalarımızın məzarını ziyarət etmək artıq xəyal deyil, real oldu. Öz doğma ata-baba evimizə dönməyi həyəcanla gözləyirəm. Mənim övladlarım Qubadlını görməyib. Onlar da ata-baba torpaqlarını görmək ümidi ilə böyüyüblər. Artıq qayıdış günü gəldi, biz evə qayıdırıq. 20 ildir Niderlandda yaşayıram, tezliklə evimə dönmək istəyirəm. Mən Niderlandda Azərbaycan Evi diaspor təşkilatı yaradaraq, fəaliyyətimi informasiya müharibəsində hər zaman dövlətimizin mənafeyinin qorunması üzərində quraraq, Qarabağ həqiqətlərini yerli ictimaiyyətə və yerli siyasi partiyalara çatdırır, maarifləndirmə aparıram. Bundan sonra işimi daha da fəal davam etdirəcəyəm. İnanıram ki, Azərbaycanın bütün işğal olunmuş torpaqları azad olunacaq, Azərbaycanın şanlı bayrağı bütün şəhərlərdə, kəndlərdə dalğalanacaq. Azərbaycan Ordusunun əldə etdiyi uğurlar mənə bir daha cəsarət verir ki, dövlətimizin mənafeyini, haqlarını daha əzmlə qorumaqda davam edim. Təşkilatımız adından və Niderlandda yaşayan Azərbaycan icması adından Sizə təşəkkür edirəm. Var olun! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!"

Bakı şəhərindən Aliyə Təhmasibin məktubunda deyilir: "Möhtərəm cənab Prezident, Azərbaycan xalqının hər bir nümayəndəsi kimi cəbhədə baş verənləri ürək döyüntüsü və həyəcanla izləyirəm. Yeni qələbə xəbəri doğma səsinizlə bütün ölkəyə yayılarkən hər birimizin ürəyi Sizin qəlbinizlə həmahəng döyünür. Hər birimiz ürəkdən əminik ki, Sizin rəhbərliyiniz və şanlı ordumuzun şücaəti ilə düşmən geri çəkiləcək, müharibə bitəcək. Qələbə bizim olacaq".

Naftalan şəhərindən İbrahim Tağıyev: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, mən bir təqaüdçü olaraq Sizə dərin təşəkkürümü, ərazi bütövlüyümüzün bərpa edilməsi üçün göstərdiyiniz qətiyyətə və mərdliyə görə dərin minnətdarlığımı bildirirəm. Allah Sizi və müzəffər ordumuzu qorusun. Bütün Azərbaycan, o cümlədən bütün qardaş türk dövlətləri Sizdən şad xəbər gözləyir. İnşallah, Ordumuz Azərbaycanın işğal altında olan bütün torpaqlarını geri qaytaracaq. Allah mənfur düşmənlərimizi məhv etsin! Allah Azərbaycan xalqını qorusun! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

Lerikdən Zabil Bağırov: "Müzəffər Ali Baş Komandan, biz Azərbaycan vətəndaşları olaraq Sizin siyasi və hərbi gedişlərinizi müntəzəm olaraq izləyirik. Həqiqətən də Siz Azərbaycan tarixinin dövlətçilik səhifəsində böyük bir tarix yaradırsınız, düşmənlərə və onların havadarlarına tarixi dərs verirsiniz. Bəli, Siz neft kapitalını artıq insan kapitalına çevirmisiniz. Bu gün cəbhədəki böyük uğurlarımız məhz Sizin yüksək intellektə əsaslanan əməyinizin nəticəsidir. Xalq Sizinlədir, cənab Prezident. Dediyiniz kimi, Qarabağ Azərbaycandır!"

Cəbrayıl sakini Yunis Yusifli: "Hörmətli cənab Prezident, mən Sizə böyük təşəkkürümü bildirirəm. Siz mənim üçün yalnız xəyalımda canlandırdığım günləri yaşatdırdınız. Məni doğma Vətənimə, Cəbrayıla

qovuşdurdunuz. Allah Sizə güc, qüvvət versin. Rəbbim hədəflərinizi daim kəskin, zəfərlərinizi daim bol etsin. İnşallah, Cəbrayılda görüşmək arzusu ilə…".

Cəlilabaddan Vidadi Nuriyev: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" şüarı Sizin düşünülmüş, uzaqgörən siyasətinizin, Vətənə olan sevginizin bariz göstəricisidir. Bu şüar böyükdən kiçiyədək hamının dilində əzbərə çevrilərək, xalqımızın ayağa qalxıb bir yumruq kimi Sizin ətrafınızda birləşməsinə təkan verdi və bundan sonra da əsas şüarımız olacaqdır. Sizin məqsədyönlü siyasətiniz nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində apardığınız uğurlu mübarizədə biz də ailəlikcə Sizi dəstəkləyir və dəstəkləməkdə davam edəcəyik. Uca Tanrı Sizin və Mehriban xanımın ömrünə bir ömür də qatsın, 100 yaşayasınız! Azərbaycan xalqını həmişə zirvələrə aparasınız!"

Laçın rayonunun sakini Tofiq Şükürov: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, mənfur qonşularımız tərəfindən 30 ildən artıq Vətənimizin sinəsinə vurulmuş Qarabağ adlı yara hər bir azərbaycanlının köksünü sızladırdı. Tarixən xalqımızın yetişdirdiyi böyük sərkərdələr Vətənimizi bu cür ağır günlərində öz gücü ilə yaşatmışdılar. Belə sərkərdələrdən biri və birincisi də Sizsiniz. Ona görə ki, XIX əsrin əvvəllərindən XX əsrin sonlarınadək itirdiyimiz torpaqları yalnız Sizin sərkərdəlik qabiliyyətiniz sayəsində geri qaytarılmasının şahidi oluruq. Bu gün hər birimiz Sizinlə eyni bir dövrdə yaşadığımız üçün fəxr edir və qürur hissi keçiririk. Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, bu müqəddəs yolda uğurlar diləyirəm".

Füzuli sakini Elgün Eyvazov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, 27 ildən sonra bizə yaşatdığınız sevinc hissinə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı Sizi sevir və yürütdüyünüz siyasətin daim arxasındadır. Allah Sizi Azərbaycan xalqına çox görməsin. Biz əminik ki, Qarabağın azad ediləcəyi gün elə də uzaq deyil. Allah Sizi və Ordumuzu qorusun! Qarabağ Azərbaycandır! Yaşasın Ali Baş Komandan!

Gəncə şəhərindən Səbuhi Hüseynov: "Müzəffər Ali Baş Komandan, ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizədə Sizə güvənir, bütün torpaqlarımızın tezliklə azad olunacağı günü səbirsizliklə gözləyirik. Gözəl Qarabağımızın azadlığı üçün çox ciddi bir əməyin olduğu göz önündədir. Xalq olaraq bu günlərdəki məğrur duruşunuz, qətiyyətli mövqeyiniz, düşmənə tutarlı cavablarınız bizi çox sevindirir və qürurlandırır. Mən əminəm ki, bu haqq mübarizəsində xalqımızın hər bir layiqli vətəndaşı Sizi dəstəkləyir və böyük qələbə xəbərini tezliklə eşitməyi arzulayır. Sizdən Şuşa, Laçın, Xankəndi, Kəlbəcər və digər bölgələrimizin azad olunması xəbərlərini tez bir zamanda eşitmək arzusu ilə...".

Ağsu rayonundan Xalid Osmanov: "Müzəffər Ali Baş Komandan, Sizin qətiyyətli addımlarınızı tək mən yox, bütün Ağsu rayonu dəstəkləyir. Siz bu qətiyyətinizlə bütün dünyadakı Azərbaycan türklərinin ürəklərində geniş bir nüfuza sahib oldunuz. Nə yaxşı ki, varsınız. Allah Sizi qorusun! Biz, ailədə on bir övlad olmuşuq. Hamımızın oğulları hazırda ön cəbhədə Sizin əmrinizlə döyüşür, bununla fəxr edirlər. Mən özüm 1-ci qrup əlil olsam da, döyüşlərə qatılmaq üçün alışıb-yanıram. Sevincimdən xəstəliyim də yadımdan çıxıb. 1999-cu ildə xüsusi təyinatlı qrupda xidmət keçmişəm, əlim-ayağım yerindədir. Könüllü ordu sıralarına yazılmaq, düşmənlə üz-üzə döyüşmək arzusundayam. İstərdim ki, bayrağımızın o torpaqlarda ucalmasında yaxından iştirak edim. Dəfələrlə müraciət etməyimə baxmayaraq, ehtiyac olmadığını bildirirlər. Cənab Prezident arzum budur ki, Xankəndi şəhərində tezliklə üçrəngli bayrağımız dalğalansın və bu şəhər İlhamabad adlandırılsın. Məncə, buna bütün Azərbaycan xalqı sevinər. Müzəffər Ali Baş Komandan, bu haqq yolunda Sizə uğurlar arzulayıram. Allah ulu öndərimiz Heydər Əliyevə rəhmət eləsin, onun layiqli davamçısı Sizə isə cansağlığı versin. Şəhidlərimizə rəhmət, yaralılarımıza Allahdan şəfa diləyirəm. Allah müzəffər Ordumuza qüvvət versin, Siz isə bizim əbədi Prezidentimiz olasınız. Yaşasın Azərbaycan xalqını sevən igid, qəhrəman İlham Əliyev! Qarabağ Azərbaycandır!"

Tovuz rayonundan Zaur Tağıyev: "Müzəffər Ali Baş Komandan, Sizin uzaqgörən və müdrik siyasətiniz nəticəsində 30 illik həsrətimizə son qoyulur. Siz həmişə işğal altındakı ərazilərimizin müharibə yolu ilə yox, sülh yolu ilə qaytarılmasına çalışırdınız. Lakin qaniçən düşmənlər sülhə razı olmadılar. Biz isə daha 30 il gözləyə bilməzdik. Biz haqq yolundayıq, işimiz haqq işidir. İnanıram ki, tezliklə zəfər çalacaq, üçrəngli bayrağımızı bütün Vətən torpaqlarında dalğalandıracağıq. Allah bu çətin və şərəfli işinizdə Sizə kömək olsun. Biz həmişə Sizinləyik. Tezliklə doğma Qarabağımızda, Ağdamda görüşmək arzusu ilə… Qarabağ Azərbaycandır!"

Naxçıvandan Elnur Novruzov: "Hörmətli cənab Prezident, Azərbaycan xalqının Sizə olan minnətdarlığı sonsuzdur. Siz güləndə bütün Azərbaycan Sizinlə birgə gülür. Bütün xalqımızın qəlbi hər an Sizinlə bir döyünür. Budur əsl sevgi, budur əsl milli birlik! Cənab Prezident, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına apardığınız siyasətə görə Sizə necə minnətdarlıq edəcəyimi bilmirəm. Əziz və səmimi Prezidentim, Sizin hər çıxışınıza coşqu ilə baxır, hər bir kəlmənizi sevinc göz yaşları ilə izləyirəm. Uca Tanrı Sizi Azərbaycan xalqına və Türk dünyasına çox görməsin!"

**AZƏRTAC**

**Cəbhədə noyabrın 6-na olan son vəziyyət**

[07:45] 06.11.2020

Noyabrın 5-i gün ərzində və 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

**AZƏRTAC**

**Azərbaycan Müdafiə Nazirliyi: Düşmən cəbhənin Qubadlı istiqamətində mövqeləri ataraq qaçıb**

[13:33] 06.11.2020

Cəbhənin Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun atəş zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məlum olub ki, Ermənistandan gətirilərək müdafiə zolağına yerləşdirilən 556-cı və 522-ci motoatıcı alayların bölmələri onlara tapşırılan hədlərə çıxmayıb.

Eyni zamanda, şəxsi heyət hazırlıqsız, təcrübəsiz və intizamsız olmaqla yanaşı, verilən əmr və tapşırıqlara da səhlənkar yanaşıb.

**Əsir düşmüş erməni pastor: Erməni əsgərlərini silahı yerə qoymağa çağırıram, çünki onlar başqasının torpağında vuruşurlar**

[13:39] 06.11.2020

Ermənistanın Gümrü şəhərinin Adventist kilsəsinin Azərbaycana əsir düşmüş pastoru Hovsep Saakyan Araratoviçlə noyabrın 6-da Yeddinci Günün Adventistlərinin Dua Evində görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə əvvəlcə Hovsep Saakyan, Bakıdakı və Gəncədəki Yeddinci Günün Adventistləri icmalarının pastorları Elşən Cabbarov və Elşən Səmədov dua ediblər.

Sonra çıxış edən Elşən Cabbarov bildirib ki, Allah hər zaman sülhün tərəfindədir, insanların həmişə sülh içində yaşamasını istəyir. Biz insanları sülhə çağırırıq. Allah müqəddəs kitabda bu barədə deyib. Biz yalnız sülh sayəsində xoşbəxt yaşaya bilərik.

Daha sonra Hovsep Saakyan çıxış edərək deyib ki, o, həmişə erməni və Azərbaycan xalqlarının sülh içində yaşamasını istəyib: "Bu gün biz Allahın çağırışını eşitdik. Allah istəyir ki, biz sülh şəraitində yaşayaq. Allah müharibə istəmir. Allah insanlığı, eləcə də Azərbaycan və erməni xalqlarını ona görə yaratdı ki, hamımız sülh və əmin-amanlıq içində yaşayaq. Mən çox şadam ki, Allah möcüzə nəticəsində həyatımı qoruyub saxladı və mən indi buradayam".

Hovsep Saakyan bildirib ki, ona hərbi komissarlıqdan zəng edib müharibədə iştirak etməli olduğunu deyiblər. O isə vuruşmaq istəmədiyini bildirib: "Mən dini inancıma görə müharibənin tərəfdarı olmadığımı, əlimə silah götürüb heç kəsi öldürə bilməyəcəyimi dedim, lakin mənə bunun heç bir əhəmiyyətinin olmadığını dedilər. Mən cəbhəyə getdim və heç kəsi öldürməyəcəyimi dedim. Mənə imkan yaratsaydılar, vuruşmaq əvəzinə arxa cəbhədə hospitalda xəstələrə yardım edərdim. Lakin bizimkilər buna imkan vermədilər. Mən cəbhəyə yollansam da, əlimə silah götürüb vuruşmadım. Mən qərara gəlmişdim ki, insanları xilas edəcəyəm. Bu, baş verdi və mən bir nəfər yaralanmış şəxsə kömək etdim. Biz Qubadlıda olanda heç bir saat keçmədi ki, mərmilər partlamağa başladı. Mən sağ ayağımdan qəlpə yarası aldım. Məni hospitala köçürmək istəyirdilər. Lakin biz yolda olanda yenidən mərmi partladı və maşınımız qəzaya düşdü. Yanımdakıların hamısı öldü, bircə mən sağ qaldım. Allah məni qorudu və mənə yeni bir imkan verdi. Mən Azərbaycan və erməni xalqlarını sülhə çağırıram. Allah istəyir ki, biz əmin-amanlıq içində yaşayaq".

Pastor erməni əsgərlərinə çağırış edərək deyib ki, silahı yerə qoysunlar, vuruşmasınlar. Çünki onlar başqasının torpağında vuruşurlar. "Mənimlə 60 nəfər var idi. Əminliklə deyə bilərəm ki, onlar da döyüşmək istəmirdilər. Onlar da sülh tərəfdarı idilər. Çünki onlar da cavan idilər, onların ailəsi, uşaqları vardı, müharibəni dayandırıb evlərinə qayıtmaq istəyirdilər. Necə ki, mən ailəli insanam, doqquz aylıq qızım var və tezliklə ailəmə qovuşmaq istəyirəm, onlar da mənim kimi ailələrinə qovuşmaq istəyirdilər".

Erməni pastor hazırda Azərbaycanda saxlanma şəraiti ilə bağlı danışaraq burada hər şeyin qaydasında olduğunu, paltar və yeməklə təmin edildiyini bildirib, buna görə təşəkkür edib. O, həmçinin erməni patriarxı II Qareginin müharibə çağırışlarını qəbul etmədiyini vurğulayaraq deyib ki, müqəddəs kitab insanları sülhə çağırır. Öldürmək böyük günahdır. "Buna görə də erməni din xadimlərinin müharibə çağırışlarını qınayıram. Təəssüf ki, vətənimdə erməni kilsəsinin digər icmalara münasibəti pisdir, onları sekta hesab edir. Mən orada olan zaman Azərbaycan tərəfindən hər hansı bir kilsənin bombalanmasının və ya atəşə tutulmasının şahidi olmamışam", - deyə o əlavə edib.

Azərbaycana əsir düşdükdən sonra Hovsep Saakyanın əsir hüquqlarına və dini inancına hörmətlə yanaşılıb. Onun kilsəyə gətirilməsi də, bu humanist münasibətin bariz nümunəsidir.

Azərbaycanda bütün dövrlərdə olduğu kimi, hətta müharibə şəraitində belə multikultural dəyərlərə, insan hüquqlarının təmin olunmasına sadiqliyini nümayiş etdirib.

Qeyd edək ki, Azərbaycanda adventizm XIX əsrin sonlarından yayılmağa başlayıb. Çar Rusiyası dövründə Azərbaycanda adventizm əsasən molokanlar arasında yayılıb. Lakin çar müstəbid rejimi adventistləri təqib etməyə başladıqdan sonra onların rəhbərləri həbsxanaya atıldı və ya sürgünə göndərildi, digərləri isə ölkədən çıxarıldı. Buna baxmayaraq, Rusiya imperiyası dövründə Azərbaycanın ayrı-ayrı yerlərində kiçik adventist dini icmalar mövcud olub.

Sovet hakimiyyəti illərində də Azərbaycanda adventistlər fəaliyyət göstərib. Keçən əsrin 80-ci illərində Bakıda adventistlərin sayı 100 nəfərə yaxın olub.

1991-ci ildə Azərbaycan xalqı dövlətçilik ənənəsini yenidən bərpa etdikdən sonra respublikamızda yaşayan adventistlər öz inanclarını qorxmadan, çəkinmədən yaşamaq və yaymaq imkanı əldə etdilər. 1980-ci illərin sonunda ölkəmizdə adventistlərin sayı 125 nəfər olduğu halda, günümüzdə onların sayı təqribən 400 nəfərə yaxındır.

Ermənistanda Qriqoryan kilsəsinin şəksiz hökmranlığı şəraitində digər dinlərin və dini icmaların nümayəndələri daim təzyiq altında saxlanılır, onların hüquqları kobud şəkildə pozulur, dini hissləri tapdanır. Bu günlərdə Yeddinci Günün Adventistləri icmasının nümayəndələrinin silahlandırılaraq cəbhəyə göndərilməsi bunun bariz nümunəsidir.

Adventistlər müharibəni və silahlı qarşıdurmada iştirakı qəbul etmirlər. İcma üzvləri əllərinə silah götürmür, silahdan istifadə etmirlər. Buna baxmayaraq, ciddi insan resursu çatışmazlığı ilə üzləşən Ermənistanın hərbi-siyasi rəhbərliyi hətta adventistləri belə zorla silahlandırıb cəbhəyə göndərir. Ermənistanın Gümrü şəhərinin Adventist kilsəsinin pastoru Hovsep Saakyanın dini inanclarının əleyhinə olaraq zorla silahlandırılıb cəbhəyə göndərilməsi bunu aydın şəkildə nümayiş etdirir.

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Qubadlının məscidi Ermənistan tərəfindən təhqir əlaməti olaraq donuzxanaya çevrilib**

[16:17] 06.11.2020

Azərbaycanın işğaldan azad olunmuş Məmər kəndindəki XVIII əsrə aid məscid. Məscid tamamilə dağıdılıb. Vandalizmlə yanaşı, XVIII əsrin dini-mədəni abidəsi işğal zamanı Ermənistan tərəfindən təhqir əlaməti olaraq donuzxanaya çevrilib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabında bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan əsgəri düşmənin 30 il müddətində qurduğu istehkamları yarır, pusquları dağıdır və hədəfə yaxınlaşır**

[19:03] 06.11.2020

Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, Tərtər, Goranboy daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Tovuz, Gədəbəy və Daşkəsəndə yerləşən mövqelərimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 6-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə bildirib.

Anar Eyvazov deyib ki, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAz" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

Mətbuat katibi qeyd edib ki, düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Bölmələrinin idarə olunmasında problemlər var.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Anar Eyvazov deyib ki, Müzəffər Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri düşmənin işğal edilmiş ərazilərdə 30 il müddətində tikdiyi istehkam maneələrini yarır, qurduğu pusquları dağıdır və hədəfə yaxınlaşır. Əks-hücum əməliyyatında ordumuzun qarşısında duran əsas tapşırıq çətin relyef və iqlim şəraitində mütəşəkkil qaydada irəliləmək və işğal altında olan torpaqlarımızı cinayətkar ordu qruplaşmasından xilas etməkdir.

Mətbuat katibi qeyd edib ki, hazırda Azərbaycan Ordusunun qarşısında təkcə Ermənistan silahlı qüvvələrinin bölmələri deyil, həm də xaricdən cəlb edilmiş xeyli sayda muzdlu və əcnəbi terrorçu döyüşçülər var. Əldə edilən kəşfiyyat məlumatlarına görə, bu döyüşçülər erməni əsilli müxtəlif ölkə vətəndaşlarıdır. Ermənistanın hərbi-siyasi rəhbərliyi hiyləgərcəsinə onları qabağa, faktiki olaraq ölümə verməklə bu əcnəbilərin Azərbaycan tərəfindən döyüşlərə cəlb edildiyinə dair iftiralar atır, onların cəsədlərinə də sahib çıxmır. Əcnəbilərin belə ərazilərdə kifayət qədər döyüş təcrübəsi olmadığına və dil probleminə görə onların qarşılıqlı fəaliyyətinin təşkilində ciddi problemlər yaranır. Pərakəndə şəkildə fəaliyyət göstərən bu qruplaşmaların Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina etmələrinə dair məlumatlar var. Əcnəbi döyüşçülər də Ermənistanın hərbi-siyasi rəhbərliyinin tələsinə düşdüklərini dərk etməli, dərhal silahı yerə qoymalıdır. Ali Baş Komandanımızın rəhbərliyi ilə uzun müddətdir bu günə hazırlaşan Azərbaycan əsgəri hazırda döyüşdə zəfər qazanır. Qələbə bizimlədir.

**AZƏRTAC**

**COJEP beynəlxalq təşkilatının Ermənistanın Azərbaycanın mülki əhalisini qətlə yetirməsi ilə bağlı hesabatı eyniadlı jurnalda dərc olunub**

[19:30] 06.11.2020

Fransada fəaliyyət göstərən COJEP beynəlxalq təşkilatının Ermənistanın Azərbaycanın mülki vətəndaşlarını qətlə yetirməsi ilə bağlı hesabatı "COJEP" jurnalında tam şəkildə dərc olunub.

AZƏRTAC xəbər verir ki, hesabatın əvvəlində Ermənistan-Azərbaycan münaqişəsi barədə ətraflı məlumat verilir. Qeyd edilir ki, Ermənistan-Azərbaycan münaqişəsi regionda ən uzun sürən (təxminən 30 il) münaqişədir. Bu münaqişə nəticəsində Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf 7 rayonu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan Ermənistan tərəfindən işğal edilib. Münaqişə Dağlıq Qarabağ regionunda və ətraf 7 rayonda yaşayan bir milyondan çox azərbaycanlının həyatına mənfi təsir göstərib, sosial, iqtisadi və humanitar problemlər yaradıb. Qeyd edilən 7 rayon Dağlıq Qarabağ regionuna daxil deyil. Dağlıq Qarabağ regionunun ümumi ərazisi 4400 kvadratkilometrdir. Ətraf 7 rayonun ümumi ərazisi isə bundan demək olar ki, 3 dəfə böyükdür – 11000 kvadratkilometrdir. Məcburi köçkünlərin 90 faizdən çoxu həmin 7 rayondandır. Dağlıq Qarabağ regionundan qovulan azərbaycanlıların sayı isə 86 mindir.

Qeyd edilir ki, BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməsinə dair dörd qətnamə qəbul edib. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal çıxarılması tələb olunur.

Hesabatda bildirilir ki, bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bütün cəbhə xətti boyunca genişmiqyaslı təxribata başlayıb. Ermənistan silahlı qüvvələri intensiv şəkildə yaşayış məskənlərini, tarixi və mədəni tikililəri, strateji əhəmiyyət daşıyan obyektləri, cəbhə bölgəsindən uzaqda yerləşən və əhalinin sıx məskunlaşdığı əraziləri qəsdən ağır artilleriyadan, raket sistemlərindən və beynəlxalq konvensiyalarla qadağan olunmuş silahlardan atəşə tutur.

BMT Baş Məclisinin 14 dekabr 1974-cü il tarixli Qətnaməsi ilə qəbul edilmiş "Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında bəyannamə"də qeyd edilir ki, mülki əhalinin, xüsusilə qadınların və uşaqların hücumlara məruz qalması qadağandır. Bütün ölkələr 1925-ci il tarixli Cenevrə Protokoluna və 1949-cu il tarixli Cenevrə Konvensiyalarına, hərbi münaqişələr zamanı insan hüquqlarına hörmət edilməsi, xüsusilə qadınların və uşaqların qorunmasının təmin olunması ilə bağlı digər sənədlərə əməl etməlidirlər.

Hesabatda sentyabrın 27-dən oktyabrın 28-dək Azərbaycanın mülki əhalisinin sıx məskunlaşdığı şəhər və rayonların Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumlarına məruz qalması ilə bağlı faktlar və rəqəmlər, fotolar əks olunub. Ermənistanın Azərbaycan şəhərlərinə atdığı mərmilərin, dağılan evlərin sayı, həlak olan və yaralanan insanların adları verilib. Vurğulanıb ki, Ermənistan qadın, uşaq, yaşlı demədən mülki əhalini, dinc sakinlərlə yanaşı, mülki, eləcə də strateji əhəmiyyətə malik obyektləri hədəfə alır.

Qeyd edilir ki, bu hesabat Ermənistanın cari il sentyabrın 27-dən etibarən beynəlxalq humanitar hüququ pozaraq Azərbaycana qarşı həyata keçirdiyi müharibə cinayətlərini sistemləşdirmək məqsədilə hazırlanıb.

**AZƏRTAC**

**Ermənistan ərazisinin atəşə tutulması xəbəri düşmənin növbəti təxribatıdır**

[16:32] 07.11.2020

Azərbaycanın Qubadlı rayonu ərazisindən guya Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndinin atəşə tutulması barədə Ermənistan tərəfinin yaydığı xəbər təxribat xarakterli dezinformasiyadır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutub.

Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görür.

Nazirlik bir daha bildirir ki, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub**

[19:10] 07.11.2020

Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində və Ermənistan ərazisindən Qubadlıda yerləşən bölmələrimizin mövqelərini, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonları daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinin susdurulması üçün ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində adekvat tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 7-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmənin Ağdərə istiqamətində müdafiə olunan 5-ci dağatıcı alayının xeyli sayda şəxsi heyəti, avtomobil texnikası və minaatanları ordumuzun atəş zərbələri ilə məhv edilib. Bu istiqamətdə atış mövqelərinə çıxarılan D-30 haubitsasının şəxsi heyəti bölmələrimizin dəqiq atəşi ilə zərərsizləşdirilib.

Ordumuzun həyata keçirdiyi digər əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının bir taborunun şəxsi heyəti arasında itkin düşənlər var, artilleriya divizionunda isə bir batareyanın topları sıradan çıxarılıb.

Döyüşlər başlayandan indiyədək canlı qüvvə baxımından ağır itkilərə məruz qalan, buna görə də bir müddət əvvəl yerli sakinlər və Ermənistandan cəlb edilən könüllülərlə gücləndirilmiş düşmənin 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyəti bölmələrimiz tərəfindən mühasirəyə alınaraq darmadağın olunub. Qalan xüsusi təyinatlılar tutduqları mövqeləri tərk edərək geri çəkilməyə məcbur ediliblər. Döyüşlərə cəlb olunan Ermənistan silahlı qüvvələrinin 178-ci əlahiddə kəşfiyyat taborunda şəxsi heyətin bir hissəsi bölmələrimiz tərəfindən məhv edilib.

Mətbuat katibi qeyd edib ki, əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən bir qədər də geriyə çəkilməyə məcbur edilib.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavəndin ümumilikdə 16 kəndi ordumuz tərəfindən işğaldan azad olunub.

"Zəngilanda və işğaldan azad edilmiş digər ərazilərə baxış zamanı əldə olunan sənədlər və digər kəşfiyyat materialları təsdiqləyir ki, Azərbaycan Ordusu təkcə Ermənistan silahlı qüvvələri ilə deyil, həmçinin muzdlu əcnəbilərdən ibarət hərbi qruplaşmalarla da mübarizə aparır. Düşmən bilməlidir ki, nə əcnəbi döyüşçülər, nə də ki hansısa könüllü dəstələr Azərbaycan əsgərini dayandıra bilməz. Sağ qalmaq üçün onların bir yolu var: vaxt itirmədən silahı yerə qoyaraq döyüş meydanını tərk etmək.

Hazırda əməliyyat şəraiti ordumuzun nəzarətindədir. Cəbhənin bütün istiqamətlərində döyüşlər davam edir. Qələbə bizimlədir", - deyə mətbuat katibi vurğulayıb.

**AZƏRTAC**

## Cəbhədə noyabrın 8-nə olan son vəziyyət

[08:27] 08.11.2020

Noyabrın 7-si gün ərzində və 8-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnika sarıdan itkilər verərək geri çəkilməyə məcbur edilib.

Cəbhədə müqavimət göstərə bilməyən düşmən çıxış yolunu dinc əhalini və mülki infrastrukturu atəşə tutmaqda görür. Keçən gün ərzində Ermənistan silahlı qüvvələri bölmələrinin Tərtər, Bərdə, Ağdam, Ağcabədi və Qubadlı rayonlarının kəndlərini artilleriya atəşinə tutması nəticəsində dinc sakinlər arasında ölən və xəsarət alanlar var, mülki infrastruktura ziyan dəyib. Azərbaycan Ordusunun gördüyü cavab tədbirləri yalnız düşmənin legitim hərbi hədəflərinə qarşı olub.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd T-72 tankı, 2 ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili məhv edilib və sıradan çıxarılıb.

Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

**AZƏRTAC**

**Üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda qürurla, vüqarla dalğalanır**

[09:59] 08.11.2020

Suverenliyimizin rəmzi, qürur və güvənc yerimiz üçrəngli bayrağımız bu gün qürurla illərdən bəri düşmən tapdağı altında qalan torpaqlarımızda dalğalanır, xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideyalara sadiqliyini nümayiş etdirir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Millət vəkili qeyd edib ki, 30 ilə yaxındır, üçrəngli bayrağımızın təcavüzkar qonşularımızın işğal etdiyi torpaqlarda dalğalanacağı günü gözləyirdik. İllərlə arzuladığımız, həsrətlə gözlədiyimiz bu gün artıq reallığa çevrilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda müzəffər yürüşünü inamla davam etdirir, özünütəsdiqin simvolu kimi bayrağımızı tarixi torpaqlarımıza sancır.

Deputat əlavə edib ki, ümummilli lider Heydər Əliyevin, Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin uğurla həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində dövlət bayrağımız dünyanın ən mötəbər təşkilatlarının qarşısında, ən mühüm beynəlxalq tədbirlərdə dalğalanır. Bu bayraq indi işğaldan azad edilmiş, Zəngilanda, Qubadlıda, Füzulidə, Cəbrayılda qürurla, vüqarla dalğalanır. Üçrəngli bayrağımızın Laçında, Kəlbəcərdə, Şuşada, Xocalıda, Xacavənddə, Xankəndində dalğalanacığı günə isə az qalıb.

**AZƏRTAC**

## Qubadlı rayonunun işğaldan azad olunan Balasoltanlı kəndinin videogörüntüsü

[15:21] 08.11.2020

Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Balasoltanlı kəndinin videogörüntüsünü paylaşıb.
AZƏRTAC videogörüntünü təqdim edir:

**AZƏRTAC**

**İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki sərhəd zastavalarında Azərbaycan bayrağı ucaldılıb**

[21:50] 08.11.2020

İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki Məmmədbəyli, Şərifan, Muğanlı, Tiri və Mincivan sərhəd zastavaları üzərində bu gün Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılıb.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə Azərbaycanın dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi yad olunub. Bildirilib ki, Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin işğaldan azad edilməsi Azərbaycan Respublikasının dövlət sərhədlərinin təhlükəsizliyinin təminatı üçün son dərəcə vacib hadisə olub və hər bir Azərbaycan sərhədçisi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Qeyd olunub ki, sentyabrın 27-dən bu günədək 218 kənd və qəsəbənin, Cəbrayıl, Zəngilan, Qubadlı, Füzuli şəhərlərinin, bu gün isə Şuşa şəhərinin düşmən tapdağından azad etməsi Müzəffər Ali Baş Komandanı olan Azərbaycan Silahlı Qüvvələrinin, qüdrətli Prezidenti olan Azərbaycan dövlətinin, müdrik və qətiyyətli lideri olan Azərbaycan xalqının böyük qələbəsidir.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 9-na olan son vəziyyət**

[07:44] 09.11.2020

Noyabrın 8-si gün ərzində və 9-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd T-72 tankı, 1 ədəd D-30 topu, 1 minaatan heyəti, döyüş sursatı ilə dolu bir hərbi yük avtomobili məhv edilib və sıradan çıxarılıb.

Hazırda döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 23 kəndi işğaldan azad edib**

[13:48] 09.11.2020

Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün “Twitter” hesabında bildirib.

**AZƏRTAC**

## İşğaldan azad olunmuş ərazilərdə aparılan ekoloji monitorinqlərin nəticələri: minillik qədim ağaclar məhv edilib

[16:47] 09.11.2020

“Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə yaradılmış Əməliyyat qərargahlarında təmsil olunan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlərə başlayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, Arazboyu ərazilərdə aparılan monitorinq və müşahidələr göstərib ki, bütün evlər, binalar, tarixi abidələr, qəbristanlıqlar tamamilə dağıdılıb, yolların kənarındakı tut, qovaq, çinar, şam və meyvə ağacları kəsilib, bəzi yerlərdə isə tamamilə yandırılıb.

Meşələrdə və yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilib.

Erməni vandallığını sübut edən faktlardan biri də, keçmiş Sovet dövründən xüsusi qorunma statusu olan unikal təbiət abidələri siyahısına daxil edilmiş minillik qədim ağacların qəsdən kəsilməsi və zəngin təbiət tarixinin bilərəkdən silinməsinə şərait yaradılmasıdır. Belə ki, bir neçə gün ərzində aparılan monitorinqlərin nəticələrinə görə, Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarlarının məhv edildiyi müəyyən olunub. Bu ağacların yerində bitən 2 metrə qədər pöhrələr bu qədim çinarların bir neçə il əvvəl kəsildiyini təsdiq edir.

**Anar Eyvazov: Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir**

[19:10] 09.11.2020

Ötən sutka ərzində düşmən qüvvələri Ermənistanın Berd, Çəmbərək rayonları və müxtəlif istiqamətlərdən Tovuz, Gədəbəy və digər istiqamətlərdəki mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Bərdə daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi toplardan və minaatanlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 9-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov deyib ki, ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görülüb. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. “Su-25” həmlə təyyarəsi və pilotsuz uçuş aparatlarının tətbiqi ilə hərbi hava qüvvələrimizin cəbhənin Xocavənd istiqamətində endirdiyi aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları darmadağın edilib. Əsas komanda məntəqəsində bir neçə yüksək vəzifəli şəxs məhv edilib. Ordumuzun bu istiqamətdə və Qırmızı Bazar məntəqəsi ətrafındakı mövqelərə hücumları qarşısında aciz qalan düşmənin 2-ci və 3-cü motoatıcı alaylarının bölmələri ağır itkilər verərək müdafiə hədlərini atıb qaçmağa məcbur olub. Ermənistan silahlı birləşmələri xeyli sayda canlı qüvvə itirib. Cəbhənin Tərtər istiqamətindən bölmələrimizi atəşə tutan düşmənin 10-cu dağatıcı diviziyasının minaatan heyəti də ordumuzun dəqiq atəş zərbəsi ilə zərərsizləşdirilib.

Mətbuat katibi qeyd edib ki, düşmənin Şuşa istiqamətində mühasirədən çıxmaq məqsədilə bölmələrimizə hücum etməyə cəhd edən qüvvələri və Xankəndi istiqamətində hərəkət edən qoşqulu yük avtomobili “Zərbə” pilotsuz uçuş aparatları ilə məhv edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 tankı, 1 piyada döyüş maşını, 2 topu, minaatan heyəti, döyüş sursatı və 2 yük avtomobili sıradan çıxarılıb. Ağır itkilər verən qarşı tərəf bir neçə istiqamətdə geri çəkilməyə məcbur edilib. Füzuli, Xocalı, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanın 23 kəndi işğaldan azad olunub.

“Düşmən ictimai fikri öz uğursuzluqlarından və işğal altındakı ərazilərimizdə törətdiyi hərbi cinayətlərdən yayındırmaq məqsədilə müxtəlif dezinformasiyalar yayır. Azərbaycan Ordusu beynəlxalq humanitar hüququn norma və prinsiplərini rəhbər tutaraq düşmənin yalnız hərbi təyinatlı obyektlərini hədəfə alır. Mənəvi-psixoloji vəziyyəti və maddi-texniki təminatı yüksək səviyyədə olan Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir”, - deyə Anar Eyvazov vurğulayıb.

Dövlət Bayraq Günü və şanlı bayrağımızın azad olunmuş Şuşa şəhərində dalğalanması münasibətilə ordu rəhbərliyi və şəxsi heyət adından təbriklərini çatdıran mətbuat katibi deyib: “Biz bu cəsarəti və döyüş ruhunu Müzəffər Ali Baş Komandanımızdan və sarsılmaz xalqımızdan alırıq. Hazırda Xocavənd istiqamətində hücumu genişləndirən Azərbaycan Ordusu əməliyyat şəraitini nəzarətdə saxlamaqla döyüşləri böyük ruh yüksəkliyi və mətinliklə davam etdirir. Qələbə bizimlədir!”.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 48 kəndi, 1 qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad edib**

[20:05] 09.11.2020

Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün “Twitter” hesabında bildirib.

**AZƏRTAC**

**Şuşa zəfərindən dərhal sonra Müzəffər Ali Baş Komandandan yeni böyük müjdə: 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik azad olundu**

[20:56] 09.11.2020

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa zəfərindən dərhal sonra xalqımıza yeni böyük müjdə verdi. Belə ki, noyabrın 9-da 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik işğaldan azad olunub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı rəsmi “Twitter” hesabında Azərbaycan Ordusunun Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şüküràtaz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etdiyini bildirib.

Bu gün Prezident İlham Əliyev, həmçinin Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərinin işğaldan azad olunduğunu elan edib.

**AZƏRTAC**

**Tarixi sənəd imzalandı: Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı**

[04:51] 10.11.2020

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal altında qalan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini, Qarabağın incisi olan Şuşa şəhərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

**Xalq-Ali Baş Komandan birliyi Ordumuzun zəfər yürüşünün əsasını təşkil etdi**

Xalq-Ali Baş Komandan, xalq-ordu birliyi üzərində qurulan zəfər yürüşü ilə Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasının bir qismini də uğurla icra etdi. Ümumilikdə, hərbi kampaniya dövründə 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Hərbi ekspertlərin, elə ermənilərin özlərinin də dediyi kimi, "kim Şuşaya nəzarət edirsə, Qarabağa da o nəzarət edir".

Şuşa azad edildikdən bir gün sonra, noyabrın 9-da Prezident İlham Əliyev daha 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad olunası barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Beləliklə, hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, Azərbaycan xalqının şanlı qələbəsidir.

**Dağlıq Qarabağ münaqişəsi bitdi: İmzalanan bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır**

Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Dünya hərb tarixi də göstərir ki, belə itkilərə məruz qalmış tərəf məğlub hesab edilir, təslim olur və hərbi əməliyyatlar dayandırılır.

Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi. Dövlətimizin başçısı dəfələrlə, o cümlədən BBC-yə son müsahibəsində də bəyan etmişdi ki, Ermənistan qoşunlarının çıxarılması barədə öz üzərinə öhdəlik götürdüyü halda hərbi əməliyyatlar dayandırılacaq.

Noyabrın 10-da imzalanan birgə bəyanatda Ermənistan öz üzərinə öhdəlik götürür ki, qarşıdakı 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq. Nəticə etibarilə, dekabradək qan tökülmədən, itki verilmədən ərazi baxımdan böyük rayonlarımız azad olunacaq. Həmçinin bölgədə sülhyaratma prosesi Rusiya və Türkiyənin birgə iştirakı ilə təmin ediləcək, sülhməramlıların əraziyə gəlməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə sinxron qaydada aparılacaq.

**Ərazi bütövlüyümüz təmin olundu: Heç bir statusdan söhbət gedə bilməz**

Bəyanatda digər önəmli məqam ondan ibarətdir ki, burada Dağlıq Qarabağa hər hansı statusun verilməsindən söhbət getmir və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu, Azərbaycanın tam və qeyd-şərtsiz qələbəsinin əyani sübutudur.

Artıq qoşunların təmas xətti anlayışı yoxdur. Atəşkəs hazırda Ermənistan və Azərbaycan silahlı qüvvələrinin yerləşmə məntəqələri ilə müəyyən olunur. Rusiya və Türkiyə silahlı qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilir. Sülhməramlıların yerləşmə müddəti üç il müəyyənləşdirilir.

Prezident İlham Əliyev həmişə bəyan edirdi ki, münaqişənin həlli prosesində Türkiyə də iştirak etməlidir. Türkiyə həm də atəşkəs rejiminə nəzarət etmək üçün yaradılacaq birgə monitorinq missiyasında da fəal yer alacaq. Türkiyə hərbçilərinin prosesdə iştirakı ona dəlalət edir ki, Azərbaycanın maraqlarının əleyhinə hər hansı addımın atılmasının qarşısı alınacaq.

Azərbaycan mülki insanlarla müharibə aparmır və Ermənistandan fərqli olaraq etnik təmizləmə həyata keçirmək niyyətində deyil. Hərbi baxımdan Xankəndi və ətraf məntəqələrin götürülməsi Azərbaycan Ordusu üçün heç də çətin deyildi. Erməni propaqandası da bu məqamı gözləyirdi ki, Azərbaycanı etnik təmizləmə törətməkdə günahlandırsın.

Azərbaycan həmişə Dağlıq Qarabağda sülh şəraitində birgəyaşayışın mümkünlüyünü bildirmişdi. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, dünyanın müxtəlif ölkələrində azərbaycanlılar və ermənilər

bir yerdə yaşayır və hər hansı xoşagəlməz hallar baş vermir. Buna görə də Azərbaycan Dağlıq Qarabağda hər iki icmanın birgə yaşayışını həmişə dəstəkləmişdi.

**Naxçıvan blokadadan azad olur: Azərbaycan xalqı qələbəni bayram edir**

Sənəddə yer alan digər önəmli məqam isə Naxçıvanın blokadadan azad olunması ilə bağlıdır. Belə ki, Rusiya tərəfi Ermənistan ərazisi üzərindən Naxçıvan ilə dəhlizin yaradılmasını öz üzərinə götürür.

Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək, ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilərlə qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşa əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir.

Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi. Öz siyasətini xalqın maraqları əsasında quran Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi.

İnformasiya müharibəsində də Prezident İlham Əliyev ölkəmizə qarşı olan bütün hücumların qarşısını məharətlə aldı. Dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə beynəlxalq informasiya məkanında ölkəmizə qarşı yönəlmiş hücumları dəf etdi.

Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan xalqının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bu qələbə xalqımızın əzmini, qəhrəmanlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Dünya gördü ki, məğlubiyyətlə heç vaxt barışmayan Azərbaycan xalqı öz qələbəsini döyüş meydanında əldə etdi.

Bu şanlı qələbəmiz Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının məntiqi yekunudur.

**Əsəd Məmmədov**
**AZƏRTAC-ın redaksiya müdiri**

**AZƏRTAC**

**Azərbaycan dövlətinin şanlı Qələbəsi**

[16:52] 10.11.2020

**Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır**

Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Amma bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfərləri, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. Hər bir Azərbaycan vətəndaşı çox xoşbəxtdir ki, bu tarixi, şərəfli anlara şahidlik edir, möhtəşəm tarixi günləri yaşayır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclisin sədri Sahibə Qafarovanın məqaləsində yer alıb.

Məqalədə deyilir: “Bəli, bu gün Azərbaycan xalqının 30 illik həsrətinə son qoyulur. Bu 30 ildə Azərbaycan xalqı əzmlə, səbrlə, durmadan çalışaraq, öz dövlətini gücləndirərək tarixi anın yetişməsini, bu möhtəşəm xəbəri gözlədi. Heç bir beynəlxalq ədalətsizlik, heç bir əziyyət xalqımızın qələbəyə olan inamını sarsıtmadı, Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycanın liderinin iradəsinə təsir göstərmədi. Xalqımız "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar", - deyən Liderinin, Ali Baş Komandanının ətrafında hər gün daha sıx birləşdi, birliyimiz hər gün daha da möhkəmləndi. "Qarabağ Azərbaycandır və nida" ifadəsi bizim milli mübarizəmizin rəmzinə çevrildi. Bu birlik bizi Qarabağa qaytardı!”.

Məqalədə qeyd edilir ki, sentyabrın 27-də Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatlardan sonra Şanlı Ordumuzun əks-hücum əməliyyatları - Azərbaycan xalqı və dövləti üçün Vətən müharibəsi başladı. Bu haqq savaşında bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr və nəhayət iki gün öncə qədim Şuşa şəhəri Ordumuzun döyüş meydanındakı qəhrəmanlıqları nəticəsində işğaldan azad edildi. Azərbaycan Ordusunun şücaəti, yüksək döyüş qabiliyyəti və apardığı əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Ötən illər ərzində məqsədyönlü şəkildə inkişaf etdirilən, maddi-texniki bazası gücləndirilən, dünyanın ən güclü orduları sırasında olan Şanlı Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində ağır itkilər verən Ermənistanın silahlı qüvvələrinin müqaviməti sındırıldı. İşğalçı ölkə artıq Azərbaycanın Şanlı Ordusu qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu dərk etdi və diz çökdü!

“Qeyd etməliyəm ki, Azərbaycan Ordusu döyüş meydanında Zəfər yürüşünü davam etdirdiyi günlərdə Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri məhz Azərbaycanın dövlət başçısından, ən etibarlı mənbədən əldə etdi. Azərbaycan işğalçı ölkənin və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi. "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi", - deyən möhtərəm Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr təmin olundu. Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratdı və Azərbaycan hər bir platformada gücünü göstərdi. Son illər ərzində ölkəmizdə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə görülən işlər və həyata keçirilən çoxşaxəli islahatlar, möhkəm əsaslara malik xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyədə qurulması və həmrəyliyin təmin olunması, Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və bu kimi əhəmiyyətli nailiyyətlər bu Qələbəni şərtləndirən mühüm məsələlər sırasındadır”, – deyə Sahibə Qafarova vurğulayır.

Məqalədə daha sonra bildirilir ki, nəhayət, noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti arasında bəyanat imzalandı. Birmənalı şəkildə qeyd etməliyik ki, bu bəyanat Azərbaycan dövlətinin şanlı Qələbəsi, Ermənistan üçün isə faktiki olaraq hərbi kapitulyasiya deməkdir. Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi möhtəşəm qələbələr, Azərbaycan Liderinin, Ordumuzun, xalqımızın dəmir yumruğu Ermənistanı bu bəyanata imza atmağa məcbur etdi.

Bu bəyanatın tarixi əhəmiyyəti olduqca böyükdür. İlk növbədə, bu bəyanat 30 ilə yaxındır davam edən işğala son qoyur. Bu sənəd hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən geri qaytarmağa imkan verir. Həmçinin Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunur və azərbaycanlılar öz doğma torpaqlarına, yurd-yuvalarına qayıdırlar. Budur, Qələbənin, Zəfərin xoşbəxtliyi!

Möhtərəm Prezident İlham Əliyevin təbirincə desək, "Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!".

Spiker yazır: "Azərbaycan dövləti bu zəfəri həm döyüş meydanında, həm də siyasi müstəvidə qazandı. Öz Liderinin, öz Ordusunun gücü, xalqın sarsılmaz birliyi sayəsində zəfər əldə etdi. Qəhrəman əsgərlərimizin şücaəti, fədakarlığı nəticəsində biz torplaqlarımızı işğaldan azad etdik. Vətən müharibəsində öz qanı, canı bahasına torpaqlarımızı qoruyan şəhidlərimizə Allah rəhmət eləsin, onlar bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə şəfa diləyirəm.

Beləliklə, əldə etdiyimiz bu tarixi zəfər, torpaqlarımızın azad edilməsi həm də Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz dövləti, onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Bu müharibə Azərbaycan xalqının, onun Liderinin, Şanlı Ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır.

Eşq olsun Ali Baş Komandan İlham Əliyevə! Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

**AZƏRTAC**

**İƏT Dağlıq Qarabağda ermənilər tərəfindən İslama aid tarixi ziyarətgahların dağıdılmasından narahatlığını bildirib**

[01:12] 12.11.2020

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi İslam irsinin ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirir.

AZƏRTAC xəbər verir ki, bu barədə İƏT-in yaydığı bəyanatda deyilir.

Bəyanatda bildirilir: "Maddi və mənəvi dəyərlərin, xüsusən Qubadlı rayonunun bu yaxınlarda azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutudur. İşğal olunmuş ərazilərdə əsrlər boyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il Protokollarının açıq şəkildə pozulmasıdır. Xarici İşlər Nazirləri Şurasının 46-cı iclasında İƏT "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 3/46-S saylı Qərar qəbul edib. Qərarda erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsin tamamilə məhv etmək məqsədi, barbar hərəkətləri pislənilib".

**AZƏRTAC**

**İşğaldan azad edilmiş ərazilərdə DTX-nin idarə və şöbələri fəaliyyətə başlayır**

[14:10] 12.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” 2020-ci il 29 oktyabr tarixli Fərmanına uyğun olaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı rayonlarında və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli şöbələri xidmətə başlayıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Şuşa şəhərinin strateji əhəmiyyəti nəzərə alınaraq, DTX-nin Şuşa şəhər idarəsi təsis edilib və yaxın günlərdə onun fəaliyyəti təmin olunacaq.

**AZƏRTAC**

**İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri**

[14:12] 12.11.2020

Bitki mühafizəsinin əsas vəzifələrindən biri də müxtəlif vasitələrlə fərqli zoocoğrafi ərazilərdən təsadüfən yeni əraziyə keçmiş invaziv zərərli orqanizmləri tədqiq etmək və ehtiyac olduğu təqdirdə lazımi mübarizə tədbirləri tətbiq etməkdən ibarətdir. Bu məqsədlə respublikamızın müxtəlif rayonlarına daxil olan fərqli ekosistemlərdə vaxtaşırı monitorinqlər aparılır və bitki sağlamlığı istiqamətində lazımi tədbirlər həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi İnstitutunun Elmi-tədqiqat və risklərin qiymətləndirilməsi departamentinin Bitki sağlamlığı şöbəsinin mütəxəssisləri Camal Quliyev və Gülnar Qəhrəmanovanın hazırladığı məqalədə deyilir.

Müəlliflər daha sonra yazırlar: Təəssüf ki, uzun illər erməni işğalına məruz qalan ərazilərimizdə bu cür tədbirlər planı həyata keçirmək mümkün olmayıb. Belə ki, ölkəmizdə karantin zərərvericiləri, xəstəlik və alaq otlarının yayılması haqqında 1997-ci il yanvarın 2-nə aid hesabatda göstərilən məlumatlar işğaldan əvvəlki son illərə aiddir.

İşğaldan əvvəl həmin ərazilərdə Kolorado kartof böcəyi, filloksera, komstok yastıcası, sitrus ağqanadlısı, sürünən kəkrə, qızılsarmaşıq kimi karantin tətbiq edilən zərərli orqanizmlər qeydə alınıb. Ağdərə rayonunda 292 hektar, Xocavənd rayonunda 114 hektar, Xocalı rayonunda 293 hektar, Şuşa rayonunda isə 39 hektar sahədə Kolorado kartof böcəyinin yayıldığı müəyyən edilib. Bundan başqa, Qubadlıda 8 hektar, Zəngilanda 0,1 hektar, Ağdamda 2 hektar, Füzulidə 15,1 hektar ərazidə Kolorado böcəyinə rast gəlinib.

Filloksera zərərvericisi Ağdərə rayonunda 3000 hektar, Xocalı rayonunda 600 hektar, Xocavənd rayonunda 3750 hektar ərazidə qeydə alınıb. İşğal altında olan Ağdam rayonunda isə 2834 hektar ərazini əhatə edən üzüm sahəsində zərərvericinin yayıldığı məlumdur.

Komstok yastıcasına Ağdərə rayonunda 45 hektar, Xocavənd rayonunda 6 hektar, Xocalıda 14 hektar ərazidə rast gəlinib. İşğala məruz qalmış digər rayonlarımızdan Ağdamda 32 hektar, Zəngilanda 8 hektar, Tərtərdə 5 hektar, Füzulidə 6,9 hektar sahədə komstok yastıcası aşkar edilib.

Ərazidə həşəratlarla yanaşı, kənd təsərrüfatı sahələrinə ciddi ziyan vuran və karantin tətbiq edilən qızılsarmaşıq, sürünən kəkrə kimi alaq otları da qeydə alınıb. Qızılsarmaşığa Ağdam rayonunda 601,5 hektar, Zəngilan rayonunda 72 hektar, Laçın rayonunda 121 hektar, Füzuli rayonunda 1003 hektar, Ağdərə rayonunda 1500 hektar, Xocavənd rayonunda 2400 hektar, Xocalıda 1400 hektar, Şuşada isə 200 hektar ərazidə rast gəlinib. Bundan başqa, Ağdam rayonunda 300 hektar ərazidə sürünən kəkrə də yayılıb.

Lakin işğala məruz qalan ərazilərimizdəki fitosanitar vəziyyət haqqında sonralar heç bir məlumat toplamaq mümkün olmayıb.

Həmin zərərli orqanizmlərin vaxtaşırı monitorinqinin və onlara qarşı fitosanitar tədbirlərin aparılmaması onların kütləvi artımına və areallarının işğal olunmayan digər Azərbaycan ərazilərinə doğru genişlənməsi ilə nəticələnib. Digər tərəfdən, həmin ərazilərdə həyata keçirilən hərbi əməliyyatlar zamanı tətbiq edilən dağıdıcı vasitələr, yaşıllıqların, meşə və kənd təsərrüfatı sahələrinin yandırılaraq və ya digər üsullarla məhv edilməsi, kənd təsərrüfatına yararlı ərazilərə çirkab sularının axıdılması, aqrosenozların yerində narkotik xassəli bitkilərin əkilməsi, müəyyən məqsədlər üçün meşələrin qırılaraq daşınması və s. həmin ərazilərin flora və fauna tərkibinin dəyişməsi fonunda zərərli orqanizmlərin də növ tərkibinin və populyasiya sıxlığının dəyişməsinə səbəb olub.

Ekoloji terror - konkret ölkə tərəfindən və ya şəxs tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə, bilərəkdən vurulan ziyandır.

Ermənistan tərəfindən həyata keçirilən ekoloji terrorlardan biri də işğala məruz qalmış Azərbaycan torpaqlarında məqsədyönlü şəkildə törədilmiş yanğınlar və deqradasiyadır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14 faizini təşkil edir. Təəssüflə qeyd olunmalıdır ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyan dəyib. Belə ki, Kəlbəcər, Laçın, Zəngilan, Xankəndi, Şuşa, Xocavənd, Ağdərə meşə təsərrüfatlarının 261 min hektardan artıq sahəsi qırılaraq məhv edilib. Orada yetişən çox qiymətli palıd, fıstıq, vələs, ağcaqayın, ayı fındığı, qoz, Şərq çinarı kəsilərək Ermənistan ərazisinə daşınıb. 25-26 faizi meşə olan işğal altındakı torpaqların məhv edilməsi, həm də regiondakı heyvan və bitki növlərinin zərər görməsi deməkdir. Aparılan hesablamalara görə, meşə sahələrinin təqribən 8-10 faizi məhv edilib.

Məlumdur ki, 261 min hektar meşə, o cümlədən 13197,5 hektar qiymətli meşə sahələri, hündürlüyü 45, diametri 6-8 metrədək, yaşı 120 ildən 2 min ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət abidələri işğal edilmiş ərazilərdə qalıb. Böyük əhəmiyyətə malik olan bu təbiət abidələrinin əksəriyyəti həmin ərazilərdə məskunlaşmış ermənilər tərəfindən məhv edilib.

Ermənistan ordusunun əsgərləri və orada məskunlaşan gəlmə əhali tərəfindən mütəmadi olaraq qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv edilib, torpağın üst münbit qatı yararsız hala düşüb. Müxtəlif vaxtlarda ermənilər işğal etdikləri ərazilərin geniş hissəsində (Xocavənd, Ağdam, Qubadlı, Zəngilan) yanğınlar törədiblər. Qeyd edək ki, yanğınlar zamanı ətraf mühitə təxminən 300 milyon manat məbləğində ziyan dəyib. Yanğın nəticəsində torpağın üst qatı və bitki örtüyü, ərazidə olan qiymətli ağac və kollar məhv edilib. Orada olan fauna və floradan əsər-əlamət qalmayıb, təbiətə xeyli ziyan vurulub. Həmin yanğınlar ekoloji tarazlığın pozulmasına, heyvanat aləminin və bitki örtüyünün tələf edilməsinə, atmosferin çirklənməsinə səbəb olub.

Lakin törədilən yanğınların fəsadları bununla bitmir. Belə ki, təbii ekosistemlərin və aqrosenozların məhv edilməsi orada məskunlaşan zərərli orqanizmlərin qida bitkilərinin müxtəlifliyinin artmasına təkan verən amillərdəndir. Biçənəklərin və əkin sahələrinin yandırılması bir çox təhlükəli zərərvericilərin, xüsusən də ev siçanı, çöl siçanı, adi çöl siçanı, qırmızıquyruq qum siçanı, kiçik Asiya qum siçanı, boz siçan, boz siçovul və s. kimi siçanabənzər gəmiricilərin, Mərakeş çəyirtkəsi, Asiya çəyirtkəsi, İtaliya çəyirtkəsi kimi sürü halında köç edən zərərvericilərin kütləvi şəkildə sərhədboyu yaşayış ərazilərinə doğru yayılmasına və xüsusilə taxıl sahələrinin kütləvi məhvinə səbəb olub. Gəmiricilər kənd təsərrüfatına ziyan vurmaqla yanaşı, insanlara və kənd təsərrüfatı heyvanlarına bir çox xəstəliklər yoluxdurub.

Qeyd edək ki, son illər işğal altında olan ərazilərdən ölkə ərazisinə Mərakeş çəyirtkəsinin və siçanabənzər gəmiricilərin miqrasiyası fitosanitar vəziyyəti mürəkkəbləşdirən başlıca amillərdən biridir. Rəşadətli ordumuz tərəfindən işğal altında olan ərazilərimizin azad edilməsi həmin sahələrdə fitosanitar sabitliyin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə şərait yaradıb.

**AZƏRTAC**

**İşğaldan azad olunmuş Qubadlı rayonunun Xocik və Cəbrayıl rayonunun Hovuslu kəndlərindən videoreportaj**

[17:06] 12.11.2020

Müdafiə Nazirliyi işğaldan azad olunmuş Qubadlı rayonunun Xocik və Cəbrayıl rayonunun Hovuslu kəndlərindən videoreportaj yayıb.

AZƏRTAC videoreportajı təqdim edir.

**AZƏRTAC**

**Qubadlı rayonunun işğaldan azad olunan Xəndək və Muradxanlı kəndlərindən videoreportaj**

[17:37] 13.11.2020

Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Xəndək və Muradxanlı kəndlərindən videoreportaj paylaşıb.
AZƏRTAC videoreportajı təqdim edir.

**AZƏRTAC**

**Vüqar Kərimov: Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulmalıdır**

[17:10] 15.11.2020

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ekoloji qeyri-hökumət təşkilatları, Azərbaycan ictimaiyyəti dünən sosial şəbəkələrdə və televiziyalarda Kəlbəcər ərazisində ermənilərin barbarlığını nümayiş etdirən foto və videolarda əks olunanları qətiyyətlə pisləyir və bu hərəkətləri insanlığa, təbiətə qarşı əsil düşmənçilik kimi qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, bunu ekologiya təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov jurnalistlərə açıqlamasında bildirib.

Nazirlik rəsmisinin sözlərinə görə, təcavüzkar Ermənistan tərəfindən işğal altındakı ərazilərdəki flora və faunanın məhvi, xüsusən də Cəbrayıl, Zəngilan, Qubadlı və işğaldan azad olunmuş digər ərazilərimizdə yaşı iki min ildən artıq olan təbiət abidələrinin - çinarların kəsilməsi, Şuşa ətrafındakı Topxana meşəsinin qadağan olunmuş ağ fosforla yandırılması, indi də Kəlbəcərdə ağacların kəsilməsi, meşələrin yandırılması və ətraf mühitə qəsdən zərər verilməsi təbiətə qarşı ən ağır cinayətdir: "Bu barbarlığa biz dünən yayılan foto və videolarda bir daha şahid olduq. Həmin ekoloji cinayətlər illərlə Azərkosmosdan alınmış foto faktlarda da təsdiq olunub. Eyni zamanda, yaşıllıqlara, meşə sahələrinə, bölgənin biomüxtəlifliyinə qarşı törədilən soyqırımı, yaradılmış əməliyyat qrupunda təmsil olunan nazirliyimizin əməkdaşlarının keçirdiyi monitorinqlərin ilkin nəticələrində də öz əksini tapıb".

Nazir müavini qeyd edib ki, mövcud faktlar müvafiq beynəlxalq konvensiyaların katibliklərinə təqdim edilib: "Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulması, talançılığın qeydə alınması və ziyanların hesablanması üçün beynəlxalq müşahidə və qiymətləndirmə qrupları Azərbaycana dəvət olunacaq.

Ekoloji terror faktlarına qiymət verilməsi üçün səylərimizi davam etdirməklə yanaşı, işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində işlərə artıq başlamışıq. İşğaldan azad olunmuş ərazilərdə noyabrın 11-dən başlayaraq müxtəlif növ ağac tingləri əkilir, meşə örtüyünün və yaşıllıqların bərpası istiqamətində tədbirlər görülür. Qarabağ ərazisində fəaliyyətimiz bundan sonra daha da intensivliklə davam etdiriləcək".

**İşğaldan azad olunmuş ərazilərdə FHN-in növbəti yerli strukturları fəaliyyətə başlayıb**

[09:40] 16.11.2020

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) işğaldan azad olunan ərazilərimizdə yerli strukturlarının təşkilini davam etdirir.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Şuşa şəhər, Cəbrayıl, Zəngilan və Qubadlı rayon Dövlət Yanğından Mühafizə hissələri müvafiq olaraq, Şuşa, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərlərində fəaliyyətə başlayıb. Bütün hissələr xidmətin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq texnika və avadanlıqla təchiz edilib.

Xatırladaq ki, bundan əvvəl Dövlət Yanğından Mühafizə Xidmətinin Füzuli şəhərində və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli strukturları fəaliyyətə başlamışdı.

**AZƏRTAC**

**Qubadlı rayonunda aparılan ekoloji monitorinqlərin nəticələri açıqlanıb**

[14:08] 20.11.2020

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən növbəti monitorinqlər Qubadlı rayonunun Xocahan, Tinli, Qilican, Əbilcə, Kavdadıq, Tatar, Qaraqoyunlu, Qiyaslı, Hal kəndlərində və Qubadlı şəhərində keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, monitorinqlər zamanı Qubadlı rayonundakı bütün evlərin və inzibati binaların tamamilə dağıdıldığı, təbiət abidələrinin, çoxillik ağacların məhv edildiyi məlum olub.

Belə ki, Qubadlı şəhərinin mərkəzində təbiət abidələri siyahısına daxil edilmiş yaşı 150-300 il olan Şərq çinarları, diametri 60 santimetr olan qoz ağacları məhv edilib və yandırılıb. Ötən əsrin 60-70-ci illərində Eldar şamı və sərv ağaclarından ibarət 2 hektarda salınmış park isə tamamilə məhv edilib.

Qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə yaradılan Əməliyyat qərargahlarında təmsil olunan nazirliyin əməkdaşları tərəfindən monitorinqlər davam etdirilir.

**AZƏRTAC**

**Vətən müharibəsində möhtəşəm Qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!" devizi altında tədbirlər keçirilib**

[17:12] 25.11.2020

Vətən müharibəsinin od-alovundan keçərək qələbə bayrağımızı zirvələrə ucaltmış mübariz döyüşçülərlə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə görüşlər keçirilib, incəsənət ustalarının çıxışları təşkil olunub, ədəbi-bədii kompozisiyalar təqdim edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarında və Şuşa şəhərində "Vətən müharibəsində möhtəşəm qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!" devizi altında keçirilən vətənpərvərlik tədbirlərində əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Layihənin müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlardan, ordu ilə xalqın sağlam mənəvi birliyindən, döyüşlərdə yeni tarix yazan qüdrətli sərkərdəmizin və mərd oğullarımızın fədakarlıqlarından iftixarla söhbət açıb.

Xalq artisti Samir Cəfərov, Əməkdar artist Cahangir Qurbanov və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı qrupunun iştirakı ilə Müzəffər Ali Baş Komandanı, rəşadətli Azərbaycan Ordusunu və qələbəni tərənnüm edən vətənpərvərlik mahnıları, hərbi marşlar səsləndirilib.

Bəstəkar Azad Zahidin A.Qurbaninin sözlərinə yazdığı "Qələbəyə gedən yollar", "Qalib Sərkərdə", "Müzəffər Ordumuz", "Qələbə müjdəsi", "Biz gəlmişik, Qarabağ" mahnılarını döyüşçülər alqışlarla qarşılayıblar.

Şuşada klassik Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin, böyük sənətkarımız Bülbülün ev muzeyləri, görkəmli şair Molla Pənah Vaqifin məzarı, eləcə də Gövhər Ağa məscidi, Şuşa qalası, Cıdır düzü və dağıdılmış digər tarixi memarlıq abidələrimiz ziyarət olunub.

Bülbülün ata ocağında iməcilik keçirilib. Bülbülün repertuarından "Sənsiz", "Sevgili canan" romansları və "Koroğlu" operasından parçalar ifa edilib.

Tədbirin təşkilatçıları əminliklə bildiriblər ki, xalqımızın xilaskar oğlu, qalib sərkərdəmiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən bütün bölgələrimizdə, o cümlədən Şuşada tezliklə böyük quruculuq işləri aparılacaq, köçkünlər öz doğma yaşayış məntəqələrinə qayıdacaq, Azərbaycan əsgəri bundan sonra da əzəli və əbədi torpaqlarımızın müdafiəsində mərdliklə dayanacaq.

Vətənpərvərlik tədbirləri Ağdam, Laçın və Kəlbəcər rayonlarında davam etdiriləcək.

**AZƏRTAC**

**Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi**

[13:47] 26.11.2020

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

İyirmi yeddi il ərzində təcavüzkara qarşı nəinki heç bir təzyiq edilməyib, hətta dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinə, bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşaraq, xüsusilə onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etməyib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

Ağdamın işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsidir. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi.

Qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Ermənistan təkcə Qarabağın dağlıq hissəsini tutmaqla kifayətlənmədi və təcavüzkarlığını daha da genişləndirdi. 1993-cü il martın 27-dən aprelin 2-dək Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Kəlbəcər rayonu işğal edilmişdi. Azərbaycan Kəlbəcər rayonuna erməni təcavüzü başlayandan dərhal sonra bölgədə yaranmış vəziyyət haqqında BMT-nin Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə məlumat verdi. Azərbaycanın bu tələbi Türkiyə tərəfindən müdafiə olundu. Məhz Kəlbəcərin işğalından sonra Türkiyə dövləti Ermənistanla sərhədini bağladı.

1993-cü il aprelin 30-da BMT TŞ-nın 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edildi. Qətnamədə Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilirdi. Sənəddə bütün hərbi əməliyyat-ların dərhal dayandırılması, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılması tələb edilirdi. Bundan əlavə, sənəddə ərazi bütövlüyünə hörmət, eləcə də beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi təsdiq olunurdu.

Kəlbəcər rayonu Azərbaycanın qərbində, Tərtər çayı vadisində, Böyük Qafqaz dağlarında, dəniz səviyyəsindən 1500-3800 metr hündürlükdə yerləşir. Ən uca nöqtəsi dəniz səviyyəsindən 3724 metr yüksəkdəki

Camışdağ zirvəsidir (Murovdağ). Rayonun ərazisindən axan əsas çaylar Tərtər, Bazarçay və onların qollarıdır. Ərazisinin çox hissəsində qışı quraq keçən soyuq və dağlıq tundra iqlim tipləri hakimdir. Kəlbəcər rayonu qərbdə Ermənistan Respublikası, şərqdə Ağdam və Tərtər, şimalda Daşkəsən, Göygöl və Goranboy rayonları ilə, cənubda isə Laçın rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

İşğal nəticəsində Kəlbəcər rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilmiş, yandırılmış, dağıdılmış və məhv edilmişdir. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli, ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları, sənaye əhəmiyyətli ümumi ehtiyatları 850 ton olan 3 - Ağyataq, Levçay, Çorbulaq və ehtiyatları 200 tondan çox olan Qamışlı və Ağqaya civə yataqları, ehtiyatları 10941 min kubmetr olan və mişar daşı istehsalına yararlı Kilsəli tuf yatağı, ehtiyatları 1312 min kubmetr olan və kərpic istehsalına yararlı Keşdək gil yatağı, ehtiyatları 4473 min kubmetr olan və yüngül beton doldurucusu kimi istifadə olunan Keçəldağ perlit yatağı, ümumi ehtiyatları 2,2 milyon kubmetr olan 2 üzlük daşı yatağı, ehtiyatları 2540 min kubmetr olan Çəpli qum-çınqıl qarışığı yatağı; gözəl dekorativliyə malik 4 mərmər oniksi (ehtiyatları 1756 ton), nefroid (ehtiyatları 801 ton) yatağı; ehtiyatları 2337 ton olan 1 obsidian (dəvə gözü) yatağı, ehtiyatları 1067 min kubmetr olan 1 listvenit yatağı qalmışdır.

Bundan əlavə, Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da (ümumi istismar ehtiyatları 3093 m3/gün) işğal ərazisində yerləşir. Murovdağ, Şahdağ, Vardenis, Mıxtökən, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinin əhatəsində yerləşən Kəlbəcər şəhərinin ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Ərazidə Yura, Təbaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik süxurları yayılıb. Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qolları Lev çayı, Tutquncay və başqalarıdır.

Kəlbəcər rayonunun işğaldan azad olunması tarixi hadisə kimi dəyərləndirən və ərazi baxımından bizim ən böyük rayonlarımızdan biri olduğunu vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 25-də xalqa müraciətində qeyd etmişdir ki, Kəlbəcər bizim qədim torpağımızdır: "Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər". Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malik olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etdi ki, bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir.

Kəlbəcərdə mənfur düşmənin digər cinayətlər də törətdiyini, qanunsuz məskunlaşma aparıldığını bildirən Prezident İlham Əliyev demişdir: "Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan".

Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Prezidenti deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

Qeyd etmək vacibdir ki, rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdıgı "yenilməzlik" mifologiyasını darmadağın etdi. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslananaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Eyni zamanda, bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu

və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi. Bu, informasiya müharibəsində Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çaldığını şərtləndirdi. Xüsusilə, son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı.

Nəticədə, informasiya müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və artıq danışıqların şərtlərini Azərbaycan tərəfi müəyyən etdi və ölkəmizin ikinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi. Təhlil onu söyləməyə əsas verir ki, bütün bunlar Azərbaycanın böyük hərbi-diplomatik uğuru və beynəlxalq birliyin Azərbaycana olan inamının, etimadının təzahürü, ölkəmizin, xüsusilə dövlət başçısının qlobal miqyasda olan nüfuzunun göstəricisidir.

**AZƏRTAC**

**Qubadlıda Şərq çinarları əkilib, tut bağı salınıb**

[12:28] 27.11.2020

Növbəti ağacəkmə aksiyası işğaldan azad olunmuş Qubadlı rayonunun Qaralar kəndi ərazisində, erməni işğalçıları tərəfindən məhv edilmiş yaşı 300 ildən artıq olan Şərq çinarı təbiət abidəsinin yerləşdiyi ərazinin yaxınlığında keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, nazirliyin və Qubadlı Rayon İcra Hakimiyyətinin əməkdaşlarının iştirakı ilə baş tutan aksiyada karantin rejiminin tələblərinə əməl olunmaqla 50-dən çox Şərq çinarı əkilib, yol kənarındakı kəsilmiş tut ağaclarının yerinə isə 400 tut ağacı əkilməklə tut bağı salınıb.

Bununla da erməni işğalçıları tərəfindən Qarabağ bölgəsində məhv edilmiş yaşıllıqların yenidən bərpasına töhfə verilib.

Qeyd edək ki, respublika ərazisində həyata keçirilən payız ağacəkmə kampaniyası çərçivəsində işğaldan azad olunmuş Füzuli, Zəngilan və Ağdam rayonlarının ərazilərində də ağacəkmə aksiyaları keçirilib.

**AZƏRTAC**

**Vətən müharibəsi zamanı əməliyyatların minimum itkilərlə həyata keçirilməsi böyük uğurdur**

[18:26] 29.11.2020

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altındakı torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Bu əməliyyatlar və 44 gün davam edən Vətən müharibəsi zamanı Zəngilan, Füzuli, Cəbrayıl, Qubadlı şəhərləri və həmin rayonların kəndləri, Şuşa şəhəri, eləcə də bir neçə strateji yüksəkliyin işğaldan azad olunması azərbaycanlılara böyük sevinc və qürur hissi yaşadıb. Bu zəfər və Prezident, Ali Baş Komandanı İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqe hərbçilərimizdə və xalqımızda böyük ruh yüksəkliyi yaradıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri bu hərbi uğurun Azərbaycan Ordusu üçün əhəmiyyətini şərh edən ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.

Polkovnik Şair Ramaldanov bildirib ki, düşmən mürəkkəb relyefə malik işğaldan azad edilmiş ərazilərdə otuz il istehkamlar yaradaraq Ordumuzun böyük itkilər verəcəyinə zənn edirdi: “Lakin Ordumuzun ən müasir silahlarla təchiz olunması zamanı bu relyef, dağlıq, meşəlik ərazilər nəzərə alınmaqla təmin edilmişdi. Həmçinin Azərbaycan Ordusunun şəxsi heyəti döyüş meydanında irəlilədikcə onun vətənpərvərlik ruhu yüksəlir, qələbəyə inam daha da artırdı. Digər tərəfdən işğaldan azad edilmiş ərazilər bizə başqa istiqamətlərdə növbəti addımlar atmaq üçün şərait yaradırdı. Bunların hamısının strateji önəmi vardı.

Müharibəyə hazırlıq dövründə Azərbaycan Ordusu daim kəşfiyyat aparırdı. Təlimlər və döyüş hazırlıqlarında məhz həmin ərazilər və düşmənin istehkamları nəzərə alınmışdı. İrimiqyaslı təlimlər döyüş başlayacağı halda müəyyən ssenarilər nəzərə alınaraq təşkil edilmişdi. Azərbaycan Ordusu XXI əsrdə döyüş əməliyyatlarını aparmağa imkan verən ən müasir, beşinci nəsil silahlarla təchiz olunmuşdu. Bütün bu illərdə Silahlı Qüvvələrimiz torpaqlarımızı güc yolu ilə azad etməyə hazırlığı davam etdirirdi. Biz bu kompleks hazırlıqların nəticəsini Ordumuzun yüksək döyüş ruhunu və vətənpərvərliyini əməliyyatlar başlayan zaman müşahidə etdik. Döyüşlərə atılan əsgərlərimiz Qarabağın işğalı ilə barışmadığı vətənpərvər mühitdə tərbiyə alıblar. Dövlətimizin başçısı işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağını hər zaman bəyan etmişdi. Məhz belə mühitdə gənclərimiz böyüyürdü. Şəhid Mübariz İbrahimov və digər qəhrəmanlarımız gənclərimizin daxilindəki Qarabağ alovunu göstərirdi”.

Ş.Ramaldanov qeyd edib ki, əsgərlərimiz qısa müddətdə Ermənistanın keçilməz saydığı müdafiə xətlərini yarıb, düşməni torpaqlarımızdan qovmağa başlayıb. Sonra ən strateji istiqamət olan Şuşa şəhəri düşməndən azad edilib. Bu, Azərbaycan Ordusunun yüksək döyüş hazırlığının göstəricisidir. Cənub istiqamətində Şuşayadək döyüşlər Ordumuzun daha çox müasir texnika və silahlarla təminatını, onları idarə edən heyətin peşəkarlığını göstərib. Şuşa əməliyyatı isə Azərbaycan Ordusunun peşəkarlığını, yüksək səviyyədə hazırlığını və döyüş ruhunu nümayiş etdirib. Sıldırım qayalardan çıxılaraq düşmənlə yaxın döyüşdə qəhrəmanlıq nümunələri göstərilib və Şuşa işğaldan azad edilib. Bu döyüşdə taktiki cəhətdən düzgün istiqamətlər seçilib, bütün hesablamalar dəqiqliklə aparılıb və böyük uğur qazanılıb. Düşmənin ürəyinə Azərbaycan bayrağı sancılıb. Həmçinin 70 yaşayış məntəqəsi düşməndən təmizlənib və Ermənistanın kapitulyasiya bərabər bəyanatı imzalamasına nail olunub.

Ermənistanın çoxsaylı silah-sursatının, hərbi texnikasının məhv edilməsindən danışan ehtiyatda olan polkovnik qazanılan hərbi uğurlarda Ali Baş Komandan İlham Əliyevin hərbi sahədə siyasətindən, müharibəyə kompleks hazırlıqdan, ordumuzun arsenalındakı müasir hərbi silahlarından söz açıb. Vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri Prezident İlham Əliyevin bilavasitə diqqəti və qayğısı sayəsində sürətlə inkişaf edərək bu gün dünyanın ən peşəkar ordular arasında yer alıb. Dövlətimizin başçısı ordumuzun ən müasir silah-sursatlarla, eləcə də maddi-texniki təminatına yüksək diqqət göstərib.

Azərbaycan Ordusunun texniki üstünlüyü barədə məlumat verən polkovnik deyib ki, vaxtilə keçirilən genişmiqyaslı təlimlər döyüş zamanı aparılan əməliyyatların uğurla keçirilməsinə töhfə verib. Azərbaycan Ordusunda hərbi döyüş qabiliyyətini müəyyənləşdirən vəzifələrdə müddətdən artıq xidmət edən heyət çoxluq təşkil edir. Bu da Azərbaycan Ordusunun peşəkarlığını göstərir. Bu gün Azərbaycan Ordusunun cəmiyyətdəki nüfuzu da yüksəkdir.

Hərbi ekspert vurğulayıb ki, Azərbaycan Ordusunun yeni müharibə strategiyası əsgərlərimizin həyatının daha çox qorunmasına imkan verib. Qazanılan hərbi qələbələrin əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşmış və ən son texnoloji silahlarla təchiz edilmiş müasir ordu dayanır. Azərbaycan Ordusu ən müasir döyüş standartları əsasında hərbi əməliyyatlar aparıb.

İkinci Qarabağ müharibəsində itkilərin az olduğunu bildirən Ş.Ramaldanov qeyd edib ki, hətta NATO-nun Baş Qərargah rəisi Azərbaycan Ordusunun həyata keçirdiyi bu nümunəvi əks-hücum əməliyyatlarının gələcəkdə öyrənilməsinin vacibliyini vurğulayıb. Çoxsaylı müdafiə-istehkam qurğuları, mürəkkəb relyef şəraitində Şuşanın işğaldan azad edilməsi nəticəsində düşmən kapitulyasiyaya imza atıb. Minimum itkilərlə bu əməliyyatların həyata keçirilməsi böyük uğurdur. Hərb elmində döyüşdəki bütün mərhələlər planlaşdırılır. Xarici hərbi ekspertlərin qiymətləndirmələrinə əsasən, Azərbaycan Ordusu bütün torpaqları işğaldan azad etmək üçün qarşıdan gələn qış mövsümündəki şəraiti də nəzərə alsaq, çoxsaylı itki verə bilərdi. Məhz Prezident İlham Əliyevin müdrik qərarları sayəsində və Ali Baş Komandan bir sərkərdə kimi istiqamətləri müəyyənləşdirməklə döyüşlərdə Azərbaycan Ordusunun şəxsi heyəti arasında itkilərin minimum olmasına nail olunub. Dövlətimizin başçısının bu sərkərdəlik məharəti və Azərbaycan Ordusunun yüksək döyüş hazırlığı, həmçinin müasir silahların və texnikaların peşəkarlıqla idarə edilməsi sayəsində XXI əsrin tələblərinə cavab verən əməliyyatlar aparılıb. Azərbaycan Ordusu düşmənə maksimum zərbə endirməklə onu zəiflədib və beləliklə öz şəxsi heyəti arasında itkilər az olub.

Döyüşlərdə düşmənin çoxsaylı canlı qüvvə itkilərinə məruz qalmasının, onun texnikasının, döyüş infrastrukturunun, hərbi sursatının məhv edildiyini bildirən polkovnik xatırladıb ki, Ermənistan müharibə zamanı dağıdıcı silahlardan, artilleriyadan, raket-yaylım sistemlərindən istifadə edib. Zəfərlə yekunlaşan müharibədə az da olsa, itkilər olur. Bu gün əsgər analarımız səbir, təmkin nümayiş etdirir və deyirlər ki, təki Vətən sağ olsun. Onlar bu gün qürur hissi keçirirlər ki, övladları qələbə qazanan Ordunun sıralarında döyüşlərdə iştirak edib və torpaqlarımızın azadlığı uğrunda şəhid olublar. Xalqımızın və dövlətimizin şəhid ailələrinə qayğısı onların ağrı-acılarını azaldır. Artıq Vətən müharibəsi zəfərlə yekunlaşıb, düşmən diz çöküb və Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Bu gün Azərbaycan Ordusunun müasir döyüş strategiyasına hərbi aləmdə yeni təcrübə kimi yanaşılır. Ordumuzun arsenalındakı ən müasir silahlar və texnikalar isə Vətən müharibəsi zamanı şəxsi heyətimiz arasında itkiləri minimuma endirmiş döyüş taktikasını seçməyə imkan verib.

**AZƏRTAC**

**Tarixi zəfərimiz Azərbaycan Prezidentinin müdrik siyasətinin nəticəsidir**

[10:29] 02.12.2020

Artıq minilliklərdən soraq verən qalalar məskəni, qədim türk yurdu Laçın da öz əzəli və əbədi sahiblərinə qaytarıldı, işğaldan azad edildi, əsirlikdən azad edilmiş digər torpaqlarımız kimi yeni tarixə qədəm qoydu. Prezident İlham Əliyevin xalqa müraciətində qeyd etdiyi kimi, "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib.

O qeyd edib ki, noyabrın 10-da imzalanan birgə Bəyanata əsasən, müqəddəs Qarabağ torpaqları uğrunda apardığımız müharibə Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Müzəffər Azərbaycan Ordusunun misilsiz şücaəti ilə darmadağın olan düşmən Kəlbəcər, Ağdam və Laçın rayonlarını tərk etməyə məcbur oldu. Bir güllə belə atılmadan geriyə qaytarılan tarixi şəhərlərimiz həm də siyasi arenadakı mütləq qalibiyyətimizin göstəricisidir. Eyni zamanda, tarixi yurd yerlərimizin Kəlbəcərin, Ağdamın, Laçının işğaldan azad edilməsi Azərbaycanın həm siyasi, həm də diplomatik müstəvidə qələbəsinin təcəssümü oldu.

"Artıq xalqımız Ağdam və Kəlbəcərdən sonra Laçının da işğaldan azad edilməsinin sevincini yaşayır. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Laçının işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində bir daha bildirdi ki, bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır.

Faşist ideologiyasından qaynaqlanan Ermənistan hakimiyyəti hər fürsətdən dinc azərbaycanlı sakinlərə qarşı istifadə edib, onlara işgəncə verib, qətlə yetirib. İkinci Qarabağ müharibəsi zamanı da Ermənistan silahlı qüvvələri döyüş bölgəsindən xeyli uzaqda yerləşən şəhərləri raket atəşinə tutdu. Gecə saatlarında Gəncənin bombalanmasını, Bərdənin raket atəşinə tutulmasını, Tərtərdə ölüsünü dəfn edən dinc sakinlərin bombardman olunmasını, Goranboyun, Ağcabədinin, Siyəzənin, Xızının raket atəşinə tutulmasını dünya ictimaiyyəti də gördü və işğalçı Ermənistanın terror aktlarını qınadı", - deyə deputat vurğulayıb.

Bildirib ki, dünyada sülhə, tolerantlığa, mədəniyyət və sivilizasiyalara xüsusi hörmət, ehtiram və qayğısı ilə seçilən Azərbaycan əzəli-əbədi torpaqlarını 30 illik işğaldan azad edərkən də nümunə oldu. Müharibə şəraitində belə ölkəmiz sahib olduğu humanizm dəyərlərinə sadiq qalaraq mülki insanların, tarixi-dini abidələrin, sosial-ictimai obyektlərin təhlükəsizliyinə xüsusi həssaslıq və diqqətlə yanaşdı. Düşmən isə işğal altında olan torpaqlarımızda tarixi abidələrimizi, maddi-mənəvi irsimizi qəsdən, riyakarcasına dağıtdı, təhqir etdi, beynəlxalq hüquq və ədalət prinsiplərinə sığmayan acı həqiqətlərə imza atdı. Bu gün illərlə düşmən tapdağı altında olan torpaqlarımız azad edilib. "Qarabağ Azərbaycandır və nida" deyən Prezident İlham Əliyev bir daha xalqa verdiyi bütün vədlərə sadiq olduğunu nümayiş etdirdi. Özünün tarixi, coğrafi mövqeyinə görə Azərbaycanın ən qədim və strateji cəhətdən vacib olan yaşayış məskənlərindən sayılan Laçının işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edərkən dövlətimizin başçısı hər bir Azərbaycan vətəndaşının illərlə arzusunda olduğu sözləri dilə gətirdi: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

Ölkə Prezidentimizin müdrik, məqsədyönlü siyasətinin təsdiqi olan tarixi zəfərimiz Azərbaycan xalqının iftixar və qürur mənbəyidir.

**AZƏRTAC**

**Azərbaycanda Zəfər Günü təsis edilib**

[13:23] 02.12.2020

Dekabrın 2-də Prezident İlham Əliyev Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən hər il noyabrın 10-u Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək.

Sərəncamda qeyd olunur ki, XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış edib və ölkəmizə qarşı hərbi təcavüzə başlayıb. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20 faizini işğal edib, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşüb.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməyib.

Sənəddə 2019-cu ildən etibarən Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatların və atdığı addımların danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozması, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni ərazilər uğrunda yeni müharibə” çağırışı, Ermənistan – Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması qeyd edilir.

Sərəncamda daha sonra deyilir: “Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı”.

Prezident İlham Əliyev xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-nun Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd olunmasını qərara alıb.

**AZƏRTAC**

**ANAMA son üç gün ərzində 102 mina zərərsizləşdirib**

[06:46] 07.12.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) 03-06 dekabr tarixlərində Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 33 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 35 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 30 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılan əməliyyat-axtarış tədbirləri zamanı 178 ədəd partlamamış hərbi sursat, 13 ədəd tank əleyhinə mina, 25 ədəd piyada əleyhinə mina, 6700 ədəd müxtəlif çaplı patronlar, 12 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 102 ədəd mina və partlamamış hərbi sursat zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 80141 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib**

[16:15] 07.12.2020

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Sizin Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb. Cəbrayıl, Zəngilan, Qubadlı eyni vəziyyətdədir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə danışıb.

Gəncəyə və Ağdama səfər etdiklərinə görə qonaqlara minnətdarlığını bildirən dövlətimizin başçısı deyib: “İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq”.

Prezident İlham Əliyev qeyd edib ki, əsl dostluq özünü çətin anlarda göstərir. “Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

**Prezident: Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi**

[15:37] 10.12.2020

Vətən müharibəsinin hər gün bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişdik. Bu istehkamlar elə qurulmuşdur ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı hərbçilərimizin göstərdiyi qəhrəmanlıqdan danışarkən bildirib.

"Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizin yekunu da Şuşa şəhərində vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad olunan sonuncu şəhər oldu", – deyə dövlətimizin başçısı vurğulayıb.

Şuşanın azad edilməsini tarixi hadisə kimi dəyərləndirən Azərbaycan Prezidenti deyib: "Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalar vasitəsilə dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşündə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad ediləndən sonra Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilər tərəfindən uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, sanki Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü göstərdi, öz qüdrətini göstərdi".

**AZƏRTAC**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar**
*(23 dekabr 2020-ci il)*

Xəbər verdiyimiz kimi, dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident **İlham Əliyev** dedi:

-Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir.

Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd.

**Birinci xanım Mehriban Əliyeva**: Kəndin adı nədir?

**Prezident İlham Əliyev:** Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.

Zəngilan rayonunun ərazisindən keçirik.

Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

**Birinci xanım Mehriban Əliyeva:** Yəqin ora hərbi hissədir.

**Prezident İlham Əliyev:** Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq

kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşmaya cavab budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

**Prezident İlham Əliyev:** Salam uşaqlar.

**Əsgərlər**: Sağ olun!

**Prezident İlham Əliyev**: Nə var, nə yox, necəsiniz?

**Əsgərlər:** Çox sağ olun!

**Prezident İlham Əliyev:** Xidmət necə keçir?

**Əsgərlər**: Əla. Hər şey yaxşıdır.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.

Gəlin uşaqlar, gəlin.

**Əsgərlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Xoş gördük. Bu, bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb.

**Əsgər:** Ay maşallah, igiddir, əsl igid.

**Prezident İlham Əliyev:** Salam, salam. Sonra şəkil çəkdirək.

Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

**Əsgərlər**: "Onları iti qovan kimi qovduq" sözləriniz şüarımızdır.

**Prezident İlham Əliyev:** Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

**Əsgərlər:** Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

**Prezident İlham Əliyev:** Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

**Əsgərlər:** Sizin başçılığınız və iradəniz sayəsində.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Əsgərlər**: Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan!

**Prezident İlham Əliyev:** Yaşasın Azərbaycan əsgəri!

**Əsgərlər:** Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Gəlin, şəkil çəkdirək.

**Əsgər**: Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

**Birinci xanım Mehriban Əliyeva:** Allah rəhmət eləsin!

**Prezident İlham Əliyev**: Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, ermənicə nəsə yazıblar orada. Bunu sökmək lazımdır, gəlin sökün.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkiləк. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca

Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

**x x x**

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

**Prezident İlham Əliyev**: Zəngilan. Zəngilan şəhərinə az qalıb.

Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl, gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu “dost ölkəyə” 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

**x x x**

**Prezident İlham Əliyev:** İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

**Birinci xanım Mehriban Əliyeva:** Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

**Prezident İlham Əliyev:** Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

**AZƏRTAC**
**2020, 24 dekabr**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Xocahan kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun Xocahan kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 1 yanvar**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Mahmudlu kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunmuş Mahmudlu kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 6 yanvar**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Muradxanlı kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Muradxanlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qeyd edək ki, 1992-ci il noyabrın 1-də Muradxanlı kəndinə ermənilərin silahlı basqını nəticəsində 5 nəfər həlak olub, 8 nəfər yaralanıb. Bu kənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrini sarsıdıcı məğlubiyyətə uğradan rəşadətli Azərbaycan Ordusu noyabrın 2-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 9 yanvar**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qeyd edək ki, Qubadlı rayonu 1993-cü il avqustun 31-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 25-də rayonu işğaldan azad edib. İşğaldan əvvəl rayonda 1 şəhər və 93 kənd olub.

**AZƏRTAC**
**2021, 12 yanvar**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Dəmirçilər kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Dəmirçilər kəndindən videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Bazarçayın sahilində, dağətəyi ərazidə yerləşən Dəmirçilər kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 26 yanvar**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Mirlər kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad edilmiş Mirlər kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 31 yanvar**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Alaqurşaq kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Alaqurşaq kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Alaqurşaq kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi oktyabrın 23-də işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 2 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Muğanlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Muğanlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Muğanlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 23-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 6 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Diləli Müskənli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Diləli Müskənli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Diləli Müskənli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 7-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 8 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Qəzyan kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Qəzyan kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qəzyan kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 7-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 9 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Zilanlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Zilanlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Zilanlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 23-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 10 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Qaralar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Qaralar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 12 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Həmzəli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Həmzəli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Həkəri çayının sahilində yerləşən Həmzəli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 20 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Çaytumas kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Çaytumas kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Çaytumas kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu

oktyabrın 25-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 22 fevral**

## Müdafiə Nazirliyi Qubadlı rayonunun Hal kəndinin videogörüntülərini paylaşıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Hal kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Hal kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 23 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Yusifbəyli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Yusifbəyli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qubadlı rayon mərkəzindən 23 kilometr cənub-şərqdə, dəniz səviyyəsindən 730 metr yüksəklikdə yerləşən Yusifbəyli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 25-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 25 fevral**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Əfəndilər kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad edilmiş Əfəndilər kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Əfəndilər kəndi 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 25-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 27 fevral**

**Erməni vandalları Azərbaycanın təbiətinə ciddi ziyan vurub, ekoloji terror törədiblər**

İşğaldan azad olunmuş Qubadlı rayonuna səfər edən Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər burada erməni vandallarının törətdiyi ekoloji terrorun izləri ilə tanış olublar.

Diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, ADA Universitetinin rektoru Hafiz Paşayev və digər rəsmi şəxslər müşayiət ediblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbirinin verdiyi məlumata görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Möhübbət Qurbanov erməni vandallarının Qubadlıda törətdikləri vəhşiliklər barədə məlumat verib. Bildirib ki, Həkəri çayı boyunca böyük tut bağları ekoloji terrora məruz qalıb. Bütün ağaclar kəsilib, yandırılıb. Şərq çinarı, yunan qozu kimi nadir ağac növləri məhv edilib. 107 hektar ərazini əhatə edən Bəsitçay dövlət qoruğu ekoloji terrora məruz qalıb. Burada dəfələrlə yanğınlar törədilib. Kəndlərimiz dağıdılıb, yaşıllıqlarımız məhv edilib.

Qeyd edək ki, Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlərin işğaldan azad olunmuş rayonlara səfəri Prezident İlham Əliyevin tapşırığına əsasən reallaşıb.

**AZƏRTAC**
**2021, 6 mart**

**Diplomatik korpusun rəhbərləri Qubadlı rayonuna səfər ediblər**

Martın 6-da Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər Ermənistan işğalından azad edilmiş Qubadlı rayonunda olublar. Səfər Prezident İlham Əliyevin tapşırığına əsasən reallaşıb.

Diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, ADA Universitetinin rektoru Hafiz Paşayev və digər rəsmi şəxslər müşayiət ediblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, Prezidentin köməkçisi Hikmət Hacıyev Qubadlı rayonunun mərkəzində səfər iştirakçılarını erməni vandalizminin acı nəticələri barədə məlumatlandırıb. Qeyd edib ki, rayon işğal dövründə yerləbir edilib, hətta onun mərkəzinin harada yerləşdiyini müəyyən etmək belə çətindir. Yaşayış binaları dağıdılıb, yalnız işğal dövründə hərbi məqsədlər üçün Ermənistan tərəfindən istifadə olunan binalar tikilib.

Hikmət Hacıyev vurğulayıb ki, Qubadlının və Zəngilanın işğalı çox çətin şəraitdə baş verib. Cəbrayıl və Füzuli işğal olunduğu üçün bu rayonlarda yaşayan insanların rayonu tərk etməsi çətin idi, onlar mühasirəyə alınmışdılar. Belə bir şəraitdə mülki əhalinin çox hissəsi Araz çayı üzərində İranın yaratdığı humanitar dəhliz vasitəsilə çıxmaq məcburiyyətində qaldılar. Onların bir çoxu da Araz çayında həyatlarını itirdilər. Bu da Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı işğal prosesi çərçivəsində törətdiyi qırğın siyasətinin tərkib hissəsi idi. Ekspertlər Qubadlıda olub və burada törədilən dağıntıları qiymətləndiriblər.

Qubadlıda çoxsaylı dini-mədəni abidələrin olduğunu deyən Hikmət Hacıyev diqqətə çatdırıb ki, bu abidələrin hamısı dağıdılıb. “Mən Cəbrayılda dağıdılan qəbiristanlıqlar barədə də danışmaq istərdim. Evlərin, qəbiristanlıqların məqsədli şəkildə dağıdıldığının şahidiyik, - deyə o əlavə edib.

Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov 1993-cü ildə Xarici İşlər Nazirliyinin əməkdaşı olaraq Qubadlıya son səfəri barədə danışıb. Bildirib ki, əhalinin əksəriyyəti həmin dövrdə rayonu tərk etmək istəmirdi. Rayon coğrafi baxımdan çox strateji yerdə yerləşir. Qubadlı 1988-ci ildə Ermənistandan qovulan azərbaycanlıları qəbul edən ilk rayonlardan biri idi. Əhali rayonu müdafiə edirdi, lakin həm Qarabağdan, həm də Ermənistan ərazisində yerləşən Qafan şəhərindən davamlı artilleriya atəşinə məruz qalan qubadlılılar həyatlarını xilas etmək üçün öz evlərini tərk etməyə məcbur oldular.

O deyib ki, Qubadlının əhalisi təxminən 29 min nəfər idi, lakin keçən illər ərzində rayonun əhalisinin sayı artaraq 40 mini keçib.

**AZƏRTAC**
**2021, 6 mart**

**Misir portalı Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş rayonlara səfərindən yazıb**

Misirin "Aldiplomasy" portalında Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş Füzuli, Qubadlı və Laçın rayonlarına səfərindən bəhs edən material yerləşdirilib.

AZƏRTAC-a istinadla yayılan xəbərdə qeyd olunub ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında məlumat verib. Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyevin göstərişi əsasında diplomatik korpus nümayəndələrinin Azərbaycanın azad edilmiş Füzuli, Qubadlı və Laçın rayonlarına səfəri başlayıb. "Səfirlərə, beynəlxalq təşkilatların rəhbərlərinə və hərbi attaşelərə bu səfərdə bizə qoşulduqlarına görə minnətdarıq", - deyə Prezidentin köməkçisini qeyd edib.

**Oqtay Bayramov**
AZƏRTAC-ın xüsusi müxbiri
Qahirə

**AZƏRTAC**
**2021, 6 mart**

**Diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərimizə səfəri başlayıb**

Diplomatik korpus nümayəndələrinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında məlumat verib.

Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyevin göstərişi əsasında diplomatik korpus nümayəndələrinin Azərbaycanın azad edilmiş Füzuli, Qubadlı və Laçın rayonlarına səfəri başlayıb: "Səfirlərə, beynəlxalq təşkilat rəhbərlərinə və hərbi attaşelərə bu səfərdə bizə qoşulduqlarına görə minnətdarıq".

**AZƏRTAC**
**2021, 6 mart**

**Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Qubadlı və Laçın rayonlarına səfəri təşkil edilib**

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, martın 6-da ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfəri təşkil edilib.

AZƏRTAC xəbər verir ki, onlar bu gün Qubadlı və Laçın rayonlarında olacaqlar.

Səfərdə xarici ölkələrin Azərbaycandakı səfirləri, səfirliklərin nümayəndələri, hərbi attaşelər və digərləri, ümumilikdə 100-dən artıq şəxs iştirak edir. Həmçinin nüfuzlu beynəlxalq media qurumlarının əməkdaşlarının səfərdə iştirakı da təmin olunub.

**AZƏRTAC**
**2021, 6 mart**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Bəxtiyarlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Bəxtiyarlı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Bərgüşad çayının sahilində yerləşən Bəxtiyarlı kəndi 1993-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 10 mart**

**Müdafiə Nazirliyi Qubadlı rayonunun Yuxarı Mollu kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Yuxarı Mollu kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Həkəri çayının sahilində yerləşən Yuxarı Mollu kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində düşməni ağır məğlubiyyətə uğradan rəşadətli Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 24 mart**

## Qubadlı rayonunun Yusifbəyli kəndindəki XVlll əsrə aid məscidin sökülməsində günahkarlar cəzalandırılacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində genişmiqyaslı tikinti işləri həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, yol infrastrukturu layihələrindən biri olan Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi zamanı Qubadlı rayonunun Yusifbəyli kəndində yerləşən XVlll əsrə aid məscidin söküldüyü müəyyən edilib.

Məsələ barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məruzə olunub. Dövlətimizin başçısı tərəfindən aidiyyəti strukturlara baş vermiş hadisənin araşdırılması və günahkarların cəzalandırılması ilə bağlı tapşırıq verilib.

Məscid Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb. Qubadlı rayonu erməni silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra məscidin yarıuçurulmuş vəziyyətdə olduğu və heyvanların saxlanıldığı yer kimi istifadə edilərək vandalizmə məruz qaldığı müəyyən edilib.

Uzunluğu 66 kilometr təşkil edəcək Xudafərin-Qubadlı-Laçın avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Artıq yolun Xudafərin su anbarı və Xanlıq yaşayış məntəqəsi arasında olan hissəsində tikinti işlərinə start verilib.

Qubadlı rayonunun Yusifbəyli kəndində tikinti işləri aparılarkən tikilinin təyinatı barədə İdarələrarası Mərkəzə və aidiyyəti dövlət orqanlarına müraciət edilməyib və dəqiqləşdirmə aparılmadan onun söküntüsü həyata keçirilib.

Baş vermiş hadisə ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və subpodraçı şirkətin yolun tikintisinə məsul olan, ciddi səhlənkarlığa yol vermiş əməkdaşları barədə cəza tədbirləri görüləcək.

Həmçinin Əlaqələndirmə Qərargahının rəhbərliyi tərəfindən müvafiq dövlət orqanlarına işğaldan azad olunmuş ərazilərdə mədəniyyət və dini abidələrə nəzarətin daha da gücləndirilməsi, bərpa və yenidənqurma işləri zamanı ərazidəki tikililərin təyinatının aidiyyəti üzrə dəqiqləşdirilməsi ilə bağlı müvafiq göstəriş verilib.

**AZƏRTAC**
**2021, 4 aprel**

**Poltovada Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi anılıb**

Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə Poltava vilayətinin Viktoriya kəndində Sovet İttifaqı Qəhrəmanı Oleq Babakın xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, anım tədbirində Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova, diplomatlar, səfirliyin hərbi attaşesi, polkovnik İlqar Ağayev, Oleq Babakın valideynləri, yaxınları, yerli əhali, Poltava Şəhər Administrasiyasının rəsmiləri, eləcə də KİV nümayəndələri iştirak ediblər.

İştirakçılar əvvəlcə O.Babakın yaşadığı evə gələrək onun valideynlərinə baş çəkiblər. O.Babakın valideynləri Azərbaycan dövlətinin onların problemləri ilə həmişə yaxından maraqlandığını vurğulayıblar. Qeyd ediblər ki, Oleq Babakın xatirəsi həmişə Azərbaycan xalqı tərəfindən əziz tutulur, yad edilir. Səfir Oleq Babakın valideynlərinin qayğısı ilə maraqlanıb və onlara hədiyyələr təqdim edib.

Sonra tədbir iştirakçıları O.Babakın dəfn olduğu qəbiristanlığa gəliblər. O.Babakın Azərbaycanın Qubadlı rayonunda mülki şəxsləri erməni silahlılarından qoruyarkən göstərdiyi qəhrəmanlıqdan danışan səfir bildirib ki, o, yerli kənd camaatı ilə birgə təxminən 70 nəfər erməni silahlısının mühasirəsinə düşür. Ermənilərin yerli sakinləri təhvil verib, geri çəkilmək tələbinə məhəl qoymayan 24 yaşlı ukraynalı leytenant heç bir azərbaycanlının əsir düşməsinə imkan verməyərək son gülləsinə qədər vuruşaraq qəhrəmancasına həlak olub. O, bu şücaəti nəticəsində yüzlərlə azərbaycanlının həyatını xilas edib.

Səfir vurğulayıb ki, artıq Oleq Babakın ruhu da şaddır, çünki Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz işğalda olan torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. Elmira Axundova qeyd edib ki, Qubadlının Yuxarı Cibikli kəndində Oleq Babakın adının əbədiləşdirilməsi üçün lazımi işlər görüləcək.

Sonra səfirliyin hərbi attaşesi, polkovnik İlqar Ağayev, Priyatin şəhər meri Andrey Simonov, ikinci katib Samir Allahverdiyev və digərləri çıxışlarında onun hərbi xidmətdə olarkən göstərdiyi şücaətlərdən danışıblar. Bildiriblər ki, bu gün Azərbaycan xalqı Oleq Babakın göstərdiyi qəhrəmanlığı unutmayıb.

Sonra tədbir iştirakçıları O.Babakın təhsil aldığı orta məktəbə gələrək muzeylə tanış olublar.

Qeyd edək ki, O.Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətində anadan olub. SSRİ xüsusi təyinatlı 21-ci briqadanın siyasi hazırlıq üzrə bölük komandirinin müavini olan O.Babak 1991-ci ilin mart ayından Azərbaycanın Qubadlı rayonunda ictimai asayişin qorunması tapşırıqlarını yerinə yetirib. 1991-ci il aprelin 7-də Qubadlının Yuxarı Cibikli kəndində yerli sakinlərin ermənilər tərəfindən öldürülməsi xəbəri yayılandan sonra mülki şəxsləri qoruyub.

SSRİ-nin Daxili İşlər Nazirliyinin Daxili qoşunlarının leytenantı Oleq Babak SSRİ prezidentinin 17 sentyabr 1991-ci tarixli fərmanı ilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Emil Hüseynli
AZƏRTAC-ın xüsusi müxbiri
Kiyev

**AZƏRTAC**
**2021, 9 may**

**Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır**

Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Dövlətimizin başçısı deyib ki, uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları yaratmışıq.

**AZƏRTAC**
**2021, 17 oktyabr**

**Deputat: Təcavüzkar düşmən Qubadlının həm tarixinə, həm də təbiətinə qarşı əsl vandallıq aktı törədib**

Qubadlı qədim dövrlərə, xüsusilə IV-V əsrlərə aid olan tarixi abidələri, maddi-mədəniyyət nümunələri ilə daim seçilmiş, füsunkar təbiəti, zəngin təbii sərvətləri ilə tanınıb. 1993-cü il avqustun 31-də Qubadlı şəhəri erməni faşistlərinin işğalı altına düşüb. Nəticədə şəhər yerlə-yeksan edilib, yaşı minilliklərlə ölçülən tarixi, dini abidələrimiz dağıdılıb, yaşayış məskənləri məhv edilib.

Eyni zamanda, ermənilər Qubadlıda yerləşən qədim alban abidələrinin tarixini saxtalaşdıraraq dünyaya "erməni abidələri" kimi təqdim etməyə çalışıb, lakin onların bu cəhdləri baş tutmayıb.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ülviyyə Ağayeva deyib.

Deputat bildirib ki, mənfur ermənilər bununla da kifayətlənməyib: "Düşmən Qubadlını işğal altında saxladığı 27 il ərzində Xanlıq kəndində qanunsuz məskunlaşma aparıb. Erməni lobbisinin maddi vəsaiti hesabına Xanlıqda qəsəbə salınıb, bir sıra xarici ölkələrdən gətirilən ermənilər qanunazidd yollarla Xanlıq kəndi ərazisinə yerləşdiriliblər. Beynəlxalq hüquq normalarına əsasən, ermənilərin apardığı qanunsuz məskunlaşma hərbi cinayət hesab olunur. Bu, Cenevrə konvensiyalarında da öz əksini tapıb. Belə ki, Cenevrə konvensiyalarına görə, işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Təəssüf ki, ermənilərin bu hərbi cinayətlərinə beynəlxalq təşkilatlar biganə qalıb.

Eyni zamanda, təcavüzkar düşmən Qubadlının bir sıra kəndlərindən hərbi istehkam, hərbi baza kimi istifadə etmiş, Qubadlının həm tarixinə, həm də təbiətinə qarşı əsl vandallıq aktı törədib.

Nəhayət, ötən ilin oktyabrın 25-də - Vətən müharibəsinin 28-ci günündə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Azərbaycan Ordusu Qubadlı şəhərini işğaldan azad etdi. Bununla da, mənfur ermənilərin Qubadlıda törətdikləri bütün vandalizm aktlarına, hərbi cinayətlərə birdəfəlik son qoyuldu. Beynəlxalq təşkilatlarının bərqərar edə bilmədiyi beynəlxalq hüququ, ədaləti rəşadətli Azərbaycan ordusu bərqərar etdi".

Qubadlının işğaldan azad edilməsinin böyük tarixi hadisə olmaqla bərabər, Azərbaycanın Vətən müharibəsindəki möhtəşəm qələbəsini daha da yaxınlaşdırdığını söyləyən Ülviyyə Ağayeva deyib: "Qeyd etmək lazımdır ki, Qubadlı əməliyyatı həm ərazinin relyefinə, həm də ermənilərin qurduqları istehkamlara görə çətin və mürəkkəb bir hərbi əməliyyat olub. 2020-ci il dekabrın 23-də isə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaldaraq Azərbaycanın artıq öz əzəli torpaqlarına qayıtdığını bir daha bütün dünyaya bəyan edib".

**AZƏRTAC**
**2021, 25 oktyabr**

## Qənirə Paşayeva: Qubadlı əməliyyatı hərbçilərimizdən fədakarlıq və xüsusi peşəkarlıq tələb edirdi

Qubadlı əməliyyatı 44 günlük Vətən müharibəsinin şanlı səhifəsini təşkil edir.

Azərbaycan Silahlı Qüvvələri 2020-ci ili sentyabrın 27-də başlanan uğurlu hərbi əməliyyatları davam etdirərək, oktyabrın 23-də Qubadlı ərazisinə daxil oldu. Rayonun Zilanlı, Kürdmahruzlu, Muğanlı və Alaqurşaq kəndləri işğalçılardan azad edildi.

Vətən müharibəsinin 29-cu günündə, yəni oktyabrın 25-də Azərbaycan Ordusu Qubadlı şəhərini və rayonun daha bir neçə kəndini azad etdi. Şəhərin azad edildiyini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün tviter hesabından elan etdi. O həyəcanlı günləri yaxşı xatırlayırıq. Prezidentin müharibə dövrü öz sosial media hesablarından etdiyi paylaşımlar, xalqa müraciətlər ən yeni dövr tariximizin unudulmaz “qızıl” səhifələridir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib.

Qubadlı rayonunun Azərbaycan Ordusu tərəfindən cəmi bir neçə günə azad edildiyini diqqətə çatdıran Q.Paşayeva deyib: “Düşmən Qubadlı şəhərində güclü istehkamlar qurmuş, yüksəkliklərdə hərbi birləşmələr yerləşdirmişdi. Qubadlı əməliyyatı hərbçilərimizdən fədakarlıq və xüsusi peşəkarlıq tələb edirdi. Azərbaycanın Silahlı Qüvvələrinin bütün mənsubları yüksək səviyyədə fədakarlıq və qəhrəmanlıq nümayiş etdirdilər.

Qırx dörd günlük müharibə başa çatdıqdan sonra Prezident bir sıra mühüm dövlət təltifləri barədə sərəncam imzaladı. Bu dövlət təltiflərindən biri də “Qubadlının azad olunmasına görə” medalıdır. “Qubadlının azad olunmasına görə” medalı Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş hərbi qulluqçularımıza verilir. Azərbaycan Silahlı Qüvvələrimizin 15 min 189 hərbi qulluqçusu bu medalla təltif olunub”.

Mədəniyyət komitəsinin sədri Qubadlı ərazisində bir çox qala, türbə, körpü və digər maddi mədəniyyət nümunələri, abidələr olduğunu diqqətə çatdırıb. Onların bir çoxu işğal illərində dağıdılıb, zərər görüb, yaxud erməniləşdirilməsinə, özgələşdirilməsinə cəhd olunub. Erməni vandalizmi Qubadlıdan da yan keçməyib: “Qubadlı ərazisində tarixə yoldaşlıq etmiş, qoruq, gözətçi funksiyasını yerinə yetirmiş qalalar mövcud olub. Əliquluuşağı kəndində Göy qala (V əsr), Muradxanlı kəndində "Qalalı" qalası, Xocamisaxlı kəndində Qala və digərləri rayon işğal olunana qədər qalırdı. Xocamisaxlı kəndinin qədim adı Qalacıq olub.

Qubadlı ərazisində tarixin müxtəlif dövrlərində tikilmiş türbələr öz gözəlliyi ilə seçilib. Balahəsənli kəndindəki "Cicimli" ocağı, Dəmirçilər kəndindəki türbə, Gürcülü kəndindəki "İmamzadə", Yazıdüzündəki Cavanşir türbəsi və başqaları buna misaldır”.

Q.Paşayevanın sözlərinə görə, ərazisindən iki bol sulu çay axan Qubadlıda çaylar üzərindən körpülərin salınması zamanın tələbi, təbiətin “sifariş”i olub. Rayon ərazisində üç qədim körpü olub. Körpülərdən ən qədiminin Qarakişilər kəndindəki "Sınıq körpü" olduğu bilinir. Digər iki körpü –Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən qeydə alınmış Laləzar və Hacı Bədəl körpüsü bir qədər sonrakı dönəmə aiddir: maraqlı arxitekturası olan Laləzar (1867) və Hacı Bədəl körpüləri XIX əsrə aiddir. Hər iki körpü rayon işğal olunana qədər öz funksiyasını gərəyincə yerinə yetirirdi. – “İşğal olunanadək” deyirik, çünki erməni işğalçılarının ayağı hara dəyibsə, orada mədəniyyət, insanlıq qeybə çəkilib... Körpü mədəniyyət deməkdi, körpü xeyirxahlıq deməkdi – ermənilər üçünsə bunlar yad anlayışlar olub...

Qubadlının işğaldan azad edilməsi tarixi hadisəydi. Qubadlı şəhərinin azad edilməsinin Zəfərimizi daha da yaxınlaşdırdığı öz təsdiqini tapmış hadisədir.

“Qubadlının azad olunmasından bir il ötür. 30 ilə yaxın bu rayona və dövlətimizə vurulan zərəri bərpa etmək çox vaxt alacaq; bir sıra itkilərin yerini doldurmaqsa, sadəcə mümkünsüzdür. Ermənistan işğalı zamanı Qubadlıda 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekti, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış və yararsız vəziyyətə salınmışdır. 1080 ədəd kənd təsərrüfatı obyekti, 650 km avtomobil yolu, 2 su anbarı, 150 km magistral su xətləri, 4830 km elektrik xətləri, 165 km magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 ədəd dəyirman, 4 ədəd su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılmışdır.

Ermənistan Qubadlı rayonunun Xanlıq qəsəbəsində qanunsuz məskunlaşma aparmışdı. Livandan və digər xarici ölkələrdən gətirilən haylar burada qanunsuz yollarla yerləşdirilmişdi. Bu, özü bir müharibə cinayətdir.

Hər kəs bilir ki, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma aparmaq cinayətdir – işğalın nəticələrindən sui-istifadə halıdır”.

Q.Paşayeva vurğulayıb ki, maddi ziyan bir şəkildə aradan qaldırılacaq, amma təəssüf ki, bunu mənəvi ziyan barədə demək mümkün deyil: “Bəs 27 illik işğalın mənəvi ziyanlarını tezliklə aradan qaldırmaq necə mümkün olacaqmı? İşğalçı ölkə bunun üçün nə kimi öhdəliklər götürür? Hələ ki, etiraf və öhdəlik yerinə

revanşist çağırışlar daha çox eşidilir ki, bunun da ilk növbədə (adı üstündə "uğursuz dövlət" olan) Ermənistana ziyanı olacaq. Azərbaycanın "Dəmir yumruğ"u yerindədir. Bunu gərək Ermənistanda unutmasınlar.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Prezident Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı Sərəncam imzalayıb**

Oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev "Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Qubadlı şəhərinin Baş planının hazırlanması üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 500 min manat ayrılıb.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Prezident İlham Əliyev: Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür**

Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür. Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etdi və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Bu münasibətlə bütün qubadlılıları və Azərbaycan xalqını ürəkdən təbrik edən dövlətimizin başçısı Qubadlının azad olunmasının müharibənin gedişindəki önəmindən danışıb.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Prezident İlham Əliyev: Qubadlıdan sonra biz zəfər yürüşümüzü şərəflə davam etdirdik və Şuşada dövlət bayrağımızı ucaltdıq**

Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik və beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söyləyib.

Dövlətimizin başçısı qeyd edib ki, Qubadlıdan sonra biz öz zəfər yürüşümüzü, zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayonunda səfərdə olublar**
**Xanlıq-Qubadlı avtomobil yolunun təməli qoyulub**
*(25 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində iştirak ediblər.

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və birinci xanıma Şərqi Zəngəzur iqtisadi rayonunda tikintisi aparılan avtomobil yolları barədə məlumat verdi.

Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri də Xudafərin-Laçın yoludur. Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni 3,5 metr olacaq. Qubadlı-Xınzirək avtomobil yolunun uzunluğu 23,5 kilometr olacaq. Hər iki yol iki hərəkət zolaqlı inşa edilir.

Bu yollar Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində tikilir. Xudafərin-Laçın avtomobil yolunun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 14 kilometr uzunluğunda yeni avtomobil yolu inşa ediləcək. Prezident İlham Əliyevin tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla Xudafərin-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları dörd hərəkət zolaqlı olacaq. Yeni inşa olunan yollar işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, bu rayonların 30-dan çox yaşayış məntəqəsini əhatə edir.

Dövlətimizin başçısı Xanlıq-Qubadlı yolunun təməlini qoydu.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Qubadlı” yarımstansiyasının açılışında iştirak ediblər**

*(25 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də sistem əhəmiyyətli 110/35/10 kV-luq “Qubadlı” yarımstansiyasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə məlumat verdi.

Bildirildi ki, yarımstansiyanın tikintisi ilə paralel olaraq Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki “Şükürbəyli” yarımstansiyasından “Cəbrayıl” yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli “Qubadlı-1”, “Qubadlı-2” elektrik verilişi xətti çəkilib. 150-160 MVt gücötürmə qabiliyyətinə malik yeni xətt layihələndirilərkən rayon üçün səciyyəvi iqlim parametrləri – buzlaşma, küləyin maksimal sürəti, qarın qalınlığı, çirklənmə və başqa amillər, o cümlədən baş verə biləcək qəza hallarının qarşısının alınması, lokallaşdırılması üçün zəruri sistem yaradılıb.

Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib. İldırımötürücü xəttin içərisində keyfiyyətli internet şəbəkəsi, o cümlədən SCADA dispetçer idarəetmə sistemi informasiyalarının, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kamera, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilib. Bu günə qədər “Azərenerji” ASC tərəfindən Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda 110 kV-luq yeni yarımstansiyalar tikilib. Bütün yarımstansiyalara çəkilən elektrik xətlərində ildırımdan mühafizə və yarımstansiyalararası siqnal mübadiləsi üçün fiberoptik kabellər quraşdırılıb. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Məlumat verildi ki, yarımstansiyanın rəqəmsal idarə edilməsinin prioriteti olan iki əsas məsələ - rəqəmsallaşmaya inteqrə olunan avadanlıqların təmin olunması və idarəetmə üçün informasiya mübadiləsi və aktivlərin onlayn müşahidəsinə imkan verən fiberoptik kabel şəbəkəsinin yaradılması məsələləri həllini tapıb.

“Qubadlı” yarımstansiyasının işçi personalı üçün təhlükəsiz və rahat iş şəraitinin yaradılması məqsədilə müasir texnologiyalar əsasında yeni İdarəetmə Mərkəzi tikilib. Yarımstansiyada iki ədəd 25 MVA gücündə transformator quraşdırılıb. Yarımstansiyanın idarəetmə sistemi müasir tələblərə cavab verən Micro SCADA sistemi yaradılmaqla “Azərenerji”nin mərkəzi SCADA sistemi ilə əlaqələndirilərək birbaşa mərkəzdən idarə edilməsi təmin olunub.

Qeyd edək ki, işğala qədər 38 min nəfərdən çox əhalisi olan, sənaye və digər təsərrüfat sahələri üzrə Qubadlı rayonunun ümumi tələbatı 12 MVt olmaqla bir ədəd 110 kV-luq yarımstansiyadan qidalanıb. 47 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Qubadlıda inkişaf istiqamətləri nəzərə alınmaqla 2040-cı il üçün elektrik enerjisi tələbatının 38 MVt-dan artıq olacağı gözlənilir. Yeni “Qubadlı” yarımstansiyası tikilərkən bu amil nəzərə alınıb.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışı olub**
*(25 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərdə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Azərbaycan Respublikasının Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, “HAROP”, “Quzğun” və “Qırğı” zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Bununla yanaşı, hərbi hissənin istifadəsində döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri var.

Qeyd edildi ki, hərbi hissə kompleksində qərargah binası, zabit-gizir və əsgər yataqxanaları, şəxsi heyət üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana, yaşayış binaları, anbarlar və digər zəruri infrastruktur yaradılıb. Kompleksdə hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsi, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi üçün zəruri xidməti və təlim-tədris bazası formalaşdırılıb. Tibb məntəqəsində hərbi qulluqçulara lazımi tibbi xidmətin göstərilməsi məqsədilə zəruri şərait var. Hərbi hissənin poliqonunda təlim məşğələlərinin təşkili və keçirilməsi, hərbi qulluqçuların döyüşə hazırlığının və fərdi məharətlərinin yüksəldilməsi, hərbi bölmələr arasında qarşılıqlı əlaqələrin işlənilməsi və birgə döyüş qabiliyyətlərinin artırılması üçün zəruri baza yaradılıb. İdman şəhərciyində futbol və voleybol meydançaları, həmçinin kazarmalarda müasir standartlara uyğun idman avadanlığı və alətləri ilə təchiz olunmuş məşq zalları təşkil edilib.

Kinoloji təlim şəhərciyində işğaldan azad olunmuş ərazilərdə minaların və partlamamış sursatların axtarışına və aşkarlanmasına cəlb olunan xidməti itlərin hazırlanması, vərdişlərinin təkmilləşdirilməsi, xidməti it təlimatçılarının peşəkar hazırlığının inkişaf etdirilməsi üçün imkanlar mövcuddur.

Hərbi hissə kompleksi istilik sistemi, daimi su və elektrik enerjisi ilə təmin edilib. Ərazidə əsaslı tikinti-abadlıq işləri həyata keçirilib, geniş yaşıllıq zolaqları salınıb.

Beləliklə, bu hərbi hissədə xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər**
*(25 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, rayon ictimaiyyətinin nümayəndələrini salamlayan **Prezident İlham Əliyev** dedi:

Salam, xoş gördük.

**Sakinlər:** Salam.

**Mehriban xanım Əliyeva:** Salam, xoş gördük.

**Prezident İlham Əliyev**: Mən bu gün Qubadlı rayon sakinlərini Qubadlıya dəvət etmişəm. Qubadlıya xoş gəlmisiniz. Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür. Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etmişdir və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək. Bu münasibətlə sizi və bütün qubadlılıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

25 oktyabr müharibənin gedişatında önəmli yer tutub. Çünki Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik. Beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Düzdür, hələ Şuşa uğrunda şiddətli döyüşlər qabaqda idi, digər yaşayış məntəqələrimizin azad olunması ilə bağlı əməliyyat planları hazırlanırdı, ancaq artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz. Biz Qubadlıdan sonra öz Zəfər yürüşümüzü, Zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq.

Hər bir yaşayış məntəqəsinin azad edilməsi tarixi hadisədir. İlk gündən başlayaraq müharibənin son gününə qədər Azərbaycan Silahlı Qüvvələri ancaq irəli gedirdi. Birinci gündə 4 kəndin azad edilməsi Azərbaycan xalqına çox böyük sevinc bəxş etdi. Uzun illərdən sonra bu Qələbə sevincini biz hamımız yaşadıq və o vaxt, əlbəttə, heç kim deyə bilməzdi müharibə nə qədər davam edəcək. Hətta noyabrın 8-də biz Şuşanı işğaldan azad edəndən sonra da mən şəxsən deyə bilməzdim müharibə nə qədər davam edəcək. Çünki bizim planlarımız işğalda olan bütün torpaqları azad etmək idi. Ancaq bilmirdik, düşmən nə vaxt təslim olacaq. Halbuki, müharibə zamanı mən dəfələrlə öz çıxışlarımda, xalqa müraciətlərimdə və xarici jurnalistlərə müsahibələrdə deyirdim ki, əgər düşmən bizə bizim torpağımızdan çıxması ilə bağlı tarix versə, biz müharibəni dayandırmağa hazırıq və bu sözə də əməl etdik. Bildiyiniz kimi, noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu.

Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək. Onlardan biri bizim əzizimiz Şükür Həmidovdur. Qubadlı rayonunun sakini böyük qəhrəmanlıq göstərmiş və doğma rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidov bizim ən istedadlı və cəsarətli hərbçilərimizdən biri idi. O, Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərmişdi. Məhz bu qəhrəmanlığa görə mən ona Milli Qəhrəman adını verdim və özüm də şəxsən onu bu mükafatla təltif etdim. Ondan sonra məcburi köçkünlərlə bir görüş əsnasında onun atası Nəriman kişi ilə tanış oldum və bilmirdim ki, o, Şükürün atasıdır. Köçkünlər üçün salınmış bir şəhərciyin açılışında mənə dedi, mən də salamlarımı çatdırdım. Eşidəndə ki, bu günlərdə, bir neçə gün bundan əvvəl bir ili olub. Eşidəndə ki, Şükür həlak olub, bizim hamımızın ürəyi ağrıdı. Şükürün həlak olması bizim üçün böyük itkidir, onun ailəsi, onun yaxınları, atası üçün, hamımız üçün. Ona görə bu gün Qubadlının azad olunmasının birinci ildönümündə mən Şükürün əziz xatirəsini xüsusilə yad etmək istəyirəm. O, bütün hərbçilərimiz üçün, gənc nəsil üçün nümunədir, öz canını doğma diyar uğrunda fəda edib və şəhadət zirvəsinə ucalıb. Şəhidlərimizin xatirəsi əbədiləşdirilir və əbədiləşdiriləcəkdir.

Azad edilmiş bütün şəhər-kəndlərimizdə bərpa işləri başa çatandan sonra şəhidlərimizin adına küçələr qoyulacaq, onların adı məktəblərə veriləcək. Artıq bu proses başlamışdır. Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən bu bölgədə - Qarabağ-Zəngəzur bölgəsində bütün bərpa işləri başa çatandan, küçələr salınandan, məktəblər tikiləndən sonra bu da olacaq. Ancaq görüləsi işlər çoxdur. Sizin bir çoxunuz ilk dəfədir ki, Zəfərdən sonra Qubadlıya səfər edirsiniz və görürsünüz ki, düşmən hər tərəfi dağıdıb. Qubadlı şəhəri demək olar ki, yerlə-yeksan edilib, bir salamat bina yoxdur. Sadəcə olaraq, erməni hərbçiləri öz məqsədləri üçün bir neçə binadan istifadə etmişdir, onlar da bərbad vəziyyətdə idi. Mən bura keçən il dekabr ayında gələndə gördüm ki, onlar da

bərbad vəziyyətdədir. Ona görə də biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu Baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Amma, eyni zamanda, artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Bu gün biz yeni yarımstansiyanın açılışını qeyd etdik və bu, azad edilmiş torpaqlarda yeddinci yarımstansiyadır. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır.

Mənə verilən məlumata görə, sovet vaxtında Qubadlı rayonunun ümumi istehlakı 12 meqavat idi. Ancaq bu yarımstansiya 40 meqavata hesablanıb və lazım olarsa, onun gücü iki dəfə artırıla bilər. Yəni, biz Qubadlının gələcək inkişafını belə görürük. Sovet vaxtında, işğala qədər Qubadlı rayonunun əhalisi haradasa 28 min idi, indi mənə verilən məlumata görə əhali 40 minə çatıb.

Bütün kəndlər dağılıb, şəhər dağıdılıb, bir dənə də salamat kənd qalmayıb. Ona görə qubadlılıları buraya yerləşdirmək üçün əlbəttə ki, çox böyük işlər görüləcək. Burada infrastruktur işləri birinci sıradadır. İndi siz də gələndə gördünüz ki, çox geniş, dördzolaqlı yol çəkilir. Heç vaxt bu ölçüdə yol olmamışdır. Dar bir yol idi Zəngilandan Qubadlıya, Laçına. İndi biz Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkirik ki, bu yoldan insanlar rahat istifadə etsinlər. Eyni zamanda, burada istehsal olunacaq məhsulları bazarlara vaxtlı-vaxtında, itkisiz çatdırmaq üçün imkan olsun.

Zəngilan hava limanı gələn il istifadəyə veriləcək. Zəngilan, Qubadlı faktiki olaraq bir zonadır, məsafə də çox böyük deyil. Ona görə qubadlılılar da bundan istifadə edəcəklər. Əlbəttə, Qubadlı rayonunun iqtisadi inkişaf planı ayrıca hazırlanmalıdır. Çünki infrastruktur layihələri təsdiq edilib. Sosial infrastrukturla bağlı Baş planda bütün məsələlər əhatə olunacaq - məktəblər, xəstəxanalar və digər sosial obyektlər, yaşayış binaları. Qubadlı şəhərində yaşayış binaları tikiləcək.

Sovet vaxtında daha çox fərdi evlər idi. Bir neçə beşmərtəbəli ev var idi. Bir-iki evin qalıqları qalıb. Ancaq Qubadlı şəhər kimi inkişaf etməlidir. Əlbəttə ki, düzgün planlaşdırma aparılarkən burada insanların rahat yaşaması üçün bütün şərait yaradılacaq. İqtisadi inkişafa gəldikdə, əlbəttə, rayon ictimaiyyəti də burada çox fəal iştirak etməlidir - həm bərpa işlərində, eyni zamanda, Qubadlının düzgün inkişaf konsepsiyasının işlənməsində. Çünki rayon böyük potensiala malikdir, zəngin təbiəti, təbii sərvətləri var. Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın, bizim böyük sərvətimizdir. Çünki biz bu çaylardan məhrum idik. Həkəridən də, Bazarçaydan da, Bəsitçaydan da, Tərtər çayından da məhrum idik. Ermənilər bizi məhrum etmişdi. Bu, böyük sərvətdir. Özü də indiki şəraitdə ki, su resursları dünyada gələcəkdə əsas yəni, yaşayış üçün əsas resurs kimi artıq tanınır. Ona görə düzgün planlaşdırma aparılmalıdır, iqtisadi inkişaf, hansı sahələr inkişaf edəcək. Əlbəttə ki, biz bura yerli, xarici investorları cəlb edəcəyik. Yəni böyük planlarımız var, konseptual yanaşma mövcuddur. Ancaq bundan sonra dəqiq planlaşdırma aparılmalıdır və əminəm ki, Qubadlı sakinləri fəal iştirak edəcəklər.

Mən sizi bu gün dəvət etmişəm ki, bu tarixi günü birlikdə qeyd edək. Bu, doğrudan da Azərbaycanın tarixində əbədi yaşayacaq bir gündür. 25 Oktyabr – Zəfər günü, Qubadlının azad olunması günüdür. 27 ildən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik. Əgər qubadlılılar digər keçmiş köçkünlər kimi, hər il böyük ürəkağrısı ilə işğal günündə yığışırdılarsa, bundan sonra artıq o tarix tamamilə silindi, ancaq 25 oktyabrda hamımız bayram edəcəyik. Sizi bir daha təbrik edirəm.

Milli Məclisin İqtisadi siyasət və sənaye və sahibkarlıq komitəsinin sədri **Tahir Mirkişili** dedi: Salam cənab Prezident, hörmətli Mehriban xanım. Bu gün Qubadlı torpağında Sizinlə bir yerdə olmaq bizim üçün böyük şərəfdir, böyük sevincdir. Bu, bizim üçün böyük bir tarixi gündür. Siz bu torpaqları əsl sahiblərinə qaytardınız. Siz Qubadlını qubadlılılara qaytardınız. Bu gün də qubadlılıları Qubadlıya dəvət etməklə bizi çoxdankı ən böyük arzumuza çatdırdınız. Cənab Prezident, bu günləri bizə yaşatdığınıza görə Sizə öz ailələrimiz və bütün qubadlılılar adından dərin minnətdarlığımızı bildirirəm.

Möhtərəm Prezident, 1992-ci ilin əvvəllərində Azərbaycanda olan hakimiyyətsizlik, dövlətsizlik, satqınlıq və xəyanət nəticəsində biz çox böyük fəlakətlər yaşadıq. Bizim başımıza böyük bəlalar gəldi. Biz böyük bir insan faciəsi yaşadıq, Azərbaycanı itirmək təhlükəsi ilə üzbəüz qaldıq. Məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə biz Azərbaycanı xilas etdik. Onun şəxsən, təkbaşına cəsarəti və dühası hesabına biz Vətənimizi itirməkdən xilas olduq. O, sağlam, möhkəm bir bünövrə qoydu və bugünkü güclü Azərbaycan dövləti Sizin rəhbərliyinizlə o bünövrənin üzərində durur.

Cənab Prezident, Siz və hörmətli Mehriban xanım yurd-yuvasından uzaq düşmüş insanların dərdini, acısını azaltmaq üçün hər şey etdiniz. Siz qaçqın şəhərciklərini ləğv etdiniz, Siz onlara ev tikdiniz, Siz onların övladlarını ali məktəblərdə oxutdunuz, Siz ad günlərinizi də bizlərlə qeyd etdiniz. Amma bütün bunlarla yanaşı,

Siz bizim üçün ən böyük dəyər olan ümid və inam verdiniz. Bax, o ümidin və inamın əsasında yeni bir nəsil yetişdi və Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir əmri ilə 44 gündə düşməni darmadağın etdi. Düz bir il bundan öncə bizim durduğumuz bu torpaqlardan düşmən qovulurdu. Cənab Prezident, biz buna, əslində, 44 günlük müharibə desək də, amma Siz 17 il döyüşdünüz. Bu müharibə bir ildir dayansa da, Siz hələ də döyüşürsünüz. Əslində, mən bunu arzu etməzdim, amma hadisələr göstərir ki, biz Sizin rəhbərliyinizlə hələ çox döyüşməli olacağıq. Siz Qələbənin simvolusunuz, mən əminəm ki, biz hələ çox qələbələr qazanacağıq.

Cənab Prezident, bir iqtisadçı kimi, bir məsələni də qeyd etməyə bilməzdim, Sizin rəhbərliyinizlə bizim əldə etdiyimiz ən böyük uğurlarımızdan biri bizim iqtisadi müstəqilliyimizdir. Məhz Sizin verdiyiniz tapşırıqlar, həyata keçirilən iqtisadi islahatlar, o nəhəng, böyük iqtisadi layihələr bizə böyük iqtisadi imkanlar yaratdı. Bax, bu imkanlar hesabına Siz bir tərəfdən xalqın, insanların, bizim hamımızın sosial yaşayışı ilə bağlı çox böyük işlər gördünüz. Amma digər bir tərəfdən, biz ordu yaratdıq, silah aldıq, döyüşdük, qalib gəldik. Biz o qalibiyyəti saxladıq və bu gün yol boyunca gördük ki, çox böyük quruculuq işləri gedir. Ona görə əminik ki, bu iqtisadi imkanlarımız bundan sonra da artacaqdır. Biz Sizin rəhbərliyinizlə hələ çox uğurlara imza atacağıq. İnşallah, Qubadlı tikilsin, bizim hamımızın burada evlərimiz olsun. Tanrı Sizi və ailənizi qorusun. Sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Qubadlının və digər azad edilmiş rayonların iqtisadi inkişafı ilə bağlı bir daha demək istəyirəm ki, bizim çox dəqiq planlarımız olmalıdır. Biz çox yaxşı təcrübə toplamışıq, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları uğurla icra edilir. Artıq bir neçə proqram icra edilmişdir və o təcrübədən faydalanaraq bu bölgədə, əlbəttə, çox düzgün planlaşdırma aparılmalıdır. Bir daha demək istəyirəm ki, infrastruktur layihələri ilə bağlı, evlərin tikintisi ilə bağlı, kəndlərin bərpası ilə bağlı artıq ilkin təkliflər var. Əsas budur ki, buraya qayıdacaq insanlar yaxşı yaşasınlar, yəni, onların rifahı yüksək olsun. Bunun üçün də əlbəttə ki, şərait yaradılacaq, amma onların məşğul olacağı sahələr düzgün müəyyən edilməlidir. Bu məqsədlərə çatmaq üçün atılacaq addımlar düzgün qoyulmalıdır. Hökumətə tapşırıq verildi, müxtəlif nazirliklər fəaliyyət göstərir və əminəm ki, Milli Məclis də bu işlərə öz töhfəsini verəcək. Belə səfalı torpaqlarda ancaq yaxşı dolanışıq olmalıdır.

Bir daha onu deməliyəm ki, bax, bu azad edilmiş bölgələrə bilirsiniz, mən tez-tez gedirəm, səfərlər edirəm və ermənilərin yaşadıqları bəzi yerləri də görürəm. Deyə bilərəm ki, orada bir dənə də yeni bina yoxdur. İndi yol boyunca – Bakıdan çıxıb Qubadlıya, istər Ağdama, istər Füzuliyə, istənilən istiqamətə gedən insan yol boyunca yeni evlər görür. Biz kəndləri keçərkən görürük ki, bilmirik evlər bəlkə on il, iyirmi il əvvəl, yəni, bir çox evlər müstəqillik dövründə inşa edilibdir. O vaxt işğal altında olan ərazilərdə bir dənə də bina tikilməyib, bir dənə də. İndi bu Qubadlıda guya onlar məskunlaşma aparmaq istəyirdilər. Xanlıq qəsəbəsində bir erməni fondu evlər tikdirmişdi. İndi adam gedib o evlərə baxanda görür ki, bu evlərdə heç bir şərait yoxdur. İndi oranı bir az düzəltdik, bizim hərbçilər orada yerləşir. Yəni, onlar bu torpaqlara yad bir torpaq kimi baxırdılar. Sadəcə olaraq, bu torpaqları istismar edib, ağacları qırıb, bizim təbii sərvətlərimizi talayıb, çaylarımızı zəhərləyib öz mənfur xislətlərini göstərirdilər. Amma bu gün bütün dünya bunu görür, bütün dünya. Çünki bunu gizlətmək mümkün deyil. Gələn hər bir insan bu dağıntıları görür və erməni faşizminin bax bu sübutlarını görür. Amma biz qurucu xalqıq və Qubadlını yenidən quracağıq.

Şəhid Milli Qəhrəman Şükür Həmidovun atası **Nəriman Həmidov dedi**: Cənab Prezident, özümü xoşbəxt hiss edirəm ki, Sizinlə ikinci səfərdir, şəxsən görüşürəm. Mən Allah-Təaladan razıyam ki, Sizi Azərbaycana bəxş edib. Sizin kimi hərtərəfli sərkərdəni, şəxsiyyəti bizim Azərbaycana bəxş edib. Bizim xalqımız dövlət ətrafında yumruq kimi birləşdi və sözünü dedi. Bu hamısı Sizin rəhbərliyinizlə olmuş hadisədir, bunu hamı bilir. Siz polad sinəli, genişürəkli, əvəzsiz bir sərkərdəsiniz. Sizin keçdiyiniz yol, əldə etdiyiniz Qələbə mənim bu dediklərimə möhür vurur, təsdiq edir. Mənim uzun müddətdir qəlbimdə gəzdirdiyim bir fikrim var, onu çatdıracağam. Mən bütün qədirbilən xalqımızdan xahiş edirəm, mənim fikrimi təsdiq etsin, alqışlasın. Bizim qanunverici orqanımız olan Milli Məclisdən xahiş edirəm ki, Müzəffər Ali Komandan, Prezidentimiz cənab İlham Əliyevə "Azərbaycanın daimi Prezidenti" adı verilsin. Xahiş edirəm ki, xalqımız da, Milli Məclis də bunu qəbul etsin.

**Prezident İlham Əliyev:** Mən veto qoyacağam ona, mənim belə hüququm var. Çox sağ olun, təşəkkür edirəm, sağ olun. Bu səmimi sözlərə görə minnətdaram. Ancaq mənim üçün ən böyük mükafat bax, sizin burada olmağınızdır, keçmiş köçkünlərin gözlərindəki sevincdir, qürurdur. Budur mənim üçün ən böyük mükafat. Mən demişdim, məcburi köçkünlərlə mən dəfələrlə görüşmüşdüm. İndi təsəvvür edin, 100-dən çox qəsəbə salındı, yəni, ev yox, məcburi köçkünlər üçün qəsəbə. Mən hər bir açılışda olmuşam, hər bir açılışda. Köçkünlərlə görüşlər zamanı, - mən onu artıq bir dəfə demişəm, bir daha demək istəyirəm, - görürdüm ki, ümidlər azalır, ümidlər tükənir. Bu da təbiidir. Çünki artıq 30 ilə yaxın vaxt keçir, məsələ də həll olunmur. Artıq hər kəs başa düşürdü ki, Ermənistan bu məsələni danışıqlar yolu ilə həll etmək istəmir. Bu, məni çox incidirdi, çox üzürdü. O görüşlər məndə bir daha o inamı gücləndirirdi ki, biz nəyin bahasına olursa-olsun torpağımıza qayıtmalıyıq. Artıq o baxışlar yoxdur, o kədərli anlar yoxdur, o xatirələr qalır arxada. Artıq keçmiş məcburi köçkünlər ümidlə

yaşayırlar, qürurla yaşayırlar. Mənim üçün ən böyük mükafat budur və bundan sonra ən böyük vəzifə bu torpaqları yenidən qurmaqdır, yenidən bərpa etməkdir.

Müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər, biz də hazırıq. İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda. Biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik. Ancaq bununla yanaşı, bizim qarşımızda çox böyük quruculuq işləri dayanır. Bu da müharibədə əldə edilmiş Qələbəyə uyğun səviyyədə aparılmalıdır. Ümumiyyətlə, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Çünki bu Qələbə bütün dünyaya bizim böyük xalq olduğumuzu göstərdi, eyni zamanda, bizi sözün yaxşı mənasında məcbur edir ki, biz qabağa ancaq düz yolla gedək. Bax, sizinlə bərabər, bütün Azərbaycan ictimaiyyəti ilə bərabər biz bu yolu gedəcəyik. İndi mən hansı statusda bu yolu gedəcəyəm, o, ikinci məsələdir. Əsas odur ki, ömrümün sonuna qədər mən bu yolla gedəcəyəm, İnşallah, sizinlə bərabər.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

Siz deyirsiniz ikinci dəfə, üçüncü dəfə biz görüşürük. Mən sizi o vaxt Hərbi Qənimətlər Parkının açılışına da dəvət etmişdim.

**Nəriman Həmidov:** Bəli, yadımdadır. Üçüncü dəfədir. Çox sağ olun, çox var olun. Sizinlə fəxr edirəm, həyat sübut etdi.

Bakı Dövlət Universitetinin kafedra müdiri, professor **Abbas Abbasov**: Sizin bütün fəaliyyətiniz göz qabağındadır - hərbi meydanda da, diplomatiyada da, siyasətdə də. Bütün cəbhələrdə Siz sinə gərdiniz. Sizi bu xalqa Tanrı göndərib, İlahi pay göndərib.

**Prezident İlham Əliyev:** Sağ olun.

Əməkdar müəllim **Şamama Həsənova:** Xalqının sevimli, dağ vüqarlı, qartal görünüşlü əziz Prezidentimiz. Bu gün biz babalarımızdan bizə əmanət qalan bu torpaqda olmağımızdan çox böyük qürur hissi keçiririk. Bu qürur hissini, bu sevinci, bu fəxarəti bizə yaşatdığınız üçün Sizə qubadlılıların təşəkkürünü çatdırıram. Mən bu gün çox xoşbəxtəm ki, qubadlılıların salamlarını Sizə çatdırmaq şərəfinə nail olmuşam. Cənab Prezident, biz hamımız qubadlılılar olaraq bir nəfər kimi Sizin arxanızdayıq, Sizin yanınızdayıq və bütün quruculuq işlərində - necə ki, o 44 günlük müharibədə - yenə də Sizin bütün tapşırıqlarınızın, bütün sərəncamlarınızın, bütün çıxışlarınızdan irəli gələn müddəaların həyata keçirilməsi bu gün Qubadlımızda prioritet məsələdir. Bu gün Qubadlıda hamı bununla fəxr edir. Arzu edirəm ki, bu quruculuq işlərində də biz həmişə Sizin sağ əliniz olaq, Sizin, Mehriban xanımın yanında olaq. Allah Sizə elə qol-qanad versin ki, bu quruculuq işlərini, başladığınız bax bu işi Allahın köməyi ilə axıra çatdırasınız. Mehriban xanım, xanımlar xanımı, birinci xanımımız həmişə Sizin yanınızda olsun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm. Sağ olun.

**Şamama Həsənova**: Bu gün Müzəffər Ali Baş Komandan kimi, qalib Ordunun qalib sərkərdəsi kimi, cənab Prezident, Sizi təbrik edirik. İnanın ki, hər bir insanın qəlbində, hər bir qubadlılının qəlbində, o cümlədən bütün xalqımızın qəlbində elə bir abidə ucaltmısınız ki, o heç vaxt oradan, öz yerindən ayrı ola bilməz.

Sizi, ailənizi, belə xoş gündə bir daha təbrik edirəm. Qoy Allah bizi həmişə belə xoş günlərdə görüşdürsün, qubadlılılarla Sizi belə xoş günlərdə, əlamətdar günlərdə görüşdürsün.

**Prezident İlham Əliyev**: Sağ olun, təşəkkürlər, çox sağ olun. Elə də olacaq bundan sonra. Sağ olun.

Əməkdar müəllim **Ədalət Əsədov:**

Ey ulu məmləkətin Ali Baş Komandanı,
Şücaətin, təpərin dünyaya dastan oldu.
Sən bu xalqın qəlbində elə heykəl ucaltdın,
Tarix yaddan çıxarmaz, tarixə dastan oldun.

Bu gün cənab Prezident biz qubadlılıları Qubadlıya qonaq dəvət edib. Ulu Yaradandan diləyim budur ki, biz qubadlılılar da dəyərli Prezidentimizi, böyük insanımızı, böyük şəxsiyyətimizi - İlham Əliyevi Qubadlıya qonaq dəvət edək. Var olun, Allah Sizi qorusun!

**Prezident İlham Əliyev**: Sağ olun, təşəkkür edirəm. Elə də olacaq. Yaxın gələcəkdə.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri **Hicran Hüseynova:** Cənab Prezident, bizim bu ulu baba torpağımıza bizi qaytardınız. Bu, bizim üçün ən böyük xoşbəxtlikdir. Sizin də, Mehriban xanımın da, bütün bu 44 gündə danışıqlarınızda, Sizin çıxışlarınızda hiss edirdik ki, Siz doğrudan da nə qədər böyük həyəcan keçirirdiniz. Amma birinci gündən axırıncı günə qədər biz Sizə arxalanırdıq, Sizə inanırdıq. Bütün xalq Sizin ətrafınızda birləşib. Siz də o xalqdan güc alaraq bizi o Qələbəyə çatdırdınız. Ona görə Sizə cansağlığı, uzun ömür arzulayırıq, biz də həmişə arxanızdayıq.

**Şamama Həsənova:** Ölümün gözünə dik baxan o şəhidlərimiz, cənab Prezident, məhz Sizdən güc alırdılar, Sizdən ilham alırdılar.

**Prezident İlham Əliyev**: Bilirsiniz, dünyada indi, tarixdə bir çox müharibələr olub. Ancaq inanmıram ki, belə bir müharibə olsun ki, orada iştirak edən orduda bir nəfər də fərari olmasın.

**Şamama Həsənova**: Bəli, bəli, bu, Sizin sayənizdədir.

**Prezident İlham Əliyev**: Çünki biz İkinci Dünya müharibəsinin tarixini yaxşı bilirik. O vaxt sovet ordusunda nə qədər fərari olmuşdur, nə qədər satqın olmuşdur. Hətta alman faşistləri satqınlardan ibarət ordu yaratmışdılar. Ancaq bizdə bir dənə də olsun fərari olmamışdır.

**Şamama Həsənova:** Sizin sayənizdə. Sizə güvənərək ölümə getdilər.

**Prezident İlham Əliyev:** Ölümə gedirdilər, ölümə gedirdilər bu torpaq uğrunda. Bax, budur, xalqımızın böyüklüyü.

**X X X**

Xatirə şəkilləri çəkdirildi.

**X X X**

Birinci xanım **Mehriban Əliyeva** sakinlərlə söhbət etdi. Ata-baba yurdlarına geri dönən sakinlər torpaqlarımızın işğaldan azad olunmasına görə minnətdarlıqlarını bildirdilər. Qubadlı sakini öz hazırladığı əl işindən ibarət kəlağayını birinci xanıma təqdim etdi.

Qubadlılılar Azərbaycan xalçaçılıq sənətinin dünyada təbliğində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əməyini xüsusi vurğuladılar. Sakinlər işğaldan azad olunan torpaqlarda xalçaçılıq müəssisələrinin yaradılması ilə bağlı təkliflər səsləndirdilər. Birinci xanım Mehriban Əliyeva təklifləri dəstəklədiyini bildirdi.

Sonra Milli Qəhrəman Şükür Həmidovun atası Nəriman Həmidov birinci xanıma Azərbaycan naminə gördüyü işlərə və Vətən müharibəsi qazilərinə göstərdiyi qayğıya görə minnətdarlığını ifadə etdi.

**X X X**

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ictimaiyyətin nümayəndələri Qubadlı şəhərinin ərazisini gəzdilər.

**Prezident İlham Əliyev**: Harada oxuyursan?

**Tələbə oğlan:** Mən məktəbdə respublika birincisi oldum. Bakı Ali Neft Məktəbində oxuyuram.

**Prezident İlham Əliyev:** Neft məktəbində? Neçənci kursda?

**Tələbə oğlan:** Birinci kurs.

**Prezident İlham Əliyev:** Birinci kurs. Hə, çox yaxşı.

**Tələbə qız:** Mən də Bakı Ali Neft Məktəbində oxuyuram. Tələbələrimizin Sizə salamı var.

**Prezident İlham Əliyev:** Çox sağ ol, məndən də tələbələrə salam söylə. Çox sağ ol.

**Qadın sakin:** Mən çox təsirlənirəm. Cənab Prezident, müharibədən danışanda məni ağlamaq tutur. Azərbaycan tarixinin ən şərəfli səhifəsidir.

**Prezident İlham Əliyev:** Bəli, elədir. Razıyam, çox sağ olun.

**Gənc idmançı**: Cənab Prezident, gənc olimpiyaçı olaraq mən də gənc idmançılar adından Sizə təşəkkürümü bildirirəm.

**Prezident İlham Əliyev:** Bilirəm, sən yaxşı vuruşmusan. Amma Niyaməddin kimi çempion olmalısan.

**Gənc idmançı:** Sağ olun. İnşallah, Sizə söz verirəm.

**Prezident İlham Əliyev:** Deyirəm, sənin kimi çempion olmalıdır. Hə?

**Gənc idmançı:** Müəllimimizdir. Niyaməddin müəllimdən həmişə böyük örnək almışıq.

**Prezident İlham Əliyev:** Sən neçənci ildənsən?

**Gənc idmançı:** 1996-cı ildən.

**Prezident İlham Əliyev:** 1996-cı ildən. Görməmisən?

**Gənc idmançı:** Görməmişəm. Böyük şərəf oldu.

**Prezident İlham Əliyev:** Valideynlərin burada yaşayıb?

**Gənc idmançı:** Bəli, valideynlərim burada olubdur, Gürcülü kəndində. Böyük şərəfdir Sizinlə buranı ziyarət etmək.

**Niyaməddin Paşayev:** Cənab Prezident, mən də öz adımdan, öz ailəm adından Sizə dərin təşəkkürümü bildirirəm.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Niyaməddin Paşayev**: Mən 13 yaşıma qədər böyüdüyüm bu Qubadlı.

**Prezident İlham Əliyev:** Sən burada yaşamısan?

**Niyaməddin Paşayev:** Bəli, Qubadlı rayonunun Muğanlı kəndində doğulmuşam. İnşallah, arzu edirəm ki - necə ki, bu günə qədər Azərbaycanda böyük idman yarışları təşkil olunub, - bu işğal olunmuş şəhərlərimiz də bərpa olunandan sonra bizə Avropa Oyunları kimi, İslam Oyunları kimi, Avropa, dünya çempionatlarını keçirmək qismət olsun.

**Prezident İlham Əliyev:** Əlbəttə. Mütləq. Burada indi mütləq yaxşı idman qurğuları tikiləcək. Siz də gəlib burada öz təcrübənizi bölüşəcəksiniz. Mütləq.

**Gənc idmançı**: İnşallah, bundan sonra bütün qələbələrimizi Sizə həsr edəcəyik.

**Prezident İlham Əliyev**: Çox sağ ol. Sənin çox güclü potensialın var, mən izləyirdim. Dünya çempionatının bürünc mükafatçısısan?

**Gənc idmançı:** Bəli.

**Prezident İlham Əliyev**: Yəni, dünya, Olimpiya çempionu ola bilər.

**Gənc idmançı**: İnşallah. Sizə söz veririk, Parisdə sübut edəcəyik, Allahın izni ilə. Çox sağ olun.

**Həkim**: Cənab Prezident, mən 15 il burada uşaq həkimi işləmişəm.

**Prezident İlham Əliyev:** Qubadlının rayon mərkəzində?

**Həkim**: Rayon mərkəzində. Müalicə etdiyimiz bu uşaqlar Sizin sayənizdə bu torpaqlarımızı işğaldan azad etdilər. Bu torpaqlara, bu evlərin hər birinə indi baxırıq, tanımırıq.

**Prezident İlham Əliyev**: Hamısını dağıdıblar. Sonra da söküblər. Əvvəl, müharibədən sonra dağıdıblar. Sonra da söküblər, daşları da aparıblar, atıblar ora-bura. Hamısı yenidən qurulacaq. İndi göstəriş verilib. İndi Baş plan hazırlanır. Yəqin ki, 2-3 aya hazır olacaq. Ondan sonra ictimaiyyət də tanış olacaq. Baxarsınız, siz də öz təkliflərinizi verərsiniz. Əlbəttə, daha böyük şəhər nəzərdə tutulur. İlkin belə variant indi mənə məruzə edildi. Ola bilər, 10-15 min əhalisi olan. Çünki işğala qədər rayon mərkəzinin 5 min əhalisi olub.

Əlbəttə, kəndlərin də bərpası mütləq olacaq, İnşallah. İndi bu əsas yol çəkilir, Eyvazlıya da bir yol çəkilir. Yəqin ki, eşitmisiniz?

**Sakinlər:** Bəli, ən strateji yoldur.

**Prezident İlham Əliyev:** Bəli, bəli. Həmin o Gorus-Qafan yolu ki, indi bizim ərazimizdən keçir.

**Sakin**: Cənab Prezident, Siz Ali Baş Komandan kimi bu kəndlərimizi bizdən yaxşı tanıyırsınız.

**Prezident İlham Əliyev:** Mən bunu əzbər bilirəm. Çünki müharibə dövründə bütün bu göstərişlər verilirdi, hansı kənd nə vaxt, necə götürülməlidir.

**Sakin:** Hər gün xalq Sizdən elan gözləyirdi. Vərdiş etmişdik.

**Prezident İlham Əliyev:** Bəzən bir-iki gün ara olanda narahat olurdular ki, görəsən, nə oldu?

**Sakin:** Gorus rayonunun dörd azərbaycanlı kəndi var idi - Şurnuxu, Ağbulaq, Çayzəmi, bir də Qurdqalaq. Kəpəz dağı buradan görünürdü. Kəpəz dağının arxasında ermənilər ad qoymuşdu Ağbannıdır. Bunlar hamısı Azərbaycan kəndləri idi. Qədim qəbiristanlıqlar qalıb, yerlər hamısı qalıb. Bizim Seytas kəndi üç dəfə dağıdılıb, bir fəsildə üç dəfə yandırılıb. 1990-cı ilin yanvar ayında mənim atamın evi yandırıldı.

**Sakin:** Cənab Prezident, sağ tərəfdə Böyük Vətən müharibəsi abidəsi, Ana abidəsi var idi. Hamısının adı yazılmışdı orada.

**Prezident İlham Əliyev**: Onu da söküblər.

**Sakin:** O yuxarıdakı da rayonun dağüstü pavilyonu olub. Pilləkənləri də söküb aparıblar.

**Digər sakin:** Cənab Prezident, mənim xatirimdədir, səhv eləmirəmsə, 1997-ci ildə Ulu Öndər Akademik Opera və Balet Teatrına gəlmişdi - “Arşın mal alan” tamaşasına. Pediatrların yığıncağı idi, qonağı və dostu, qardaşı İhsan Doğramacı ilə.

Onda pərdə arxasına keçdim, mən onda Vəli obrazında idim. Məni böyük sənətkarımız Lütfəli Abdullayevə bənzədirdilər. Səhnə arxasına gəldi, öz təəssüratlarını hamımızla bölüşdü. Çox razı qalmışdı.

**Prezident İlham Əliyev:** Bəli, o, tamaşalara tez-tez gəlirdi.

**Sakin:** Allah qəni-qəni rəhmət eləsin. O, incəsənət işçiləri üçün, aktyorlar üçün çox böyük işlər görüb və Siz də onu davam etdirirsiniz. Hamımızın ürəyindəndir, hamımız Sizin duaçınızıq.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Sakin**: Cənab Prezident, bir məsələni deyim. Bu çay buradan keçirdi. Ermənilər istəyirdilər burada bulvar düzəltsinlər. Oranı qaldırıblar ki, düzəltsinlər, yarımçıq qaldı. Biz gəldik, ordumuz gəldi.

**Prezident İlham Əliyev**: Buranı onlar genişləndiriblər?

**Sakin:** Bəli, genişləndirmək istəyiblər ki, bir azca o tərəfə getsin. Desinlər bulvardır, Bakıdakı kimi. Amma planları gözlərində qaldı.

**Prezident İlham Əliyev:** Bəli, onu biz edərik. Burada çay boyunca belə gəzinti yerləri mütləq olmalıdır.

**Sakin**: Çox gözəl olardı. Dar idi də belə.

**Prezident İlham Əliyev:** Onlar genişləndiriblər. Amma burada bir iş görməyiblər.

**Sakin:** Yox, onlar belədir də. Ancaq uçurub dağıtmaqla məşğul idilər. Ümidləri yox idi, ona görə.

**Prezident İlham Əliyev**: Bəli, əlbəttə. Bilirdilər ki, biz qayıdacağıq. O Bəsitçay qoruğunda ağacların böyük hissəsini kəsiblər, ancaq kötüklər qalıb və yandırıblar. Biz keçən dəfə Zəngilanda olanda Bəsitçaya getmişdik. Dağıdıblar, kəsiblər, misli görünməmiş vandallıq.

Kəlbəcər şəhəri tam dağılıb. Halbuki, orada bəzi yerlərdə yaşayırdılar. Ora da tamamilə yerlə bir idi. Eybi yoxdur, hamısını yenidən quracağıq, daha gözəl olacaq. Mən həmişə o qəsəbələrin açılışlarında keçmiş köçkünlərlə görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir. Torpaqlar azad olunandan sonra daha gözəl evlər, binalar tikəcəyik. İndi o gün yaxınlaşır.

**Sakinlər:** Çox sağ olun.

**Vətən Müharibəsi Qəhrəmanı:** Mən ehtiyatda olan bir əsgər kimi bir çox tədbirlərdə iştirak eləmişəm. Orada qeyd edirdim, cənab Ali Baş Komandanımıza dərin minnətdarlığımı bildirirəm ki, məni 19 yaşımda "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edib. Şükür Allaha, bu gün öz doğma torpağımızda Sizinləyik. Sizə təşəkkürümü bildirirəm ki, məni və döyüş yoldaşlarımı yüksək fəxri adlarla qiymətləndirmisiniz. Çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox sağ ol, mən sənə təşəkkür edirəm, sənin simanda bizim bütün qəhrəman övladlarımıza. Onlar sinəsini qabağa verib düşməni torpağımızdan qovublar. Bax, belə igidlər hesabına biz bu gün burada dayanmışıq.

**Vətən Müharibəsi Qəhrəmanı:** Hər an hər bir əmrinizi icra etməyə hazırıq.

**Prezident İlham Əliyev:** Sağ ol. Bu medallar hansı şəhərlər uğrundadır?

**Vətən Müharibəsi Qəhrəmanı:** Cəbrayıl, Füzuli.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun.

**AZƏRTAC**
**2021, 25 oktyabr**

**Yaponiya saytı Prezident İlham Əliyevin Qubadlı rayonuna səfəri və ictimaiyyət nümayəndələri ilə görüşündən yazıb**

Yaponiyanın “ajmedia.jp” saytı Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Qubadlı rayonuna səfəri barədə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, yapon və ingilis dillərində yayımlanan məlumatda əvvəlcə Azərbaycan Prezidentinin Xanlıq-Qubadlı avtomobil yolunun təməlqoyma mərasimində iştirak etdiyi bildirilib. Qeyd olunub ki, həmin yol Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən hissəni əhatə edir.

Bununla yanaşı, Azərbaycan Prezidentinin və birinci xanımın “Azərenerji” ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq “Qubadlı” yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak etdikləri də bildirilib.

Diqqətə çatdırılıb ki, səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə də görüşüblər.

Məlumata AZƏRTAC-ın səfər barədə videosu da əlavə edilib.

**Vüqar Ağayev**
AZƏRTAC-ın xüsusi müxbiri
Tokio

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Politoloq: Qubadlının yenidən qurulmasında tarixiliklə müasirliyin sintezi vəhdət təşkil edəcək**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri, orada ictimaiyyət nümayəndələri ilə görüşləri ölkəmizdə olduğu qədər, dünyada da gündəmin müzakirə mövzusu olmaqda davam edir. Çünki həyata keçirilən işlər, reallaşdırılan layihələr və oradan bütün dünyaya verilən mesajlar, sadəcə, lokal mənada deyil, regional və qlobal müstəvidə də mühüm əhəmiyyət kəsb edir. Son olaraq Qubadlı rayonuna səfəri çərçivəsində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirakı bir daha ondan xəbər verir ki, böyük Qayıdış üçün bütün potensial səfərbər edilib. Azərbaycan dövlətinin qarşısında duran yeganə maneə isə zamandır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

İşğal zamanı Azərbaycan xalqının təslim olmadığını, vəziyyətlə barışmadığını, doğma torpaqlarını unutmadığını vurğulayan politoloq bildirib: “İndi isə işğal zamanı dağıdılmış torpaqlarımızın bərpası istiqamətində bütün işlər operativ qaydada həyata keçirilir, bu proses sürətlə davam edir. Bütün şəhər və kəndlərimiz, tarixi abidələrimiz, mədəniyyət abidələrimiz, məscidlərimiz dağıdılıb. Biz isə heç kimdən yardım almadan, öz gücümüzə onların hamısını yenidən qurub-yaradırıq. Bu mərhələdə bütün dünya bilməlidir ki, bu torpaqlar bizə məxsusdur, biz onları bərpa edirik və mütləq oraya qayıdacağıq. Bu həqiqəti də anlamalıdırlar ki, torpaq sahibi olmaq onu bərpa etmək, qorumaq deməkdir. Qubadlı camaatı da dövlətimizlə əl-ələ verərək bərpa-quruculuq işlərində yaxından iştirak edəcəklər. Kənd təsərrüfatının inkişaf etdirilməsi əsas məsələlərdən biridir ki, bu işdə su resurslarının xüsusi önəmi var. Xalqımız artıq öz milli və təbii sərvəti olan Həkəridən, Bazarçaydan, Bəsitçaydan, Tərtərçaydan bu məqsədlə istifadə edəcək. Ermənistandakı revanşist qüvvələr də artıq reallıqla barışmalıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti bütün torpaqlarımızı bərpa edəcək, xalqımız öz doğma torpaqlarında əbədi yaşayacaq”.

Ş.Həsənova diqqətə çatdırıb ki, Vətən müharibəsinin gedişində Qubadlının işğaldan azad edilməsinin strateji əhəmiyyəti olduqca böyük idi. Belə ki, məhz Qubadlının azad olunmasından sonra Laçın istiqaməti açıldı və ardınca Ordumuz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etməklə dəhlizi nəzarətə götürdü. Demək olar bununla da müharibənin taleyi artıq həll edilmişdi və biz Şuşa Səfərinə doğru addımlayırdıq. Düşmən isə bundan sonra önümüzdə aciz qalaraq məğlub olduğunu anladı, bütün dünya da Azərbaycan xalqının qətiyyətini görmüş oldu.

Vurğulanıb ki, dövlətimizin başçısının səfərdən dərhal sonra Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamasının da xüsusi əhəmiyyəti var. Belə ki, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Prezident İlham Əliyev tərəfindən 2021-ci il iyulun 7-də imzalanan Fərmanla Qubadlı yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonunun inzibati ərazi bölgüsünə daxil edilib. Bu amil Zəngəzur dəhlizinin reallaşdırılmasına töhfə, Şərqi Zəngəzur iqtisadi rayonunun, bütövlükdə isə ölkənin sosial-iqtisadi inkişafının güclənməsinə təkan verəcək. Bu, eyni zamanda, regiona investisiya qoyan xarici şirkətlərin və biznes ictimaiyyətinin yaxından cəlbini sürətləndirəcək, nəticə etibarilə isə yerli və qonşu regionların əhalisinin rifah halının yüksəldilməsinə istiqamətlənmiş çox uzaqgörən bir addımdır. Bütün bunlarla yanaşı, bu işdə əsas məsələ ondan ibarətdir ki, Qubadlı yenidən qurularkən onun təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Yəni, tarixiliklə müasirliyin sintezi vəhdət təşkil edəcək.

“Prezident İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə də bütün bu məsələlərə detallı şəkildə toxundu. Vətən müharibəsində şəhid olmuş insanların xatirəsinin hər zaman uca tutulmasının vacibliyini bildirən dövlətimizin başçısı bu səfər çərçivəsində də bir daha onların əziz xatirəsini andı. Bildirdi ki, Qubadlı sakini, Milli Qəhrəman Şükür Həmidov bütün hərbçilərimiz, gənc nəsil üçün nümunədir. Bu, bir dövlət başçısının, Ali Baş Komandanın şəhidinə, torpaq uğrunda canından keçən hərbçisinə verdiyi ən ali diqqətin təzahürüdür. İndiyə qədər Azərbaycanın müxtəlif regionlarında şəhidlərimizin əziz xatirəsinə bulaqlar inşa edilib, adları küçələrə, məktəblərə verilərək əziz xatirələri əbədiləşdirilib. Müvafiq addımlar işğaldan azad olunmuş ərazilərimizdə də atılacaq. Çünki o torpaqlar məhz qəhrəman Azərbaycan oğullarının rəşadəti sayəsində düşmən tapdağından azad oldu. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, 25 oktyabr Azərbaycan tarixində əlamətdar və tarixi bir gündür. Bu tarix həm qubadlılılar, həm də bütün Azərbaycan üçün əbədi Qələbə Günü olaraq qalacaqdır”, - deyə Ş.Həsənova əlavə edib.

Üçtərəfli bəyanatların regionda bütün nəqliyyat, kommunikasiyaların açılmasını özündə ehtiva edən çox mühüm sənədlər olduğunu qeyd edən politoloq bildirib ki, əsas məsələ onların icrası ilə bağlı həm Rusiyanın, həm də Azərbaycanın mövqeyinin üst-üstə düşməsidir. Belə ki, Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın Naxçıvanla normal əlaqələrinin qurulmasını, kommunikasiyaların açılmasını Ermənistanın qarşısında duran ən ümdə vəzifələrindən biri kimi müəyyənləşdirir. Son hadisələr hər iki ölkənin, yəni, Rusiya və Azərbaycanın mövqelərinin eyni olması ilə yanaşı, ölkəmizin qarşıya qoyduğu məqsədinə nail olacağından xəbər verir. İlk vaxtlarda Ermənistan tərəfindən Zəngəzur dəhlizinin açılması ilə bağlı bəzən müsbət, bəzən mənfi, ümumilikdə

dəyərləndirsək sabit olmayan mesajlar alırdıq. Dövlətimizin başçısının da səsləndirdiyi son fikirlər ondan xəbər verir ki, artıq Ermənistan da reallıqla barışıb və əslində, qarşısında alternativ yol da mövcud deyil. Şübhəsiz ki, bu, Azərbaycan dövlətinin qətiyyətinin və birbaşa cənab Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin qələbəsidir ki, ilk öncə torpaqları işğaldan azad etdi, ardınca nəqliyyat, infrastruktur bərpa olunur və hətta Ermənistan tərəfi vaxtilə işğal olunmuş ərazilimizdə yol verdikləri qanunsuz əməllərə görə beynəlxalq məhkəmələrə cəlb olunur. Yəni, qarşıya qoyulan məqsədlər ardıcıllıqla yerinə yetirilir.

Zəngəzur dəhlizinin əhəmiyyətinə toxunan Ş.Həsənova diqqətə çatdırıb ki, bu dəhliz, sadəcə, tarixi, regional deyil, qlobal müstəvidə də mühüm əhəmiyyət kəsb edir. Tarixə nəzər salsaq, vaxtilə 100 minlərlə azərbaycanlı yaşadıqları Zəngəzur ərazisindən deportasiya olunub və Zəngəzuru süni yaradılan Ermənistan SSR-in ərazisinə daxil etdilər. Beləliklə, regionda tarixi və coğrafi bütövlük pozuldu. Bu baxımdan da tarixi nöqteyi-nəzərdən Zəngəzur dəhlizinin açılması aramıza çəkilmiş süni divarların bir növ dağıdılmasıdır. Yəni, dəhliz Azərbaycanın əsas ərazisini ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası, eləcə də Türkiyə ilə birləşdirəcək və bütöv türk dünyası üçün yeni imkanlar açacaq. Dəhliz Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlığın bərpa olunmasında prinsipial əhəmiyyət daşıyır. Qlobal müstəvidə isə sözügedən dəhliz Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya və İranla yanaşı, Asiya-Sakit okean regionu ölkələrinə də böyük fayda verə bilər. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional layihələrin icrasına mühüm töhfə vermişdir. Zəngəzur nəqliyyat dəhlizi də Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq ki, dəhliz ölkəmizə Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək.

"Müharibə zamanı hər gün, hər an Azərbaycanın yanında olduğunu bildirən Türkiyə dövlətinin dəstəyi nəticəsində ölkəmiz məkrli qüvvələrin regiona müdaxilə etməsinə, öz çirkli oyunlarını burada həyata keçirməsinə icazə vermədi. Bu baxımdan da Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı daimidir, ən əsası isə bunun üçün tarixi, milli, etnik, bir sözlə inkar olunmaz və ayrılmaz bağlar mövcuddur. Atalarımız yaxşı deyib: "Dost gəlişi bayram olar". Bu səbəbdən də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Azərbaycana səfər etməsi bütün xalqımızı sevindirəcək bir hadisədir. Bu səfər ərzində Türkiyə-Azərbaycan münasibətlərinin bütün istiqamətləri yenidən nəzərdən keçiriləcək və ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı mühüm müzakirələr aparılacaq. Nəticə etibarilə, bütün dünyaya bir daha məlum olacaq ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır", - deyə politoloq fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**İqbal Məmmədov: Qubadlı rayonu yenidən qurulacaq və ölkə iqtisadiyyatına öz töhfəsini verəcək**

Azərbaycan xalqı və dövləti 44 günlük Vətən müharibəsində qazandığı Zəfərin birinci ildönümünü təntənə ilə qeyd etməkdədir. Biz ilk dəfə olaraq tarixdə həm sevincimizi, həm də kədərimizi eyni vaxtda yaşayırıq.

Oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələri Qubadlı rayonunu düşməndən xilas etdi. Rayonun işğaldan azad olunması Vətən müharibəsinin taleyində mühüm rol oynadı. Çünki bu rayonun azad olunması ilə Laçın istiqamətində yol açıldı və Laçın dəhlizi Silahlı Qüvvələrimiz tərəfindən nəzarətə götürüldü.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı İqbal Məmmədov deyib.

Deputat bildirib: "Biz Qələbəmizi dövlətimizin qüdrəti və xalqımızın lideri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı müdrik və uzaqgörən siyasət nəticəsində qazandıq. Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsi idi. Ulu Öndərin layiqli varisi Prezident İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində də məhz bu arzunun reallaşdırılması dayanırdı. Dövlətimizin başçısı hələ 2003-cü ildə Prezident seçiləndə xalqa söz vermişdi ki, torpaqlarımız mütləq işğaldan azad ediləcək. Prezident xalqa verdiyi sözə, vədə əməl etdi. Bu vədə əməl etmək üçün isə müəyyən vaxt və hazırlıq lazım idi. Ölkənin həm daxili, həm də xarici siyasətində hər şey düşünülmüş və planlı şəkildə aparılırdı. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, erməni yalanlarının ifşa olunması istiqamətində məqsədyönlü işlər görülürdü. Prezident İlham Əliyev iştirak və çıxış etdiyi beynəlxalq platformalardan ölkəmizin haqq səsini dünyaya çatdırırdı. Çünki informasiya müharibəsi də çox vacib idi. Biz Ermənistanla müharibəni əvvəlcə informasiya cəbhəsində qazandıq. Hər bir azərbaycanlı ümumi iş uğrunda birləşdi, həmrəy oldu. Məhz bu birliyin, bu həmrəyliyin qarşısında düşmən tab gətirə bilmədi və təslim oldu".

Zəfərimizdən dərhal sonra Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərlər həyata keçirdiyini xatırladan İ.Məmmədov diqqətə çatdırıb ki, dövlətimizin başçısı bu torpaqlarda həyata keçirilən tikinti və quruculuq işləri ilə yaxından maraqlanır, bütün prosesləri detallarına qədər öyrənir. "Dövlətimizin başçısı işğaldan azad edilmiş rayonların Baş planları ilə yaxından tanış olur, öz fikir və mülahizələrinin bildirir. Prezident Qubadlı şəhərinin Baş planının hazırlanması və bu planda Qubadlının təbiətinin, tarixi keçmişinin nəzərə alınması barədə öz xüsusi tapşırıqlarını və tövsiyələrini verdi. Dövlətimizin başçısı rayonlara səfərləri zamanı yerli sakinlərlə səmimi görüşür, onların fikirlərini dinləyir. Qubadlıda da belə oldu. Prezidentimizin 19 yaşlı Vətən Müharibəsi Qəhrəmanı ilə səmimi söhbəti onun bir dövlət başçısı kimi nəcib, alicənab insan olmasının göstəricisidir. Gənclərimiz, əsgərlərimiz belə səmimi münasibətdən stimul alır və bu, onları dövlətimiz, Vətənimiz üçün cani-könüldən çalışmağa ruhlandırır", - deyə deputat əlavə edib.

Azərbaycan xalqının qalib və qurucu xalq olduğunu bildirən İ.Məmmədov qeyd edib: "Biz erməni vandalizminə məruz qalmış, viran qalmış ərazilərimizi yenidən dirçəldəcəyik, torpaqlarımızı yenidən əkib becərəcəyik. Çünki Prezident İlham Əliyevin də dediyi kimi, biz qurucu xalqıq. Biz bütün ərazilərimizi, rayonlarımızı, şəhərlərimizi müasir standartlara uyğun tikib quracağıq. Biz Qarabağımızı cənnətə çevirəcəyik. Qubadlı rayonu da yenidən qurulacaq, inkişaf edəcək və ölkə iqtisadiyyatına öz töhfəsini verəcək. Çünki bu torpaqlar bərəkətlidir və zəngin təbiətə malikdir".

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Jalə Əhmədova: Qubadlının işğaldan azad edilməsi müharibənin taleyinə böyük təsir göstərdi**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı şəhərinin işğaldan azad olunmasının ildönümü münasibətilə Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər. Bildirmək istəyirəm ki, Qubadlının azad olunması müharibənin gedişatında çox mühüm hadisə idi. Çünki Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və qısa müddətdə Laçının cənub hissəsində yerləşən ərazilərimizi də azad etdik. Beləliklə də Laçın dəhlizi bizim nəzarətimizə keçdi və bu, müharibənin taleyinin həll edilməsi demək idi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Jalə Əhmədova deyib.

Deputat bildirib ki, Qubadlı rayonunun işğalı nəticəsində 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekt, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış və yararsız vəziyyətə salınmışdır.

“Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Ermənilər şəhərdə güclü istehkamlar qurmuş, yüksəkliklərdə yerləşmişdilər. Qubadlını azad etmək üçün, ilk olaraq yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Belə çətin şəraitdə həyata keçirilən Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və qəhrəmanlıq tələb edirdi. Azərbaycan Ordusu bu peşəkarlığı və qəhrəmanlığı göstərərək əvvəlcə şəhərə nəzarət edən yüksəklikləri azad etdi, sonra isə ətrafdakı kəndlər, Xanlıq qəsəbəsi və nəhayət, Qubadlı şəhəri düşməndən təmizləndi. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla Xanlıq qəsəbəsində yerləşdirilmişdilər ki, bu da ermənilərin hərbi cinayətlərindən biri idi. Çünki Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş sayılır. 2020-ci il dekabrın 23-də Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı. Qubadlı şəhərinin azad edilməsi Vətən müharibəsinin gedişində çox önəmli hadisə olmaqla yanaşı, böyük Qələbəmizi daha da yaxınlaşdırdı. Qubadlı uğrunda gedən şiddətli döyüşlərdə xalqımız şəhidlər verdi. 2020-ci il noyabrın 26-da “Qubadlının azad olunmasına görə” medalı təsis edilərək Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərmiş 15189 hərbi qulluqçumuz Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə bu medalla təltif edildilər. Həmin tarixi gündən 1 il vaxt keçsə də, hər bir azərbaycanlı o həyəcanlı günləri yaxşı xatırlayır. 2020-ci ilin 25 oktyabr günü Azərbaycan xalqının tarixinə qızıl hərflərlə həkk olunmuş hadisə kimi daim yaddaşlarda yaşayacaq”.

**AZƏRTAC**
**2021, 27 oktyabr**

## Deputat: Qubadlının işğaldan azad olunması Ordumuzun irəliləməsi üçün bir çox maneələri aradan qaldırdı

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri artıq ənənə xarakteri alıb. Bu ənənə Azərbaycan cəmiyyətinin düşüncə mühitinə xeyli yeniliklər əlavə edir. Bu yenilik ondan ibarətdir ki, ilk növbədə, Prezident İlham Əliyev yerli sakinlərlə görüşərək illər boyu ümidsiz vəziyyətdə qalmış insanların birlikdə bu prosesi izləməsinə və məsələləri müzakirə etmələrinə şərait yaradır. Prezident İlham Əliyev bölgənin gələcəyi ilə bağlı hansı layihələrin olduğu və gerçəkləşməsində də insanların hansı rol ala biləcəkləri mövzusunda onlarla dialoqa girir. Bu, olduqca önəmli davranışdır. Çünki orada yaşayacaq insanların rəylərinin alınması olduqca vacibdir. Digər tərəfdən, yaradılan səmimi mühitdə onlarla şəkil çəkdirmək, söhbətlər aparmaq Azərbaycan cəmiyyətində səmimiyyət göstəricisi kimi anlaşılır. Həm Prezident İlham Əliyevin, həm də birinci xanım Mehriban Əliyevanın ictimaiyyət nümayəndələri ilə şəkil çəkdirməsi, səmimiyyəti cəmiyyətdə xoş əhval-ruhiyə yaradır.

Bunu AZƏRTAC-a açıqlamasında Böyük Qurtuluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa bildirib

Qubadlının Baş planı haqqında danışan deputat bildirib: "Bölgənin gələcəkdə dizayn olunması, Qubadlının Baş planının hazırlanması, strateji əhəmiyyəti ilə bağlı söhbətlər bütövlükdə bu bölgədə insanların məskunlaşmasının stimullaşması baxımından olduqca əhəmiyyətlidir. Qubadlı çox böyük tarixi, həmçinin strateji əhəmiyyətə malikdir. Çünki Qubadlının işğaldan azad olunması Laçına gedən yolun açılması, həmçinin maneənin aradan qaldırılması demək idi. Diqqət etsək, Qubadlının götürülməsindən sonrakı dövrdə Şuşanın da azad edilməsi asanlaşdı. Eyni zamanda, bu strateji mövqelərin ələ keçirilməsi ermənilərin kapitulyasiyaya imza atması ilə digər 3 rayonun da boşaldılmasına da böyük təsir göstərdi. Qubadlının dağlıq relyefi buranın həm də təbii sərvətlərlə zəngin ərazi olduğunu göstərir. Ona görə də bu ərazidə gələcəkdə Azərbaycanın müəyyən yataqlarının istismar olunması çərçivəsində iş yerlərinin açılması nəzərdə tutulur. Qubadlıda "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrindən əlavə, həm də dağ-mədən relyefinə uyğun olaraq məşğulluğun təmin edilməsi barədə düşünmək olar".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin Qubadlıda insanlara, xüsusilə də şəhid ailələrinə olan münasibətini fərqli formada - qabarıq şəkildə göstərməsi də dövlətimizin başçısının vətəndaşların dəyərini təbliğ etdiyini göstərir. Qubadlıda Şükür Həmidov haqqında atası ilə qısa dialoqunda söylədikləri onu göstərir ki, Prezident İlham Əliyev şəhid ailələrinə ayrıca önəm verir, həm də bu insanların xatirəsinin unudulmadığını dəfələrlə vurğulamağı özünə borc bilir. Bu kateqoriyadan olan insanlara cəmiyyətin digər üzvlərinin də xüsusi həssaslıqla yanaşmasını vacib sayır. Burada Şuşanın azad edilməsi ilə bərabər strateji əməliyyatların daha uğurlu aparılması üçün təkan verdi. Məsələn, məhz Qubadlının strateji ərazi kimi azad edilməsinin bizim üçün necə böyük dəyərə malik olduğunu söyləmək mümkündür. Biz, ilk növbədə, Qubadlıdan keçərək Laçın dəhlizini nəzarətə götürdük. Laçın dəhlizi Şuşaya gedən yolun üzərində olduğu üçün ermənilərin təminat yollarının bağlanması bizim xeyrimizə idi və düşmənin əl-qolunu bağlayırdı. Həqiqətən, elə də oldu. Şuşa azad ediləndən sonra ermənilər təslim oldular.

"Qubadlıda Prezident İlham Əliyevin tələbələrlə də görüşü maraqlı anlarla yadda qaldı. Xüsusilə Bakı Ali Neft Məktəbinin tələbələri ilə səmimi dialoqu cəmiyyətdə xoş təəssüratla qarşılandı. Prezident İlham Əliyevin onlarla da ayrıca şəkil çəkdirməsi, söhbətləşməsi gənc nəslə nə qədər əhəmiyyət verdiyinin göstəricisidir.

Bütövlükdə bölgənin yenidən qurulması istiqamətində insanların rəyinin alınması çox vacibdir. Prezident İlham Əliyev Qubadlıda olarkən sakinlərlə söhbətlərində onların fikirlərinin nəzərə alınması, diqqətdə saxlanılması dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür.

Bütövlükdə Qubadlının işğaldan azad olunması Azərbaycan tarixində müharibənin gedişində ən əhəmiyyətli dönüş nöqtələrindən biridir. Məhz bu hadisədən sonra Azərbaycan əsgəri digər hədəfləri daha rahatlıqla bir-bir ələ keçirməyə başlamışdı. Ona görə Qubadlının işğaldan azad olunmasının ildönümündə Prezident İlham Əliyev məhz əraziyə səfər etməsi, yorulmadan hər bir qəsəbənin, hər bir şəhərin işğaldan azad olunması gününü xüsusi təntənə ilə qeyd etməsi bu Qələbənin nə qədər əhəmiyyətli olduğunu Azərbaycan cəmiyyətinə bir daha çatdırmaqdır. Bu, həm də cəmiyyətə müsbət mesajlar verir", - deyə deputat əlavə edib.

Fazil Mustafa son olaraq bildirib ki, İkinci Dünya müharibəsi bitəndən sonra "Marşal Planı" olmasaydı, Avropanın dirçəlişi mümkün olmazdı. ABŞ tərəfindən külli miqdarda maliyyə dəstəyi verildi və Avropada dağıdılmış şəhərlər bərpa olundu.

Azərbaycan həm də tarixdə elə bir ölkə kimi qalacaq ki, ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış torpaqları öz gücü ilə, öz imkanları hesabına bərpa edib. Ona görə də Prezident İlham Əliyev Qubadlıdakı görüşündə bu ərazinin cənnətə çevriləcəyini və yenidən vətəndaşlar üçün yaşanıla bilən ən gözəl bir məntəqə olacağını bir daha xatırlatdı. İnsanların da bu mövzuda inamı kifayət qədər böyükdür. Çünki hamı dövlətimizin

başçısının apardığı bu kursu dəstəkləməyə hazır olduğunu bildirir. Çünki bu, ümummilli mübarizədir. Müharibədə Qələbə qazanmaq necə ümummilli hədəfimiz idisə, quruculuğu uğurla başa çatdırmaq da milli hədəf kimi qarşımızda dayanır.

**AZƏRTAC**
**2021, 28 oktyabr**

**Qubadlının işğaldan azad edilməsi böyük Qələbənin növbəti carçısı, Laçın dəhlizinə gedən yolun açılması idi**

Bütün torpaqlarımız bizim üçün müqəddəsdir, o cümlədən də Qubadlı rayonu. Ötən ilin sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın düşməndən azad edilməsi, həmin istiqamətdə işğalçılara sarsıdıcı zərbə vurulması və cənubda yerləşən Zəngilan rayonu istiqamətində aparılan uğurlu hərbi əməliyyatlar Azərbaycan Silahlı Qüvvələrinin Qubadlı rayonunun inzibati hüdudlarına çıxmasına şərait yaratdı. Nəticədə xalqımız 2020-ci il oktyabr ayının 25-də şanlı bayrağımızın Qubadlıda dalğalanması və qəhrəman hərbçilərimizin şəhərin işğaldan azad olunmasının Ali Baş Komandan, Prezident İlham Əliyevə məruzə etməsinin şahidi oldu.

Vətən müharibəsində qazanılan Qələbədən sonra Prezident İlham Əliyevin azad olunmuş ərazilərimizə növbəti səfəri Qubadlının düşmən tapdağından qurtarılması münasibətilə həyata keçirildi. Bilirik ki, müharibədə Qələbənin təmin olunması qədər onun rəsmiləşdirilməsi, qorunub saxlanılması da çətin prosesdir. Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərə səfərləri, reallaşdırılan layihələr, Böyük Qayıdışa hazırlıq münaqişənin hərbi fazasının başa çatdığını sübut edir.

Dövlətimizin başçısının işğaldan azad olunmuş rayonlara səfərləri xalqımız tərəfindən sevinc və rəğbət hissi ilə qarşılanır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın ictimaiyyət nümayəndələri ilə səmimi söhbətləri dövlətin xalqa münasibətinin, Azərbaycan rəhbərliyinin ictimaiyyətə açıq olmasının göstəricisidir. Belə səfərlər çərçivəsində hərbçilərimizlə görüşlər həm də Ordumuza mənəvi dəstəkdir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ana Vətən Partiyasının sədr müavini Yalçın Hacızadə deyib.

O bildirib ki, Qələbədən sonrakı bir çox çıxışlarında dövlətimizin başçısının Şuşanın azad olunması haqqında fəxarətlə danışması, Şuşaya aparan yoldan söz açması heç də təsadüfi deyil. Şuşanın azad olunması Azərbaycan xalqının böyüklüyünün, əzəmətinin, mərdliyinin, torpağı nə qədər çox sevməsinin, ona bağlılığının, Azərbaycan Prezidentinin, xalqının, Ordusunun birliyinin təcəssümüdür. Şuşanın bizim üçün əhəmiyyəti, ona aparan yolun önəmi, onun işğaldan azad olunması gününün Qələbə, bayram günü kimi rəsmiləşdirilməsində əks olunur.

Dövlətimizin başçısı çıxışlarının, görüşlərin hamısında olduğu kimi, bu dəfə də Zəfəri bizə bəxş edən əziz şəhidlərimizi unutmadı, xalqımızın, gələcək nəsillərin onlarla fəxr edəcəyini, Vətən fədailərinin adlarının əbədiləşdiriləcəyini vurğuladı. Prezident İlham Əliyev əslən Qubadlıdan olan şəhid Milli Qəhrəman Şükür Həmidov haqqında danışması, onun şəhadətə yüksəlmə xəbərini ürəkağrısı ilə qarşılamasını bildirməsi və polkovnikin həlak olmasını böyük itki adlandırması Ali Baş Komandanın öz hərbçisinə, əsgər və zabitinə verdiyi yüksək dəyərin göstəricisidir.

Y.Hacızadənin sözlərinə görə, torpaqlarımızın işğaldan azad olunmasından qısa müddət keçməsinə baxmayaraq, düşmən tərəfindən dağıdılmış, viran qoyulmuş şəhər, rayon və kəndlərimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə abadlaşdırılır. Bu istiqamətdə kifayət qədər ciddi işlər görülüb, yollar, elektrik stansiyaları, ictimai-mədəni obyektlər, hava limanları tikilib, elektrik xətlər çəkilib, yüzlərlə əhəmiyyətli obyekt və layihələrin təməli qoyulub: "Prezident İlham Əliyev qubadlılılarla görüşündə düşmənin Qubadlını yerli-yeksan etdiyini, rayonun bərpası üçün görüləsi işlərin çox olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı Qubadlı rayonunun bütün kəndlərinin, o cümlədən Qubadlı şəhərinin yenidən qurulacağını, şəhərin Baş planının hazırlandığını və yaxın aylarda təqdim edilməsinin nəzərdə tutulduğunu bildirdi. Baş plan ən müasir normalara uyğun olacaq, Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Qubadlıya səfər çərçivəsində azad edilmiş torpaqlarda sayca yeddinci olan yeni yarımstansiyanın açılışı da oldu. Həmin infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır. Bütün bunlar onu göstərir ki, Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli işlər aparılır", - deyən partiya sədrinin müavini əlavə edib ki, Azərbaycan Prezidentinin azad edilmiş torpaqlara səfərləri onun rəhbərliyi ilə aparılan siyasətin təzahürü olaraq bölgənin qısa müddətdə bərpasının, inkişafının, böyük iqtisadi dəhlizə çevriləcəyinin göstəricisidir. Həmin səfərlər Ermənistan cəmiyyətində də maraqla izlənilir. Çünki məğlub xalqın nümayəndələri bölgədəki mövcud vəziyyət barədə qeyri-müəyyənliklər, həyəcan içərisindədirlər. Onlar proseslərin istiqamətinin dəyişməsində dövlətlərinin hər hansı bir təsir imkanının olmamasını acizliklə seyr etmək məcburiyyətindədirlər.

Ümumilikdə isə Qubadlının işğaldan azad edilməsi böyük Qələbənin növbəti carçısı, şanlı Ordumuzun Laçın dəhlizinə gedən yolunun açılması idi ki, bu da düşmənin döyüş bölgəsinə gələn bütün yollarının bağlanması demək idi. Elə düşmən də bütün bunları görərək kapitulyasiya aktını imzalamağa məcbur olmuşdu.

**AZƏRTAC**
**2021, 28 oktyabr**

**Politoloq: İndi Qubadlı üçün yeni dövr başlayıb**

Qubadlı rayonunun işğaldan azad olunması mühüm strateji əhəmiyyətə malik idi. Çünki Qubadlının azad edilməsindən sonra Azərbaycan Ordusu Laçın dəhlizinə çıxdı. Dəhlizə nəzarətin ələ alınması müharibənin müqəddəratını demək olar həll etdi. Laçın dəhlizinin Qarabağın tranzit, logistika imkanları nöqteyi-nəzərdən də böyük əhəmiyyəti var. Bununla da müharibədə əsaslı dönüş yarandı və ermənilər öz məğlubiyyətlərini dərk etdilər. Daha sonra rəşadətli Ordumuz Şuşaya daxil oldu və 30 ilə yaxın müddət ərzində işğal altında qalmış mədəniyyət beşiyimizi düşmən tapdağından xilas etdi. Son nəticədə tarixi Zəfər qazandıq.

Hazırda Qubadlı üçün yeni dövr başlayıb. İndi Qubadlının yenidən qurulması, bərpası və erməni vandallarının uzun illər ərzində həyata keçirdiyi dağıdıcı fəaliyyətin nəticələrinin aradan qaldırılması dövrüdür. Burada quruculuq işləri əsas etibarilə infrastruktur layihələrinin icrası ilə başlayıb. Avtomobil yollarının tikintisi davam edir. Eyni zamanda, əsas məsələ ərazilərin minalardan təmizlənməsidir. İşğal dövründə Qubadlı rayonunda da küllü miqdarda mina basdırılıb. Minalardan təmizlənmə prosesindən sonra yaşayış evlərinin inşası aparılacaq və öz yurdlarından, obalarından didərgin düşmüş qubadlılıların isti ocaqlarına qaytarılması prosesi başlayacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq İlyas Hüseynov söyləyib.

Politoloqun sözlərinə görə, işğaldan azad olunan ərazilərin sakinləri ilə görüşlərin keçirilməsi ənənə halını alıb. Həmin görüşlər zamanı çox səmimi münasibətlər diqqəti cəlb edir. Azad edilmiş rayonların sakinləri həm Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə, həm də birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildirirlər. Onlar böyük qürur, sevinc və fəxarət hissi ilə, qalib ölkənin qalib vətəndaşı kimi doğma yurdlarına səfər edirlər. Görüşlər zamanı vurğulanır ki, biz əbədi olaraq həmin torpaqlarda yaşayacaq və qurub yaradacağıq. Azərbaycan xalqı qurucu xalqdır və əminliklə demək olar ki, həmin ərazilərə qayıdan soydaşlarımız çox tez bir zamanda işğaldan azad edilən torpaqları dünyanın ən çiçəklənən diyarlarına çevirəcəklər. Həmin ərazilərdə turist axınına səbəb olacaq məkanlar inşa ediləcək.

Qubadlı rayonunun geoiqtisadi və geosiyasi baxımdan mühüm əhəmiyyətə malik olduğunu deyən İlyas Hüseynov bildirib ki, bu istiqamətdə aparılan uğurlu hərbi əməliyyatlar böyük Qələbəmizdə əsaslı rol oynadı. “Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu tarix yazdı. Qubadlı zəfəri hər il böyük fəxarət və qürur hissi ilə xatırlanacaq. Azərbaycan Ordusu 2020-ci ildə qazandığı tarixi Qələbə nəticəsində təqvimdə olan işğal günlərini zəfər günləri ilə əvəzlədi. Buna görə şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə bir ömür minnətdarlıq hissi duyuruq. Sevindirici haldır ki, gələcək nəsillər, məktəblilər Zəfər tarixini öyrənərək böyüyəcəklər. Möhtəşəm Qələbəmizin qəhrəmanları, onların şücaəti silsilə şəkildə gələcək nəsillərə ötürüləcək”, - deyə politoloq fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2021, 30 oktyabr**

**Prezident: Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı, Hadrut və Suqovuşanın Baş planları hazırlanmalıdır**

Bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarımı bir daha vermək istəyirəm. Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib.

“Dövlətimizin başçısı deyib: Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir”.

**AZƏRTAC**
**2022, 12 aprel**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Qubadlı rayonlarına səfər ediblər**

*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl və Qubadlı rayonlarına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin açılışında iştirak edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin layihəsi ilə tanış olublar. Dövlətimizin başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 ceyranın buraxılması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı Cəbrayıl Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, 330/110 kilovoltluq beynəlxalq “Cəbrayıl" Qovşaq Yarımstansiyasında aparılan tikinti işləri ilə tanış olub.

Prezident İlham Əliyev Qubadlı rayonunda “Bərgüşadçay” və “Zabuxçay” su anbarlarının layihələri ilə tanış olub, Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub.

Dövlətimizin başçısına və birinci xanıma Qubadlı şəhərinin Baş planı təqdim olunub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlıda İşğal və Zəfər muzeylərinin təməlqoyma mərasimində iştirak ediblər.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Qubadlıda “Zabuxçay” və “Bərgüşadçay” su anbarlarının layihələri ilə tanışlıq**
*(19 oktyabr 2022-ci il)*

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonu ərazisində yaradılacaq “Zabuxçay” və “Bərgüşadçay” su anbarlarının layihələri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Zaur Mikayılov dövlətimizin başçısına layihələr barədə məlumat verdi.

Bildirildi ki, bu layihələr Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın 21-ci iclasında Zabuxçayın Həkəriçaya birləşdiyi yerdən aşağı hissədə su anbarının yaradılması və magistral boru kəmərinin tikintisi məqsədilə verilmiş tapşırıqların icrası olaraq ASC tərəfindən hazırlanıb.

Eyni zamanda, ASC tərəfindən Türkiyə Respublikasının “Suyapı” məsləhətçi şirkəti dəvət edilərək Zabuxçayın Həkəriçaya birləşdiyi yerdən aşağı hissədə su anbarının və ondan ayrılacaq magistral kanalların (Laçın-Qubadlı-Zəngilan) yaradılması məsələsi üzrə müvafiq araşdırmalar aparılaraq təkliflər hazırlanıb.

Araşdırmalar əsasında layihələrdə nəzərdə tutulan ümumi ərazisi 12 min 100 hektar olan əkin sahəsinə saniyədə 6,18 kubmetr suyun mütəmadi verilməsi üçün tutumu 26,7 milyon kubmetr olan su anbarının yaradılması daha münasib hesab edilib. Su anbarının hündürlüyü 40 metr, uzunluğu 615 metr olan torpaq bənddən yaradılması təklif edilib.

Eyni zamanda, Zabuxçay çayının suyunun yeni su anbarında tənzimləməklə uzunluğu 49 kilometr olan polad boru xətti ilə Qubadlı və Zəngilan rayonlarında yerləşən torpaq sahələrinə suyun verilməsi, eyni zamanda, layihədə subasar zonadan avtomobil yolunun kənarlaşdırılaraq yeni yolun çəkilməsi və bəndyanı Su Elektrik Stansiyasının tikilməsi nəzərdə tutulur.

Nəticə etibarilə, Qubadlı və Zəngilan rayonları ərazisində “Dost Aqro” şirkətinin 1900 hektar, “Azərsun” MMC-nin 3300 hektar, “AzərAqrar” şirkətinin 2500 hektar, “Aqrovay” şirkətinin 2700 hektar, “Dost Ziraat Heyvandarlıq” şirkətinin 1700 hektar əkin sahəsi suvarma suyu ilə təmin oluna bilər.

Qeyd edildi ki, Bərgüşadçay su anbarının yeri isə topoqrafik və mürəkkəb geoloji şərait nəzərə alınmaqla ən optimal variant olaraq Qubadlı şəhərindən yuxarıda - Bəxtiyarlı kəndinin yaxınlığında yaradılması təklifi qəbul edilib.

Ümumi sututumu 67 milyon kubmetr olan bu su anbarı vasitəsilə Qubadlı rayonu ərazisində 12 min hektar sahənin suvarma suyu ilə təmin edilməsinin və açıq kanal, yaxud təzyiqli boru vasitəsilə “Qız Qalası” hidroqovşağından su götürəcək magistral kanalın qidalandırılması üçün isə saniyədə 10 kubmetr suyun verilməsinin mümkünlüyü müəyyən edilib. Su anbarından suyun təzyiqli boru kəməri ilə veriləcəyi halda ümumi gücü 30 meqavat olan 3 Su Elektrik Stansiyasının quraşdırılması mümkün olacaq.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Qubadlıda 35 kilovoltluq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub**
*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qubadlıda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı yarımstansiya və idarəetmə mərkəzinin təməlini qoydu.

Qeyd edək ki, Qubadlı şəhərində inşa ediləcək Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq "Qubadlı" yarımstansiyasından qidalanacaq. Mərkəz Qubadlı şəhərinin elektrik enerjisinə tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarə edilməsini həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində müasir dispetçer idarəetmə sistemi və rəqəmsal şəbəkə modeli tətbiq ediləcək.

"Qubadlı şəhər" 35/0,4 kilovoltluq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi ilə "Cəbrayıl şəhər" 35/0,4 kilovoltluq yarımstansiya əlaqələndirmə xətləri qurulmaqla, "Hadrut" qovşaq yarımstansiyaları arasında dairəvi təchizat sxemi təmin ediləcək. Eyni zamanda, "Qubadlı şəhər" və "Cəbrayıl şəhər" 35/0,4 kilovoltluq yarımstansiyaları arasında nəzərdə tutulmuş ikidövrəli kabel xəttinin çəkilməsi ilə Qubadlı və Cəbrayıl şəhərlərinin qarşılıqlı enerji mübadiləsi təmin olunacaq.

Qubadlı Rəqəmsal İdarəetmə Mərkəzində "Yaşıl Enerji" mənbələrinin qurulması nəzərdə tutulub. Mərkəzin dispetçer idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə işləmək imkanına malik olacaq.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar**
*(19 oktyabr 2022-ci il)*

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma Qubadlı şəhərinin Baş planı barədə məlumat verdi.

Bildirildi ki, Baş plan bu sahədə böyük təcrübəyə malik İsveçrənin "S.A_Partners" şirkəti və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla, kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Baş planın əsasında insanların yenidən təbiətlə qovuşması, komfortlu qonşuluq ərazilərinin təşkili, canlı rayon mərkəzi və sakit hərəkət strategiyaları dayanır. Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, piyada əlçatanlığı nəzərə alınmış, çoxfunksiyalı zonaların, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilib. Baş planda şəhərin gündəlik həyat dinamikasını təmin etmək üçün müxtəlif zonalar arasında sıx bağlantıların təşkilinə xüsusi önəm verilib və bu məqsədlə əsas mərkəzi hissədə su kanalı boyunca piyada küçəsi, istirahət yerləri və interaktiv məkanlar nəzərdə tutulub. Sənədin başlıca konseptual əsaslarından olan nəqliyyat strategiyası isə aşağı sürətli hərəkət prinsipi üzərində qurulub. Şəhərdə piyada hərəkətinin prioritet olduğu küçələr, ictimai nəqliyyatın mübadilə mərkəzi və parklanma üçün ərazilər müəyyən edilib.

Baş plana əsasən şəhərin mərkəzi hissəsində evləri, iş yerlərini, istirahət, əyləncə və mədəni fəaliyyəti, sosial obyektləri bir mühitdə cəmləyən əlverişli şəraitin yaradılması planlaşdırılır. Şəhər üzrə tikinti sıxlığı mərkəzdən kənarlara doğru azalacaq. Orta mərtəbəli çoxmənzilli yaşayış binaları və ictimai tikililər mərkəzi hissədə, daha kənarlara doğru isə azmərtəbəli binalar və həyətyanı sahələrə malik fərdi evlər yerləşdiriləcək. Şəhərin planlaşdırılması zamanı tətbiq edilmiş su ilə qovuşan və suya həssas şəhər ("Sponge city") yanaşması yağıntıların şəhər mühitinə mənfi təsirinin azaldılmasını, su təchizatı üçün optimal həllərin təşkilini, habelə su ehtiyatlarından səmərəli istifadəni özündə ehtiva edir. Nəticədə şəhərin biomüxtəlifliyi üçün münbit şəraitin yaradılması və Qubadlının göz oxşayan yaşıl bir məkana çevrilməsi nəzərdə tutulur.

Şəhər ərazisində ümumi məşğulluğun təmin edilməsi bir neçə istiqamətdə aparılacaq. Yaxın 20 illik perspektiv üçün Qubadlıda bitkiçilik və ekoloji kənd təsərrüfatı, balıqçılıq və balıqyetişdirmə, müasir sənətkarlıq, yüngül sənaye, təbiət əsaslı aqroturizm və digər sahələrin inkişafı planlaşdırılır. Beləliklə, şəhərin memarlıq simasının formalaşmasında müasir və ənənəvi elementlərin vəhdətindən istifadə ediləcək, yaşıl şəhər obrazı yaradılacaq.

Qubadlı İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək. Bu ərazi çox strateji mövqedədir, əsas yol şəbəkəsinə və nəqliyyat qovşağına yaxındır. Həmçinin Həkəri çayını əhatə edən təbii yaşıllıq zolağının bir hissəsi kompleksin ərazisinin şimal hissəsini təşkil edəcək, bu da öz növbəsində kompleksin heyrətamiz təbii mühitdə inşasına imkan yaradacaq. Çayın bir hissəsi kompleksin ərazisindən keçdiyi üçün Zəfər Muzeyi və İşğal Muzeyinin gözəl mənzərəli körpü vasitəsilə simvolik olaraq bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur.

Həkəri çayı üzərində salınan Laləzar körpüsü kimi bir çox qədim körpülər və Qubadlı ərazisində aşkarlanan daş qoç fiqurlarında təsvir olunan spiralvari buynuzlar layihə konsepsiyasının əsas ilham mənbəyini təşkil edir. İşğal Muzeyinin binası kiçik çayın sağ sahilindən yüksələn spiralvari yoldan başlayır. Bu yol binanın sahəsi boyunca spiral şəklində fırlanır, sonra çayın üzərindən davam edərək gözəl mənzərəli körpüyə çevrilir və çayın sol sahilində Zəfər Muzeyinə birləşərək spiralvari pilləkəndə tamamlanır.

Qubadlı İşğal Muzeyinin interyeri binanın spiralvari forması ilə səciyyələnir. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaqdır. Muzeydə işğala qədər Qubadlıda əhalinin gündəlik həyatı, şəhərin işğalı və həmin hadisələrin şahidlərinin xatirələri, dağıdılmış irs və işğaldan sonra ərazinin məruz qaldığı vandallıq əyani olaraq nümayiş etdiriləcək. Muzey binasının sonuncu mərtəbəsində isə ziyarətçilərin istirahəti üçün yaşıllıqlardan ibarət terras təşkil olunacaq.

Zəfər Muzeyinin interyeri də dairəvi formada olacaq. Birinci mərtəbədə yerləşən sərgi zalları xalqımızın göstərdiyi qəhrəmanlıq və qazanılan Zəfərə, o cümlədən "Dəmir yumruq" əməliyyatına həsr olunacaq. İkinci mərtəbədə vizual texnologiyalar vasitəsilə Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsini əbədiləşdirən və qəhrəmanlarımız haqqında məlumatların təqdim olunduğu ekspozisiya yaradılacaq. Həmçinin muzeydə müxtəlif sərgilərin keçirilməsi üçün xüsusi zal fəaliyyət göstərəcək. Buradan ziyarətçilər həm pilləkənlə, həm də lift vasitəsilə üst mərtəbədə yerləşən və müxtəlif mədəni tədbirlərin təşkili üçün nəzərdə tutulan açıq səma altındakı amfiteatra qalxa biləcəklər.

Bu muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən, haqq səsimizi dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydular.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Anar Məmmədov: Qubadlının yenidən qurulacağı, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdacaqları gün uzaqda deyil**

Oktyabrın 25-də Qubadlı şəhərinin işğaldan azad edilməsinin 2 ili tamam olur. Qubadlının azad edilməsi Azərbaycan Ordusunun Vətən müharibəsində keçirdiyi ən uğurlu hərbi əməliyyatlardan biri hesab olunur. Qubadlı istiqamətində gedən döyüşlərdə düşmənin çoxlu sayda texnikasını məhv edən ordumuz müxtəlif texnikalar ələ keçirməklə ondan sonrakı döyüşlərdə işğalçı orduya qarşı istifadə etdi. Qubadlının azad edilməsi Ordumuzun hücum əməliyyatları zolağını kifayət qədər genişləndirməsi ilə nəticələndi. Qoşunlarımızın irəliləməsi üçün Hadrut-Şuşa istiqamətində isə kifayət qədər geniş şərait yarandı, Laçın istiqamətinə yol açıldı. Laçın dəhlizini tam atəş nəzarətində saxlamağa nail olundu və Laçının cənub hissəsində yerləşən ərazilərimizi də azad etdik. Beləliklə də Laçın dəhlizi bizim nəzarətimizə keçdi və bu, müharibənin taleyinin həll edilməsi demək idi. Çünki düşmən ehtiyatlarının Qarabağa daşınmasını və düşmən bölmələrinin Qarabağ daxilində manevr etmək imkanı tam məhdudlaşdırıldı. Laçın dəhlizinin bağlanması isə xüsusilə Şuşanın azad edilməsi üçün həyata keçirilən döyüş əməliyyatlarının taleyini əvvəlcədən həll etdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Anar Məmmədov deyib.

Deputat bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qəhrəman əsgərlərimizin şücaəti və xalqımızın birmənalı dəstəyi sayəsində xalqımız Qubadlının işğal tarixini deyil, artıq onun işğaldan azad edilməsi tarixini qeyd edir. Qubadlının işğaldan azad olunması həm də Ermənistanın cinayətlərinin də üstünü açdı. Şəhər işğaldan azad ediləndən sonra məlum oldu ki, ermənilər Xanlıqda hərbi istehkam, hərbi baza qurublar. Eyni zamanda, xaricdən gələn ermənilər üçün elə xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salmışdılar. Bununla belə, Xanlıq kəndində qanunsuz məskunlaşma aparmış, xaricdən gətirilən erməniləri burada qanunsuz yollarla yerləşdirmişdilər. Bu da əlbəttə ki, müharibə cinayəti sayılır.

Bu gün işğaldan azad edilmiş ərazilərimizdə sürətli bərpa-quruculuq işlərinin aparıldığını diqqətə çatdıran A.Məmmədov mənfur düşmənin əsarətindən xilas olan bütün yurd yerlərimizə yenidən həyatın qayıtdığını qeyd edib. Düşmən üzərindəki tarixi qələbəmizdən sonra dövlətimizin başçısı dəfələrlə işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı bildirir ki, Qarabağda bütün infrastruktur bərpa olunacaq. “Prezidentimizin işğaldan azad olunmuş ərazilərə hər səfəri tarixi hadisədir. Ötən il Qubadlının azad olunmasının bir ili münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva azad olunmuş ərazilərimizə səfər etdi. Rayon ictimaiyyəti nümayəndələri ilə görüşdə hazırda Qubadlıda görülən işlər və gələcək planlarla barədə danışıldı. İşğaldan azad edilmiş ərazilərimizin, o cümlədən Qubadlının yenidən qurulacağı, tezliklə soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıdacaqları gün uzaqda deyil. Qarabağ və Şərqi Zəngəzurun ən gözəl guşələrindən olan Qubadlı da tezliklə bərpa olunacaq, öz yurdlarından köçkün düşmüş insanlar doğma evlərinə qayıdacaqlar.

**AZƏRTAC**
**2022, 24 oktyabr**

## Çingiz Qənizadə: Qubadlı şəhərinin azad edilməsi böyük Qələbəni yaxınlaşdırdı

İyirmi yeddi il idi ki, xalqımız torpaqlarımızın işğaldan azad olunacağı günü böyük səbirsizliklə gözləyirdi. Doğma ata-baba yurdlarından didərgin salınmış soydaşlarımız haqlı olaraq deyirdilər ki, onlar məcburi köçkün adını daşımağa xəcalət çəkirlər. Soydaşlarımız doğma yurd həsrəti ilə sızıldayırdılar. Söz yox ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində dədə-baba yurdlarından didərgin salınmış soydaşlarımız üçün hər cür şərait yaradılmışdı. Ancaq onlar isti ocaqlarını heç nəyə dəyişmək istəmirdilər. İsrarla doğma el-obalarına qayıtmaq istəyirdilər. Torpaqlarımızın 20 faizinin düşmən və işğalçı Ermənistanın tapdağı altında qalmasına dözə bilmirdilər. Xalqımız Xankəndi, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan kimi cənnət guşələrimizin işğaldan azad olunacağı günü səbirsizliklə gözləyirdi. Nəhayət, illərdir arzusunda olduğumuz o günlər gəldi. Prezident, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti, qardaş ölkələr olan Türkiyə və Pakistanın dəstəyi və ən əsas müzəffər Ordumuzun şücaəti sayəsində həsrətində olduğumuz doğma torpaqlarımızda bayrağımız dalğalandı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib.

Komitə sədri deyib ki, uzun illərdir mənfur düşmənin işğalı altında olan gözəl guşələrimizdən biri də Qubadlı rayonu idi. Artıq iki ildir Qubadlı rayonu işğaldan azad edilib. Qubadlı dəfələrlə Ermənistanın işğalçı qüvvələrinin hücumlarına məruz qalıb. Bu dövrdə bütövlükdə Zəngəzurla birlikdə Qubadlının kəndləri yandırılmış, dinc əhaliyə divan tutulub. Bununla belə çətinlik və əzablara baxmayaraq, hər dəfə erməni qoşunları torpağımızdan qovulub. Sonuncu dəfə Qubadlı rayonu 1993-cü il avqustun 31-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal nəticəsində rayondan 29 min 997 nəfər məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti yerləşdirilib, 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekti, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış və yararsız vəziyyətə salınıb. 1080 kənd təsərrüfatı obyekti, 650 kilometr avtomobil yolu, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 kilometr elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 dəyirman, 4 su nasos stansiyası, 120 elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılıb.

Hüquq müdafiəçisinin sözlərinə görə, ermənilər çox yaxşı bilirdilər ki, Qubadlı faydalı qazıntı ehtiyatlarına malikdir. İşğaldan öncə Qubadlıda 13 min 160 hektar meşə sahəsi olub. Rayonun ərazisi təbii dərman bitkiləri ilə də zəngindir. Qubadlı rayonunun Hacılı kəndində mişar daşı yatağı, Bərgüşad çayının sol sahilində yəşəm yatağı, Əliquluuşağı, Qundanlı, Muradxanlı və Başarat kəndlərində mərmərləşmiş əhəng daşı yataqları, o cümlədən Mollabürhan kəndinin cənubunda tuf daş yatağı, Xanlıq kəndində qum-gil yatağı, Eyvazlı kəndində əqiq yatağı mövcuddur. İşğalçı Ermənistan Qubadlının yaşayış məntəqələrini darmadağın etsə də, bu cinayətinə görə Azərbaycan Ordusu qarşısında cavab verməli oldu.

Ç.Qənizadə deyib ki, müharibə başlayandan hər gün rəşadətli Ordumuz irəliyə getdi, yaşayış məntəqələrimizi bir-birinin ardınca işğaldan azad etdi: “Artıq xalqımız Prezident, Ali Baş Komandan İlham Əliyevin qələbə soraqlı müraciətlərinə adət etmişdi. Hər gün televiziya ekranı qarşısında oturub Ali Baş Komandanın yeni müraciətini səbirsizliklə gözləyirdi. Belə şad müjdədən biri də 2020-ci il oktyabrın 26-da verildi. Prezident İlham Əliyev xalqa etdiyi müraciətində Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan yaşayış məntəqələrinin və Qubadlı şəhərinin Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunduğunu elan etdi.

Komitə sədri deyib ki, 2020-ci il dekabrın 23-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında səfərdə olmaları, ölkə Prezidentinin Qubadlıda Azərbaycan bayrağını ucaltması dünyaya ciddi mesaj oldu: “Qarabağ Azərbaycandır!”

Ç.Qənizadə hazırda Qubadlının yeni inkişaf dövrünə qədəm qoyduğunu bildirib. O deyib ki, Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı praktiki işlər aparılır. Rayonun bütün kəndləri, o cümlədən Qubadlı şəhəri yenidən qurulacaq. Baş plan ən müasir normalara uyğun olacaq. Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq.

“Azad edilmiş torpaqlarda artıq yeddi yarımstansiya inşa olunub. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədər olan inkişaf dinamikasını nəzərə alır. Sovet vaxtında Qubadlı rayonunun ümumi enerji istehlakı 12 meqavat idi. Ancaq inşa olunacaq yarımstansiya 40 meqavata hesablanıb və lazım olarsa, onun gücü iki dəfə artırıla bilər. Hazırda Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkilir. Burada istehsal olunacaq məhsulları bazarlara vaxtlı-vaxtında, itkisiz çatdırmaq üçün əlavə imkanlar yaranacaqdır. Yaxın illərdə Qubadlı rayonu əvvəlkindən də cəlbedici olacaq”, - deyə Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri vurğulayıb.

**AZƏRTAC**

2022, 25 oktyabr

**Düşmən işğalından azad edilən Qubadlı bu gün yeni inkişaf dövrünü yaşayır**

1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və dağıntılara məruz qalmış Qubadlı rayonu 27 ildən sonra azad edildi. Bu gün həmin tarixə bir daha nəzər saldıqda bəlli olur ki, 2020-ci il oktyabrın 15-i 44 günlük Vətən müharibəsinin gedişatında əhəmiyyətli dönüş nöqtəsi oldu. Zəngilan şəhəri işğaldan azad olunduqdan sonra növbəti istiqamət Qubadlı rayonuna idi. Bunu işğalçı Ermənistan silahlı qruplaşmaları da bildiklərindən şəhərdə güclü istehkamlar qurmuşdular. Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov deyib.

R.Vəlibəyov bildirib ki, Azərbaycan Ordusu fədakarlıq göstərərək həmin yüksəklikləri götürdü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri və strateji yüksəkliklər azad olundu. Nəhayət, oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələri şəhəri düşməndən təmizlədi. Ümumilikdə, Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək Qubadlı şəhəri və rayonun 41 kəndi azad olundu. Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş 15209 hərbi qulluqçu isə Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə “Qubadlının azad olunmasına görə” medalı ilə təltif edildi.

Onun sözlərinə görə, Qubadlı şəhərinin işğaldan azad edilməsi böyük Qələbəni yaxınlaşdırırdı. Qubadlının işğaldan azad olunması həm də Ermənistanın cinayətlərinin də üstünü açdı. Şəhər işğaldan azad ediləndən sonra məlum oldu ki, ermənilər Xanlıqda hərbi istehkam, hərbi baza qurublar. Eyni zamanda, xaricdən gələn ermənilər üçün elə xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salmışdılar. Halbuki Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Əlbəttə ki, Ermənistan bu cür cinayət əməllərinə görə də beynəlxalq hüquq qarşısında cavab verməlidir.

“İki il öncə işğaldan azad olunmuş Qubadlı bu gün yeni inkişaf dövrünü yaşayır”, - deyən Ramil Vəlibəyov Qubadlı rayonunun bütün kəndlərinin, o cümlədən Qubadlı şəhərinin yenidən qurulacağını bildirib. “Hazırda azad edilmiş torpaqlarda artıq yeddi yarımstansiya inşa olunub. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır. Sovet vaxtında Qubadlı rayonunun ümumi enerji istehlakı 12 meqavat idi. Ancaq inşa olunacaq yarımstansiya 40 meqavata hesablanıb və lazım olarsa, onun gücü iki dəfə artırıla bilər. Eləcə də Qubadlıda çəkilmiş dördzolaqlı yol Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcək”, - Ramil Vəlibəyov qeyd edib.

**AZƏRTAC**
**2022, 25 oktyabr**

**Azərbaycanda akkreditə olunan diplomatlar və hərbi attaşelər Zəngilan və Qubadlıya səfər ediblər**

Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpusun üzvləri, o cümlədən hərbi attaşelər dekabrın 10-da Zəngilan və Qubadlı rayonlarına səfər ediblər.

Səfərdə iqamətgahı Bakı və Ankarada yerləşən 70-ə yaxın səfirlik və 10-dan çox beynəlxalq təşkilatın nümayəndələri - səfirlər, rəhbər şəxslər və digər diplomatlar, hərbi attaşelər, həmçinin Türkiyənin müvafiq dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, ümumilikdə 150-yə yaxın iştirakçı Bakı və Ankara şəhərlərindən təyyarələrlə Zəngilan Beynəlxalq Hava Limanına gəliblər.

Qeyd edək ki, Ankaradan eniş edən təyyarə, oktyabrın 20-də Azərbaycan və Türkiyənin dövlət başçıları tərəfindən rəsmi açılışı olan Zəngilan Beynəlxalq Hava Limanına gələn ilk beynəlxalq sərnişin reysi kimi tarixə düşüb.

Digər tarixi ilk isə viza prosedurları ilə bağlı olub. Belə ki, Zəngilan aeroportunun tarixində ilk dəfə olaraq xarici vətəndaşlara vizalar yerində "ASAN Viza" sistemi vasitəsilə rəsmiləşdirilib.

Diplomatlar və hərbi attaşelər əvvəlcə Zəngilan Beynəlxalq Hava Limanı ilə tanış olublar. Hava limanının direktoru Vüqar Həsənov qonaqlara aeroport haqqında məlumat verib.

Səfər Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamına əsasən, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülmüş işlər və qarşıda duran planlara dair brifinqlə davam edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Zəngilan və Qubadlı rayonlarının tarixi, demoqrafik vəziyyəti, strateji əhəmiyyəti və iqtisadi potensialı, Ermənistanın 30 ilə yaxın hərbi işğalı nəticəsində vurulmuş ziyan haqqında ətraflı məlumat verib. Hikmət Hacıyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən işğaldan azad olunduqdan sonra burada həyata keçirilən irimiqyaslı bərpa və yenidənqurma işləri barədə danışıb, mina problemi, Zəngəzur dəhlizi və Azərbaycanın sülh gündəliyi kimi məsələlər üzrə ölkəmizin mövqeyini diqqətə çatdırıb.

Daha sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Zəngilan və Qubadlı şəhərlərinin baş planları barədə təqdimatla çıxış edib.

Digər çıxış edənlər - Azərbaycan Respublikası Prezidentinin Zəngilan, Qarabağ və Şuşada xüsusi nümayəndələri Vahid Hacıyev, Emin Hüseynov və Aydın Kərimov qonaqlara görülən işlər barədə məlumat veriblər.

Brifinqdən sonra iştirakçılar Zəngilan şəhərinə yola düşüblər. Yolüstü Oxçuçayın keçdiyi ərazidə onlara Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi tərəfindən Ermənistanın və bir sıra əcnəbi şirkətlərin məqsədyönlü şəkildə çaya tullantılar buraxmaqla törətdiyi ekoloji terror, vurulmuş ziyan barədə məlumat verilib.

Zəngilan şəhərində iştirakçılar Ermənistanın törətdiyi dağıntıların miqyası və hazırda həyata keçirilən bərpa və yenidənqurma işləri, o cümlədən Heydər Əliyev Fondu tərəfindən inşa edilən yeni məscid, habelə ilk yaşayış binası, məktəb və digər layihələrlə yaxından tanış olublar.

Daha sonra Zəngilan rayonunun Ağalı kəndinə gələn xarici qonaqlara "Ağıllı kənd" layihəsi, kənd infrastrukturu, Arximed turbini tipli Su Elektrik Stansiyası barədə məlumat verilib.

Səfər Qubadlı şəhərində davam etdirilib. Qubadlıda qonaqlar Ermənistanın viran qoyduğu şəhərdə aparılan bərpa və yenidənqurma işləri ilə tanış olub, şəhər mərkəzinə və həyata keçirilən infrastruktur layihələrinə baxıblar.

Sonda səfərdə iştirak edən səfirlər və rəhbər şəxslər, diplomatik korpusun digər üzvləri və hərbi attaşelər, habelə Türkiyə Respublikasının dövlət qurumlarının nümayəndələri Zəngilan Beynəlxalq Hava Limanından xüsusi çarter reysləri ilə Bakı və Ankara şəhərlərinə yola salınıblar.

**AZƏRTAC**
**2022, 10 dekabr**

## Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi təyin olunub - Sərəncam

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, Vahid Rasim oğlu Hacıyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi təyin olunub.

Qeyd edək ki, bundan əvvəl o, Prezidentin Zəngilanda xüsusi nümayəndəsi vəzifəsində çalışırdı.

**AZƏRTAC**
**2022, 30 dekabr**

**Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub**
*(4 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Məhəllə şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Mənzillərdən 48-nin ikiotaqlı, 68-nin üçotaqlı, 20-sinin dördotaqlı və 20-sinin isə beşotaqlı olması planlaşdırılır. Binaların inşasında müasir memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq.

Məhəllədə idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Dövlətimizin başçısı Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Prezident İlham Əliyev Qubadlı şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib**
*(4 may 2023-cü il)*

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati bina şəhərin giriş hissəsində, Baş plana əsasən işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Binanın konsepsiyasının hazırlanması zamanı milli memarlıq elementləri, yaşıl fasad və dam həlləri, həmçinin günəş panellərinin inteqrasiyası nəzərə alınıb. Üçmərtəbəli binada avtomobillər üçün yeraltı parklanma nəzərdə tutulub. Binanın daxili planlaşdırılması müxtəlif mərtəbələrin vizual şəkildə əlaqələnməsini təmin edir. Bu yanaşma dinamik və müasir tələblərə cavab verən işgüzar mühitin formalaşmasına şərait yaradacaq.

Binanın birinci mərtəbəsi müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri üçün nəzərdə tutulub. Burada, həmçinin bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələri fəaliyyət göstərəcək. İkinci və üçüncü mərtəbələrdə isə müxtəlif kateqoriyalara uyğun iş sahələrinin yaradılması planlaşdırılıb.

İnzibati binanın inşasında metal konstruksiyalardan istifadə olunacaq. Fasad həlli və yastı dam günəş panellərinin quraşdırılması, həmçinin yaşıl elementlərin orqanik şəkildə inteqrasiya olunmasına imkan verəcək.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Qubadlı şəhərində 600 şagird yerlik məktəb binası tikiləcək**
*(4 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində 600 şagird yerlik tam orta məktəb binasının təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına məktəb binası ilə bağlı məlumat verildi.

Bildirildi ki, məktəb Qubadlı şəhəri, Dondarlı kəndi və ona bitişik açıq ərazidə inşa olunacaq. Təhsil ocağı və ona məxsus açıq ərazilər yaşayış sahələri ilə əhatə olunacaq. Məktəbin həyətyanı ərazisindəki idman qurğularından və oyun meydançalarından axşamlar və həftə sonları ictimaiyyət nümayəndələri də istifadə edə biləcəklər.

Qeyd edildi ki, məktəb binası modul tipli sinif otaqlarından istifadə olunmaqla layihələndirilib. Təbii işıqla işıqlandırılmış daxili məkanlar məktəbin enerji tələbatını minimuma endirəcək. Binanın strukturu uyğunlaşan sistemdir və şəhərin böyüməsi ilə bağlı şagird sayı artdıqca genişləndirilə bilər.

Dövlətimizin başçısı məktəb binasının təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının təməlinin qoyulması mərasimi keçirilib**
*(4 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına xəstəxana binasının layihəsi barədə məlumat verildi.

Bildirildi ki, 4,5 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsi inzibati binadan, stasionar və ambulator xidmət hissələrindən ibarət olacaq. Stasionar xidmət hissəsində qəbul, terapiya, cərrahiyyə, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından ibarət olacaq.

Müalicə ocağı ən müasir tələblərə cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiya, maqnit-rezonans tomoqrafiya, angioqrafiya və digər cihazlarla təchiz ediləcək.

Prezident İlham Əliyev xəstəxana binasının təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Qubadlı rayonunun Xanlıq kəndinin təməli qoyulub**
*(4 may 2023-cü il)*

Mayın 4-də Qubadlı rayonunun Xanlıq kəndinin təməli qoyulub

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi elə Xanlıq kəndinin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur.

Qeyd edildi ki, birinci mərhələdə kəndə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur. İnşa ediləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Perspektivdə Xanlıq kəndində 4 mindən çox sakinin (1024 ailə) məskunlaşdırılması planlaşdırılıb.

Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Həmçinin inzibati bina, məktəb, uşaq bağçası, ailə sağlamlıq, klub icma və idman sağlamlıq mərkəzləri fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev Xanlıq kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Qubadlı rayonunda təməli qoyulan növbəti kənd – Mahruzlu**
*(4 may 2023-cü il)*

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonunun Mahruzlu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kəndin layihəsi barədə məlumat verildi.

Qeyd olundu ki, kənd Qubadlı rayonunun mərkəzindən 19 kilometr məsafədə yerləşir. Kəndin layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Gələcəkdə bu kənddə 2700-dən çox sakinin, başqa sözlə, 690 ailənin yaşaması planlaşdırılıb. Mahruzlu kənd inzibati ərazi dairəsində yerləşən Alaqurşaq və Muğanlı kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Birinci fazada kənddə 145 evin tikilməsi və 649 nəfərin məskunlaşdırılması planlaşdırılır. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi, çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, sənətkarlıq emalatxanası, tibb məntəqəsi, mərasim zalı, çayxana da yaradılacaq.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.

Sonra kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Prezident İlham Əliyev Mahruzlu kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Qubadlı rayonunun Zilanlı kəndində birinci mərhələdə 159 ev tikiləcək**
*(4 may 2023-cü il)*

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonunun Zilanlı kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Diqqətə çatdırıldı ki, kənd Qubadlı rayonunun mərkəzindən 20 kilometr məsafədə, Həkəri və Bərgüşad çaylarının qovuşduğu ərazidə yerləşir. Zilanlı Zəngilan rayonunun Ağalı kəndi ilə qonşudur. Kəndin layihələndirilən ümumi ərazisi 180 hektardır. Birinci mərhələdə burada 159 evin tikintisi və 772 nəfərin məskunlaşdırılması nəzərdə tutulub. Tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Gələcəkdə bu kənddə 2520 nəfərin (630 ailə) yaşaması planlaşdırılıb. Zilanlı kənd inzibati ərazi dairəsində yerləşən Kürd Mahmudlu və Seləli kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib.

Kənddə məktəb binası, uşaq bağçası, ailə sağlamlıq mərkəzi, inzibati bina, klub icma və idman mərkəzləri yaradılacaq. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq.

Dövlətimizin başçısı kəndin inkişaf planı barədə videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Zilanlı kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub**

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Sənədə əsasən, 26 avqust – Laçın şəhəri günü, 4 oktyabr – Cəbrayıl şəhəri günü, 17 oktyabr – Füzuli şəhəri günü, 20 oktyabr – Zəngilan şəhəri günü, 25 oktyabr – Qubadlı şəhəri günü, 8 noyabr – Şuşa şəhəri günü, 20 noyabr – Ağdam şəhəri günü, 25 noyabr – Kəlbəcər şəhəri günü kimi hər il təntənəli şəkildə qeyd olunacaq.

Sərəncamda vurğulanır ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

"Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı", - deyə sənəddə qeyd olunub.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun hazırda yenidən qurulduğunun, ərazilərin minalardan təmizləndiyinin, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparıldığının vurğulandığı Sərəncamda deyilir: "Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir".

**AZƏRTAC**
**2023, 31 iyul**

**Qubadlının Teymur Muskanlı kənd tam orta məktəbində Bilik Günü qeyd olunub**

Sentyabrın 15-də Qubadlı rayon Teymur Muskanlı kənd tam orta məktəbində Bilik Günü qeyd olunub.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə məktəb rəhbərliyi və valideynlər çıxış ediblər. Çıxışlarda Bilik Gününün təsis tarixindən, həmçinin ölkəmizdə təhsilə göstərilən diqqət və qayğıdan danışılıb.

Çıxış edənlər bu il məktəb həyatına qədəm qoyan uşaqları təbrik edib, onların ölkəmizə və xalqımıza layiqli bir vətəndaş kimi yetişəcəklərinə əmin olduqlarını bildiriblər.

İlk zəng çalındıqdan sonra şagirdlər sinif otaqlarına daxil olublar.

**AZƏRTAC**
**2023, 15 sentyabr**

**Qubadlı və Zəngilanda aşkarlanan cəsəd qalıqları Ermənistanın cəzalandırılması üçün ciddi əsasdır**

Hərbi Prokurorluğun araşdırmaları erməni faşizminin xalqımıza qarşı yeni soyqırımı cinayətlərini üzə çıxarıb.

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının mətbuat katibi, jurnalist Seymur Əliyev bildirib.

O qeyd edib ki, Hərbi Prokurorluğun Qubadlı və Zəngilanda tapılan meyit qalıqları ilə bağlı apardığı araşdırmalar ermənilərin soyqırımı cinayətləri ilə bağlı tamamilə yeni və təkzibolunmaz faktlar üzə çıxarıb: "Qubadlı və Zəngilanda aşkarlanan kütləvi məzarlıqlarda aparılan araşdırmalar nəticəsində Birinci Qarabağ müharibəsi dövründə soydaşlarımızın ermənilər tərəfindən amansız işgəncələrə məruz qaldığı, vəhşicəsinə qətlə yetirildiyi əksini tapıb. Hərbi Prokurorluğun apardığı araşdırmalar nəticəsində məlum olub ki, işğal edilmiş bütün rayonlarımızda olduğu kimi, Qubadlı və Zəngilanda da ermənilər xalqımıza qarşı dəhşətli soyqırımları, insanlıq əleyhinə cinayətlər törədiblər. Bu faktlar Ermənistanın beynəlxalq qanun və konvensiyalar əsasında cəzalandırılması üçün ciddi əsasdır. Son araşdırmalar nəticəsində ortaya çıxan faktlar bir daha göstərir ki, ermənilərin xalqımıza qarşı soyqırımı siyasəti vaxtilə işğal altında saxladığı bütün rayonları əhatə edib və irimiqyaslı olub.

Ermənistanın beynəlxalq aləmdə ifşası və onun məsuliyyətə cəlb olunması üçün Hərbi Prokurorluğun ortaya qoyduğu hər bir faktdan yararlanmalı, erməni faşizminin qurbanı olan hər bir soydaşımıza görə İrəvanın qanun və ədalət qarşısında cavab verməsi üçün bütün imkanlardan istifadə olunmalıdır".

**AZƏRTAC**
**2023, 14 sentyabr**

**Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi sürətlə davam etdirilir**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 56.4 km təşkil edir. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər uzunluğu 14 km olan yeni avtomobil yolunun da inşası icra olunur. Yolların ümumi uzunluğu isə 70.4 km-dir.

Xudafərin-Qubadlı-Laçın avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla, 0-46.2 km-lik hissəsi I, 46.2-56.4 km-lik hissəsi isə II texniki dərəcəyə uyğun olaraq inşa olunur. Hazırda yolun genişləndirilərək profilə salınması və 21.5 metr enində yeni torpaq yatağının inşası həyata keçirilir. Yolun layihə üzrə hərəkət hissəsinin eni 16.5 metr təşkil edəcək.

Tikinti işləri çərçivəsində Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 20.4-56.4 km-lik hissəsində torpaq yatağı işləri davam etdirilir. Yol yatağı hazır olan 20.4 km-lik hissədə yol əsasının tikintisi işləri yekunlaşdırılıb və asfalt-beton örtüyünün döşənməsi işləri icra olunub. Yolun Xanlıq istiqamətində olan 14 km-lik hissəsində torpaq işləri, boru və keçidlərin, körpülərin, istinad divarlarının tikintisi, topoqrafiya və layihələndirmə işlərinin icrası davam edir. Sözügedən yolun ilk 11 km-lik hissəsi I, 11-14 km-lik hissəsi isə II texniki dərəcəyə uyğun tikilir.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə dairəvi borular və düzbucaqlı su keçidləri, əsas yolun 10, 22, 32 və 43-cü km-də, yanaşma yolun 35-ci km-də, həmçinin Qubadlı şəhərinə gedən avtomobil yolunun 1-ci km-də layihə üzrə nəzərdə tutulan körpülərin inşası aparılır. Körpülər üzrə artıq 42.5% işlərin icrası yekunlaşıb. Bundan başqa Xanlıq-Qubadlı yolu ilə kəsişmədə müxtəlif səviyyəli yol qovşağının tikintisi işləri də davam etdirilir. Artıq 81 dairəvi, 32 düzbucaqlı boru və 12 yeraltı keçid tikilib, 4796 metr istinad divarı da inşa olunub.

Layihə üzrə ümumi uzunluğu 2397 m-lik 7 tunelin inşası da nəzərdə tutulur. Hazırda T-1 tunelinin giriş və çıxış portalında qazma işləri bitib, betonlanma işləri görülür. T-2 tunelində qazma və qrunt bərkitmə işləri gedir, T-3 tunelinin girişi portalında işlər davam edir.

"İnşaat Norma və Qaydaları"na uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin şəxsi nəzarəti altında həyata keçirilən layihə üzrə 503.8 min kubmetr ərazidə bitki qatının çıxarılması, 6.9 milyon kubmetr həcmində qazma işləri aparılib, 3.2 milyon kubmetr həcmində isə dolğu işləri icra olunub.

Yeni avtomobil yolunun inşası tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla həyata keçirilir. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçən bu avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, sözügedən rayonların 30-dan artıq yaşayış məntəqəsini əhatə edir.

**AZƏRTAC**
**2023, 13 sentyabr**

**Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən ukraynalı Oleq Babakın Poltovada yaşayan ailəsinə yardım göstərilib**

Azərbaycan dövləti irqindən, milliyyətindən asılı olmayaraq, Vətənimizin bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçənlərin hər birinin xatirəsini əziz tutur, ailələrinə yardımlarını davam etdirir. Belə qəhrəmanlardan biri də 1991-ci ildə Qubadlı rayonunda mülki vətəndaşlarımızı erməni silahlılarından qoruyarkən həlak olan ukraynalı Oleq Babakdır.

AZƏRTAC xəbər verir ki, Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində Sovet İttifaqı Qəhrəmanı, Qubadlı rayonunda ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi növbəti dəfə anılıb. Azərbaycan Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesi Əziz Nuriyev Oleq Babakın Poltavada yaşayan valideynlərinə baş çəkib və yardım göstərib.

Əziz Nuriyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən dövlətimiz Oleq Babakın ailəsinə daim qayğı göstərir.

“Buraya gəlməyimizin məqsədi bir daha Azərbaycan dövlətinin dəstəyini, yardımını sizə çatdırmaqdır. Artıq Oleq Babakın ruhu da şaddır, çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Ordumuz işğal altındakı torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. İndi həmin ərazilərdə yenidənqurma və bərpa işləri aparılır”, - deyə Ə.Nuriyev əlavə edib.

O.Babakın anası Nadiya Babak AZƏRTAC-a açıqlamasında onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. “Azərbaycan dövləti bizə hər zaman yardım edir. Bu, bizə yaxşı yaşamağa kömək edir. Bizi unutmadığı üçün Azərbaycan dövlətinə təşəkkür edirəm”, - deyə Nadiya Babak bildirib.

Sonra Oleq Babakın məzarı ziyarət olunub, üzərinə tər çiçəklər düzülüb və onun xatirəsi ehtiramla yad edilib.

Qeyd edək ki, Oleq Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində doğulub. SSRİ-nin Daxili İşlər Nazirliyinin Daxili qoşunlarının xüsusi təyinatlı 21-ci briqadanın siyasi hazırlıq üzrə bölük komandirinin müavini olan Oleq Babak 1991-ci ilin mart ayından Azərbaycanın Qubadlı rayonunda ictimai asayişin qorunması tapşırıqlarını yerinə yetirib. 1991-ci il aprelin 7-də Qubadlının Yuxarı Cibikli kəndində yerli sakinlərin ermənilər tərəfindən öldürülməsi xəbəri yayılandan sonra 24 yaşlı Oleq Babak SSSR Daxili İşlər Nazirliyinin 21-ci briqadasının tərkibində hadisə yerinə göndərilir. Burada yerli kənd camaatı ilə birgə təxminən 70 nəfər erməni silahlısının mühasirəsinə düşür.

Ermənilərin yerli sakinləri təhvil verib geri çəkilmək tələbinə məhəl qoymayan 24 yaşlı ukraynalı leytenant bir nəfər də azərbaycanlının əsir düşməsinə imkan verməyərək, son gülləsinə qədər vuruşub və qəhrəmancasına həlak olub. Onun bu şücaəti nəticəsində yüzlərlə azərbaycanlının həyatı xilas olub.

SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının leytenantı Oleq Babak SSRİ prezidentinin 1991-ci il 17 sentyabr tarixli Fərmanı ilə ölümündən sonra “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görülüb.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Poltava**

**AZƏRTAC**
**2023, 27 iyul**

**Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə görüş keçirilib**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti tərəfindən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yenidən tikiləcək şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin sakinləri ilə görüşlər davam edir.

AZƏRTAC xəbər verir ki, növbəti görüş Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə keçirilib.

Belə görüşlərin əsas məqsədi ərazilərin tarixi, mədəni irsi və sosial dəyərləri, digər xüsusiyyətləri barədə ətraflı məlumat toplamaq və yaşayış yerlərinin yeni konsepsiyasını sakinlərə təqdim etməkdir.

Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə keçirilən görüşdə kənd sakinlərinə layihələndirilən ərazi barədə ətraflı məlumat təqdim olunmuş və onları maraqlandıran suallar cavablandırılıb. Bundan başqa, sakinlərin öz kəndləri barədə istək və təklifləri dinlənilib, onlarla fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2023, 25 iyul**

**Baş prokuror Laçın və Qubadlıda hərbi hissələrdə olub**

İyunun 22-də Baş prokuror Kamran Əliyev Laçın və Qubadlıda Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili Qoşunlara məxsus hərbi hissələrdə olub.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Baş prokuror əsgər və zabitlərlə görüş keçirib.

Baş prokuror Kamran Əliyev Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış hərbi-siyasi Zəfərin əhəmiyyətindən bəhs edib.

Sonra bir qrup hərbçiyə Silahlı Qüvvələr Günü münasibətilə qiymətli hədiyyələr təqdim olunub.

**AZƏRTAC**
**2023, 22 iyun**

**Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub**

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə dövlət torpaq kadastr uçotu işləri davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir bildirib ki, yerquruluşu işləri çərçivəsində indiyədək 718.406,5 hektar ərazidə çöl ölçmə işləri aparılıb. Zəngilan (70.860 hektar), Qubadlı (79.876 hektar), Kəlbəcər (195.406 hektar), Cəbrayıl (104.936,5 hektar) və Laçın (177.417 hektar) rayonları üzrə işlər yekunlaşdırılaraq müvafiq kadastr sisteminə miqrasiya olunub, Füzuli (45.636 hektar) və Ağdam (44.275 hektar) rayonları üzrə isə işlər aparılır.

**AZƏRTAC**
**2023, 18 oktyabr**

**Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2027-ci ilədək 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2022-2026-cı illər ərzində 24 kəndin tikilməsi planlaşdırılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Şərqi Zəngəzur İqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərov Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən "Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin Böyük Qayıdışa töhfələri" mövzusunda paneldə bildirib.

Onun sözlərinə görə, "Böyük Qayıdış"a dair 1-ci Dövlət Proqramına görə 2022-2026-cı illər ərzində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 3 şəhər mərkəzi, 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb.

İcraçı direktor qeyd edib ki, Böyük Qayıdışın ilk ünvanı sayılan Zəngilan rayonunun Ağalı kəndi artıq məskunlaşıb. Belə ki, kəndə 649 nəfərdən ibarət 133 ailə köçürülüb.

**AZƏRTAC**
**2023, 20 oktyabr**

**Qubadlının Xanlıq və Muradxanlı kəndlərinin ilkin konsepsiyası sakinlərə təqdim olunub**

İşğaldan azad olunan Qubadlı rayonunda yenidən tikintisi nəzərdə tutulan yaşayış məskənlərinin sakinləri ilə növbəti görüş keçirilib. Bu dəfə layihələndirmə prosesi davam edən Qubadlı rayonunun Xanlıq və Muradxanlı kəndlərinin ilkin konsepsiyası kənd sakinlərinə təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti tərəfindən təşkil edilib.

Tədbirin məqsədi kəndin tarixi, mədəni irsi və sosial dəyərləri, digər özəllikləri barədə ətraflı məlumat toplamaq və onun ilkin konsepsiyasını sakinlərə təqdim etməkdir.

Həmçinin, görüşdə kənd sakinlərini maraqlandıran suallar cavablandırılıb, onların istək və təklifləri dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**
**2023, 23 oktyabr**

**Qubadlının azad olunması Laçın və Şuşaya yol açdı**

*Yazı düzü yüksəkliyində Milli Qəhrəman Şükür Həmidovun şəhid olduğu yerdə onun xatirəsini əbədiləşdirən abidə ucaldılıb*














Vətən müharibəsinin 29-cu günündə şanlı Azərbaycan Ordusu üçrəngli Bayrağımızı işğaldan azad edilən Qubadlı şəhərində dalğalandırdı. Həmin tarixi Qələbənin üçüncü ilində Qubadlı şəhərinin azad olunmasına aparan yolu bir daha xatırlayaq.

AZƏRTAC xəbər verir ki, 44 günlük Zəfər yürüşü zamanı Cəbrayıl və Zəngilan rayonlarının azad edilməsi Şərqi Zəngəzurun qərb sərhədində dağlıq ərazidə yerləşən Qubadlıya gedən yolun açılmasına əlverişli imkan yaratdı.

Qubadlı şəhəri oktyabrın 25-də işğalçı qüvvələrin mühasirəyə salınması ilə azad edilib. Qubadlının şərqindəki Cəbrayılda düşmən qüvvələrinə sarsıdıcı zərbə vurulması və cənubdakı Zəngilanda aparılan uğurlu əməliyyatlar Azərbaycan Silahlı Qüvvələri bölmələrinin Qubadlı rayonunun inzibati hüdudlarına çıxmasına şərait yaratmışdı. Peşəkarlıqla və dəqiq döyüş taktikaları ilə aparılan hərbi əməliyyatlar zamanı Qubadlı şəhəri və kəndləri işğaldan azad edilib. Qubadlı döyüşlərinin ən gərgin getdiyi yerlərdən biri də məhz Yazı düzü yüksəkliyi olub. Hündürlükdəki ərazidə döyüş əməliyyatları məhz həmin hissədə aparılıb. Strateji mövqedəki bu yüksəkliyin digər xüsusiyyəti isə Milli Qəhrəman polkovnik Şükür Həmidovun burada şəhadətə ucalmasıdır. Ş.Həmidov bu mövqe uğrunda gedən gərgin döyüşlərdə düşmənlə mübarizə aparıb. Hazırda həmin yerdə Milli Qəhrəmanımızın xatirəsini əbədiləşdirmək üçün abidə ucaldılıb, şanlı Bayrağımız dalğalanır.

Bölmələrimiz Yazı düzünə Cəbrayıl rayonu istiqamətindən yarğanlar vasitəsilə irəliləyib və düşmənin 21 səngərini nəzarətə götürməklə, həm də Qubadlı şəhərinə nəzarəti ələ keçirib. Digər bölmələrimiz isə Zəngilan istiqamətindən irəliləyərək Qubadlı rayonu və ətraf kəndləri işğaldan azad ediblər. Oktyabrın 23-də həmin hərbi əməliyyatlar nəticəsində əvvəlcə Alaqurşaq, Kürd Mahruzlu, Muğanlı və Zilanlı kəndləri ordumuzun nəzarətinə

keçmişdi. Cəmi iki gün sonra – oktyabrın 25-də isə Qubadlı şəhəri, Çaytumas, Əfəndilər, Mollabürhan, Padar, Sarıyataq, Yusifbəyli və Xanlıq kəndləri işğalçılardan təmizlənib.

Düşmənin cəmləşdiyi Qubadlı şəhərinə iki istiqamətdən hücum olub. Bölmələrimiz tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilən döyüş tapşırığı nəticəsində əvvəlcə şəhər ətrafında yüksəkliklər, sonra şəhər işğalçılardan təmizlənib. Qubadlı əməliyyatı həm də Laçın dəhlizinə, eyni zamanda, Gorus-Qafan yoluna nəzarəti ələ almağa imkan verdi. Çünki Laçın dəhlizi düşmənin təminat yolu sayılırdı və erməni hərbi birləşmələri də bilirdi ki, Qubadlı strateji mövqedə yerləşir. Onların orada çox möhkəmlənməsinə baxmayaraq, Azərbaycan Ordusu qarşıya qoyulan döyüş tapşırığını ruh yüksəkliyi ilə yerinə yetirib, Qubadlını azad etməklə, həm də Laçına gedən yolu açıb və düşmənin əsas dayaq məntəqələrini məhv edib.

Hücum tapşırığı səhər saatlarında başlayıb və bölmələrimiz düşmənə xeyli yaxınlaşaraq döyüşə başlayıb. Bölmələrimiz Qubadlı-Laçın yolunu nəzarətə götürməli və yüksəkliyi tutmalı idi. Bu tapşırıq da uğurla icra edilib və düşmənin xeyli qüvvəsi zərərsizləşdirilib. Eyni zamanda, Zəngilan istiqamətində hücum nəticəsində düşmən tam mühasirəyə alınıb. İtki verən düşmən qüvvələri silah-sursat və texnikalarını ataraq qaçmağa başlayıb. Xeyli qənimət götürülüb. Bu uğurlu əməliyyat nəticəsində həm yüksəkliklər, həm Qubadlı şəhəri, həm də ətraf kəndlər ordumuzun nəzarətinə keçib, eyni zamanda, Qubadlı-Laçın yolunu da bağlamağa nail olunub.

Qubadlı ərazisi dağlıq və strateji mövqe olduğu üçün ermənilər buradan çıxmaq istəmirdilər. Bu baxımdan Qubadlı rayonuna iki istiqamətdən təşkil olunan hücum çox önəmli idi. Rəşadətli Ordumuz düşmənin güclü müqavimətini qıraraq Qubadlı şəhərini azad etdi. Əməliyyatın uğurla icrası nəticəsində Laçın dəhlizinə və Şuşa istiqamətinə gedən yol da açıldı.

Hazırda qalib Azərbaycan Ordusu azad Vətən torpaqlarının keşiyində dayanır. Vətəni müdafiə edən əsgər və zabitlərimiz üçün müasir tələblərə cavab verən hərbi hissələr, silah-sursatla təminat və gündəlik təminat yüksək səviyyədə təşkil edilib. Komandolarımız gündəlik rejimə uyğun olaraq idman, döyüş təlim tapşırığı yerinə yetirirlər.



Artıq üç ildir azad olan Qubadlıda həyat yenidən canlanır. Düşməndən təmizlənən ərazidə dövlətimiz tərəfindən bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Şərqi Zəngəzurun qərb hüdudu olan Qubadlıda tikinti işləri plan üzrə aparılır.

Prezident İlham Əliyev Qubadlı azad olunduqdan sonra rayona bir neçə dəfə səfər edib. Qubadlıda Azərbaycan Bayrağını ucaldan və şəhərin azad olunmasının önəmindən danışan dövlət başçısı deyib: "Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu".



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2021-ci il oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, rayonda Dövlət Sərhəd Xidmətinin (DSX) yeni hərbi hissə kompleksinin açılışında iştirak ediblər. Bildirilib ki, Azərbaycanın Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən DSX-nin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır.



Kompleksin döyüş texnikası parkında helikopterlər, "HAROP", "Quzğun" və "Qırğı" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Bununla yanaşı, hərbi hissənin istifadəsində döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri var. Beləliklə, bu hərbi hissədə xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi məqsədilə hərtərəfli şərait yaradılıb.



Ötən il oktyabrın 19-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar. İşğal və Zəfər muzeyləri kompleksi isə İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək. Bu muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən, haqq səsimizi dünyaya çatdıran təşviqat mərkəzinə çevriləcək. Zəfər Muzeyindəki sərgi zalları xalqımızın göstərdiyi qəhrəmanlıq və qazanılan Qələbəyə, o cümlədən "Dəmir yumruq" əməliyyatına həsr olunub. Vizual texnologiyalar vasitəsilə Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsini əbədiləşdirən və qəhrəmanlarımız haqqında məlumatların təqdim olunduğu ekspozisiya yaradılır.




Bu il mayın 4-də isə dövlətimizin başçısı Qubadlı rayonunun bir sıra kəndlərinin, o cümlədən Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib. Ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Təsdiqlənmiş Baş plana uyğun salınacaq məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur.

Qeyd edək ki, Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla, kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik,

eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin əhali sayının 14 min nəfərə çatdırılması, Qubadlıda ekoloji kənd təsərrüfatı, balıqçılıq, sənətkarlıq, aqroturizm və digər sahələrin inkişafı nəzərdə tutulur. Beləliklə, şəhərin memarlıq simasının formalaşmasında müasir və ənənəvi elementlərin vəhdətindən istifadə edilərək yaşıl şəhər yaradılacaq.



**AZƏRTAC**
**2023, 25 oktyabr**

**Polkovnik-leytenant: Qubadlının azad olunması düşməni nokdaun etdi**

2020-ci il sentyabrın 27-də səhər saatlarında Ermənistanın təxribatlarına qarşı Azərbaycanın əks-hücum əməliyyatı başlandı. Azərbaycan Ordusu yüksək döyüş səviyyəsinə gətirildi. Gürcüstan sərhədindən İran sərhədinədək və Naxçıvanın Ermənistanla sərhədi boyu bütün Silahlı Qüvvələr tam hazırlıq vəziyyətinə keçdi. Qismən səfərbərlik keçirildi və daha bir ordu birliyi formalaşdırılıb tam döyüş vəziyyətinə gətirildi. Komendant saatı elan edildi. İnternet və KİV nəzarətə götürüldü və məhdudiyyətlər tətbiq edildi. Hava məkanı bağlandı. Pandemiya ilə əlaqədar bağlanmış sərhədlərdə və ölkənin daxilində ictimai və siyasi intizam daha da möhkəmləndirildi. Beynəlxalq və daxili təbliğat-təşviqat fəaliyyəti gücləndirildi. Azərbaycan Ordusu Murovdağ silsiləsindən Araz sahilinədək cəbhə boyu hücuma keçdi, eyni zamanda, üç istiqamətdən Ermənistanın Qarabağda mövqelənmiş işğalçı ordusuna zərbə endirdi. Düşmənə bir zərbə Murovdağda, digər zərbə Ağdərədə, başqa zərbə də Füzulidə endirildi.

Ehtiyatda olan polkovnik-leytenant, Heydər Əliyev adına Hərbi İnstitutun baş müəllimi, hərbi ekspert Vüqar Əliyev AZƏRTAC-a müsahibəsində Vətən müharibəsinin ilk günlərini belə xatırlayır.

“Hərbi Hava Qüvvələrinin və Quru Qoşunlarının davamlı, sürətli, gizli idarəetmə və sinxronlaşdırılmış qarşılıqlı əlaqəli döyüşləri ilə bütün istiqamətlərdə müvəffəqiyyət əldə edildi. Mükəmməl düşünülmüş hərbi hiylə ilə texniki vasitələrlə düşməni aldadaraq havadan müdafiə vasitələri aşkarlandı və sıradan çıxarıldı. Azərbaycan Hərbi Hava Qüvvələri Qarabağ səmasında havada tam hakimiyyətə sahib oldu. Ermənistanın Xankəndi ilə şimaldan quru kommunikasiya əlaqəsi olan Zod-Xankəndi avtomagistralı Azərbaycan Ordusunun atəş nəzarətinə alındı. Düşmənin cəbhə boyu keçirdiyi bütün əks-həmlələri dəf edildi. Radioelektron mübarizə və rabitə vasitələri sıradan çıxarıldı və susduruldu, komanda məntəqələri darmadağın, yüksək çinli komanda heyəti məhv edildi. Düşmənin idarəetməsi pozuldu. Canlı qüvvə və hərbi texnikada ağır itkilərə məruz qalan düşmənin müdafiə cəbhəsində çatlar əmələ gəldi. Onun uzunmüddətli döyüş üçün yaradılmış, dərin eşelonlaşdırılmış hazırlıqlı müdafiəsi hərbi vasitələrlə sındırılaraq cənubda çökdü. Silahlı Qüvvələrimiz aramsız hərbi əməliyyatlarla cəbhəni İran sərhədi ilə axan Araz çayının sahilində yardı”, - deyə hərbi ekspert bildirib.

Polkovnik-leytenant bildirib ki, düşmən Azərbaycan hakimiyyətini qorxutmaq və hakimiyyət-xalq birliyini pozmaq, iqtisadi, siyasi böhran yaratmaq, Ordumuzu dayandırmaq məqsədilə uzaqmənzilli raket-artilleriya vasitələri tətbiq etdi. Respublikanın dərinliyində, nəqliyyat kommunikasiya marşrutlarına, enerji nəqli xətlərinə, elektrik stansiyası, su anbarı və digər strateji məntəqələrə, cəbhə zonasından kənarda iri yaşayış məntəqələrində yaşayan mülki əhaliyə artilleriya zərbələri endirildi, ballistik raketlər buraxıldı. Hava Hücumundan Müdafiə Qoşunları belə zərbələrin təsirini məharətlə minimuma endirdi. Düşmənin Ermənistan və Qarabağın bütün dərinliyində yerləşən buraxılış-start qurğularını aşkarladıqca Hərbi Hava Qüvvələri belə vasitələri idarə edilən dəqiq silahlarla məhv etdi.

Azərbaycan Ordusu cənubda yarılmış keçiddən ehtiyat qüvvələrini döyüşə yeridərək şimala irəlilədi, 2020-ci il oktyabrın 4-də Cəbrayılı, sonra da oktyabrın 9-da Hadrutu azad etdi. Əlverişli hüdudda düşmənin mümkün əks-həmləsini dəf etmək üçün müdafiəyə keçib, möhkəmləndi. Düşmənin Hadrut-Araz sahili istiqamətli əks-zərbəsini dəf edib, rəqibin manevr edə biləcək mobil zirehli ehtiyatlarını darmadağın salıb, məhv etdi.

Baş müəllimin sözlərinə görə, düşmənin Zəngilan-Füzuli istiqaməti ilə cənubdan təminat kommunikasiyaları kəsildi. Düşmən qüvvələri fərarilik edib döyüş mövqelərinə çıxmaqdan imtina etdi. Döyüşə yararlı, saz silah, sursat və texnikanı mövqelərdə və anbarlarda atıb başıpozuq vəziyyətdə təşvişə düşüb qaçdı. Qərbə qaçan düşmən qüvvələrinə təşkilatlanmağa macal verməmək üçün Azərbaycan Ordusunun mobil qüvvələri cənubda, Araz çayının Azərbaycan sahili boyu düşməni təqibə başladı. Azərbaycan Ordusunun yeni yaradılmış ehtiyat qüvvəsi müvəffəqiyyəti Füzuli-Zəngilan istiqamətində inkişaf etdirmək üçün döyüşə yeridildi. Başıpozuq düşməni təqib edən Ordumuzun mobil bölmələri Araz sahili boyu təşviş içində qaçan düşmənin çiyinlərində daha da dərinliyə, Ermənistanla Azərbaycan şərti dövlət sərhədinə irəlilədi. Xudafərin körpüsünü keçdikdən sonra Azərbaycan torpaqlarında üçrəngli bayrağımız qaldırıldı.



“Azərbaycan Ordusu 2020-ci il oktyabrın 20-də Zəngilanı azad etdi. Ölkəmizin İran və Ermənistanla sərhədinə nəzarət Sərhəd Qoşunlarına tapşırıldı. Ordumuz şimala, Qubadlıya, sonra Laçına irəlilədi.

Qubadlı şəhərinin işğaldan azad olunduğunu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı 2020-ci il oktyabrın 25-də özünün tviter hesabından elan etdi. “Dəmir yumruğ”un zərbəsi düşməni nokdauna saldı. Ermənistan Ordusunun, bu ölkənin Qarabağdakı bölmələri, ümumiyyətlə onun silahlı qüvvələri tükəndi və düşmən özünün müdafiə imkanlarından məhrum oldu.

Ermənistan dövlətinin daxili və xarici təşviqat mexanizmi iflasa uğradı, onun silahlı qüvvələrinin şəxsi heyətinin mənəvi-psixoloji durumu pozuldu, mübarizə əzmi qırıldı, düşmən iflic oldu”, - deyə Vüqar Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2023, 25 oktyabr**

## ANAMA Qubadlı və Zəngilan mobil bazalarında işləmək istəyənlər üçün sənədlərin qəbulunu elan edir

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad olunmuş ərazilərdə - Qubadlı və Zəngilan mobil bazalarında aşpaz, qabyuyan, xadimə, avtoçilingər, avtoelektrik, elektrik - texniki təmir işləri üzrə mütəxəssis, gözətçi, fəhlə, bağban vəzifələrində işləmək istəyənlər üçün sənədlərin qəbulunu elan edir.

Maraqlananlar əlaqə telefonu göstərməklə aşağıda göstərilən sənədləri career@anama.gov.az ünvanına göndərməlidir.

· müvafiq vəzifəyə sənədlərin təqdim olunmasına dair ərizə;
· şəxsiyyət vəsiqəsinin surəti;
· təhsilə dair sənədlərin surəti (attestat, diplom, sertifikat, arayış və s.);
· əmək kitabçasının surəti (olduğu halda).

Sənəd qəbulu cari ilin 30 dekabr tarixinədək həyata keçiriləcək.

Seçim zamanı işğaldan azad olunmuş ərazilərdən məcburi köçkün olan şəxslərin namizədliyinə üstünlük veriləcək.

Əlavə məlumat üçün "805" qaynar xəttinə müraciət edilə bilər.

**AZƏRTAC**
**2023, 6 noyabr**

**Qubadlıda xeyli sayda silah-sursat aşkarlanıb**

İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədilə profilaktiki tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən silah-sursatın yığılaraq təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir. Keçirilən növbəti tədbir zamanı rayonun Tarovlu kəndi ərazisindən 1 "Faqot", 1 qumbaraatan, 1 pulemyot, 1 avtomat, 19 qumbara, xeyli sayda patron və digər sursatlar aşkar olunaraq müvafiq qaydada götürülüb.

Faktla bağlı araşdırma aparılır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 20 noyabr**

## Amerikada Qubadlı sevgisi ilə

Bu ilin yayında Azərbaycan əsilli həkim, tibb elmləri doktoru Rauf Şahbazov Nyu-York ştatında yerləşən Olbani Tibb Mərkəzinin transplantologiya cərrahiyyəsi şöbəsinin rəhbəri təyin olunub. Bununla bağlı okeanın o tayında yaşayan Rauf Şahbazovla telefon vasitəsilə əlaqə saxlamaq qərarına gəldik. Qeyd edək ki, həmin vəzifəyə təyin olunana qədər Rauf Şahbazov Nyu-York ştatının Sirakuz şəhərindəki Apsteyt Tibb Universitetində fəaliyyət göstərib. Həmyerlimiz orada canlı donorlardan böyrək, mədəaltı vəzin transplantasiyası və robotik cərrahiyyə proqramlarının direktoru vəzifələrində çalışıb.

Rauf Şahbazov Bakıda 5 nömrəli kliniki şəhər xəstəxanasında, Səudiyyə Ərəbistanının əl-Taif şəhərindəki Kral Feysəl xəstəxanasında cərrah işləyib. Türkiyədə və ABŞ-ın Virciniya Universitetində cərrah-transplantoloq kimi çalışıb, Avropa və Amerikanın müxtəlif klinikalarında uzunmüddətli təlimlər keçib. 2012-ci ildən ABŞ-da çalışır. O, Amerika Cərrahlar Kolleci, Amerika Cərrah-Transplantoloqlar Cəmiyyəti və Amerika Tibb Assosiasiyası da daxil olmaqla çoxsaylı peşəkar cəmiyyətlərin üzvüdür. 2016-ci ildə Azərbaycan-Amerika Tibb Assosiasiyasını yaradaraq, ictimai fəaliyyətə başlayıb. O, elmi jurnallarda dərc olunan onlarla məqalənin müəllifi və ya həmmüəllifidir. “Transplant cərrahiyyə” kitabında canlı donorun qaraciyər transplantasiyasına dair fəsli də Rauf Şahbazov yazıb. Həmyerlimiz doğma dilimizdən başqa, ingilis, rus, türk və ərəb dillərində sərbəst danışır. Dünya Azərbaycanlıların Şuşada keçirilən V (Zəfər) Qurultayının iştirakçısı olub.

AZƏRTAC-ın müxbiri ilə söhbət zamanı transplantoloq-cərrah deyib: “Nyu-York ştatının paytaxtı olan Olbanidə yerləşən “Olbani Tibb Mərkəzi 1849-cu ildə yaradılıb və yarandığı dövrdən həm klinik fəaliyyət, elmi-tədqiqat işləri, həm də həkim, rezident və tibbin ayrı-ayrı sahələri üzrə kadr hazırlığı ilə məşğuldur. Amerikada kifayət qədər tarixi və müstəsna xidmətləri olan bir mərkəzdir. Mərkəzin transplantologiya şöbəsi 1969-cu ildə yaradılıb. Burada ilk vaxtlar böyrək transplantasiyası aparılıb, indiyədək mərkəzdə 3 minə yaxın orqan transplantasiyası həyata keçirilib və hazırda orqan transplantasiyası sahəsində mühüm mərkəzlərdən birinə çevrilib. Tibb ocağının əsas korpusunda 800-dən artıq çarpayı fondu var və ətraf şəhərlərdə olan filiallarda də müəyyən sayda əlavə çarpayı fonduna malikdir. Transplantasiya şöbəsində isə 30 çarpayı var və şöbədə əməliyyat olunan, transplantasiyaya hazırlanan və digər cərrahi xəstələr müalicə olunur. Əvvəllər bu şöbəyə Amerikanın ən məşhur cərrahları rəhbərlik ediblər.

Mən bu ilin avqustun 2-dən transplantasiya cərrahiyyə şöbəsinə, eyni zamanda, cərrahiyyə şöbəsindəki Neyl Lempert kafedrasına da rəhbərlik etməyə başlamışam. Şöbəmizdə həm ölülərdən, həm də canlı orqanizmlərdən orqan götürülərək köçürülməsi həyata keçirilir. Şəkərli diabetdən əziyyət çəkən, xüsusilə insulin müalicəsi tətbiqinin səmərə vermədiyi xəstələrə isə mədəaltı vəz köçürülməsi aparılır. Əgər böyrək çatışmazlığı şəkərli diabetlə əlaqədar yaranıbsa, həmin hallarda böyrək və mədəaltı vəzinin eyni zamanda transplantasiyası həyata keçirilir. Böyrək transplantasiyası ilə müqayisədə mədəaltı vəzin köçürülməsi texniki cəhətdən daha çox diqqət tələb edir və əməliyyatdan sonra ağırlaşmalar da çox olur. Qeyd edim ki, şəkərli diabetli xəstələrə insulin istehsal edən pankreasın adacıq hüceyrə köçürülməsi metodu da var. Böyrək köçürülməsi əməliyyatı təxminən 3-4, mədəaltı vəzin köçürülməsi əməliyyatı 6-7 saat davam edir. Təbii ki, bu, əməliyyat olunan xəstənin vəziyyətdən asılı olaraq daha çox və daha az çəkə bilər. Hər iki əməliyyatdan sonra xəstələr orqanizmin stabilləşməsi üçün müəyyən dərman preparatları qəbul etməlidirlər”.

Cərrah daha sonra deyib: “Şöbəmizdə, həmçinin robot vasitəsilə qaraciyər, öd yolları mədəaltı vəz üzərində müxtəlif cərrahiyyə əməliyyatları da aparılır. Bu tip əməliyyatlar qaraciyərin müxtəlif şiş xəstəlikləri, öd kisəsi və öd yollarının tutulması, zədələnməsi və digər patologiyalar zamanı tətbiq olunur. Transplantasiya şöbəsində bu sahə üzrə kafedra məşhur Amerika cərrahı Neyl Lempert tərəfindən yaradılıb və onun adı ilə də adlandırılıb. Hazırda mən həmin kafedraya rəhbərlik edirəm. Şöbəmizdə müalicə ilə yanaşı elmi-tədqiqat işləri də aparılır. Gələcək transplantoloqların yetişdirilməsi də kafedranın hədəflərindən biridir.

Qeyd edək ki, Olbani Tibb Mərkəzində daha bir soydaşımız Anar Qocayev də fəaliyyət göstərir. Olbani də başqa sahələrdə çalışan azərbaycanlılar da var, vaxtaşırı bir-birimizdən da xəbər tutmağa çalışırıq".

O, işinin çox olmasına baxmayaraq Azərbaycan-Amerika Tibb Assosiasiyasında da ictimai fəaliyyətini davam etdirir. Transplantoloq cərrah assosiasiyanın fəaliyyəti barədə danışarkən deyib: "Assosiasiya Amerikada soydaşlarımızın sağlamlıq məsələlərinə, tələbələrin təhsili və müxtəlif sahələrdə ixtisaslaşmasına dəstək verir. Okeanın bu tayında fəaliyyət göstərən soydaşlarımızın sayının getdikcə artması çox xoş haldır".

Rauf Qubadlı rayonun Tarovlu kəndində dünyaya göz açıb. O, işğaldan azad ediləndən sonra anası və qardaşı ilə doğma rayonu ziyarət etmək şərəfinə nail olub. Ermənilərin vandallığının daha bir nişanəsi olan doğma ata-baba ocağını dağılmış vəziyyətdə görmək onlara çox ağır təsir edib. Azərbaycana növbəti səfərində o, yenə də Qubadlını ziyarət etmək arzusundadır. Doğma yerləri görmək, Vətənə qovuşmaq arzusu Raufa güc-qüvvə verir və onu yeni elmi axtarışlara həvəsləndirir. Şübhəsiz ki, budəfəki səfərində ona tikilib-qurulan, ev-ev, ünvan-ünvan inşa edilən Qubadlını görmək nəsib olacaq...

**AZƏRTAC**
**24 noyabr, 2023**

**AAYDA sədri Sumqayıt şəhəri və Qubadlı rayonundan olan vətəndaşlarla görüşüb**

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Sumqayıt şəhərində vətəndaşlarla görüşüb.

AZƏRTAC Avtomobil Yolları Dövlət Agentliyinə istinadla xəbər verir ki, qəbuldan əvvəl AAYDA İdarə Heyətinin sədri S. Məmmədov və Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Daha sonra Sumqayıt şəhəri Heydər Əliyev Mərkəzinin inzibati binasında keçirilən qəbulda Sumqayıt şəhəri və Qubadlı rayonundan olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək agentliyin balansında olan avtomobil yolları ilə bağlı şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Agentliyin balansında olmayan şəhər, qəsəbə və kənd daxili küçə və yollara aid şikayətlərlə bağlı isə vətəndaşlara aidiyyəti üzrə yerli strukturlara müraciət etmələri tövsiyə olunub.

**AZƏRTAC**
**24 noyabr, 2023**

**Qubadlıda pulemyot, qumbaraatan və patronlar aşkarlanıb**

Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən silah-sursatın yığılaraq təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, keçirilən növbəti tədbir zamanı rayonun Aşağı Xocamusaqlı kəndi ərazisində 2 qumbaraatan, 1 pulemyot və xeyli sayda müxtəlif çaplı patronlar aşkar olunaraq müvafiq qaydada götürülüb.

Faktla bağlı araşdırma aparılır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 noyabr, 2023**

**Qubadlı sakinləri ağacəkmə aksiyası və iməcilik keçiriblər**

Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunan ağacəkmə aksiyası və iməcilik keçirilib. Aksiya “Stansiya Sumqayıt” yaşayış massivində yeni salınmış parkı, eyni zamanda rayonun idarə, müəssisə və təşkilatlarının həyətyanı ərazilərini əhatə edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Qubadlı Rayon İcra Hakimiyyətinin, YAP Qubadlı rayon təşkilatının əməkdaşları, ictimaiyyət nümayəndələri, şagirdlər iştirak ediblər. Aksiya çərçivəsində ağac əkilən ərazidə təmizlik işləri aparılıb, qurumuş ağaclar yenisi ilə əvəz olunub, həmçinin müxtəlif növ ağaclar əkilərək suvarılıb.

Ümumilikdə, 300-dən çox ağac əkilib.

**Ətrabə Rzayeva**

**AZƏRTAC**
**11 dekabr,2023**

**Gələn il Cəbrayıl və Qubadlı rayonlarında modul tipli xəstəxanalar quraşdırılacaq – VİDEO**

“İşğaldan azad olunmuş ərazilərdə səhiyyə sisteminin inkişafı, həmin ərazilərdə yaşayan və işləyən sakinlər üçün tibbi xidmətlərin təşkili məqsədilə müvəqqəti olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən modul tipli xəstəxanaların quraşdırılması həyata keçirilir”.

AZƏRTAC xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev agentliyin illik fəaliyyəti və strateji hədəfləri mövzusunda mətbuat konfransında deyib.

“2021-ci ildən başlayaraq Şuşa, Zəngilan, Laçın, Ağdam və Hadrutda modul tipli xəstəxanalar quraşdırılıb. Gələn il Cəbrayıl və Qubadlı rayonlarında modul tipli xəstəxanaların quraşdırılması nəzərdə tutulub”,- deyə Z.Əliyev bildirib.

**AZƏRTAC**
**14 dekabr, 2023**

**https://video.azertag.az/site/video/194797**

**Qubadlının Xanlıq kəndi belə olacaq – VİDEO**

Erməni işğalından azad edilən Qubadlı rayonunun Xanlıq kəndinin gələcək görünüşü ilə bağlı videoçarx hazırlanıb.

AZƏRTAC foto və videonu təqdim edir.

**AZƏRTAC**
**18 dekabr, 2023**

**https://video.azertag.az/site/video/195073**

**Şəhid polkovnik-leytenant Vidadi Xəlilovun xatirəsinə həsr olunmuş "Qubadlı fatehi" adlı videomaterial istifadəçilərə təqdim edilib**

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Vətən müharibəsi iştirakçısı, qəhrəman şəhid polkovnik-leytenant Vidadi Xəlilovun həyat və döyüş yolundan bəhs edən "Qubadlı fatehi" adlı videomaterial hazırlanıb.

AZƏRTAC xəbər verir ki, kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda şəhid Vidadi Xəlilovun həyatı, hərbi fəaliyyəti, döyüş yolu, layiq görüldüyü fəxri ad və təltiflər haqqında məlumat verilir.

Videomaterialda Ulu Öndər Heydər Əliyevin, Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda vuruşan və şəhidlik zirvəsinə ucalan qəhrəman Azərbaycan oğulları haqqında söylədikləri dəyərli fikirlər, Xalq şairi Bəxtiyar Vahabzadənin şəhidlərə həsr etdiyi şeirdən misralar təqdim edilir.

Materialda Vidadi Xəlilovun ailə üzvlərinin onun haqqında səsləndirdikləri xatirələr, şəhidin döyüş zamanı çəkilən fotoları və videogörüntüləri də yer alır.

Şəhid polkovnik-leytenant Vidadi Xəlilovun həyat və döyüş yolundan bəhs edən "Qubadlı fatehi" adlı videomaterial kitabxananın rəsmi saytında yerləşdirilib.

**AZƏRTAC**
**29 dekabr, 2023**

**125 saylı Zəngilan-Qubadlı DSK-sı üzrə azad olunan ərazidə 4 seçki məntəqəsi fəaliyyət göstərəcək**

Fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkisi Zəngilan və Qubadlı rayonlarında 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsi üzrə 4 məntəqədə keçiriləcək. Həmin məntəqələrdən 3-ü Zəngilan, 1-i isə Qubadlı rayonu ərazisində yerləşir.

Dairə Seçki Komissiyasının sədri Əli Mönsümov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, dairə üzrə Zəngilan və Qubadlı rayonlarında yerləşən seçki məntəqələrində səsvermə prosesinə hazırlıq işləri gedir. Məntəqələrdən biri Zəngilanın Ağalı kənd tam orta məktəbində yerləşən 33 saylı seçki məntəqəsidir. Bu günə qədər həmin məntəqə üzrə 994 seçici qeydə alınıb ki, onlardan da səsvermə hüququ olan 603 nəfər Ağalıda məskunlaşan sakinlərdir. Kənd üzrə ilk dəfə səsvermədə iştirak edənlərin sayı isə 31 nəfərdir. Ən yaşlı seçici isə 1933-cü il təvəllüdlüdür.

Əli Mönsümovun sözlərinə görə, 33 saylı seçki məntəqəsinə yaxın ərazilərdə çalışan işçilər də bu məntəqədə səsvermədə iştirak edə biləcəklər. Zəngilan rayonu ərazisində çalışan işçilərin səsvermədə iştirakı üçün fəaliyyət göstərəcək digər seçki məntəqəsi Alıbəyli kəndi ərazisində yerləşən 61 saylı məntəqədir. Bu günədək məntəqə üzrə 570 nəfər seçici qeydə alınıb. Üçüncü seçki məntəqəsi isə Ağbənd qəsəbəsindəki 62 saylı seçki məntəqəsidir və burada 561 seçicinin qeydiyyatı aparılıb.

125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsinin Qubadlı rayonu üzrə fəaliyyət göstərəcək seçki məntəqəsi isə Xanlıq kəndi ərazisində yerləşən 63 saylı seçki məntəqəsidir və bu günədək məntəqə üzrə 1466 seçici qeydiyyata alınıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**9 yanvar, 2024**

**Qubadlıda növbəti Radio-Televiziya Yayım Stansiyasının işi bərpa edilib**

Qubadlı rayonu ərazisində yerləşən Balasoltanlı Radio-Televiziya Yayım Stansiyası torpaqlar işğal altında olan müddətdə istismara yararsız vəziyyətə düşüb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, işğaldan azad olunan ərazilərdə radio-televiziya yayım şəbəkəsinin bərpası istiqamətində aparılan işlər çərçivəsində sözügedən stansiyaya elektrik veriliş xətti çəkilib, texniki bina təmir edilib və stansiya texniki vasitələrlə təchiz olunaraq yayım üçün hazır vəziyyətə gətirilib.

Belə ki, hər biri 1 kVt gücündə iki ədəd FM radioverici, 1 ədəd 300 Vt gücündə televiziya vericisi, FM radio yayımlar üçün 1x2 konfiqurasiyalı və televiziya yayımları üçün 3x1 konfiqurasiyalı anten sistemləri, eləcə də digər zəruri texniki vasitələr quraşdırılaraq istismara verilib.

Nəticədə 89.5 MHs tezlikdə Azərbaycan Radiosunun, 96.9 MHs tezlikdə İctimai Radionun və 43-cü televiziya kanalında (650 MHs) 8 televiziya proqramının (AzTV, İctimai TV, İdman Azərbaycan TV, Mədəniyyət TV, CBC Sport, ATV, Xəzər TV, Space TV) Qubadlı, Laçın və Zəngilan rayonlarının digər stansiyaların siqnalları ilə əhatə olunmayan ərazilərində yayımı təmin olunub.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək 7 Radio-Televiziya Yayım Stansiyasının, o cümlədən Qubadlı rayonu ərazisində 2021-ci ilin oktyabrın 25-də Xanlıq Radio-Televiziya Yayım Stansiyasının işi bərpa edilib.

Qeyd edək ki, bərpa tədbirləri "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına uyğun olaraq həyata keçirilir.

**AZƏRTAC**
**11 yanvar, 2024**

**Qubadlı rayonunda silah-sursat aşkarlanıb**

Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən silah-sursatın yığılaraq təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, keçirilən növbəti tədbir zamanı rayonun Mahmudlu kəndi ərazisində 1 pulemyot, 1 avtomat, müxtəlif çaplı patronlar və digər sursatlar aşkar olunaraq müvafiq qaydada götürülüb.

Faktla bağlı araşdırma aparılır.

**AZƏRTAC**
**13 yanvar, 2024**

**Xudafərin-Qubadlı- Laçın yolu 2024-cü ilin sonuna kimi tamamlanacaq**

Xudafərin-Qubadlı-Laçın yolunun artıq yarısı tamamlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə yanvarın 26-da Qarabağ və Şərqi Zəngəzur bölgəsində üç mühüm avtomobil yolunun: Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd, Xudafərin-Qubadlı-Laçın, həmçinin Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yollarının tikinti layihələri üzrə tərtib olunmuş ətraf mühitə təsirin qiymətləndirilməsi sənədlərinin (ƏMTQ) müzakirəsi ilə bağlı ictimai dinləmədə məlumat verilib.

Qeyd olunub ki, yolun tikintisinə 2021-ci ildə başlanılıb və 2024-cü ilin sonuna kimi tamamlanacaq.

İctimai dinləmədə sifarişçilər, layihə icraçıları, dövlət qurumları, ekoloqlar, QHT və KİV nümayəndələri, həmçinin digər maraqlı tərəflər iştirak edirlər.

**AZƏRTAC**
**26 yanvar 2024**

**Xudafərin-Qubadlı-Laçın yoluna düşən bir neçə məzarlıqlar və ziyarətgah köçürülüb**

Xudafərin-Qubadlı-Laçın yolu layihələndirilən zaman bir sıra məzarlıqlar və ziyarətgahın köçürülməsi prosesi baş tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə yanvarın 26-da Qarabağ və Şərqi Zəngəzur bölgəsində üç mühüm avtomobil yolunun: Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd, Xudafərin-Qubadlı-Laçın, həmçinin Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yollarının tikinti layihələri üzrə tərtib olunmuş ətraf mühitə təsirin qiymətləndirilməsi sənədlərinin (ƏMTQ) müzakirəsi ilə bağlı ictimai dinləmədə məlumat verilib.

Bildirilib ki, yolun layihələndirilməsi zamanı bir çox məzarlıq tikintinin altına düşdüyündən köçürülmə prosesi olub. Müvafiq qurumların nümayəndələri ilə birlikdə müəyyən sənədləşmə işləri aparılıb, beləliklə, 61 məzar, XVII əsrə aid olan ziyarətgah köçürülüb.

Qeyd olunub ki, məzarlıqların və ümumiyyətlə, tarixi yerlərin köçürülməsi zamanı ətraf mühitin qiymətləndirilməsi prosesi çox vacibdir. Bu, inkişaf layihələrinin cəmiyyət üçün daha sürətli və ən effektiv şəkildə nəticələnməsini təmin etməyə yardımçı olur.

**AZƏRTAC**
**26 yanvar 2024**

## Cəbrayıl, Qubadlı və Zəngilanda hərraca çıxarılacaq yataqlar açıqlanıb

Cəbrayıl rayonunun Tulus mişar daşı yatağının 48.3 hektar ərazisi, Tinli və Göyçərçin Veysəlli sement xammalı yataqlarının isə müvafiq olaraq 20.3 və 20 hektar ərazisi hərraca hazırlanır.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədr müavini Azər Şükürov Ekoloji məsələlər üzrə işçi qrupunun bu gün Zəngilanda keçirilən iclasında deyib.

A.Şükürov, həmçinin Zəngilan rayonu üzrə Bartaz-2 tikinti daşı yatağının 15 hektar ərazisinin, Qubadlı rayonu üzrə isə Hacılı mişar daşı yatağının 20 hektar ərazisinin hərraca hazırlandığını da diqqətə çatdırıb.

**Göyçək Mahmudlu**
**Nicat Əlili**
**Vüsal Tağıyev**

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Kəlbəcər, Laçın və Qubadlıda kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var**

Kəlbəcər, Laçın və Qubadlı rayonlarında kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var. Düşünürük ki, yaxın gələcəkdə bu işləri həyata keçirmək üçün imkanlar yaranacaq.

Bunu AZƏRTAC-a açıqlamasında Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsin İdarə Heyətinin sədri Elmar Allahverdiyev deyib.

Onun sözlərinə görə, Arazboyu ərazilərdə bostançılıq, xüsusilə qarpız, yemiş əkinləri həyata keçirmək olar. Digər soyuq dağətəyi və dağlıq ərazilərdə isə tərəvəz bitkiləri - kələm, çuğundur və bu qəbilədən olan bitkilər əkmək məsləhətdir.

**AZƏRTAC**
**29 yanvar 2024**

**120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi üzrə seçkiləri 1062 müşahidəçi izləyir**

Növbədənkənar prezident seçkiləri işğaldan azad olunan Cəbrayılda seçicilərin aktivliyi müşahidə olunur.

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi dairə seçki komissiyasının sədri Musa Quliyevin AZƏRTAC-ın bölgə müxbirinə verdiyi məlumata görə, dairədəki 83 seçki məntəqəsi üzrə ümumilikdə, 56431 seçici qeydə alınıb. İşğaldan azad olunan Cəbrayıl ərazisində fəliyyət göstərən 80 saylı seçki məntəqəsində 1184 nəfər, Cəbrayıl rayonunun Soltanlı kəndi ərazisindəki Araz Vadisi İqtisadi Zonasındakı 81 saylı seçki məntəqəsində isə 419 nəfər seçici səs verəcək. Qeydə alınan seçicilər işğaldan azad olunan ərazilərdə çalışanlardır.

Dairə üzrə 11 məntəqə Biləsuvar rayon ərazisindəki məcburi köçkün şəhərciyində, bir seçki məntəqəsi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində, qalan seçki məntəqələri isə respublikanın 54 rayon və şəhər ərazisində yerləşir. Dairə üzrə 1062 müşahidəçi qeydiyyatdan keçib.

Qeyd edək ki, budəfəki seçkilər ilk dəfə Azərbaycanın beynəlxalq səviyyədə tanınan bütün ərazilərində keçirilir.

Ölkə üzrə səsvermə hüququ olan 6 milyon 478 min 623 seçici qeydə alınıb. Seçicilər 6537 məntəqədə səs verəcəklər. İşğaldan azad edilmiş ərazilərdə 26 məntəqə fəaliyyət göstərir. Həmçinin 37 ölkədə 23 minə yaxın seçici 49 məntəqədə səs verə biləcək.

Seçkiləri izləmək üçün 90 mindən artıq müşahidəçi qeydə alınıb. Bunun 790 nəfəri beynəlxalq müşahidəçidir. Müşahidəçilərin 50 mindən çoxu isə 19 siyasi partiyanın nümayəndəsidir. Bundan əlavə, Azərbaycanda fəaliyyət göstərən 83 qeyri-hökumət təşkilatı da müşahidələr aparır. Həmçinin seçkiləri 109 beynəlxalq media qurumunun 216 nümayəndəsi izləyir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 fevral 2024**

**Qubadlıda silah-sursat aşkarlanıb**

Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən silah-sursatın yığılaraq təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, keçirilən növbəti tədbir zamanı rayonun Qayalı kəndi ərazisində 1 qumbaraatan, 44 əl qumbarası, müxtəlif çaplı patronlar və digər sursatlar aşkar olunaraq müvafiq qaydada təhvil verilib.

Faktla bağlı araşdırma aparılır.

**AZƏRTAC**
**13 fevral 2024**

**Köçü planlaşdırılan sakinlərə məşğulluq tədbirləri ilə bağlı məlumat verilib**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına köçə hazırlıq və məşğulluq üzrə işçi qrupunun Biləsuvar rayonunda görüşü keçirilib.

Görüş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Cəbrayıl Rayon İcra Hakimiyyəti tərəfindən birgə təşkil edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, köçü planlaşdırılan bir qrup keçmiş məcburi köçkünün iştirak etdiyi görüşdə Böyük Qayıdış proqramına uyğun olaraq işğaldan azad olunmuş ərazilərə köçürülən şəxslərin məşğulluğunun təmin edilməsi sahəsində görülən və planlaşdırılan işlərə dair müzakirələr aparılıb. Eyni zamanda, Dövlət Məşğulluq Agentliyinin funksional istiqamətləri və layihələri barədə təqdimat edilib.

İşğaldan azad olunmuş ərazilərin sakinlərinin aktiv məşğulluq proqramları ilə əhatə olunması istiqamətində aparılan işlər barədə məlumat verilib. Daha sonra görüş iştirakçılarının sualları cavablandırılıb.

**AZƏRTAC**
**2024, 29 fevral**

**İşğaldan azad olunan ərazilərdə işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması üzrə görüləcək birgə işlər müzakirə olunub**

Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Şərqi Zəngəzur Regional Məşğulluq filialı tərəfindən "İşəgötürənlərin kadr ehtiyaclarının qarşılanması istiqamətləri" mövzusunda dəyirmi masa təşkil edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə fəaliyyət göstərən işəgötürənlər və digər qurumların nümayəndələri iştirak edib.

İlk olaraq iştirakçılara agentliyin fəaliyyəti ilə bağlı məlumat verilib. İşğaldan azad olunan ərazilərimizdə fəaliyyət göstərən işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması istiqamətləri, peşə hazırlığının təşkilinin əhəmiyyəti və işğaldan azad olunmuş ərazilərdə hazırda icra olunan digər məşğulluq tədbirləri diqqətə çatdırılıb və həmin mövzularda müzakirələr aparılıb.

Həmin ərazilərə köçürülən vətəndaşların dayanıqlı məşğulluğunun təmin olunmasında işəgötürənlərin rolundan bəhs olunub. İşğaldan azad olunan ərazilərdə işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması üzrə görüləcək birgə işlər müzakirə edilib.

**AZƏRTAC**
**2024, 2 mart**

**Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu**

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Diplomatiya Akademiyası İnkişaf və Diplomatiya İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu tərəfindən “Əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi məqsədilə məcburi köçkünlər arasında sosioloji sorğunun keçirilməsi və ilkin proqnozların hazırlanması” layihəsi həyata keçirilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mətbuat xidməti departamentindən AZƏRTAC-a bildiriblər ki, layihənin Dövlət Komitəsində təşkil olunmuş təqdimatında onun məqsəd və məramı barədə ətraflı məlumat verilib. Layihənin koordinatoru Rəsmiyyə Abdullayeva diqqətə çatdırıb ki, sorğu zamanı məcburi köçkünlərin qayıdışla bağlı arzu və təklifləri öyrənilib, onların doğma yurda dönüş barədə qərarlarına təsir edən amillər müəyyənləşdirilib, ilkin proqnozlar hazırlanıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma, iqtisadi dirçəliş üçün bütün zəruri şəraitin yaradılmasını nəzərdə tutur. Hazırda Dövlət Proqramının Tədbirlər Planı üzrə intensiv iş aparılır, qayıdış prosesi uğurla davam etdirilir.

Layihə çərçivəsində “fokus-qrup” sorğular tədqiqatın əsas metodu kimi seçilib. Sorğulara Şuşa, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Füzulidən olan 170 respondent cəlb olunub.

Sorğu zamanı keçmiş məcburi köçkünlərin 95 faizinin öz doğma yurd-yuvasına qayıtmaq niyyətində olduğu bir daha təsdiqlənib.

Dövlət Komitəsinin məsul əməkdaşlarının iştirakı ilə keçirilən təqdimatda tədqiqatın nəticələri geniş müzakirə edilib, rəy və təkliflər bildirilib. Tədqiqata dair yekun hesabatda bunların nəzərə alınacağı bildirilib.

**AZƏRTAC**
**2024, 13 mart**

**Qubadlı rayonunda sursat aşkar edilib**

Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları Mahmudlu kəndi ərazisindən xeyli sayda sursat aşkar ediblər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, aşkar edilən 1 mina, 73 minaatan mərmisi və 1000-ə yaxın patron aidiyyəti üzrə təhvil verilib.

Faktla bağlı araşdırma aparılır.

**AZƏRTAC**
**2024, 27 mart**

**Qubadlıda sursat aşkarlanıb**

Qubadlı rayonunda sursat aşkar edilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Qubadlı rayonunun Məmər kəndi ərazisindən xeyli sayda sursat aşkarlanıb. Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları tapdıqları 7 əl qumbarasını, 4 mərmini, 5 minə yaxın patron və digər sursatları aidiyyəti üzrə təhvil veriblər.

Araşdırma aparılır.

**AZƏRTAC**
**2024, 2 aprel**

**İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün aktiv məşğulluq proqramlarını davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin proqramların bir istiqaməti olaraq, Agentlik:

- Laçın şəhəri və Laçının Zabux, Sus, Bəylik, Güləbird kəndləri,
- Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi,
- Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi,
- Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri,
- Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri,
- Kəlbəcər şəhəri,
- Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi,
- Xankəndinin Kərkicahan qəsəbəsi,
- Qubadlının Mahruzlu, Zilanlı kəndləri,
- Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri,
- Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri,
- Xocavəndin Xocavənd kəndi üzrə peşə hazırlığı kursları təşkil edir.

Peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrinə aid peşələr üzrə təşkil olunan kurslarda iştirak etməklə əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmək və həmin peşələr üzrə işlə təmin olunmaq imkanına yiyələnmək mümkündür.

Peşə hazırlığı kurslarına, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək və ya “sosial.gov.az” saytındakı “Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı” bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək olar.

Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Peşə hazırlığı kursları işğaldan azad edilmiş digər ərazilərin sakinləri üçün də təşkil olunacaq.

**AZƏRTAC**
**4 aprel, 2024**

## Azad olunmuş rayonlarda quduzluğa qarşı peyvəndləmə tədbirləri görülüb

Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş Qubadlı, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazisində quduzluğa qarşı vəhşi ətyeyən heyvanlar və sahibsiz itlərdə oral immunizasiya tədbirləri həyata keçirib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, əməkdaşlar birdəfəlik geyim, fərdi mühafizə dəstləri və avadanlıqlarla təmin olunublar. Oral immunizasiyanın aparılmasında əsas məqsəd xəstəliyin yayılmasının qarşısının alınması, epizootoloji sabitliyin qorunması məqsədilə xəstəliyin təbii rezervuarında yayılma zənciri qırılmasıdır. Proses çərçivəsində meşəlik və dağlıq ərazilərə tərkibində quduzluq xəstəliyinə qarşı peyvənd vasitəsi olan aldadıcı yemlər atılıb. Aldadıcı yem ətyeyən heyvanlar üçün cəlbedici iyə malik olan xüsusi tərkibə malik briketlərdir. Heyvanlar onu yedikdə onlarda quduzluq xəstəliyinə qarşı immunitet yaranır.

Oral immunizasiyanın ölkə ərazisində yaz və qış mövsümləri olmaqla ildə iki dəfə keçirilməsi nəzərdə tutulur. Növbəti tədbir Ağdam, Xocalı, Xocavənd, Ağdərə, Zəngilan rayonları ərazisində həyata keçiriləcək.

Hazırda ölkədə epizootoloji sabitliyin qorunması istiqamətində "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planı"na uyğun olaraq profilaktiki tədbirlər davam etdirilir.

Qeyd edək ki, peyvənd ev heyvanları, kənd təsərrüfatı və vəhşi heyvanlar üçün zərərsizdir. Bir neçə ədəd aldadıcı yemin yeyilməsi ağırlaşmalara səbəb olmur. Peyvəndin müalicəvi xüsusiyyəti yoxdur və yalnız immunitet yaradır. Briketlər vəhşi heyvanların yaşayış areallarına yaxın hərəkət çığırlarına, sahibsiz itlər üçün isə onların populyasiyalarına uyğun yerlərə atılır.

Xatırladaq ki, quduzluq xəstəliyinə bütün növ ev və kənd təsərrüfatı heyvanları, vəhşi heyvanlar, eləcə də insanlar həssasdır. İnsanlar əsasən xəstə heyvanlarla təmas nəticəsində (dişləmə, tüpürcək, nadir hallarda göz və burunun selikli qişası) yoluxurlar. Xəstəliyin simptomları göründükdən sonra həm heyvanlar, həm də insanlar üçün ölümcül olur. Virusun təbiətdə daima vəhşi heyvanlar arasında mövcudluğu, xəstəliyin əlamətsiz keçməsi onların rezervuar kimi təhlükəliliyinin əsas əlamətlərini təzahür edir. Bu xəstəlik Ümumi Dünya Heyvan Sağlamlığı Təşkilatının zoonoz xəstəliklər siyahısında ilk onluqda yerləşir.

**AZƏRTAC**
**6 aprel, 2024**

**ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 8-dən 14-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 5 mina və 725 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 476.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**AZƏRTAC**
**15 aprel, 2024**

**https://video.azertag.az/site/video/205023**